**GÖVHƏR BAXŞƏLİYEVA**

# UNUDULMAZ LİDER

**Bakı –Elm – 2023**

*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Elmi Şurasının qərarı ilə çap olunur*

*Elmi redaktor:* **İsa Həbibbəyli**
*Akademik*

**Gövhər Baxşəliyeva.** Unudulmaz lider. Bakı, Elm, 2023, – 368 s.

ISBN 978-9952-556-91-9

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunmuş kitabda müəllifin müxtəlif vaxtlarda Ümummili Liderin zəngin həyat yolunu, çoxşaxəli titanik fəaliyyətini, dövlətimizin inkişafı naminə həyata keçirdiyi fövqəladə missiyanı təhlil edən məqalələri, müsahibələri, çıxışları, eləcə də son 20 ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndər yolunun uğurlu davamı kimi ölkəmizdə həyata keçirilən hərtərəfli fəaliyyəti əks etdirən yazıları yer almışdır.

Nəşrə həmçinin Ümummilli Liderlə bağlı müəllifin xatirələri, onun sovet Azərbaycanına rəhbərliyi dövründə nail olduğu böyük inkişaf və tərəqqi haqqında atası, 1970-1987-ci illərdə respublikanın maliyyə naziri vəzifəsində çalışan Baxşəli Baxşəliyevdən dinlədiyi söhbətləri, Ulu Öndərin şəxsiyyətinin böyüklüyü, xalqımızın tale və tarixində buraxdığı möhtəşəm təsirlə bağlı düşüncələri də daxildir.

655 (07) – 2023

© Gövhər Baxşəliyeva, 2023

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə

çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli

sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*

## Müəllifdən

Hər yaşadığımız yeni il milli tariximizin, ictimai həyatımızın, mədəniyyətimizin formalaşmasında və inkişafında müstəsna əhəmiyyətə malik fövqəladə hadisə, yaxud şəxsiyyətə həsr olunur. Bu, artıq ənənə xarakteri alıb: "Nəsimi İli", "Nizami Gəncəvi İli", "Azərbaycan Xalq Cümhuriyyəti İli", "Şuşa İli", "İslam həmrəyliyi İli", "Multikulturalizm İli" və s. Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib. Bu əlamətdar hadisə münasibətilə Ulu Öndərin zəngin həyat yolunu, çoxşaxəli titanik fəaliyyətini, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işləri, bütövlükdə xalqımızın və dövlətimizin inkişafı naminə həyata keçirdiyi fövqəladə missiyanı bir daha təhlil etmək zərurəti yaranır. Qəti əminəm ki, Heydər Əliyev kimi nəhəng şəxsiyyətin fəaliyyətini müəyyən zaman kəsiyində qiymətləndirmək doğru deyil. İctimai elm çoxdan mütləq həqiqəti ortaya qoymuşdur. Böyük dövlət xadimlərinin fəaliyyəti yalnız müqayisəli-tarixi aspektdə qiymətləndirilməli, onların ölkəsinin və xalqının taleyində oynadığı rolu yalnız zaman özü dəyərləndirməlidir. Məşhur bir deyimə görə, dağın əzəmətini duymaq və müşahidə etmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir.

Ölkəmizdə son 50 ildə baş verən proseslərə və həmin proseslərin mərkəzində dayanan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin fövqəladə missiyasına nəzər saldıqda, o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik. Bəşəriyyətin tarixi belə bir mühüm həqiqəti ortaya qoymuşdur: müdrik dövlət xadimi o kəsdir ki, cəmiyyətdəki stabilliyi qorumaqla, onun xaos və hərc-mərclik girdabına yuvarlanmasına imkan vermədən müxtəlif islahatlar aparmağı bacarır. Görkəmli dövlət xadimi Heydər Əliyev bu illər ərzində məhz belə bir müdriklik nümayiş etdirib.

Biz tariximizin bütün anlarını yadda saxlamalıyıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə ta-

rixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Faciəvi olub ona görə ki, zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğrayıb, ata-babalarımızın müstəqillik arzuları yadelli işğalçılar tərəfindən qan içində boğulub. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də ciddi təsiri olub. Daxili çəkişmələr və münaqişələr, şəxsi maraqların milli mənafelərdən üstün tutulması, ən başlıcası xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran Ümummilli Liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda (XVIII əsrdə) Azərbaycanın xanlıqlara parçalanması faktı da təsdiq edir, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan milli qüvvələrin daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətinə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi Ümummilli Lider, böyük siyasi iradəyə və təcrübəyə malik şəxsiyyət – Heydər Əliyev şəxsiyyəti var idi. Xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Bakıya gəlib Ali Sovetin sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər

Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində Ulu Öndərimizin daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir. Biz o günlərin canlı şahidləri olsaq da, həmin dövrdə baş vermiş prosesləri yenidən mənalandırmaq, onların mahiyyətinə daha dərindən varmaq ehtiyacı duyuruq. Görkəmli dövlət xadimi Heydər Əliyevin olduqca zəngin həyat yolunu nəzərdən keçirərkən bir daha əmin oluruq ki, onun çoxşaxəli yorulmaz, zəngin fəaliyyəti Azərbaycana, xalqımıza fədakarcasına xidmətin bariz nümunəsidir. Bu, sovet dövründə də belə olub, vətənimiz müstəqillik əldə edəndən sonra da.

Heydər Əliyevin həm ötən əsrin 70-80-ci illərində ölkəyə rəhbərlik edərkən, həm də müstəqil dövlət qurarkən apardığı ümumi siyasət bu olub: Azərbaycanın milli mənafelərini istənilən səviyyədə müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın və ölkənin təhlükəsizliyini təmin etmək.

Xalqımızın taleyində müstəsna rol oynayan, hətta bir çox cəhətdən onu müəyyənləşdirən Heydər Əliyev fövqəladə quruculuq missiyasını həyata keçirib, xalqın həyatının bütün sahələrinə silinməz təsir göstərib. Həmin xeyirxah təsir mənim və ailəmizin həyatında da özünü göstərmişdir və mən xoşbəxtəm ki, bu böyük şəxsiyyəti tanımaq, müşahidə etmək, onunla ünsiyyətdə olmaq imkanı da qismətimə düşüb. Nəşrə hazırladığım "Unudulmaz Lider" başlıqlı kitab həyatım boyu Ulu Öndərin çoxşaxəli titanik fəaliyyəti haqqında yazdığım məqalələri ("Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri kimi", "Azərbaycan zirvəsi", "Ümummilli Lider Heydər Əliyevin Şərq siyasəti", "Xalqımızın xilaskarı", "Heydər Əliyev və Azərbaycan elmi", "İslam ölkələrini Azərbaycanın strateji tərəfdaşına çevirən lider", "Heydər Əliyev və İslam Əməkdaşlıq təşkilatı", "Fövqəladə missiya, yaxud tarixin ən böyük Azərbaycanlısı", "Bir millət,

iki dövlət prizmasından Azərbaycan-Türkiyə münasibətləri" və s.), verdiyim müsahibələri ("Çoxəsrlik tariximizin Böyük Azərbaycanlısı", "Vətənin taleyi heç kimin siyasi ambisiyasının qurbanına çevrilməməlidir", "Güclü iqtidar – qüdrətli Azərbaycan deməkdir", "Azərbaycan Prezidentinin elmə, təhsilə qayğısı bu sahənin adamlarında ruh yüksəkliyi yaradıb", "Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu kimi daxil olub", "Ulu Öndər Heydər Əliyev müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq, onu dönməz və əbədi etmişdir" və s.) son 20 ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev yolunun uğurlu davamı kimi ölkəmizdə həyata keçirilən hərtərəfli fəaliyyəti əks etdirən yazılarımı əhatə edir. Kitaba, eyni zamanda, "Heydər Əliyev İli" işığında Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında çıxışım (fevral 1999-cu il) və bu zaman Azərbaycan xalqının Ümummilli Liderinin tariximizə dair çox qiymətli məsləhətləri və nəşr etdirdiyimiz əsərlərlə bağlı ətraflı tövsiyələri, habelə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının Heydər Əliyevin sədrliyi ilə yekun iclasında çıxışım daxildir.

Kitaba o cümlədən Ümummilli Liderlə bağlı xatirələrim, onun sovet Azərbaycanına rəhbərliyi dövründə nail olduğu böyük inkişaf və tərəqqi haqqında atam, 1970-1987-ci illərdə Respublikanın maliyyə naziri vəzifəsində çalışan Baxşəli Baxşəliyevdən dinlədiyim söhbətlər, Ulu Öndərin şəxsiyyətinin böyüklüyü, xalqımızın tale və tarixində buraxdığı möhtəşəm təsirlə bağlı düşüncələrim daxildir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin cismani olaraq bizləri tərk etdiyi illərdə də biz daim onun varlığını hiss etmişik – möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan möhtəşəm quruculuq işlərində, sosial-iqtisadi inkişafda, daxili və xarici siyasətdə, ərazimizin bütövlüyü uğrunda həyata keçirdiyi çoxşaxəli fəaliyyətdə. Bu yolda Ulu Öndər daim bizimlədir, əbədiyaşardır. Özü dediyi kimi: "Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam."

# HEYDƏR ƏLİYEVİN İŞTİRAK ETDİYİ İCLASLARDA ÇIXIŞLAR

## "KİTABİ-DƏDƏ QORQUD" DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SƏDRLİYİ İLƏ YEKUN İCLASINDA

### GÖVHƏR BAXŞƏLİYEVANIN ÇIXIŞI

Cənab prezident, ilk növbədə mən bizim ulu abidəmiz "Dədə Qorqud"un yubileyinin bu miqyasda qeyd olunması üçün yaratdığınız şəraitə görə institutumuzun əməkdaşları adından Sizə dərin təşəkkürümü bildirirəm. Siz bu tədbirlə adınızı Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, tarixinin səhifələrinə bir daha qızıl hərflərə yazmış oldunuz.

Mən bir məsələ üzərində dayanmaq istərdim. Burada tərcümə mərkəzi haqqında danışıldı. Cənab prezident, bu, bizim ən ağrılı nöqtələrimizdən biridir. Bizim işçilər, əməkdaşlar Avropa ölkələrinə az-çox gedirlər, Parisin kitabxanalarında işləyirlər. Onlar çox böyük ağrı hissi ilə qayıdırlar ki, o ölkələrin kitabxanalarında Azərbaycan haqqında məlumat, demək olar, yox dərəcəsindədir.

Məsələn, bu yaxınlarda bir əməkdaşımız Oksforddan qayıtmışdır. O dedi ki, Ermənistan haqqında, ermənilərin tarixi, mədəniyyəti, ədəbiyyatı haqqında qalaq-qalaq kitablar var. Azərbaycan haqqında isə yalnız nazik bir kitabça var, o da Azərbaycanın İngiltərədəki səfirliyi tərəfindən hazırlanıbdır.

Cənab prezident, Avropa, Qərb mütəxəssisləri əsər yazanda, - düzdür, indi internetdən də məlumat alırlar, amma orada da bizim haqqımızda material azdır, - ilk növbədə kitabxanalara müraciət edirlər. Həmin kitabxanalarda isə bizim haqqımızda material yox dərəcəsindədir.

Odur ki, yaradılacaq tərcümə mərkəzi bəlkə bu i$^{o}$lərə də fikir versin. Təkcə Azərbaycanın abidələrinin, ədəbiyyatının tərcüməsi ilə kifayətlənməsin, həm də Azərbaycanın tarixinə, mə-

dəniyyətinə, bir sözlə, keçmişinə, bu gününə aid mütəmadi olaraq, planlı şəkildə materiallar hazırlasın. İri həcmli kitablar mümkün deyilsə, ingilis dilində kiçik həcmli, kitabça şəklində kitablar hazırlayıb dünyanın bütün məşhur kitabxanalarına göndərsin. Özü də bu iş müntəzəm görülsün. O kitabxanaları bizim haqqımızda əsərlərlə doyurmalıyıq.

Dünya ictimaiyyəti Azərbaycan haqqında həqiqətləri bilməlidir. Cənab prezident, Azərbaycanı dünyaya birinci olaraq Siz tanıtdınız, böyük iş gördünüz. Dünyada "Azərbaycan" deyəndə ilk növbədə, demək olar, Sizi nəzərdə tuturlar. Ancaq Azərbaycan haqqında materiallar da yayılsa, biz informasiya boşluğundan bir növ çıxmış olarıq.

Burada tərcümə mərkəzi barədə dedilər. Bilirsiniz ki, daha peşəkar mütəxəssislər Akademiyadadır. Şərq dillərinə tərcüməni bizim institut öz üzərinə götürə bilər.

Diqqətinizə görə çox sağ olun.

*"Azərbaycan" qəzeti, № 83,*
*15 aprel, 2000-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA

## GÖVHƏR BAXŞƏLİYEVANIN ÇIXIŞI

Hörmətli prezident!

Dövlət komissiyasının hörmətli üzvləri!

İcazə verin, mən hörmətli prezidentimiz Heydər Əliyevə "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" fərmanına görə respublikanın elmi ictimaiyyəti adından dərin minnətdarlığımı bildirim.

Möhtərəm prezident, imzaladığınız bu fərmanın xalqımız üçün, onun bu günü və gələcəyi üçün siyasi, ictimai, mənəvi, tərbiyəvi əhəmiyyəti misilsizdir.

Şərqşünaslıq İnstitutunun kollektivi Naxçıvan ədəbi, mədəni mühitini dərindən öyrənmək sahəsində bir sıra işlər görmüşdür. Artıq respublika ictimaiyyətinə məlum olan "Naxçıvan sancağının müfəssəl dəftəri" institutumuzda osmanlıcadan tərcümə edilmiş və 1996-cı ildə nəşr olunmuşdur.

XIV əsr müəllifi Hinduşah Naxçıvaninin fars-türk lüğətinin tənqidi mətni hazırlanıb çap edilmişdir. Bu əsər Zeynalabdin Tağıyev adına mükafata layiq görülübdür. 1960-cı illərdə akademik Əbdülkərim Əlizadə Hinduşah Naxçıvaninin oğlu Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Katiblər üçün məlumat kitabı"nı nəşr etdiribdir.

Möhtərəm prezident, mən 22 ildir ki, orta əsr əlyazmaları ilə məşğulam. Bir sıra əlyazmalar oxumuşam, məxəzlərə baxmışam. Bunların arasında "Naxçıvani" soyadı ilə onlarla, yüzlərlə ədiblərin, şairlərin, alimlərin adlarına rast gəlinir, onların əsərlərinin adları çəkilir. Hazırda bu əsərlər ən məşhur ərəb kitab məxəzlərində - Bağdadda, Suriyada, Qahirədə saxlanılır. Çox təəssüflər olsun ki, biz maliyyə çatışmazlığına görə həmin yerlərə elmi ekspedisiyalar təşkil edə bilmirik. Halbuki orta əsrlər Naxçıvan mədəniyyətini öyrənmək üçün belə ekspedisiyaların təşkili çox vacibdir.

Mən bu yaxınlarda Türkiyədə olmuşam. Orada Osmanlı dövrünün arxivləri açılır. Osmanlı arxivində Azərbaycana aid külli miqdarda materiallar saxlanılır. Bilirsiniz ki, Azərbaycan müəyyən dövrlər Osmanlı imperiyasına daxil olubdur. Həmin dövrün vergi dəftərləri saxlanılır. Azərbaycanı öyrənmək üçün həmin materialların surətlərini çəkib gətirmək çox dəyərli bir iş olardı.

İranda da "Naxçıvani" ləqəbli, yəni Naxçıvandan çıxmış, əsli naxçıvanlı olan alimlər vardır. Məsələn, Hacı Hüseyn Naxçıvani İranın çox məşhur ədəbiyyatşünasıdır. Belə məşhur alimlərin əsərlərini dilimizə tərcümə etmək, bu əsərlər üzərində elmi tədqiqat işləri aparmaq çox faydalı olardı.

HEYDƏR ƏLİYEV: **"Naxçıvan sancağının müfəssəl dəftəri" kitabını bu gün mənə göstərdilər. Çox yaxşı hadisədir ki, siz bunu hazırlayıb çap etdirmisiniz. Bu barədə mənə məruzə etdilər və mən də bu fikrə gəlirəm ki, onu yenidən işləyib nəşr etmək lazımdır. Çünki ona bir tərəfdən izahat lazımdır, digər tərəfdən o, geniş oxucu kütləsi, ictimaiyyət üçün daha anlaşılan səviyyəyə gətirilməlidir.**

GÖVHƏR BAXŞƏLİYEVA: Cənab prezident, bu, məhdud dairə üçün hazırlanmış elmi nəşrdir.

HEYDƏR ƏLİYEV: **Amma bunu elə etmək lazımdır ki, alimlərdən savayı başqaları da onu oxuyub anlaya bilsinlər.**

**Siz müəyyən arxivlərə, əlyazma fondlarına alimlərimizin göndərilməsi məsələsindən danışdınız. Bu lazımdır və çox çətin iş deyildir. Ola bilər, bunları da komissiyanın iş planına daxil edəsiniz. Alimləri hara mümkündür - Türkiyəyə, İrana, Suriyaya, Misirə və başqa yerlərə göndərmək lazımdır.**

**Vaxt gəlib çatıbdır ki, biz Azərbaycanın tarixini indiyə qədər bildiyimizdən də çox öyrənməliyik. Mən belə fikirdəyəm. Doğrudur, tarixçilərimiz hesab edirlər ki, Azərbaycanın tarixini çox gözəl yazıblar. Bu işlərə görə onlara təşəkkür etmək olar. Eyni zamanda, razılaşmaq lazımdır ki, onların işlədikləri şəraitdə bəlkə də bundan çox iş görməyə imkanları olmayıbdır. Açıq deyək, təəssüf, bizdə həmişə bir çatışmazlıq olubdur ki, tariximizi dərindən öyrənmək, təhlil etmək, yazmaq üçün lazımi tədbirlər görməmişik. Mən belə hesab edirəm ki, bunların**

**nəticəsində yazılan kitablar, ümumiyyətlə, Azərbaycanın tarixini çox az əks etdirir. Bəlkə də bir neçə on illər bu işlə məşğul olmaq lazımdır. Ancaq biz bunun əsasını qoymalıyıq. Mən heç də hesab etmirəm ki, bir, iki, üç ilə biz çox şey yarada bilərik. Biz bunun əsasını qoymalıyıq, burada bir sistem yaratmalıyıq. Elə bir sistem ki, bugünkü, gələcək nəsillər bu sistemlə getsin və ümumiyyətlə, Azərbaycanın tarixi yaxşı yazılsın, həm ölkəmizə, həm də dünyaya təqdim olunsun.**

**Bu baxımdan Azərbaycanın tərkib hissəsi olan Naxçıvanın tarixini şübhəsiz ki, yazmaq lazımdır. Görürsünüz ki, Naxçıvan indiyə qədər, bütün bu dövrdə ayrı-ayrı qüvvələrin maraq dairəsinə çevrilibdir. Bizim heç birimizdə şübhə yoxdur ki, Naxçıvan qədim Azərbaycan torpağıdır. Amma nə edək ki, bizim ümumiyyətlə passivliyimizdən, - bunu açıq etiraf etmək lazımdır - torpaqlarımıza göz dikən, iddia edənlərin həddindən artıq ədalətsiz fəallığından və uydurmalarından bəzi beynəlxalq dairələrdə çox təhrif olunmuş fikirlər yaranıbdır. Biz bunların qarşısını almalıyıq, bu işdə müdafiədə durmamalıyıq. Bu belə dedi, yaxud da o belə yazdı, onu təkzib etdik - bununla qane ola bilmərik. Biz həm Azərbaycanın tarixi ilə əlaqədar, həm də Azərbaycanın bir hissəsi olan Naxçıvanın tarixi ilə əlaqədar gərək çox fundamental əsərlər yaradaq, bu əsərlərdə də təkcə iddiaçılara cavab vermək yox, bütün dünyaya Azərbaycanın qədim, zəngin tarixini, mədəniyyətini göstərək.**

**Siz deyirsiniz ki, İranda Naxçıvani familiyasını daşıyanlar çoxdur. Əlbəttə, İranda da, Türkiyədə də, Şərqin başqa ölkələrində də çoxdur. Hətta onlar Avropada da vardır. Amma bunları, necə deyərlər, sənədləşdirmək lazımdır. Tarixi sənədlər əsasında elmi əsərlər yaratmaq lazımdır. Bu əsərlər həm elmi, həm də müəyyən qədər populyar xarakter daşımalıdır ki, hər bir insan onları oxuyub mənimsəyə bilsin və onun əsasında fikir mübadiləsi apara bilsin.**

**Təkliflərinizi verin, mən Fatma Abdullazadəyə tapşırdım. Ola bilsin ki, bu təklifiərin hamısı bizim iş planına daxil edilsin.**

*“Azərbaycan” qəzeti,*
*№ 32, 11 fevral, 1999-cu il*

# MƏQALƏLƏR

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ KİMİ

**"Hər şeydən yüksək bizim Vətənimiz, torpağımız, xalqımızın müstəqilliyi, ərazimizin bütövlüyü, dövlətimizin suverenliyi olmalıdır".**

*H.Əliyevin Azərbaycan Respublikası MM-in 27 iyul 1993-cü il tarixli iclasındakı çıxışından.*

İstənilən şəxsin vətənə, xalqa xidməti onun gördüyü işlərlə, yaratdığı maddi sərvətlərlə, harada olursa-olsun vətəninin, xalqının mənafeyini hər şeydən uca tutması ilə ölçülür. Hörmətli Prezidentimiz Heydər Əlirza oğlu Əliyevin 80 illik həyat yolunu nəzərdən keçirərkən bir daha əmin oluruq ki, onun çoxşaxəli yorulmaz və zəngin fəaliyyəti Azərbaycana, Azərbaycan xalqına fədakarcasına xidmətin bariz nümunəsidir. Bu sovet dövründə də belə olub, vətənimiz müstəqillik əldə edəndən sonra da.

Bu məqalədə biz Heydər Əliyevin titanik fəaliyyətinin qısa bir mərhələsini - Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsində çalışdığı dövrü təhlil etmək məqsədini qarşıya qoymuşuq. Məsələni tam və obyektiv araşdırmaq üçün o dövrdə Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyəti bir daha nəzərdən keçirək.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin müstəqilliyin ilk mərhələsində ölkədəki qeyri-sabit vəziyyət, Azərbaycan dövlətinin və parlamentinin başında duranların siyasi naşılığı, düşünülməmiş hərəkətləri, 25 nəfəri iqtidardan, 25 nəfəri isə müxalifətdən olan deputatların

müxtəlif siyasi oyunlara cəlb edilməsi hakimiyyət böhranını günbəgün dərinləşdirirdi.

1992-ci il fevral aynın 26-da Xocalıda faciə baş verdi. Bunun ardınca Şuşa, sonra Laçın, daha sonra Kəlbəcər işğal olundu. Gəncə hadisələri baş verdi. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı.

Milli Məclisdə isə xalqın başına gətirilən bu müsibətləri olduğu kimi xalqa çatdırmaq əvəzinə, həqiqəti, real vəziyyəti xalqdan gizlətmək istəyirdilər. Belə çətin, ağır, mürəkkəb bir şəraitdə xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə cənab Heydər Əliyev Bakıya qayıtdı və Milli Məclisin 15 iyun tarixli iclasında Ali Sovetin sədri seçildi. Səsvermədən sonra proqram nitqlə çıxış edən H.Əliyev respublikanın o vaxtkı ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk etdiyini və bunun aradan qaldırılması üçün əlindən gələni əsirgəməyəcəyini bildirdi, qarşıda duran əsas vəzifələri müəyyənləşdirdi: **"Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm"**. Bunun təmin edilməsinin əsas şərtləri kimi o, ölkənin ərazi bütövlüyünün bərpası, müharibənin qurtarması və sülhün bərqərar olunmasının vacibliyini qeyd edir, beynəlxalq təşkilatlarla, xarici ölkələrlə mütəmadi əməkdaşlığın zəruriliyini vurğulayır.

Ali Sovetin sədri Azərbaycanda azad vətəndaş cəmiyyətinin qurulması, onun əsas atributlarının bərqərar olmasından danışır: **"Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır".**

Çıxışında iyun ayının 4-də Gəncədə baş vermiş hadisələrə toxunan Heydər Əliyev bu dəhşətli faktın tezliklə araşdırılmasının və günahkarların hansı tərəfdən olmasına baxmayaraq qanun qarşısında cavab verməli olacağını qeyd edir. Eyni zamanda yaranmış gərginliyin aradan qaldırılması yollarını göstərən Ali Sovetin sədri bunun yalnız sülh yolu ilə mümkün olduğunu dəfələrlə vurğulayır: **"Bu gərginlik, qarşıdurma ancaq sülh yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır".**

Milli münasibətlər sahəsində yaranmış vəziyyəti şərh edən natiq Azərbaycanda uzun illər bir yerdə yaşayan millətlər arasındakı münasibətlərin bir qədər pozulmasını nəzərə alaraq, bu sahədə problemlərin həlli yollarını müəyyənləşdirir: **"Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu, bizim əsas vəzifələrimizdən biridir".**

Xarici siyasətdə qarşıda duran vəzifələrdən bəhs edən natiq bütün dövlətlərlə, ilk növbədə yaxın qonşularımızla (Türkiyə, İran, Rusiya), keçmiş Sovetlər Birliyinə daxil olan bütün ölkələrlə bərabərhüquqlu münasibətlərin yaradılması zərurətini vurğulayır və məhz belə siyasətin Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasını və inkişaf etməsini şərtləndirən əsas amillərdən hesab edir. Daha sonra Ali Sovetin sədri ABŞ, Avropa ölkələri ilə, xüsusən İngiltərə, Fransa, Almaniya, müsəlman ölkələri ilə əlaqələrin daha da sürətlə inkişaf etdirilməsinin vacibliyindən danışır. Nitqinin sonunda H.Əliyev bütün Azərbaycan xalqına müraciət edərək onu bir daha daxili didişmələri kənara qoyub, birliyə və həmrəyliyə dəvət edir: **"Bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-küdürəti kənara qoymalıdır,**

**hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq"**. Bu ümummilli liderin xalqa çağırışı idi.

Həyatının mənasını xalqına xidmətdə görən Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi ilə Azərbaycan dövlətçiliyinin tarixində yeni bir mərhələ başlandı. Məsuliyyətsizliyin və səriştəsizliyin nəticəsi kimi yaranmış gərginlik səngiməyə başladı.

H.Əliyev parlamentdəki fəaliyyətində ilk addım olaraq xalqla birbaşa təmasa keçdi. Milli Məclisin bütün iclasları, mətbuat konfransları, brifinqlər, problem məsələlərə həsr olunmuş müşavirələr canlı yayımla televiziya ekranlarında göstərildi. Xalq hər şeydən xəbərdar oldu. Tədricən problemlərin həlli yolları ilə əlaqədar konstruktiv tədbirlər həyata keçirilməyə başladı. Xalqın itirilmiş inamı özünə qaytarıldı. Nüfuzlu dövlətlərlə pozulmuş münasibətlər bərpa edildi. Ən başlıcası isə sabitlik yarandı. Parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Müxtəlif hüquqi sənədlərə dəyişiklər edildi. Ölkədə sabitlik və əmin-amanlığın yaradılması, vətəndaş qarşıdurmasının aradan qaldırılması məqsədi ilə mühüm işlər görüldü.

Lakin gərginliyin aradan qaldırıldığı, ictimai-siyası sabitliyin bünövrəsinin qoyulduğu bir vaxtda ölkədə yenidən fövqəladə hadisə baş verdi: prezident Əbülfəz Elçibəy heç kimə xəbər vermədən müəmmalı şəkildə paytaxtı tərk etdi. Yenicə səngiməyə başlayan gərginlik yenə də artdı. İyunun 18-də Heydər Əliyev yaranmış vəziyyətlə əlaqədar televiziya ilə birbaşa xalqa müraciət etdi. O yenə də hamını təmkinə, səbrə, dözümlülüyə, müdrikliyə dəvət etdi. Baş vermiş hadisələr bir daha milli birliyin yaradılmasının, vətəndaş həmrəyliyinin bərqərar olmasının vacibliyini ön plana çəkdi.

Tədricən ölkədə siyasi böhran səngisə də, gərginlik hələ qalırdı. Milli Məclisdə Ə.Elçibəyin paytaxtı tərk etməsi müzakirələrə səbəb oldu. Bu müzakirələrdə Ə.Elçibəyə ünvanlanan müraciətlər nə qədər çox olsa da, o, qayıtmaq fikrində deyildi.

Baş verən bütün hadisələrə siyasi qiymət verən Heydər Əliyev xalqa kimin kim olduğunu yaxşı anlatdı. Heç bir hərbi qüvvəsi olmayan H.Əliyev öz ağlına, zəkasına, dəmir məntiqinin gücünə və bir də xalqına arxalanırdı. Məhz bunun nəticəsində o bütün pozucu qüvvələrin tezliklə dəf olunmasına nail oldu.

Milli Məclisin 23 iyun tarixli iclasında prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi artıq respublikada baş verən bütün hadisələrin cilovlanması və dövlətin nəzarətinə götürülməsi demək idi. Bu, hakimiyyətin ayrı-ayrı adamların şəxsi mənafeyinə, ambisiyasına deyil, xalqın iradəsinə tabe edilməsi idi. Bu, müstəqil Azərbaycanın tarixində anarxiyaya, özbaşınalığa, tənəzzülə nöqtə qoyan ictimai sabitliyin, iqtisadi tərəqqinin, beynəlxalq nüfuzun təməlinin qoyulması idi. Dövlətçilik sahəsindəki tarixi ənənələrə söykənən Heydər Əliyev öz zəngin siyasi və idarəçilik təcrübəsi nəticəsində ölkənin çoxsaylı problemlərinin öhdəsindən gəldi.

Müstəqilliyi yaşatmaq üçün ilk növbədə onu xaricdən və daxildən hədələyən təhlükələrdən qorumaq lazım idi. Xarici təhlükə torpaqlarımızın işğalı ilə nəticələnən müharibə, daxili təhlükə isə ölkə daxilində qarmaqarışıqlıq yaradan, hakimiyyət uğrunda mübarizə aparan silahlı dəstələr idi.

Erməni təcavüzü ilə uğurla mübarizə aparmaq üçün ilk növbədə qüdrətli ordu yaratmaq və bu sahədə buraxılmış kobud səhvləri aradan götürmək lazım idi. Xalqın döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq lazım idi.

Ali Sovetin sədri yeri gəldikcə bu məsələlərə münasibət bildirir, cəbhədəki məğlubiyyətlərin səbəblərini açıqlayır: **"Azərbaycan Respublikasının son illər Ermənistanla olan müharibədə Dağlıq Qarabağdan başlamış məğlubiyyətlərin əsas səbəblərindən biri də Azərbaycanda döyüş ruhunun yaradılmaması, vətənpərvərlik hissiyatının əhalinin bütün təbəqələrinə sirayət etməməsi, insanlarda vətəni, torpağı qorumaq hissinin yüksək səviyyəyə qaldırılmaması və beləliklə də, bəzi yerlərdə düşkünlük, bəzi yerlərdə passivlik, bəzi yerlərdə isə tamamilə biganəlik əhval ruhiyyəsinin mövcud olması-**

**dır".** 27 iyul tarixli iclasda isə Ali Sovetin sədri cəbhədəki uğursuzluğun digər səbəbini mövcud özbaşınalıqda, hərcmərclikdə, dərəbəylikdə, hakimiyyət hərisliyində görür və bunlara son qoyulmazsa, yeni itkilərin baş verə biləcəyindən danışır: **"Bütün bunların nəticəsində xalq əziyyət çəkir və Azərbaycan torpağı gedir. Bu məsələni heç olmasa indi dərk eləsinlər. Azərbaycan ərazisinin 17 faizi gedib, daha 12 faizi də gedə bilər. Bu təhlükə Azərbaycan üçün gözlənilir. Heç olmasa indi ayılsınlar. Hakimiyyət davası qurtarsın".**

H.Əİiyev ordunun siyasiləşdirilməsinin qəti əleyhinə çıxır: **"Həmin siyasiləşmiş ordu ilə Azərbaycan heç bir müharibə apara bilməz, çünki ordu müxtəlif siyasi cərəyanlara xidmət eləyir"**. Milli Məclisin sədri Böyük Vətən müharibəsi illərində yüz minlərlə azərbaycanlının cəbhədə rəşadətlə vuruşduğunu xatırlayaraq, xalqı səfərbərliyə çağırır: **"Bəli, biz torpaqları qorumağı bacarmalıyıq, həm ordumuz olmalıdır, həm xalqımız ayağa qalxmalıdır, hamımız səfərbər olmalıyıq, ya ölməliyik, ya da ki, Azərbaycanın müstəqilliyini sözlə yox, meydanlardakı çıxışlarla yox, cəbhədə təmin etməliyik, torpaqları geri qaytarmalıyıq"**. Eyni zamanda o yaranmış vəziyyətin həqiqi səbəblərini və günahkarlarını açıq göstərir: **"Qarabağda torpaqlarımız əldən gedir, insanlar qırılır, şəhidlər veririk hər gün, insanlar qaçır, yaşamağa yer yoxdur, amma o birisi tərəfdə insanlar kef içindədir, dünən vəzifəyə gəlmiş bəzi təsadüfi adamlar icra hakimi olan kimi rüşvətxorluqla, cürbəcür çirkin işlərlə məşğul olaraq xalqın qanını sorublar, bunlar hamısı bu günün gerçəkliyidir, bunları açıq demək lazımdır, nə qədər acı olsa da, nə qədər bizim üçün dəhşətli olsa da, bunu demək lazımdır, mən bir vətəndaş kimi özümə borc bilirəm bunu deməyə... ...Ağdam şəhəri əldən gedir, insanlar orada bilmirlər ki, nə cür yaşasınlar, eyni zamanda ayrı-ayrı qruplar, siyasi qruplar, mafioz qruplar orada vəzifə hərisliyi edirlər, birinin vəzifədən çıxması, o birinin vəzifəyə keçməsi mübarizəsi aparırlar, kimin icra hakimi olması mübarizəsini aparırlar. Dəhşətli deyilmi bu? Şəhər əldən gedir, evlər dağılır, in-**

**sanlar qırılır, gündə Ağdam atəş altındadır, orada isə mübarizə gedir, hansı tayfa hakimiyyətə gəlməlidir, hansı tayfa vəzifə almalıdır, hansı tayfanın nümayəndəsi icra hakimi olmalıdır. Bilirsiniz, Ağdam əhalisi, Qarabağ əhalisi yenə də deyirəm, hamımız tərəfindən hörmətə layiq Azərbaycanın ən gözəl guşəsidir bu, bu ərazidə yaşayan adamlar Azərbaycanın ən yüksək keyfiyyətli adamlarıdırlar. Mən dedim Bərdədə, yenə də deyirəm, Ağdamın torpağı qana hopubdur bu son beş ildə, bunun özü elə onu göstərir ki, bu qana hopmuş torpaqda yaşayan adamlar böyük bir hörmətə layiq adamlardırlar, ancaq nə etməli ki, bu adamların içərisində elə pis niyyətli adamlar var ki, onlar öz məqsədlərinə nail olmaq üçün bu yazıq, zavallı insanları o tərəfə yönəldirlər, bu tərəfə yönəldirlər, siyasi mübarizələr aparırlar. Bəli, mən bunu tam qətiyyətlə deyə bilərəm ki, əvvəlki məğlubiyyətlər kimi Ağdamın da işğal olunması bu siyasi oyunların nəticəsidir, Ağdamın içində və onun kənarında, ümumiyyətcə, Azərbaycanda gedən siyasi mübarizələrin, siyasi oyunların nəticəsidir".**

1993-cü ilin yayında ölkədə çox ağır vəziyyət yaranmışdı. Mövcud həqiqətləri tam reallığı ilə dərk edən Heydər Əliyev o zaman üçün yeganə düzgün çıxış yolunu göstərir: **"Atəşi dayandırmaq lazımdır, sülh danışıqlarına getmək lazımdır. Məhz bu yolla biz indi bu vəziyyətdən çıxa bilərik".** Parlamentin sədri Ermənistanın, Dağlıq Qarabağın, Rusiyanın rəhbərləri ilə danışıqlar aparır və nəticədə Ermənistanın prezidenti Levon Ter-Petrosyan da, Dağlıq Qarabağın rəhbərləri də bəyanat verərək sentyabr ayının 1-dən atəşin dayandırılmasını elan edirlər.[1]

Daxili siyasi-ictimai gərginlik isə davam edirdi. İyunun 15-də Lənkəranda hərbi hissələrin köməyi ilə hakimiyyəti devirmiş Əlikram Hümbətov və onun havadarları cəbhədə vəziyyəti daha da ağırlaşdıraraq, cəmiyyətdə caxnaşma yaradaraq hakimiyyət dəyişikliyinə nail olmaq istəyirdilər. Avqustun 7-də cənub böl-

---

[1] Qeyd olunmahdır ki, son olaraq cəbhədə atəşkəsə 1994-cü il may ayının 12-də nail olundu.

gəsində üzdəniraq "Talış Muğan Respublikası" yaradıldığı elan olundu, BMT-yə bu qondarma qurumun tanınması üçün müraciət edildi.

Bütün bunlar əhali tərəfindən kəskin etirazla qarşılandı. Yerlərdə baş vermiş kortəbii mitinqlərdə əhali Hümbətovun quldur dəstəsinin ləğv edilməsini, qondarma "TMR"-i tanımadıqlarını bəyan edirdi. Bu şəraitdə Milli Məclisin sədri xalqın dəstəyinə arxalanaraq, problemin dinc vasitələrlə həllinə üstünlük verdi. Avqustun 13-də o, həmin bölgədən olan xalq deputatları, ziyalılar, ağsaqqallarla görüşdü. Onlar Ə.Hümbətov və onun tərəfdarlarına qarşı qəti tədbirlər görülməsini tələb etdilər.

Milli Məclisin 16 avqust tarixli iclasında H.Əliyev cənub bölgəsində baş vermiş hadisələrin əsl səbəblərini açıqlayır: "**Səbəblərdən əsası ondan ibarətdir ki, Azərbaycanda son dövrdə hərc-mərclik, qanunsuzluq baş verib, idarəetmə sistemi dağılıb. Dövlət idarəçiliyi çox bərbad vəziyyətdədir. Tələbkarlıq azalıb. Kim nə istəyib, onu eləyib. Bu dövlətin lap başından aşağıya qədər bütün mərtəbələrdə, bütün sahələrdə mövcuddur. Belə bir şəraitdən istifadə edən bir qrup şəxslər öz şəxsi məqsədlərinə nail olmaq üçün bu yola düşüblər və artıq bu bölgədə belə bir vəziyyət yaranıb. Ancaq bu, onun görünən tərəfidir, iç tərəfi isə Azərbaycanı parçalamaq, Azərbaycanı dağıtmaq, Azərbaycan Respublikasını bir dövlət kimi dağıtmaq niyyətləridir. Bu isə Azərbaycan xalqının, Azərbaycan Respublikasının həm xaricdə, həm daxildə olan düşmənləri tərəfindən uzun illər həyata keçirdikləri planların bir mərhələsidir və müəyyən qədər nəticəsidir. Bu planlar, bəli, Azərbaycana düşmən olan ölkələrdə, Azərbaycana düşmən olan qüvvələr tərəfindən xaricdə hələ yüz il bundan qabaq nəzərdə tutulmuşdur. Məlumdur ki, Daşnaksütyun partiyasının Azərbaycanı parçalamaq planı yüz il bundan qabaq meydana çıxmışdır. Bu parçalamaq planı 5-6 il bundan qabaq Dağlıq Qarabağ bölgəsində gedir, indi isə ayrı-ayrı bu cür siyasətbazları, öz şəxsi məqsədləri üçün xalqı, milləti, torpağı satmağa hazır olan və satan, dağıdan insan-**

**ları istifadə edərək, onları əllərində alət edərək Azərbaycanı parçalayırlar, dağıdırlar. Bu bizim düşmənlərimizin planlarının həyata keçirilməsidir və təəssüf ki, bizim daxilimizdə olan ayrı-ayrı vəzifəli şəxslər, ayrı-ayrı siyasətə qoşulmuş adamlar bu planın həyata keçirilməsinə bəzən kortəbii, bəzən isə qəsdən qoşulublar, kömək ediblər və onun icraçısıdırlar. Bu icraçılardan biri Əlikram Hümbətovdur".**

Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı çıxan qüvvələrin siyasi oyunu kimi ifşa etdi. Cənub rayonları əhalisinin etiraz hərəkatı daha da genişləndi və avqustun 21-23-də elə miqyas aldı ki, Ə.Hümbətov qaçmalı oldu. Qondarma "Talış Muğan Respublikası" ləğv edildi.

Xalq öz rəhbəri ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum keçirildi. Referendum AXC hakimiyyətinin və onun liderinin xalq arasında heç bir dəstəyə malik olmadığını əyani şəkildə nümayiş etdirdi.

H.Əliyevin ölkə parlamentinə sədr seçilməsi Azərbaycanın xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. H.Əliyev ilk növbədə AXC hakimiyyətinin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o xarici siyasətin başlıca vəzifələrini, istiqamətlərini və prioritetlərini müəyyənləşdirdi: **"Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mə-**

**nafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır, Azərbaycanın xarici siyasətini aparmaq üçün xarici siyasi aparatı yoxdur. Azərbaycanın, şübhəsiz ki, xarici siyasəti dövlət tərəfindən, onun strategiyası dövlət tərəfindən təyin olunur, onun konkret addımları dövlət tərəfindən təmin olunur, ancaq bu xarici siyasətin aparılması üçün təkliflərin hazırlanması, işlənilməsi, verilməsi, dövlətə təqdim olunması bu aparat tərəfindən təmin olunur. Nədir bu aparat? Xarici İşlər Nazirliyi. Azərbaycanda Xarici İşlər Nazirliyi sıfırdır. Parlamentin xarici işlər üzrə komissiyası nədən ibarətdir? Üç-dörd nəfərdən. Hansı bir önəmli təkliflər veribdir, hansı təşəbbüslərdə bulunub? Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri parlamentdə bir dəfə də olsun müzakirə olunubmu? Parlament bu məsələlərə öz fikrini bildiribmi?"** Sözünə davam edərək, H.Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir:

**"Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır. Ancaq bunlar olmayıbdır. Orta Asiyanı Qazaxıstanla tamamilə Azərbaycan silibdir, baxmayaraq ki, orada nə qədər Azərbaycanlı yaşayır! İndiyə qədər, bu dəqiqə Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da rəhbər işlərdə çoxlu azərbaycanlılar işləyib, yaşayıblar, amma biz özümüzü oradan təcrid etmişik.**

**Rusiyada bir milyona yaxın azərbaycanlı yaşayır, demişik ki, Rusiya bizim düşmənimizdir, Rusiya ilə heç bir əlaqə lazım deyil. Ukrayna ilə guya bir balaca əlaqə düzəltmək istəyirik, bizim prezident də gedib ora, o prezidentlə müqavilə bağlayıb, amma nəticəsi nədir? Belorusiya tamam yaddan çıxıbdır. Amerikaya çox böyük bel bağlamışıq və doğrudan**

**da bu düzgün yoldur. Mən bunu inkar etmirəm və mən də bunun tərəfdarıyam və biz də bunu davam edəcəyik, ancaq bununla da münasibətlər axı, lazımi səviyyədə olmayıb. Amerikada məsələn, mənə Amerikadan gələn adamlar deyirlər, Amerikanın səfıri də mənə deyir ki, sizin orada lobbiniz olmalıdır. Amerikanın həyatı mətbuatdır, informasiya orqanlarıdır. Orada gərək Azərbaycan təbliğ olunsun, Azərbaycan təmsil olunsun...**

**Bu baxımdan mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir. Xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar, həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşma hərəkət etmədi, onun bir neçə ittifaqları var. NATO kimi böyük bir ittifaqı, Amerika dövlətlərinin ittifaqı, başqa ittifaqlar. Keçmiş Sovetlər İttifaqını götürün. Varşava Doqovoru və ayrı-ayrı dövlətlərlə, qrup dövlətlərlə ayrı-ayrı ittifaqlar. İndi yaranıb Müstəqil Dövlətlər Birliyi. Bura keçmiş SSRİ-yə daxil olan, indi müstəqil dövlətlər, onların bir çoxu daxil olub".**

H.Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır: **"İndiki dövrdə Azərbaycanın siyasətində əyalət təfəkkürü, öz-özünü təcrid etmək təfəkkürü üstünlük götürübdür, ona görə də dünya bizi nəinki az tanıyır, bəlkə bəzi yerlərdə heç tanımırlar da. Ona görə də biz bu Moskvada* olan vaxtı imkan dairəsində o şəraitdən istifadə edib Azərbaycandakı vəziyyəti müəyyən qədər təbliğ etməyə çalışdıq, mən bunu bizimlə gedən şəxslərə də tövsiyə etmişdim, özüm də bu sahədə müəyyən işlər görməyə çalışdım və buna görə də bəzi siyasi xadimlərlə də qeyri-rəsmi görüşlərim oldu..."**

---

* MDB ölkələri başçılannın Moskva görüşü nəzərdə tutulur.

Ali Sovetin sədri özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımaması, problemlərimizi bilməməsi, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan H.Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

Beləliklə, xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı. Məhz bu reallıqları nəzərə alaraq Ali Sovetin sədri ilk səfərini Rusiyaya etdi. Bu səfər Azərbaycanın MDB-yə daxil olması ilə paralel hazırlandı. Çünki həm Rusiya ilə münasibətlər üçün, həm də MDB-yə daxil olan ölkələrlə Azərbaycanın münasibətləri üçün bu işin əhəmiyyəti böyük idi. Heydər Əliyev deyirdi: **"Biz bu birliyin tamhüquqlu üzvü olaraq iqtisadi əməkdaşlıq və kollektiv təhlükəsizlik haqqında müqavilələrin təmin etdiyi üstünlüklərdən faydalanmaq istəyirik. Biz MDB çərçivəsindən kənarda olduğumuz vaxtdakı vəziyyətimizi araşdırdıq və belə bir qənaətə gəldik ki, MDB çərçivəsindən kənarda qalmaq ölkənin qarşısında duran problemlərin həllinə kömək etmir".** Bu məsələyə Azərbaycanın xarici siyasətində Rusiyanın mühüm yer tutması prizmasından baxıldı. Bu addım Azərbaycan-Rusiya münasibətlərindəki gərginliyi yumşaltmaq üçün də zəruri idi:

**"Azərbaycan hansı ittifaqda var? İslam dövlətlərinin iqtisadi ittifaqında var. Başqa hansı ittifaqda var? Axı, bu ittifaqların çoxu eyni zamanda ortaq kollektiv təhlükəsizlik xa-**

**rakteri daşıyır. Azərbaycanın hansı dövlətlə ortaq kollektiv təhlükəsizlik müqaviləsi var? Hansı bir ittifaqa, yəni bir birliyə daxil olub ki, orada kollektiv təhlükəsizlik təmin olunsun? Hansı? Göstərin! Yoxdur! Əgər bizim Türkiyə ilə kollektiv təhlükəsizlik müqaviləmiz olsaydı, İranla bir kollektiv təhlükəsizlik müqaviləmiz olsaydı, deyərdik heç olmasa qonşularımızla var. İndi təsəvvür edin, Ermənistanla biz müharibə aparırıq beş ildir, Ermənistan Rusiya ilə həm kollektiv girib bu Müstəqil Dövlətlər Birliyinə, həm də Rusiya ilə Ermənistan arasındakı müqavilədə təhlükəsizlik, kollektiv təhlükəsizlik şərtləri var. Həm Ermənistanın ərazisində Rusiyanın qoşunları hərbi baza statusu alıb".**

İqtisadi baxımdan da MDB-yə daxil olma Azərbaycan üçün çox önəmli idi və Milli Məclisin sədri çıxışlarında dəfələrlə deputatların nəzərini məsələnin bu tərəfinə yönəldirdi: **"Dünya bazarına yol tapa bilməyən Azərbaycan malları üçün MDB ölkələri eyni zamanda əlverişli istehlak bazarıdır, xammal, komplektləşdirici istehsal detalları və sairin çatışmaması üzündən respublikanın xalq təsərrüfatının düşdüyü vəziyyəti şərh etməyə ehtiyac yoxdur. Belə davam eləyə bilməz! Bu vəziyyətin davamı respublikanı tam iflic vəziyyətinə salmaması üçün gecikmədən qırılmış əlaqələri bərpa etmək və təsərrüfatçılarımızın fəaliyyətini normallaşdırmalıyıq. Bunun üçün ən optimal yol Azərbaycanın MDB-yə daxil olmasıdır".** Keçmiş SSRİ respublikalarından və ilk növbədə Rusiyadan təcrid olunma, çoxsaylı mədəni və mənəvi əlaqələrimizin qırılması həyatımızda bir çox problemlər yaratmışdır. H.Əliyev ürək ağrısı ilə bu problemlərdən danışır və onların yeganə həlli yolunu arası kəsilmiş münasibətlərin bərpasında görür: **"Mənəvi sahədə, uzun bir dövr ərzində Azərbaycanın elmi, mədəniyyəti, təhsil sistemi, hətta təfəkkür tərzi Rusiya ilə bağlı olmuşdur. Lakin anlamıram ki, nə üçün biz real gerçəkliyi bir yana qoyub ya tam inkar etmək, ya da iradəsizlik, mütilik mövqeyindən çıxış etməliyik. Nə üçün biz özümüz oturduğumuz budaqları kəsməliyik. Rusiya elminin dünyada tanınmış sta-**

**tusunu və nailiyyətlərini danmaq nə deməkdir? Millilik anlayışını, ağına-bozuna baxmadan hər yerdə və hər işdə yeritmək nə deməkdir, bu bizə nə verər? Əlbəttə, bizim öz tariximiz, öz mədəniyyətimiz, öz elmimiz, dilimiz, milli mədəniyyətimizi yüksək tutmağımız son dərəcə zəruridir. Lakin bunlar nə üçün bir-biriııə qarşı qoyulmalıdır? Ya tamamilə inkar etmək, ya da qeyd-şərtsiz, müticəsinə qəbul etməkdən başqa yolu yoxdur? Ənənəni pozmağın, hər şeyi yeniləşdirmək meyli ilə çıxış etməyin təhsil sisteminə nə müsibətlər gətirdiyi hamımıza aydındır. Mənəvi inkişafımızda, elmimizdə, mədəniyyətimizdə, təhsilimizdə varislik prinsipini pozmaq, onun tələblərinə əməl etməmək çox ciddi, neqativ nəticələr törədəcək. Bütün bunların həlli üçün mən bu gün üçün ən optimal yol olaraq MDB-yə daxil olmağı görürəm".**

Heydər Əliyevin Ali Sovetin sədri olarkən Gürcüstanın prezidenti E.Şevardnadze Bakıya səfər etdi. Gürcüstanla mehriban qonşuluq və dostluq əlaqələrinin qurulması ölkəmiz üçün çox vacib idi. Gürcüstanın Azərbaycanın ən yaxın qonşusu olması və orada yarım milyona yaxın soydaşımızın yaşaması nəzərə alınarsa, bunun Qafqazda sülhün və sabitliyin təmin edilməsi baxımından necə böyük əhəmiyyətə malik olduğu aydın olar.

Qısa zaman kəsiyində Heydər Əliyev bir çox ölkələrin rəhbərləri, diplomatları ilə görüşlər keçirib, müzakirələr aparıb: Rusiya rəhbərliyi ilə, Moskva səfəri zamanı MDB ölkələrinin rəhbərləri ilə, o zaman Moskvada rəsmi səfərdə olan Türkiyə Cumhuriyyətinin Baş naziri Tansu Çillərlə, ABŞ prezidenti Bill Klintonun xüsusi nümayəndəsi Stroub Telbotla. Türkiyə Cumhuriyyətinin prezidenti Süleyman Dəmirəl ilə Ali Sovetin sədri mütəmadi olaraq telefon danışıqları aparır, bu və ya digər məsələlərlə bağlı fikir mübadiləsi keçirir, xarici diplomatik korpusların nümayəndələri ilə, BMT-nin ölkəmizdəki nümayəndəliyinin o zamankı rəhbəri Mahmud əl-Səid ilə görüşlər keçirir, danışıqlar aparır. Qırılmış iqtisadi və mədəni əlaqələrin bərpasında Moskva şəhərinin meri Y.M.Lujkovun Bakıya səfəri və səfər zamanı imzalanmış müqavilə böyük əhəmiyyət kəsb edir.

Ali Sovetin sədrinin fəaliyyətinin daha bir mühüm istiqaməti kimi Şərq ölkələri ilə əlaqələrə böyük əhəmiyyət verildi. Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin möhkəmlənməsində, taleyüklü maraqların dəstəklənməsində bu ölkələrlə qurduğu mehriban dostluq, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xüsusi əhəmiyyət kəsb etdi. Bu baxımdan Çin Xalq Respublikası kimi fövqəldövlətlə münasibətlərin inkişaf etdirilməsi vacibliyini nəzərə alaraq bu ölkədə Azərbaycanın səfirliyi təsis edildi.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra mədəniyyət, elm və təhsilə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərmişdi. Hələ Milli Məclisin sədri olarkən, o, ölkədə mədəniyyətin, elmin və təhsilin inkişafına diqqət yetirmiş, bu sahədə AXC iqtidarı dövründə yaranmış xoşagəlməz vəziyyət üçün narahatlığını bildirmişdir: "**Son vaxtlar Azərbaycanda mədəniyyət, təhsil, elm sahələri çox gözdən düşmüş sahələr olublar. Bunlara lazımi diqqət yetirilməyib, bu da, ola bilər ki, son illərin ən böyük bəlasıdır. Güman edirəm ki, biz bunların qarşısını almalıyıq. Mədəniyyət, təhsil, elm və bütün bu sahə bizim Azərbaycan xalqının həm milli xüsusiyyətlərini, həm intellektual potensialını, həm mədəniyyətini yüksəldən sahələrdirlər. Bu sahələrdə bildiyiniz kimi, keçmiş dövrdə Azərbaycanda çox işlər görülmüşdü. Azərbaycanın teatrı, Azərbaycanın musiqisi, Azərbaycanın elmi, Azərbaycanda Elmlər Akademiyası 45-ci ildən yaradılmış, böyük-böyük elmi institutlar yaranmış, Azərbaycanın ədəbiyyatı, Azərbaycanın mədəniyyətinin başqa sahələri çox böyük nailiyyətlər əldə etmişdir. İndi biz bu dəmir pərdə götürüləndən sonra, müstəqilliyi əldə edəndən sonra, başqa ölkələrlə, xüsusən, Şərq ölkələri ilə müqayisə edəndə daha da dərindən dərk edə bilirik ki, Azərbaycanın mədəniyyət sahəsi, elm sahəsi, təhsil sahəsi nə qədər bu illərdə yüksəlib, ancaq təəssüf ki, biz özümüz öz nailiyyətlərimizə lazımi qədər qiymət verə bilməmişik... Bəzi adamlar hətta o həddə gəlib çatmışdılar ki, o adam Moskva universitetini qurtarıbsa, bu yaramaz bizim üçün, çünki bunda milli ruh yoxdur, bu**

**adam Leninqrad universitetini qurtarıbsa, bu yaramaz bizim üçün, bunda milli ruh yoxdur. Mən Naxçıvanda işləyəndə biz istəyirdik milli ordu yaratmağa, bəzi Xalq Cəbhəsindən olan mənim həmkarlarım gəlirdilər ki, bu zabiti götürmək olmaz orduya, çünki bu rus ordusunda qulluq edib, orada təhsil alıb, bunda milli ruh yoxdur. Deyirəm, ay qardaş, axı, bizim özümüzün ordumuz olmayıb və hərbi məktəbimiz olmayıb. Əlağa Şıxlinski də, yaxud Mehmandarov da, yaxud Naxçıvanski də, yaxud başqalarında milli ruh yox idimi, bunlar çar rus ordusunda xidmət etmiş adamlardır, o vaxtlar hərbi məktəblər qurtarmış adamlardır. Bilirsiniz, dəhşətli belə hallara rast gəldik bu son illərdə. Əgər teatrımız, opera teatrımız 1909-cu ildə Üzeyir Hacıbəyovun böyük xidmətləri nəticəsində yaranmışdısa, indi teatrımız nə vəziyyətdədir? Yaxud da ki, bizim Azərbaycanda balet, Azərbaycan baleti ilk dəfə Şərq ölkələrində balet kimi yarandı və böyük balet əsərləri yarandı. Mənim xatirimdədir, 70-ci illərdə mən bu işlərlə çox ciddi məşğul olaraq Azərbaycanda balet sənətini inkişaf etdirmək üçün böyük binanın tikilməsi ilə məşğul oldum, şəxsən məşğul oldum, ona görə yox ki, mən istəyirəm sizə şəxsi xidmətlərimi deyəm, buna ehtiyac yoxdur. Ancaq bunu yada salıram ona görə ki, ürəyim yanırdı ki, bizim baletimiz nəinki bu səviyyədə qalmasın, inkişaf etsin. İndi balet yoxdur, dağılıb gedib, simfonik orkestr nə vəziyyətdədir, yaxud da ki, başqası nə vəziyyətdədir. Nə əldə etdik? Bir şey yaratmadıq, ancaq yarananı da dağıtdıq. Nə var, nə yox ki, bəli, biz bu keçmişi söyürük... Yaxşı, simfonik orkestr, biz burjuaziya cəmiyyətinə qayıdırıqsa, burjuaziya cəmiyyətinin, Avropanın burjuaziya cəmiyyətinin lap mərkəzində yaranmış bir musiqi sənətidir, indi bunu dağıtmaqla nə etdik? Biz Azərbaycan xalqının, Azərbaycanın milli mədəniyyətinin hansı sahəsini düzəltdik? Ona görə də məni bir vətəndaş kimi, bir azərbaycanlı kimi və bu məsələlərlə uzun müddət yaxından məşğul olan adam kimi bunlar narahat edir..."** Və məhz bu sahəni gücləndirmək üçün H.Əliyev baş na-

zirin humanitar sahə üzrə müavini vəzifəsinə tanınmış yazıçı Elçin Əfəndiyevi təqdim edir.

Heydər Əliyev ziyalılarla ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında keçirdi. Bu, bir tərəfdən, ölkə rəhbərinin alimlərimizə bəslədiyi böyük ehtiram, Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətlə, digər tərəfdən ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizlikdən irəli gələn narahatlıqlarla bağlı idi. Elə həmin görüşdə Heydər Əliyev belə narahatlıqların əsassız olduğunu təsdiqlədi: **"Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq... Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu Akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu Akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq".**

Milli Məclisin iclaslarında H.Əliyev AXC hakimiyyətinin yarıtmaz kadr siyasətinə öz münasibətini bildirir, bu sahədə buraxılan çoxsaylı səhvləri düzəltməyə çalışırdı: **"Vəzifə təyinatları cəbhəçilik prinsipləri ilə həyata keçirilirdi. Təbii olaraq bütün bunlar cəmiyyətdə iqtidar-müxalifət münasibətlərini daha da kəskinləşdirirdi. Bir mühüm məsələ unudulmuşdu. Prezident hakimiyyətdə yalnız AXC-ni yox, xalqı təmsil etməli, xalqın bütün təbəqə və zümrələrinin mənafeyinin təminatçısı və ifadəçisi kimi fəaliyyət göstərməliydi. İqtidar kadr siyasətində ancaq AXC-nin potensialına söykənmiş, vəzifələrə bir qayda olaraq cəbhəçilər irəli çəkilmişdir... Kadr siyasətində yeganə meyar olan qabiliyyət, səriştə və səviyyə məsələləri arxa plana keçmişdi".**

Ali Sovetin sədri vəzifəsində fəaliyyət göstərən H.Əliyev qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin firavan, azad və sərbəst həyatına təminat verən azad vətəndaş cəmiyyətinin

əsas prinsiplərinin bərqərar olmasının zəruriliyini dəfələrlə vurğulayır:

**"Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır, Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə sərbəst iqtisadiyyat yolu ilə getməlidir, Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır".**

Eyni zamanda H.Əliyev bu yaranmış azadlıqlardan sui-istifadə hallarının qarşısının qətiyyətlə alınmasının vacibliyindən danışır: **"Azərbaycanda siyasi plüralizm, demokratiya özünə yer tapıbdır və bu davam etməlidir, bunun qabağını almaq düzgün olmaz, bundan sonra da demokratiya, siyasi plüralizm, siyasi partiyaların qanun çərçivəsində fəaliyyət göstərməsinə, şübhəsiz ki, imkan yaradılacaqdır, mən şəxsən belə fikirdəyəm, ancaq eyni zamanda bu, anarxiyaya gətirib çıxarmamalıdır, xaosa gətirib çıxarmamalıdır, özbaşınalığa gətirib çıxarmamalıdır, zorakılığa gətirib çıxarmamalıdır. Ayrı-ayrı partiyaların, siyasi qurumların və yaxud ictimai təşkilatların özünə silahlı dəstələr yaratmasına və bir-biri ilə silahlı mübarizəsinə gətirib çıxarmamalıdır! Bunlar demokratiyadan kənar hallardır, bunlara yol vermək olmaz. Bütün bu qüvvələr bir müqəddəs vəzifəyə xidmət etməlidir: Azərbaycanın torpaqlarını qorumaq, müstəqil Azərbaycanın müstəqilliyini bir daha təsdiq etmək və müstəqilliyini təsdiq etmək üçün Azərbaycanın bütün ərazisində Azərbaycan dövlətinin hakimiyyətini təmin etmək".**

1993-cü ilin yayında Milli Məclisin qarşısında çox çətin bir vəzifə dururdu: ölkəni qardaş qırğını təhlükəsindən xilas etmək və hakimiyyət uğrunda silahlı mübarizələrin qarşısını almaq. Yalnız bu problemlərin həllindən və ictimai-siyasi sabitlik təmin edildikdən sonra ölkədə dövlət quruculuğu prosesinə başlamaq və iqtisa-

di islahatları həyata keçirmək mümkün idi. Buna baxmayaraq, yeri düşdükcə Milli Məclisdə bu sahədə də iş aparılır, tədbirlər görülürdü. Belə məsələlərdən biri 1993-cü il üçün Azərbaycan Respublikasının büdcəsinin inflyasiya səviyyəsinə uyğunlaşdırılmasıdır. Digər məsələ - neft sahəsində aparılan iş idi.

Milli Məclisin 3 iyul iclasında H.Əliyev bildirdi ki, o, AXC hökuməti zamanı neft sahəsindəki bütün danışıqları müvəqqəti olaraq dayandırır və hesab edir ki, bu məsələ mütəxəssislər tərəfindən ətraflı öyrənilməlidir və yalnız onların rəyindən sonra hər hansı bir qərar qəbul edilməlidir və bu zaman Azərbaycan xalqının mənafeyi maksimum qorunmalıdır: **"Neft Azərbaycanın elə bir sərvətidir ki, bu hələ bir yüz il bundan sonra da Azərbaycan xalqına xidmət etməlidir".**

Rusiya ilə iqtisadi əlaqələr haqda H.Əliyev Milli Məclisin 17 avqust iclasında deyir: **"Azərbaycan Respublikasının iqtisadiyyatı və xüsusən sənaye Rusiyanın bir çox regionları ilə çox sıx inteqrasiyadadır. Ona görə də bizim bir çox sənaye müəssisələrimiz lazımi səviyyədə işləyə bilmirlər, hətta deyə bilərəm ki, lap belə sıfır dərəcəsinə çatıb onların istehsal fəaliyyəti. Kənd təsərrüfatı məhsullarının və kənd təsərrüfatından olan malların Rusiya bazarında satılması məsələsi və başqa məsələlər çox mühüm əhəmiyyət kəsb edir və mən artıq bu barədə geniş danışmaq istəmirəm və ümumiyyətcə bizim iqtisadi əlaqələrimizin qırılması, biz artıq bunu gördük və acı həqiqəti də mən deməliyəm ki, bu bizim Azərbaycanın iqtisadiyyatına çox zərər gətirmişdir, ona görə də bu barədə biz razılığa gəldik ki, bu günlərdə bizim nümayəndə heyətimiz Moskvaya gedəcək, bu məsələlər haqqında ətraflı danışıqlar aparılacaqdır, lazımi müqavilələr bağlanacaqdır, lazımi işlər görüləcəkdir... Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında olan münasibətləri inkişaf etdirmək lazımdır".**

Sentyabr ayının 22-də Ali Sovetin sədri respublika gənclərinin nümayəndələri ilə görüş keçirdi. Görüşdə H.Əliyev gənclər qarşısında geniş nitqlə çıxış etdi, gənclərin qarşısında duran

problemlərə və onların həlli yollarına münasibət bildirdi. Bu nitqlə məhz müstəqil Azərbaycanın gələcək dövlət gənclər siyasətinin əsas istiqamətləri müəyyənləşdirildi: **"Biz istərdik ki, gənclərimiz həm milli ənənələrimiz əsasında, həm dünyəvi mənəvi dəyərlər əsasında əxlaq, mənəviyyat məsələlərinə çox fikir versinlər"**. H.Əliyev gəncləri milli özünütəcriddən uzaq olmağa çağırır: **"Müstəqillik haqqında cılız çıxışlar edib müstəqilliyi ancaq milli məhdudiyyətdə görən adamlar belə hesab edirlər ki, elə bir tək Azərbaycan miqyasında hər şey olmalıdır, ancaq onlar unudurlar ki, müstəqil Azərbaycan dövlətinin ilk yaradıcıları, 18-ci ildə ilk Azərbaycan demokratik dövlətinin yaradıcıları hamısı Rusiyada təhsil almış adamlardır.**

**Bizim böyük-böyük yazıçılarımız, şairlərimiz, bəstəkarlarımız əksəriyyəti Rusiyada, Avropada təhsil almış adamlardırlar...**

**Həm elm sahəsində, həm təhsil sahəsində, həm ədəbiyyat sahəsində, mənəviyyat sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində bütün tarixi nailiyyətlərimizdən, tarixi ənənələrimizdən istifadə edərək, eyni zamanda gənclərimiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır. Dünya deyəndə isə bütün dövlətlər nəzərdə tutulur, orada Rusiya da var, Ukrayna da var, Almaniya da var, Fransa da var, Amerika da var, İtaliya da var, Şərq ölkələri də var, İran da var, Türkiyə də var, ərəb ölkələri də var, Hindistan da var, Çin də var".**

Marksist-leninçi ideologiyanın artıq keçmişdə qaldığını söyləyən natiq yeni ideologiyanın hansı zəmində yaranmasının yollarını göstərir: **"Marksizm-leninizm ideyasına müstəqil Azərbaycan Respublikası artıq dönməməlidir. Ancaq eyni zamanda biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. Bizim indiki ideyamız isə milli tarixi ənənələrimiz əsasında, millətimizin keçdiyi tarixi yol əsasında, xalqımızın keçdiyi tarixi yol əsasında, bizim ulu babalarımızın yaratdığı ümumi bəşəri dəyərlər əsasında, Nizami Gəncəvinin, Xaqaninin, Fələki-**

**nin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Fizulinin, Vaqifın, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu alimlərimizin, tarixçilərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın qoyduğu mənəvi dəyərlər əsasında bizim xalqımız, şübhəsiz ki, öz bu günkü mənəviyyatını inkişaf etdirməlidir".**

Heydər Əliyevin respublika gənclərinə müraciətlə söylədiyi aşağıdakı fikirlər görüş iştirakıçıları tərəfindən böyük razılıqla qarşılandı: **"Bizim gəncliyimiz üçün əsas vəzifələrdən biri vətənpərvərlik hissiyyatlarını geniş təbliğ etmək və hər bir gəncdə vətənpərvərlik duyğuları, vətənpərvərlik əhval-ruhiyyəsi, vətənpərvərlik hissiyatı yaratmaqdır. Bu bir ona görə deyil ki, biz müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini sevməsən, öz xalqını sevməsən, öz torpağını sevməsən, öz vətəninə, öz vətəninin mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, sən dünyada başqa şeyləri də qiymətləndirə bilməzsən".**

Ali Sovetin sədri gəncləri təhsilə, elmə dəvət edir və hər bir gəncin gələcək inkişafını yalnız bunda görür: **"Dünya sivilizasiyası möhkəm təhsil üzərində qurulubdur, möhkəm elm üzərində qurulubdur, yüksək tərbiyə üzərində qurulubdur və bizim gənclərimizi mən bu yola dəvət edirəm və güman edirəm ki, müstəqil Azərbaycanda gənclərin yolu bu yoldur. Dünya elmi-texniki tərəqqi dünyasıdır və elmi-texniki tərəqqi səviyyəsində Azərbaycanı inkişaf etdirmək üçün, şübhəsiz ki, yüksək biliyə, yüksək təhsilə, yüksək elmə nail olmalıyıq, yüksək elmi mənimsəməliyik və bu iş də gənclərin üzərinə düşür"**. Mənəvi dəyərlərimizə yiyələnməyin zəruriliyini vurğulayan ölkə başçısı eyni zamanda dünyəvi mənəvi dəyərlərlə də tanışlığın vacibliyini gənclərə tövsiyə edir.

Beləliklə, Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetin sədri vəzifəsində fəaliyyət göstərdiyi qısa zaman kəsi-

yində ölkənin həm daxili, həm xarici siyasətində böyük işlər görüldü, müstəqil Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu.

Səriştəsiz şəkildə aparılan, reallığı, qüvvələr nisbətini nəzərə almayan və xalqın milli mənafelərinə ziyan vuraraq nəticədə yenicə müstəqillik əldə edən və ağır müharibə şəraitində olan Azərbaycanın beynəlxalq aləmdə təklənməsinə gətirib çıxaran yarıtmaz xarici siyasətdən imtina edildi. Böyük səylər nəticəsində qısa bir zamanda ölkədə hakimiyyət boşluğu aradan götürüldü, Azərbaycanın dövlətçiliyinə, ərazi bütövlüyünə qəsd edən separatçı qüvvələr, cinayətkar ünsürlər zərərsizləşdirildi, Gəncədəki gərginlik ocağı söndürüldü, ictimai-siyasi böhran aradan qaldırıldı, orduda təxirə salınmaz tədbirlər həyata keçirildi, azad vətəndaş cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atıldı.

Xalqın geniş təbəqələrinin arzularını ifadə edən və onların qətiyyətli dəstəyinə söykənən Heydər Əliyevin ardıcıl səyləri pozucu qüvvələrin Azərbaycanın ərazi bütövlüyünə və dövlət müstəqilliyinə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almağa imkan verdi. Respublikamız onun başı üzərini almış qanlı vətəndaş qarşıdurmasından və parçalanıb məhv olmaq təhlükəsindən xilas oldu. Həyatımızda baş verən köklü dəyişikliklərin əsası məhz o vaxt qoyuldu.

*"Heydər Əliyev və Azərbaycan Parlamenti".*
*Məcmuə. Azərbaycan Respublikası Milli*
*Məclisinin nəşri. Bakı, 2003.*

## İSLAM ÖLKƏLƏRİNİ AZƏRBAYCANIN STRATEJİ TƏRƏFDAŞINA ÇEVİRƏN LİDER

"*İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz səylərini göstərib*".

*Heydər Əliyev*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin 85 illik doğum günü yaxınlaşır. Bu ərəfədə böyük öndərimizin keçdiyi zəngin həyat yolunu, çoxşaxəli fəaliyyətini, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işləri bir daha nəzərdən keçirmək və təhlil etmək zərurəti yaranır. Təqdim edilən məruzədə onun titanik fəaliyyətinin kiçik bir hissəsi – İslam Konfransı Təşkilatı ilə əlaqədar apardığı siyasət və gördüyü işlər haqda qısa məlumat verib, müəyyən təhlillər apararaq, öz mülahizələrimizlə bölüşəcəyik.*

1993-cü ildə hakimiyyətə yenidən qayıtdığı ilk günlərdən Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o, xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: «Azərbaycanın

müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır». Sözünə davam edərək, Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: «Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır». Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti «özümüzün özümüzə vurduğumuz zərbə» adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı.

23 noyabr 1993-cü ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət,  bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

Bundan sonra ölkəmiz ilə İKT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul

etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir.

Ulu öndər Heydər Əliyevin İKT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İKT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Abdüləziz Əl-Səudla faydalı danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak etdi.

Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Ulu öndər bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi.

Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İKT-yə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.

Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi.

Heydər Əliyevə göstərilən hörmət və diqqətin, böyük ehtiramın nəticəsi kimi İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi.

Bu nitqdə Azərbaycan Prezidenti toplantıda iştirak edən dövlət başçılarına müraciətlə İslam Konfransı Təşkilatında Asiya dövlətləri adından söz demək üçün ona imkan yaradılmasından böyük şərəf duyduğunu və bunu yüksək qiymətləndirdiyini qeyd etdi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır. Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan Prezidenti burada qəbul edilən qərarların bütün islam aləminin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhfə olacağını, Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın İslam Konfransı Təşkilatının diqqət və qayğısına böyük ehtiyac duyduğunu söylədi. Bu ölkələrin həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqil-

liklərinin doğurduğu təbii çətinliklərlə üzləşdiklərini, dərinləşməkdə olan iqtisadi böhranların, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklərin, bəzi dövlətlərin məruz qaldığı müharibələrin, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlərin də vəziyyətə təsir göstərdiyini bəyan etdi.

Azərbaycan Prezidenti Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda qaldırılmasını təqdir etdi, həm də onların həlli ilə bağlı nikbinliyin artmasını vurğuladı. Prezidentimiz bu problemlərin həllini dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Konfransı Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına ümid etdiyini bildirdi.

Heydər Əliyev iştirakçıların diqqətinə onu da çatdırdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Sonda Azərbaycan Prezidenti İslam Konfransı Təşkilatının VII Zirvə toplantısının uğurla başa çatması münasibətilə üzv dövlətlərin başçılarını bir daha təbrik etdi, onlara və onların xalqlarına, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzuladı.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökumət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinin bu səfəri, orada keçirdiyi görüşlər, apardığı danışıqlar, qazandığı uğurlar öz müsbət nəticələrini verməyə başladı. Bu səfərdən sonra iKT ilə əlaqələrimizdə yeni uğurlar və nailiyyətlər dövrü başlandı.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyuldu.

Ulu öndər İKT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İKT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış et-

miş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqı dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: «Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik… Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İKT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və

hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İKT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırki sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir» və s.

İKT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İKT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağılması haqqında» qətnamə qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş

torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir. Konfrans İKT Baş katibinin bu barədə müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və hökmən yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İKT Baş katibindən xahiş etmişdir.

İKT qətnamələri Azərbaycan üçün təkcə siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və başqa yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi mühüm sənədlər əsasında həyata keçirilir. İslam İnkişaf Bankı 1994-cü ildən etibarən mütəmadi olaraq qaçqınlarımıza humanitar yardım göstərir, onlar üçün iş yerləri yaradılması məqsədi ilə dəzgah və avadanlığın alınmasına 1 milyon ABŞ dolları vəsait ayırmışdır. Respublikamızın sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq 1,424 milyon ABŞ dolları vəsait ayırmışdır. Bankın respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

Ümummilli liderimiz Heydər Əliyev İKT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İKT tarix və mədəniyyət mərkəzini (İRSİCA) də ziyarət etmişdir. O, öz çıxışların-

da qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islam tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Ulu öndər qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır.

Dövlət başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin «Leyli və Məcnun» poemaları əsasında 1908-ci ildə «Leyli və Məcnun» operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə «Leyli və Məcnun» simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir. Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İslam Konfransı Təşkilatının mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir.

Məhz ümummilli liderimizin bu tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRSİCA arasında sıx əlaqə yaranmış və

bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlıq davam edir, müştərək mövzular işlənilir, qarşılıqlı ezamiyyətlər həyata keçirilir, birgə elmi tədbirlər təşkil edilir.

1997-ci il oktyabr 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində İKT xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş əlaqələndirmə toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı, Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü də öz əksini tapmışdır.

Toplantı Ermənistanın Azərbaycan Respublikasına təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir. Münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

*Beləliklə, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu ilk növbədə Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş düzgün xarici siyasətimizin nəticəsidir. Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini, o cümlədən, İKT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, böyük öndərimizin apardığı xarici siyasəti də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.*

*«Azərbaycan» qəzeti, 25 aprel 2008-ci il.*

## AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ MÜASİR MƏRHƏLƏDƏ

Tarixi inkişafın qaçılmaz qanunauyğunluğu nəticəsində Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan öz müstəqilliyini bərpa etdi, bununla da çoxəsrlik tarixinin yeni mərhələsinə qədəm qoydu. Qarşıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı ağır nəticələri aradan qaldırmaq, ölkədə əmin-amanlıq yaratmaq, sabitliyi bərpa etmək, iqtisadiyyatı dirçəltmək, dövlətçiliyi xilas etmək kimi çox mürəkkəb vəzifələr dayanmışdı. Belə bir ağır vəziyyətdə geniş xalq kütlələrinin arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyəti başladı.

Dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə böyük dövlətlərin diqqətini çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edirdi.

İlk günlərdən Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi. Ulu Öndər ilk növbədə AXC hakimiyyətinin xarici siyasət sahəsində buraxdığı səhvləri və nəticədə Azərbaycan ətrafında formalaşmış gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifə və prioritetlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır,

elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır...

Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır...

Mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir. Xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar, həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşına hərəkət etmədi, onun bir neçə ittifaqları var».

H.Əliyev 90-cı illərin əvvəllərində Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımaması, problemlərimizi bilməməsi, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti «özümüzün özümüzə vurduğumuz zərbə» adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində emosiyadan uzaq, hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan H.Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Onun müstəqil Azərbaycanın dövlət quruculuğu, xarici və daxili siyasəti haqqındakı fikirləri, ideya və düşüncələri, ötən dövrün dərslərindən istifadə edilməklə ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəldilmişdir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə bir-

ləşdirən xarici siyasət konsepsiyasını açıqlayan Heydər Əliyev bildirmişdir: «Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında gedəcəkdir». Göstərilən prinsiplər dövlətimizin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Onlardan:

– mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək;

– regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

– dövlətimizin bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək, - və sairə kimi tezislərə nəzər saldıqda görürük ki, aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Getdikcə Azərbaycanın xarici siyasəti sahəsində əsaslı dönüş yarandı. Axtarışlar dövrü başa çatdı və

yeni mərhələ başlandı. Beləliklə, xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı. Dövlətlərarası münasibətlərdə qarşılıqlı əlaqələr genişlənərək bəzi anlarda şəxsi dostluq münasibətlərinə çevrildi.

Azərbaycan coğrafi mövqeyinə görə Şərqin və Qərbin arasında yerləşir. Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan respublika rəhbərliyi öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Prezident Heydər Əliyev bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacib idi. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Ümumiyyətlə, Heydər Əliyevin Şərq dünyası, eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə - mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır.

Heydər Əliyevin 1982-1987-ci illərdə Misirə, Pakistana, İordaniyaya, Suriyaya, İraqa, Yəmənə və başqa ölkələrə səfərləri və islam dünyasının kral Hüseyn, Hafiz Əsəd, Yasir Ərafat və başqa liderləri ilə görüşləri onu dünyada aparıcı siyasətçilərdən biri kimi tanıtdı. O, köhnə əlaqələrini bərpa edərək müstəqil respublikamızın dünyada öz mövqeyini möhkəmlətməsi üçün yeni münasibətlər yaratdı.

Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirdilər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.

1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı. Bir çox görüşlər keçirildi. Sonralar ölkə Prezidenti dəfələrlə Türkiyədə rəsmi səfərlərdə olmuş və bu zaman qəbul olunmuş çoxsaylı sənədlər daim Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə xidmət etmişdir.

Azərbaycan-Türkiyə əlaqələri qısa zamanda beynəlxalq siyasətdə və iqtisadiyyatda mümkün olan bütün aspektləri əhatə edərək, mahiyyət etibarilə strateji əhəmiyyət kəsb etdi. İqtisadiyyatımızın bütün sahələrində iki ölkə arasında əməkdaşlıq genişlənərək, strateji partnyorluğa çevrildi. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsasları qoyuldu.

Azərbaycan-Türkiyə əməkdaşlığı hər iki dövlətin üzvü olduqları beynəlxalq təşkilatlarda da davam edərək, BMT, İƏT, AŞ, ATƏT, İKT kimi təşkilatlarda hər iki ölkənin nümayəndə heyətlərinin daim birgə mövqedən çıxış etmələri ilə nəticələndi.

Heydər Əliyev türk dünyasının problemlərinə də daim diqqət yetirmişdir. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının II-ci forumunun iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində o özünün türklük düşüncəsinin əsas aspektlərini açıqlamışdır: ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması, türk dünyasının birliyinə çalışılması və həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi.

Türk dünyasına məxsus, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin bərpası və inkişaf etdirilməsi məhz yuxarıdakı prinsiplərdən irəli gəlirdi. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. Azərbaycan Türksoy və TRASEKA-nın da fəal iştirakçısıdır. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur «Bakı bəyannaməsi»nin elan edilməsi ilə başa çatmışdır. Qırğızıstanda Manas dastanına həsr olunmuş beynəlxalq tədbirdə iştirak edərkən Heydər Əliyev söyləmişdir ki, dövlətlərimizin hərtərəfli əlaqələrinin inkişaf etdirilməsi üçün Azərbaycan-Mərkəzi Asiya xalqlarının əlaqələrinin öyrənilməsinə böyük ehtiyac vardır.

Azərbaycanla ən uzun sərhədlərə malik olan İranla mehriban qonşuluq münasibətlərinin ölkəmiz üçün zəruriliyini, İranla Azərbaycan arasında çoxsaylı mədəni, tarixi və etnik tellərin ol-

masını gözəl anlayan Prezident Heydər Əliyev bu sahədə də uzaqgörən, düşünülmüş, tarazlaşdırılmış siyasətə üstünlük verdi. 1992-1993-cü illərdə əvvəlki iqtidarın bu istiqamətdə yol verdiyi səhvlər nəticəsində yaranan problemləri yada salsaq, Azərbaycan-İran münasibətlərinin xüsusi əhəmiyyət kəsb etməsi aydınlaşar. İran İslam Respublikası rəsmi olaraq 12 mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıdı. Azərbaycan-İran münasibətləri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yüksələn xətlə inkişaf etməyə başlamışdır. Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirdi.

Ölkələrimiz arasındakı əlaqələr günü-gündən genişlənməkdə, inkişaf etməkdədir. Elə regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir. İran ilə münasibətlərin formalaşdırılmasında Azərbaycan Respublikasının İran İslam Respublikasının şimal əraziləri ilə iqtisadi-coğrafi oxşarlığı, respublikamızda yaşayan azərbaycanlıların İranda yaşayan azərbaycanlılarla etnik, dini, tarixi, mədəni eyniliyi kimi amillər nəzərə alınmağa başlandı. Müxtəlif xarakterli əlaqələr daha da genişləndi. Sərhədlər açıldı, gediş-gəliş, ticari əlaqələr çoxaldı, müxtəlif müqavilələr bağlandı.

Heydər Əliyevin düzgün siyasəti nəticəsində ölkəmiz Xəzər dənizinin statusu ilə əlaqədar müstəqil siyasət apararaq öz sektoruna aid neft yataqlarını işlətdi, eyni zamanda Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edərək İranda yaşayan soydaşlarımızın ictimai şüurunun formalaşmasına təsirinin güclənməsinə nail oldu.

Prezident Heydər Əliyev İranla əlaqələrimizin hərtərəfli, qarşılıqlı faydalı inkişaf etdirilməsini ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirərək, qonşu dövləti rəsmi səfərlə ziyarət etdi, həyatımızın bir çox sahələrinə aid müqavilələrin bağlanmasına nail oldu.

Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və

dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Məlumdur ki, Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi ab-havanı müəyyənləşdirən əsas məsələ - altmış ildən çox davam edən İsrail-ərəb qarşıdurmasıdır. Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərirdi. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımamalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan ərəb dünyası ilə münasibətdə islam aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İKT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, Liviya, İordaniya, Küveyt və s. ərəb ölkələrində səfirlikləri var. 1994-cü ildə Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığında səfərdə olmuş, «Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş» imzalamışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini daim vurğulayırdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı.

23 noyabr 1993-cü ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin qaçqınlara təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

Bundan sonra ölkəmiz ilə İKT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul

etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir.

Prezident Heydər Əliyevin İKT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

Hələ 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İKT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Abduləziz Əl-Saudla faydalı danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökümət Başçılarının Zirvə toplantısında iştirak etdi. Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Dövlət başçımız bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökümət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi.

Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İKT-yə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman

respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.

Prezident Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi.

Heydər Əliyevə göstərilən hörmət və diqqətin, böyük ehtiramın nəticəsi kimi İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi.

Bu nitqdə Azərbaycan Prezidenti toplantıda iştirak edən dövlət başçılarına müraciətlə İslam Konfransı Təşkilatında Asiya dövlətləri adından söz demək üçün ona imkan yaradılmasından böyük şərəf duyduğunu və bunu yüksək qiymətləndirdiyini qeyd etdi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır. Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan Prezidenti burada qəbul edilən qərarların bütün islam aləminin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhvə olacağını, Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın İslam Konfransı Təşkilatının diqqət

və qayğısına böyük ehtiyac duyduğunu söylədi. Bu ölkələrin həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqilliklərinin doğurduğu təbii çətinliklərlə üzləşdiklərini, dərinləşməkdə olan iqtisadi böhranların, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklərin, bəzi dövlətlərin məruz qaldığı müharibələrin, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlərin də vəziyyətə təsir göstərdiyini bəyan etdi.

Azərbaycan Prezidenti Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda qaldırılmasını təqdir etdi, həm də onların həlli ilə bağlı nikbinliyin artmasını vurğuladı. Prezidentimiz bu problemlərin həllini dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Konfransı Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına ümid etdiyini bildirdi.

Heydər Əliyev iştirakçıların diqqətinə onu da çatdırdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Sonda Azərbaycan Prezidenti İslam Konfransı Təşkilatının VII Zirvə toplantısının uğurla başa çatması münasibətilə üzv dövlətlərin başçılarını bir daha təbrik etdi, onlara və onların xalqlarına, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzuladı.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv öl-

kələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökümət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinin bu səfəri, orada keçirdiyi görüşlər, apardığı danışıqlar, qazandığı uğurlar öz müsbət nəticələrini verməyə başladı. Bu səfərdən sonra iKT ilə əlaqələrimizdə yeni uğurlar və nailiyyətlər dövrü başlandı.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyuldu.

Dövlətimizin başçısı İKT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Heydər Əliyev bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı

və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İKT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqı dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: «Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik… Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İKT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamə-

nin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və hökümət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İKT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırki sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir» və s.

İKT dövlət və hökümət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İKT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan qaçqınlarının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamə qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir. Konfrans İKT Baş katibinin bu barədə müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İKT Baş katibindən xahiş etmişdir.

Qeyd etmək lazımdır ki, İKT qətnamələri Azərbaycan üçün təkcə siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və başqa yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi mühüm sənədlər əsasında həyata keçirilib. İslam İnkişaf Bankı 1994-cü ildən etibarən mütəmadi olaraq qaçqınlarımıza humanitar yardım göstərir, onlar üçün iş yerləri yaradılması məqsədi ilə dəzgah və avadanlığın alınmasına 1 milyon ABŞ dolları vəsait ayırmışdır. Respublikamızın sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq 1,424 milyon ABŞ dolları vəsait ayırmışdır. Bankın respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

1997-ci il oktyabrın 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində İKT xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş əlaqələndirmə toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı, Ermənistan Res-

publikasının Azərbaycan Respublikasına təcavüzü də öz əksini tapmışdır. Toplantı Ermənistanın Azərbaycan Respublikasına təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

Müstəqil Azərbaycanın Çin və Yaponiya kimi ölkələrdə də qarşılıqlı faydalı əməkdaşlığı durmadan inkişaf edirdi. 1994-cü ilin martında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Sədri Tszyan Tszeminin dəvəti ilə bu ölkəyə rəsmi səfər etdi. Martın 7-də aparılan danışıqlarda Azərbaycan Respublikası ilə ÇXR arasında münasibətlərin inkişaf perspektivləri müzakirə olunub. Görüşdə qeyd edilib ki, iki ölkənin münasibətlərində istifadə edilməyən sahələr var. Bu sahələrə Çinin iqtisadi islahatlar təcrübəsinin öyrənilməsi, Azərbaycana kredit verilməsi, yeni istehsal sahələrinin işə salınması, yüksək texnoloji tutumlu məhsulların ixracı və onların istehsalı sahəsində əməkdaşlığın inkişafı aiddir. ÇXR-ın Sədri iki ölkə arasında əlaqələrin iki min ildən çox tarixi olduğunu və bu tarixin köklərinin İpək Yolu dövlətlərinə gedib çıxdığını qeyd edib. Səfər zamanı iki ölkə arasında hava yolunun açılması, mədəni, elmi-texniki əlaqələr, təbabət, investisiyaların həvəsləndirilməsi və qarşılıqlı surətdə qorunması haqda müqavilələr imzalanıb, dostluq münasibətlərinin inkişaf etdirilməsi haqqında birgə bəyanat qəbul edilib.

24-27 fevral 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Yaponiyada ilk dəfə rəsmi səfərdə olub. Yaponiyanın Tokio və Kioto şəhərlərini əhatə edən səfər çərçivəsində Azərbaycan Prezidenti bu ölkənin imperatoru əlahəzrət Akixito, baş nazir Haşimoto, hökumətin bir çox üzvləri, o cümlədən bu ölkənin çoxsaylı investorları, iş adamları ilə görüşüb, danışıqlar aparıb. Bu səfər nəticəsində iki ölkə arasında yeddi sənəd imzala-

nıb. Iki ən mühüm sənəd – “İki ölkə arasında dostluq və tərəfdaşlıq haqqında” birgə bəyanat və “Yaponiya ilə Azərbaycan arasında iqtisadiyyat və ticarət sahəsində əməkdaşlıq haqqında” birgə bəyanat 26 fevral 1998-ci ildə Tokioda Yaponiyanın baş naziri Haşimoto və Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən imzalanıb. Qalan beş sənəd isə hər iki dövlətin müxtəlif hökumət qurumları arasında imzalanıb. Yaponiya-Azərbaycan münasibətlərinin hüquqi-normativ cəhətdən əsaslandırılması baxımından bu sənədlər baza rolunu oynadı. Səfər Azərbaycan və Yaponiya arasında diplomatik, siyasi, iqtisadi əlaqələrin qurulmasında və inkişafında tarixi əhəmiyyətə malik səfər kimi qiymətləndirilir. Bu səfər nəticəsində Yaponiyanın «İtoçu», «Mitsui», «Sumitoma», «Capeks», «Marubeni» və digər iri şirkətləri milli iqtisadiyyatımızın müxtəlif sahələrinə, o cümlədən sənaye, energetika, kənd təsərrüfatı və s. investisiya qoyublar və uğurla fəaliyyət göstərməkdədirlər. Cənubi Qafqazda Yaponiyanın əsas tərəfdaşı olan Azərbaycan Respublikası bu ölkədən gətirilən yeni texnologiyaların və müasir texnikanın milli iqtisadiyyata tətbiq edilməsi sahəsində və müştərək layihələrin həyata keçirilməsində fəal əməkdaşlığını davam etdirir.

Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha qənaətə gəlirik ki, böyük öndərimizin yürütdüyü xarici siyasət də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

Bugün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Azərbaycan

Respublikasının xarici Şərq siyasətində heç şübhəsiz birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır.

Ulu öndər Heydər Əliyevin uğurlu siyasi fəaliyyətinin davamı olaraq 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir.

Prezident İlham Əliyevin 2003-cü ildə Türkiyədə «Avroatlantik İttifaqı Yol Ayrıcında» mövzusunda beynəlxalq konfransda, 2004-cü ildə NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə, İstanbulda Avroatlantik Tərəfdaşlıq Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə, 2006-cı ildə Antalyada Türkdilli Dövlətlərin və Toplumların X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayında, 2008-ci ildə Qarsda Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməl qoyma mərasimində, Antalyada Türkdilli ölkələrin Dövlət Başçılarının VIII Zirvə görüşündə, sonrakı illərdə Türkiyəyə işgüzar səfərlərində IV Enerji sammitində, İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammitində, Asiyada Qarşılıqlı Fəaliyyət və Tədbirlər üzrə müşavirənin III Zirvə toplantısında, Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə görüşündə və digər mühüm beynəlxalq forumlarda iştirakı, habelə 2007-ci ilin martında Bakıda keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın, həmin ilin noyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün və baş nazir R.T.Ərdoğanın Bakıda keçirilən «XV Beynəlxalq Xəzər neft və qaz, neftayırma, neft kimyası» sərgi və konfransında, Naxçıvanda «Düzdağ» fizioterapiya mərkəzinin açılışında iştirakları, 2008-ci ilin sentyabrında və 2010-cu ilin avqustunda Abdullah Gülün Azərbaycana səfəri və digər işgüzar səfər və görüşlərin qısa xronikası

Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin mühüm tərkib hissəsi olduğunu bir daha nümayiş etdirir.

2010-cu ildə «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında» Birgə Bəyannamə qəbul olunmuş və «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında» Müqavilə imzalanmışdır.

2003-cü il Türkiyəyə səfəri zamanı Bilkənd Universitetinin fəxri doktoru seçilmiş İlham Əliyev eyni zamanda İhsan Doğramacı adına Dünya Sülh mükafatına, 2005-ci il 5 mart tarixində İpək Yolu Vəqfinin «2004-cü ilin siyasətçisi», 2006-cı il 12 iyulda Türkiyə Respublikasına işgüzar səfəri zamanı nüfuzlu «Ekovitrin» jurnalının «Avrasiyada ilin siyasət adamı» mükafatına və digər mükafatlara layiq görülmüşdür. Prezident İlham Əliyevin Türkiyənin ayrı-ayrı televiziya, mətbuat işçiləri ilə şəxsən özünün görüşləri mühüm əhəmiyyət daşıyır. Müxtəlif vaxtlarda TRT televiziyasının sədrini, «Sərhədlərarası» proqramının aparıcısını qəbul edən, NTV, Samanyolu, SOY-TV kanallarına, daha sonra «İHLAS» xəbərlər agentliyinə, «TÜRKİYƏ» qəzetinə, «EKO-VİTRİN» jurnalının müxbirlərinə, «CÜMHURİYYƏT», «HÜRRİYYƏT» qəzetlərinə müsahibələr verməsi ölkə başçımızın Türkiyə ilə əməkdaşlığa verdiyi önəmə daha bir bariz sübutdur.

Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin yaradılması, Azərbaycanda türk litseylərinin, Qafqaz Universitetinin fəaliyyət göstərməsi birgə mədəni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır.

Türkdilli ölkələrin Dövlət Başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublikamızın Prezidenti qazax, qırğız və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir. 2006-cı ildə görkəmli qazax şairi və ziyalısı Oljas Süleymenovu qəbul etməsi, 2008-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun Bakıya səfəri çərçivəsində özbək mütəfəkkir-şairi Əlişir Nəvainin Bakıda heykəlinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün, böyük şairimiz Nizami Gəncəvinin heykəlinin Daşkənd şəhərində ucaldılması, bugünlərdə Oljas Suleymenovu qəbul edərək 75-illik yubileyi münasibəti ilə «Dostluq» ordeni ilə təltif etməsi və digər hadisələr mədəni əlaqələrdə böyük önəm daşıyır.

2010-cu ilin sentyabr ayında Özbəkistana rəsmi səfər edən dövlətimizin başçısı bir sıra çox mühüm sənədlərə - «Azərbaycan Respublikası Prezidentinin və Özbəkistan Respublikası Prezidentinin birgə bəyannaməsi», «Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2011-2015-ci illər üzrə iqtisadi əməkdaşlıq haqqında» saziş - imza atmışdır. 2010-cu ilin dekabr ayında Prezident İlham Əliyev ATƏT-in VII sammitində iştirak etmək üçün Qazaxıstana işgüzar səfər etmişdir. Səfər zamanı Qazaxıstan Prezidenti və bir sıra digər rəsmi şəxslərlə ikitərəfli görüşlər keçirilmişdir.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə «Azərbaycan və Türkmənistanın neft və qaz poten-

sialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası», Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqlarının inteqrasiyası istiqamətində baş tutan digər bir çox önəmli hadisə - Türkdilli Dövlətlərinin Parlament Assambleyasının (Türk PA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət, Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan-İran münasibətlərində müxtəlif dövrlərdə narazılıqlar baş versə də, hər iki tərəf qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədə saxlamışdır. Narazılıqların əsasında İranın Ermənistana hərtərəfli dəstək verməsi, Xəzər dənizinin bölgüsü məsələsində İran rəhbərliyinin beynəlxalq hüquqa zidd mövqe tutması, İİR-da fəaliyyət göstərən bəzi qurumların ölkəmizin daxili işlərinə kobud müdaxiləsi faktları dayanır. Lakin bunlara baxmayaraq əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi günün tələbidir və hər iki xalqın maraqlarına cavab verir.

2004-cü ilin avqustunda İran prezidenti Məhəmməd Hatəmi Azərbaycana səfərə gəlib. O, bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar İranın Azərbaycanı müdafiə etdiyini bildirən bəyanat verib. Hatəminin səfəri zamanı müxtəlif sahələrdə əməkdaşlıq müqavilələrinin bağlanması ilə yanaşı, Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğunun açılması məsələsi də həll edilib. Qeyd edək ki, bu problem, Azərbaycan-İran münasibətlərində həlli çətin olan problemlərdən idi və yalnız Prezident İlham Əliyevin böyük səyi nəticəsində öz həllini tapdı.

2005-ci ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrana rəsmi səfər etdi. Səfər zamanı tərəflər

arasında sərhəd, maliyyə, mədəniyyət, hidroenergetika və s. sahələrdə əməkdaşlıq haqqında müqavilələr imzalanıb.

2005-ci il 8-9 yanvar tarixlərində Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının növbəti 6-cı iclası keçirilmişdir. Iclasın nəticəsi olaraq iqtisadi, ticarət və humanitar sahələr üzrə əməkdaşlığa dair Memorandum imzalanmışdır.

2005-ci ilin dekabrında İran prezidenti Mahmud Əhmədinejad İrandan Naxçıvana çəkilmiş qaz kəmərinin açılışında iştirak etmək üçün Muxtar Respublikaya gəlib. Burada Əhmədinejad və prezident İlham Əliyev tərəfindən enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. 2006-cı ilin iyununda İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən IX Zirvə toplantısında Azərbaycan və İran prezidentləri ikitərəfli görüş keçirərək, bir sıra ikitərəfli və regional məsələlərə dair fikir mübadiləsi aparmışlar. Bu görüşlərdə prezidentlər iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bəyan etdilər.

Prezident İlham Əliyev 2005-ci ilin sonu və 2006-cı il ərzində beynəlxalq miqyasda kəskinləşən nüvə enerjisi məsələsi ilə bağlı müsahibələrində İrana qarşı sanksiya tətbiq edilməsinin əleyhinə olduğunu bildirdi. O, Azərbaycan ərazisindən heç bir dövlətə qarşı istifadəyə yol verilməyəcəyini, nüvə məsələsinin danışıqlar və qarşılıqlı razılıq əsasında həllinə tərəfdar olduğunu söylədi.

2007-ci il avqustun 21-də İran Prezidenti Mahmud Əhmədinejad növbəti dəfə Azərbaycanda səfərdə olub. Prezident İlham Əliyevlə söhbətində dövlət başçıları bu səfərin əhəmiyyətli olduğunu vurğulayıblar. Səfər nəticəsində bir sıra sənədlər imzalanıb. 2007-ci il oktyabrın 16-da isə Prezident İlham Əliyev Xəzəryanı dövlət başçılarının II Zirvə toplantısında iştirak etmək üçün İrana səfər edib. Prezidentlərin görüşü zamanı siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin hər iki tərəfin mənafeyinə uyğun şəkildə uğurla inkişaf etdiyi bildirildi.

10 mart 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrana rəsmi səfər edib. Prezidentlərin təkbətək görüşü zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin

inkişaf perspektivləri və bir sıra beynəlxalq və regional məsələlər müzakirə edilib. Səfər zamanı Prezident İlham Əliyev İranın ali dini rəhbəri Seyid Əli Xameneyi ilə görüşüb. Görüşdə iki ölkə arasında qonşuluq və əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə də uğurla inkişaf etdiyi bildirilib, Azərbaycan-İran münasibətlərinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilib. Səfər zamanı bir sıra sənədlər, o cümlədən «Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair» Protokol imzalanıb. Daha sonra Prezident İlham Əliyev Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının X Zirvə görüşündə iştirak edib. Zirvə görüşünün yekunlarına dair Tehran Bəyannaməsi qəbul olunub.

2010-cu ilin sentyabrında İran İslam Respublikasında keçirilən Azərbaycan mədəniyyət günləri iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə oldu. Azərbaycan mədəniyyət günləri bu ilin ən yaddaqalan mədəniyyət hadisələrindən biri kimi tarixə düşdü. Ölkəmiz müstəqillik qazandıqdan sonra ilk dəfə idi ki, İranda Azərbaycan mədəniyyət günləri keçirilirdi. Tədbirin yüksək səviyyədə təşkil olunması iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin, Azərbaycan və İran rəhbərliyinin qarşılıqlı tərəfdaşlığa və mehriban qonşuluğa verdikləri önəmin bariz təzahürüdür. Bu əlamətdar hadisə, eyni zamanda, iki ölkə arasında qədim mədəniyyət körpüsünün daha da möhkəmlənməsi, iki ölkənin mədəni mübadiləsinin yeni müstəviyə qədəm qoyması deməkdir.

İKT ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. Azərbaycanda İKT-nin bir sıra konfrans, forum, seminar və digər tədbirləri keçirilmişdir. 2005-ci ildə İKT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 2006-cı ildə (19-21 iyun) təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin XXXIII konfransı Bakıda keçirildi. Bakıda keçirilən İKT turizm nazirlərinin V konfransının (10-11 iyun 2009) nəticəsi olaraq qəbul edilmiş yekun bəyannamədə Ermə-

nistanın Azərbaycana təcavüzü pislənməklə yanaşı, işğal edilmiş ərazilərdə və habelə Ermənistan daxilindəki mədəniyyət və islam abidələrinə qarşı həyata keçirilən vandalizm siyasəti, eləcə də işğal olunmuş ərazilərin təbii resurslarından istifadə edilməsini pisləyən maddələr əksini tapıb.

İKT indiyə qədər Azərbaycanla bağlı bir sıra önəmli qətnamələr qəbul edib: Azərbaycana iqtisadi yardım barədə qətnamə, Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində islam tarixi və mədəni abidələrinin dağıdılması barədə qətnamə, Ermənistan və Azərbaycan arasındakı münaqişə barədə qətnamə və sairə. Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti, İKT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pisləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbul olunmasına nail olmuşdur.

Azərbaycan öz növbəsində təşkilatın qərarlarının qəbul edilməsində fəal iştirak edir. İslam dövlətlərində baş verən proseslərə münasibətdə konstruktiv mövqe tutur. Təşkilatın bütün tədbirlərində Azərbaycan nümayəndələri birmənalı şəkildə Fələstin xalqının suverenlik hüququnu müdafiə edib, Qüdsdəki islam abidələrinin toxunulmazlığına tərəfdar çıxıb.

Azərbaycan İKT-nın aidiyyatı strukturları ilə də sıx əməkdaşlıq edərək həmin qurumların işində, eyni zamanda üzv ölkələrdə keçirilən tədbirlərdə çox yaxından iştirak edir. Bu nöqteyi nəzərdən H.Əliyev fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti və onun İSESKO-nun xoşməramlı səfiri təyin edilməsi və İKT-nin baş katibi Əkmələddin İhsanoğlu tərəfindən göstərdiyi xidmətlərə görə təşkilatın humanitar məsələlər üzrə xüsusi elçisi diplomu ilə təltif edilməsi təqdirəlayiqdir.

İKT-nin Uqandada keçirilən XI sammitinin (10-11 iyun 2008) və Seneqalda keçirilən xarici işlər nazirlərinin XXXV konfransında (13-14 mart 2008) nazir Elmar Məmmədyarov geniş çıxış edərək Azərbaycan-İKT münasibətlərinin səmərəli şəkildə inkişaf etdiyini vurğulayıb. Konfransın sonunda erməni işğalını pisləyən, eləcə də ermənilərin işğal etdikləri ərazidən dər-

hal və şərtsiz çıxmalarını tələb edən sənəd qəbul edilib. Təşkilatın XI sammitində Azərbaycan tərəfinin yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində yekun xartiyanın «məqsədlər və prinsiplər» bölməsinə üzv ölkələrin dövlət müstəqilliyi və təcavüz nəticəsində ərazisi işğala məruz qalmış dövlətlərin ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlı xüsusi bənd daxil edilib.

2010-cu ildə «Azərbaycan Respublikası Hökuməti və İslam Konfransı Təşkilatına bağlı beynəlxalq qurum-Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-ın Avrasiya üzrə Regional Mərkəzin Bakı şəhərində yerləşməsi haqqında» saziş imzalandı.

Regionda strateji əhəmiyyət daşıyan ərəb ölkələri ilə də əlaqələr yüksələn xətlə inkişaf edir. 2004-cü ildən başlayaraq Prezident İlham Əliyevin Ərəb ölkələrinə bir sıra rəsmi dövlət səfərləri baş tutdu: 2004-cü ildə Qətərə, 2005-ci ildə Səudiyyə Ərəbistanı Krallığına, 2006-cı ildə Birləşmiş Ərəb Əmirliklərinə, 2007-ci ildə Misir Ərəb Respublikasına və İordaniya Haşimilər Krallığına, 2009-cu ildə Küveytə. Bütün bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə edilmiş, birgə bəyannamələr qəbul olunmuş, bir sıra mühüm müqavilələr və sazişlər imzalanmışdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın işğal edilmiş ərazilərində yaranmış vəziyyət xüsusi müzakirə obyekti olmuşdur. Azərbaycan hökuməti ilə bir sıra ərəb ölkələri hökumətləri arasında əməkdaşlığa dair Birgə Komissiyalar yaradılmışdır.

Aparılmış böyük işlərin, yaradılmış mühüm əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın nəticəsidir ki, 2008-ci ilin 14 mart tarixində BMT-nin Baş Assambleyasının 62-ci sessiyasında «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnamənin qəbul olunmasına dair keçirilən səsvermədə bir çox müsəlman ölkələri Azərbaycanın mövqeyini dəstəkləmişdir.

Beləliklə, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu ilk növbədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş düzgün xarici siyasətin nəticəsidir.

2005-ci ilin 17-19 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri edib. Martın 17-də iki ölkənin dövlət başçılarının rəhbərliyi ilə geniş tərkibdə Azərbaycan-Çin danışıqları keçirilib. Daha sonra Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında birgə bəyannamə imzalandı. Martın 17-də Azərbaycan və Çin rəsmiləri arasında Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş üzrə əməkdaşlıq haqqında saziş, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə Çin Mərkəzi Televiziyası arasında saziş, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin İnformasiya Sənayesi Nazirliyi arasında qarşılıqlı əlaqələr haqqında Memorandum, habelə, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında saziş və digər ikitərəfli sənədlər imzalanıb. Səfər zamanı keçirilən bütün görüşlərdə Azərbaycan və Çin dövlətləri arasında əməkdaşlığın istiqamətləri müzakirə edilib və bu sahədə geniş perspektivlərin olduğu müəyyənləşdirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 8-11 mart 2006-cı ildə Yaponiyaya etdiyi rəsmi səfərdən sonra iki ölkə arasındakı siyasi-iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu səfər iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinə rəvac verib. Səfər çərçivəsində keçirilən iqtisadi forumda Prezident İlham Əliyev nitq söylədi və Yaponiya şirkətlərini Azərbaycanda daha geniş fəaliyyət göstərməyə, xüsusilə qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün yeni texnologiyaların gətirilməsində iştirak etməyə çağırdı. Prezident İlham Əliyev kənd təsərrüfatı, təhsil, səhiyyə sahəsində ölkəmizdə konkret proqramlar həyata keçirildiyini söyləyərək Yaponiyanı təmsil edən şirkətlərin bu sahədə fəal iştirak etmələrini arzuladı.

Forumun nəticəsi olaraq, hər iki ölkəni təmsil edən bəzi şirkətlər arasında bir neçə milyon dollarlıq müqavilələr imzalandı. Martın 10-da Yaponiya Baş nazirinin iqamətgahında ikitərəfli sənədlərin imzalanma mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yaponiyanın Baş naziri Dzüniti-

ro Koidzumi «Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə» imzaladılar. Sonra Azərbaycanın iqtisadi inkişaf naziri və Yaponiyanın ölkəmizdəki səfiri Tadahiro Abe «Azərbaycan Respublikasının Hökuməti və Yaponiya Hökuməti arasında texniki əməkdaşlıq haqqında saziş»i, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və səfir Tadahiro Abe «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq proqramı»nı imzaladılar .

2007-ci ilin aprel ayında Prezident İlham Əliyev Koreya Respublikasına rəsmi dövlət səfəri etdi. Səfər zamanı aparılmış danışıqlar, müzakirələr, görüşlər nəticəsində prezidentlər İlham Əliyev və Ro Mu Hyun Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə bəyannamə imzaladılar. Daha sonra Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında saziş, Elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə anlaşma Memorandumu, İntellektual nəqliyyat sistemi sahəsində əməkdaşlıq üzrə anlaşma Memorandumu, Fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında anlaşma Memorandumu və digər sənədlər imzalandı. Prezident İlham Əliyev Azərbaycanın Koreya şirkətləri ilə əməkdaşlığa maraq göstərdiyini, gələcəkdə, əsasən energetika, nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları sahəsində əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu bildirdi. Aprelin 24-də Seulda Azərbaycan və Cənubi Koreya iş adamlarının biznes forumu keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak edərək, geniş nitq söylədi.

Regionun digər ölkələri ilə (Hindistan, İndoneziya, Malayziya və s.) də əlaqələr yaradılır, səfirliklər açılır, qarşılıqlı səfərlər həyata keçirilir, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

*2011-ci il.*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ

**XXl əsrdə yalnız yüksək elmi potensiala və elm tutumlu texnologiyaya malik ölkələr öz xalqları üçün xoşbəxt və firavan həyat tərzi təmin etmək imkanına malik olacaq.**

*Heydər Əliyev*

**Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir.**

*İlham Əliyev*

Müstəqil Azərbaycanın banisi, xalqımızın böyük oğlu, Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizin digər sahələri kimi elm sahəsinin də inkişafında misilsiz xidmətləri var. İstər Azərbaycana rəhbərliyi dövründə, istərsə də İttifaq rəhbərliyində mövqeyindən və şəxsi nüfuzundan istifadə edərək o daim xalqımızı hərtərəfli inkişaf etdirmək və öncül yerlərə çıxarmağa, milli oyanışı bütün sahələrdə təmin etməyə çalışırdı. Ulu Öndər fəaliyyətini elmi prinsiplər əsasında qururdu, xalqın intellektual potensialına arxalanırdı. Sovetlər birliyində mövcud siyasi ab-havanın çox məhdud imkanlarından istifadə edərək Ulu Öndər daim xalqda milli şüurun və milli kimliyin formalaşmasına çalışırdı.

Azərbaycana ilk dəfə rəhbərliyə gəldikdən sonra o elmin inkişafına xüsusi diqqət yetirir, bunun üçün mühüm qərarlar verir-

di. Onun fəaliyyəti nəticəsində yeni elmi-tədqiqat institutları açılır, elmi işçilərin sayı artır, Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmlənir, xüsusi təyinatlı layihə-konstruktor büroları yaradılır, elmi nailiyyətlər artır, elmimiz dünyada tanıdılır, yüksək ixtisaslı elmi kadrların sayı durmadan artırdı. Bu illər ərzində ölkədə 2677 elmlər namizədi, 258 elmlər doktoru hazırlanmışdı. Ölkədə ümumilikdə 22 min elmi əməkdaş çalışırdı, onlardan 8 mini elmlər namizədi, 900-dən çoxu elmlər doktoru idi. Yeni elm sahələri və elmi istiqamətlər açılmışdır. Kimya, neft emalı və neft-kimya sənayesinə vəsaitin qoyuluşu hesabına modernləşmə prosesi gedirdi, qabaqcıl texnologiyalar tətbiq olunurdu. Kosmik tədqiqatlar, astronomiya, biokimya, biofizika, molekulyar biologiya, biotexnologiya inkişaf etdirilirdi. Onlarla böyük sənaye kompleksləri yaradıldı.

Elmə qayğının artmasının göstəricisindən biri də bu illərdə Elmlər Akademiyasının bir sıra qurumları üçün yeni inzibati binaların, korpusların tikilməsi və yenidən qurulmasından ibarət olmuşdur. Bu tikililərin arasında zoologiya, genetika və seleksiya, aşqarlar kimyası institutlarının binalarını, aspirantlar üçün yataqxananın, bir sıra mühəndis-laboratoriya korpusları da var.

Azərbaycan Sovet Ensiklopediyasının nəşri barədə qərar qəbul olunsa da uzun müddət qənaətbəxş iş bu istiqamətdə görülməmişdi. Yalnız Heydər Əliyev rəhbərliyə gələndən sonra 10 fevral 1976-cı ildə ASE-nin baş redaksiyası və elmi-redaksiya şurası təsdiq olundu və qısa müddətdə nəşrin I cildi çap edildi. Sonrakı illərdə nəşrin daha 9 cildi işıq üzü gördü.

Məlumdur ki, 70-ci illərdə Bakıda "Türkologiya" jurnalının nəşrə başlanması Heydər Əliyevin böyük əzminin, vətənpərvərliyinin nəticəsi idi. SSRİ rəhbərliyi buna dəfələrlə etiraz etsə də, Heydər Əliyev şəxsi nüfuzu və fədakarlığı nəticəsində jurnalın Bakıda nəşrinə nail oldu.

Ölkəmizin qədim tarixini və mədəniyyətini dünyaya tanıtmaq məqsədilə Ulu Öndər alimlərimizin beynəlxalq konfrans və konqreslərdə iştirakını təşviq edirdi, ölkəmizdə də bu kimi elmi tədbirlərin keçirilməsinə daim şərait yaradırdı. Onun təşəbbüsü

ilə 1981-ci ildə görkəmli alim Nəsirəddin Tusinin 780 illiyi təntənəli şəkildə qeyd olunmuşdu. Yubiley tədbirlərində Heydər Əliyev şəxsən iştirak etmişdi.

1993-cü ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elm sahəsində də böyük müsbət dəyişikliklər baş verdi. 1997-ci il yanvarın 31-də Azərbaycan Prezidenti Elmlər Akademiyası Rəhbərliyini və aparıcı alimlərini qəbul edərək elm sahəsində islahatların aparılmasının vacibliyini təsdiqlədi, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirdi. Bu görüşün Azərbaycan elminin və Elmlər Akademiyasının tarixində böyük əhəmiyyəti var idi. Elmimizin nüfuzu yenidən artdı, cəmiyyətdəki rolu və mövqeyi möhkəmləndi. Daha sonra ölkə başçısı elmin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması, elmi-texniki potensialın qorunub saxlanılması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etdi. Prezident Heydər Əliyevin 15 may 2001-ci il tarixli fərmanı ilə respublika Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verildi. Akademiyaya seçkilər keçirildi, əmək haqları artırıldı.

2002-ci ildə dövlət başçısı Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq, AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzaladı. Sonrakı illərdə AMEA-nın Gəncə bölməsi, Lənkəran, Şəki elmi mərkəzləri fəaliyyətə başladılar.

Ulu Öndər 2003-cü il yanvarın 4-də Milli Elmlər Akademiyasının respublikada elmin inkişafını təşkil və təmin etdiyini, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirdiyini, elmi müəssisə və ali məktəblərin elmi fəaliyyətini əlaqələndirdiyini və istiqamətləndirdiyini, respublikamızı xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil etdiyini nəzərə alaraq xüsusi fərman imzaladı. Həmin fərmanla Azərbaycan Milli Elmlər Akademiyasının statusu, nizamnaməsi, prezidentinin vəzifəsi, səlahiyyətləri müəyyən edildi.

Heydər Əliyev bütün fəaliyyəti dövründə humanitar və ictimai elmlərin inkişafına, dilimizin, tariximizin, ədəbiyyatımızın

tədqiqinə xüsusi önəm vermiş, onların xalqın inkişafında oynadığı rolu daim yüksək qiymətləndirmişdir. Onun bu sahələrə verdiyi önəm nəticəsində elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verildi. Ulu Öndər alimlərimizə çoxəsrlik tariximizin dərindən tədqiq edilməsi zərurətini tapşırır, bu sahədə hələ çox işlər görülməsini vurğulayırdı.

Xalqımızın tarixinin və mədəniyyətinin öyrənilməsi üçün qədim əlyazmaların əhəmiyyətini gözəl anlayan Heydər Əliyev bununla bağlı xüsusi qərar qəbul etdi. 1981-ci ilin avqust ayında "Azərbaycan SSR Əlyazmalar fondunun fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" məsələnin müzakirəsindən sonra qəbul edilən Azərbaycan elmi, mədəniyyəti və tarixi üçün xüsusi əhəmiyyət daşıyan bu qərarla Əlyazmalar Fondu Əlyazmalar İnstitutuna çevrildi. Qərara uyğun olaraq hələ XX əsrin əvvəllərində məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilən binanı Heydər Əliyev Əlyazmalar İnstitutuna verdi.

Şərqşünaslıq İnstitutunun fəaliyyətinin genişlənməsində də Ulu Öndərin rolu olub. Məhz onun tövsiyyəsi ilə burada Cənubi Azərbaycan tarixi şöbəsi, 1982-ci ildə isə Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsi təşkil edildi, elə həmin ildə görkəmli şərqşünas alim Mirzə Kazımbəyin anadan olmasının 180 illiyi qeyd edildi.

Ulu Öndər folklorun ətraflı araşdırılmasını zəruri hesab edirdi. Azərbaycan yazıçılarının VII qurultayında o demişdir: "Yurdun folkloru, müxtəlif el sənətləri, etimologiya, dil tarixi, hamısı küll halında öyrənilməlidir".

Bu illər xalqın mədəni və mənəvi inkişafında əsl intibah dövrü olmuşdur, azərbaycançılıq məfkurəsi xalqın ictimai şüurunda özünə möhkəm yer salmışdır. Xalqın milli tarixi yaddaşı və mənəvi dəyərləri dirçəldilirdi. Ulu Öndərin uzaqgörən tövsiyələri ilə bu prosesin önündə alimlərimiz gedirdi və gələcək müstəqillik ideyasının əsasları məhz o zaman formalaşırdı.

2003-cü ilin fevral ayında işıq üzü görən "Naxçıvan Ensiklopediyası" Muxtar Respublikanın 75 illiyinə ən gözəl hədiyyə idi.

Ulu Öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc mütəxəssis və alimlər SSRİ-nin və daha sonralar müstəqillik dövründə dünyanın aparıcı universitet və elmi mərkəzlərinə dövlət hesabına bakalavriat, magistratura, məqsədli aspirantura və doktoranturalara göndərildi. Fizika, informatika, riyaziyyat, kibernetika, neft maşınqayırması sahələrində yüksək ixtisaslı kadrlar hazırlandı. Ölkəmizin gələcəyini düşünən Ümummilli Liderimizin reallaşdırdığı milli inkişaf proqramı bu gün də öz bəhrəsini verir. Neft kimyası və neftayırma Azərbaycan elminin aparıcı istiqamətlərindən olmuşdur. O dövrdə Neft-kimya prosesləri, Aşqarlar kimyası, Fizika, Riyaziyyat institutları böyük tədqiqat mərkəzlərinə çevrilmişdi. Azərbaycanlı alimlər Volqaboyu, Qərbi Sibir, Qazaxıstan, Türkmənistan, Belarus, Ukrayna və başqa respublikaların neft yataqlarının işlənməsində fəal iştirak edir, Rumıniya, ADR, Əfqanıstan, Kuba, Əlcəzair, İraq və Suriyada neft sahəsində fəal işləyirdilər. Onların ixtiraları ABŞ, Yaponiya, AFR, İngiltərə və İtaliyada patentlər almışdı.

Təbiətşünaslıq elmi də sürətlə inkişaf edirdi. 1978-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının nəzdində öz laboratoriyaları, konstruktor bürosu və təcrübi istehsalatı olan "Xəzər" Elmi Mərkəzində Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu yaradılmışdır.

Radiotexnika, elektronika və elektron sənayesinin inkişaf perspektivlərini nəzərə alan alimlər texniki fizika, tətbiqi riyaziyyat, kibernetika, radioelektronika sahələrində tədqiqatlarını aparırdılar.

Heydər Əliyev Elmlər Akademiyasının, onun institutlarının, görkəmli alimlərin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi diqqət yetirirdi. Belə yubileylərin keçirilməsi elmə olan marağı ölkəmizdə artırır, Azərbaycan alimlərini tanıdırdı.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə Ordubadda akademik Yusif Məmmədəliyevin ev-muzeyi açıldı, açılış

mərasimində tanınmış alimlər çıxış etdilər. Bu ölkədə elmə olan marağı, alimə olan qayğını göstərirdi. Müstəqillik illərində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi, “Kitabi Dədə Qorqud” eposunun 1300 illiyi Ulu Öndərin təşəbbüsü ilə böyük təntənə ilə qeyd edildi.

Ulu Öndərin təşəbbüsü ilə Elmlər Akademiyasının yubileyləri mütəmadi olaraq yüksək səviyyədə keçirilir, alimlərə dövlət təltifləri və digər imtiyazlar verilirdi.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev ölkədə elmin inkişafına, alimin nüfuzunun daim yüksək olmasına böyük diqqət yetirir, elmin inkişaf perspektivləri ilə, alimlərin sosial problemlərinin həlli və mükafatlandırılmasıyla bağlı dəyərli qərar və tövsiyələr verir.

# AZƏRBAYCANDA ELMİ TƏRƏQQİNİN ƏSAS TƏMİNATÇISI PREZİDENT İLHAM ƏLİYEVDİR

Elm - insan zəkasının ən böyük nailiyyəti, millətin varlığının təminatçısıdır. Hər bir dövlətin inkişafının əsasında onun elmi, intellektual kapitalından düzgün istifadə etməsi və bütün bunların sayəsində əldə etdiyi yüksək nailiyyətlər durur. Dünyanın ən inkişaf etmiş dövlətlərinin bu gün iqtisadi-siyasi proseslərdə oynadığı fövqəl missiyasını da təmin edən amil onların elmdə qazandığı nailiyyətləri və bunu ölkənin müxtəlif sahələrində müvəffəqiyyətlə tətbiq etmələridir.

Ümummilli lider Heydər Əliyev daim vurğulayırdı ki, "XXI əsrdə yalnız yüksək elmi potensiala və elm tutumlu texnologiyaya malik ölkələr öz xalqları üçün xoşbəxt və firavan həyat tərzi təmin etmək imkanına malik olacaq". Müdrikcəsinə deyilmiş bu fikir qloballaşan və elmi-texniki inqilabın ən yüksək mərhələsini yaşayan dünyamızda öz aktuallığını hər gün göstərir.

Ulu öndər hələ sovet dövründə respublikaya rəhbərlik edərkən elmin, təhsilin inkişafına xüsusi diqqət ayırırdı. Məhz bu qayğının nəticəsində o vaxtlar Azərbaycan elmi böyük nailiyyətlər əldə etmiş, dünya elminə sanballı töhfələr vermiş, neçə-neçə azərbaycanlı alim SSRİ Elmlər Akademiyasına həqiqi və ya müxbir üzv seçilmişlər.

Ötən əsrin 90-cı illərinin əvvəllərində yaşadığımız keşməkeşlər Azərbaycan elminə, xüsusən onun baş məbədi olan Elmlər Akademiyasına da ciddi təsir göstərmişdir. Cəmiyyətin bütün sahələrində olduğu kimi, Elmlər Akademiyası sistemində də dərin böhran, tənəzzül, hətta iflas prosesləri müşahidə olunurdu. Yalnız Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından və Elmlər Akademiyası üzvləri ilə, elmi ictimaiyyətlə tarixi görüşündən və görüş nəticəsində atdığı addımlardan sonra bu prosesin qarşısı alındı və ölkənin digər sahələrində olduğu kimi, Elmlər Akademiyasında da sabitlik yarandı. Elmin inkişafı, elmi-

texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirildi. Ulu öndər Heydər Əliyevin 2001-ci il 15 may tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verildi. Bu tarixi fərman ölkədə fundamental elmin nailiyyətlərini, Azərbaycan xalqının sosial, iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu, dövlətin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqlədi.

Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə AMEA-ya müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verildi, onun Nizamnaməsinə dövlət sənədi, onun prezidentinə ali icra hakimiyyəti üzvü səlahiyyəti verildi. Bununla da hüquqi zəmin yarandı, Elmlər Akademiyasının fəaliyyət dairəsi genişləndi və səlahiyyətləri artdı.

Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyev isə elmdə islahatlar, elmin inkişaf strategiyası, Elmin İnkişafı Fondunun yaradılması ilə bağlı sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi istiqamətində mühüm addımlar atdı. Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə artırılıb. Xüsusən də dövlət başçısının 2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 60 illiyi ilə əlaqədar imzaladığı sərəncamlarla görkəmli alimlərimizə yüksək dövlət mükafatları, elmi adlar, prezident təqaüdü və mənzillər verilməsini qeyd etmək istərdim. Elmin inkişafına yönəldilən xərclər təxminən 7 dəfə artıb. Azərbaycan Elminin İnkişaf Strategiyası təsdiq olunub, 2009-2015-ci illərdə elmin inkişaf strategiyasının həyata keçirilməsi üçün Dövlət Proqramı qəbul edilib, Elmin İnkişaf Fondu yaradılıb və s. Bütün bunlar göstərir ki, AMEA-ya, Azərbaycan elminə diqqət ilbəil artırılır.

Son illər elm və mədəniyyət ocaqlarının təmirinə, maddi-texniki bazasının gücləndirilməsi işinə də böyük diqqət yetirilir.

Nümunə kimi bir müddət öncə Tarix Muzeyinin əsaslı şəkildə təmir edilməsini və onun yeni eksponatlarla təchiz olunmasını, köhnə eksponatların bərpası üçün dövlətin hər il vəsait ayırmasını, eləcə də Nizami adına Ədəbiyyat Muzeyinin təmirini göstərmək olar. Hər iki muzeyin təmirdən sonra açılışında Prezident İlham Əliyev iştirak edib və görülən işlərlə yaxından tanış olub. Bütün bunlar Azərbaycanda elmə, mədəniyyətə yüksək diqqət və qayğıdan xəbər verir. Eyni zamanda, Elmin İnkişafı Fonduna çox böyük vəsaitlər ayrılır. Elm ocaqlarının yeni avadanlıqlar ilə təchiz olunması, modernləşməsi, dünya elminə inteqrasiya etməsi, qrant müsabiqələrinin keçirilməsi, elmi işçilərin əməyinin stimullaşdırılması üçün bu fond ciddi işlər görməkdədir. Ümumiyyətlə, akademiyanın təchizat məsələləri son illər xeyli səviyyədə yaxşılaşdırılıb. Texniki avadanlıqlarla təchiz olunması, ezamiyyətlərin verilməsi, xarici ədəbiyyatların alınması və digər məsələlərdə müsbət irəliləyişlər çoxdur.

Xeyli vaxt idi ki, AMEA-nın əsas və digər binalarında əsaslı şəkildə təmir işləri aparılırdı. Dövlət bu təmir-bərpa işləri üçün lazımi vəsaiti ayırmışdı. Bu məsələ Prezident İlham Əliyevin xüsusi diqqətində idi və dövlət başçısının akademiya şəhərciyində aparılan əsaslı təmir işlərindən sonra vəziyyətlə tanış olması buna bariz sübutdur.

Prezident İlham Əliyevin AMEA-nın illik hesabat yığıncağındakı söylədiyi nitq isə Azərbaycan elminin inkişafında çox böyük hadisədir. Dövlət başçısı yığıncaqdakı dərin məzmunlu çıxışında alimlərimizin əməyinə yüksək qiymət verdi: “Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir.”

Ölkə başçısının Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağından sonra mayın 1-dən AMEA-nın həqiqi üzvlərinin aylıq rütbə maaşlarının 1200 manat, müxbir üzvlərininsə aylıq rütbə maaşlarının 850 manat məbləğində müəyyən edilməsi, AMEA-nın tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi-tədqiqat müəssisələrində çalışan işçilərin əməkhaqlarının 20 faiz artırılması, eləcə də akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında verdiyi sərəncamlar alimlərimiz tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Bütövlükdə akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də konkret addımlar atıldı. Prezidentin sərəncamı ilə "Akademiya şəhərciyi"ndə AMEA-nın mərkəzi kitabxanasının yeni binasının tikilməsi, ərazidəki qeyri-akademik qurumların köçürülməsi, burada yerləşən Fizika və Geologiya institutlarının, eləcə də Sumqayıt şəhərindəki Polimer Materialları İnstitutunun binalarının əsaslı təmiri nəzərdə tutulur, eləcə də "Xəzər Elmi Tədqiqat Mərkəzi"nin yaradılması, neft-kimya yönümlü institutların zəruri avadanlıqlarla təchiz edilməsi ilə bağlı təkliflərin hazırlanması müvafiq qurumlara tapşırıldı.

Bütün bunlar onu göstərir ki, Azərbaycan elminin inkişafı, modernləşməsi, dünya elminə inteqrasiya etməsi üçün dövlətimiz əlindən gələni edir, görülən işlərdə alimlərimizi dəstəkləyir, fəaliyyətlərini yüksək qiymətləndirir və onlar üçün hər cür şərait yaradır. Biz alimlərin də vəzifəsi Azərbaycan elmini müasir dövrün tələblərinə uyğunlaşdırmaq və elmimizi yeni-yeni zirvələrə qaldırmaq üçün işimizi daha yüksək səviyyədə qurmaqdır. Bu gün ən başlıca məqsəd AMEA-nı daha çevik, dövlətin və cəmiyyətin real tələbatına cavab verən və gələcək inkişafına xidmət edən bir quruma çevirməkdir. Bununla əlaqədar otuz ildən çox bir müddətdə çalışdığım AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun fəaliyyəti haqqında fikirlərimi bölüşmək istəyirəm.

Hər şeydən əvvəl, onu xüsusi vurğulamalıyam ki, şərqşünaslıq kompleks birr elm sahəsidir. Şərqşünas öz tədqiqat pred-

metinə tarixi-coğrafi, mədəni-ədəbi və sosial-siyasi aspektlərin qarşılıqlı əlaqəsi və bağlılığı zəminində yanaşır və öyrəndiyi problemin dolğun mənzərəsini yaradır. Bu mənada, şərqşünaslıq unikal elm sahəsidir, üstəlik, bir çox ölkələrdə (o cümlədən qonşu Rusiyada) həm də strateji bir elm sahəsi kimi dəyərləndirilir. Azərbaycan şərqşünaslığı eyni zamanda elmi məktəbləri olan bir elm sahəsidir - bunu digər sahələrdən olan həmkarlarımız da bilir və etiraf edirlər. Yarım əsr əvvəl Yaxın və Orta Şərq Xalqları İnstitutu kimi kiçik bir kollektivlə fəaliyyətə başlayan Şərqşünaslıq İnstitutu tezliklə öz simasını formalaşdırmış və burada akademik Ə.Əlizadənin mətnşünaslıq, akademik Z.Bünyadovun mediyevistika, akademik H.Araslının türkologiya, professor A.İmanquliyevanın ərəbşünaslıq, professor R.Əliyevin iran şünaslıq məktəbləri yaranmışdır. Bu gün Şərqşünaslıq İnstitutunda çalışanların əksəriyyəti bu böyük alimlərin bilavasitə şagirdləri və davamçılarıdır. Son illərdə institutun kollektivi nəinki mövcud çətinliklərə sinə gərmiş, həm də yeni elmi araşdırma sahələri və mövzuları müəyyənləşdirmiş, dünyanın müxtəlif şərqşünaslıq mərkəzləri ilə əlaqələr qurmuş, beynəlxalq əməkdaşlığı genişləndirmişdir. Təkcə başa vurduğumuz 2010-cu ildə əməkdaşlarımız 50-dən çox xarici ölkədə təşkil olunan beynəlxalq elmi konfranslarda iştirak edib, elmimizi ləyaqətlə təmsil etmişlər. Bu, həm də Azərbaycan şərqşünaslıq elminin beynəlxalq miqyasda etiraf olunması deməkdir. Onu da nəzərə almaq lazımdır ki, sovet dönəmində, "dəmir pərdə"nin mövcud olduğu şəraitdə alimlərimizin birbaşa beynəlxalq əlaqələr qurmaq imkanı məhdud idi.

Unutmamalıyıq ki, Azərbaycanın çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Bu gün demokratik dünyaya inteqrasiya olunan ölkəmiz yeni sistemə məhz tarixən formalaşmış həmin milli-mənəvi dəyərlərlə daxil olur. Belə bir

vəziyyətdə, yəni çoxəsrlik mədəniyyətinin təməlində ümumşərq faktoru aparıcı yer tutan müstəqil dövlətimizin dünyanın maraq dairəsində olan regiona diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin Şərq ölkələrinə ardıcıl səfərləri, İslam Konfransı Təşkilatı və EKO-da Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Amma bir həqiqət də var ki, Şərqin tarixini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-siyasi fikrini, filologiyasının aktual problemlərini kompleks şəkildə öyrənmədən, proseslərin mahiyyətini təhlil etmədən regionda baş verən hadisələri diqqətdə saxlamaq və onlardan bəhrələnmək mümkün deyil.

Azərbaycanda Şərqin öyrənilməsinin böyük tarixi ənənəsi olsa da, oraya hələ XIX yüzildə A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım Bəy, M.S.Topçubaşov kimi böyük alim və mütəfəkkirlərimiz imzalarını qoysalar da, onun sistemli şəkildə tədqiqinə ötən əsrin 50-ci illərindən başlanıb. Lakin ölkəmiz müstəqillik əldə edənə qədər bu elm bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edib. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemləri ilə bağlı bir sıra mövzular hakim marksizm təliminin tələblərinə uyğun şəkildə tədqiq edilərək Sovet İttifaqının Şərq siyasətinin həyata keçirilməsinə xidmət edib.

Ümumiyyətlə isə Azərbaycan şərqşünaslıq elmi həmişə Yaxın və Orta Şərqin siyasətini, iqtisadiyyatını, mədəniyyətini, tarixini, ədəbiyyatını əlahiddə və yaxud ümumdünya proseslərindən təcrid olunmuş şəkildə deyil, Şərq-Qərb sivilizasiyalarının müqayisəsində və ənənələrinin sintezində tədqiq edərək bu gün bütün siyasi güclərin vurğuladığı qütblərarası dialoqun yaranmasına zəmin hazırlamağa çalışmışdır.

Respublikamızın müstəqillik qazanması institutun önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Belə ki, xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi, həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun

elmi fəaliyyəti dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılmasını və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi-tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnokonfessional proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi, yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri, islam mədəniyyətinin təşəkkül tapmasında Azərbaycan xalqının iştirakı, Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi həyatında islam amili və sair.

İnstitutumuzda aparılan tədqiqat işlərinin bir çoxu Azərbaycan Respublikasının Yaxın və Orta Şərq siyasətində aktuallıq kəsb edən məsələlərin araşdırılmasına həsr edilib. Bunlar Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əla qələri, müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətləri, Şərq-Qərb sivilizasiyalararası dialoq, Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu, Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri və sairdir. Göründüyü kimi, elmi-tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) bahəm müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-siyasi, iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. İnstitut əməkdaşlarının monoqrafiyaları, kitabları, elmi məqalələri və müxtəlif elmi məclislərdə oxuduqları məruzələr bu sahədə xüsusi önəm daşıyır və ölkələrimiz arasındakı münasibətlərin inkişafı üçün stimul ola biləcək faktlardandır.

Elmi istiqamətlər çərçivəsində işlər əsasən iki yolla aparılır. Bunlardan birincisi, şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai

və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılmasıdır. İkincisi isə elmi dəyəri ilə yanaşı, geniş oxucu kütləsini maraqlandıran elmi-populyar əsərlərin, eləcə də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili - informatik məlumatların hazırlanmasıdır.

Əməkdaşlarımız müasir Qərb sivilizasiyasına tarixi təkamül prosesində çoxəsrlik Şərq mədəniyyətinin təsiri, Qərbin sürətli iqtisadi-texniki və mədəni tərəqqi təcrübəsinin Şərq ölkələrində məqsədyönlü şəkildə tətbiqi imkanlarını, qloballaşma şəraitində Şərq-Qərb münasibətlərinin ziddiyyətli məqamlarını, onların mahiyyətini və aradan qaldırılma yollarını araşdırırlar. Alimlərimiz Şərqlə Qərbin qovuşduğu bir məkanda yerləşən ölkəmiz üçün müstəqillik şəraitində Qərb mədəniyyətinə yiyələnməklə milli mədəniyyətin fundamental dəyərlərini və mütərəqqi cəhətlərini qoruyub saxlamaq yollarını arayırlar. Ötən dövrdə yeni şəraitin tələbləri nəzərə alınmaqla institutda yeni "Şərq-Qərb" şöbəsi, "Mərkəzi Asiya və Uzaq Şərq" elmi qrupu yaradılmış, bir vaxtlar əsassız olaraq ləğv edilən "Cənubi Azərbaycan" şöbəsi bərpa edilmişdir. Ötən əsrin 90-cı illərinin ikinci yarısından etibarən institutun elmi planlarında Azərbaycanşünaslıq istiqamətində mühüm dəyişikliklər edilmişdir. Əməkdaşlarımız ilk növbədə ərəbdilli və farsdilli Azərbaycan alimlərinin və ədiblərinin yaradıcılığına dair tədqiqatlar aparır, Azərbaycan tarixinə, mədəniyyətinə, dilinə, ictimai-fəlsəfi fikrinə dair ərəb və fars dillərində olan qaynaqların tapılıb araşdırılması üçün səmərəli fəaliyyət göstərirlər.

Tədqiqat planlarımıza, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə yönəlmiş, xalqımızın tarixinə və mədəni inkişaf məsələlərinə töhfələr verə biləcək əsərlər salınıb. Təəssüf ki, bir məqalədə bu istiqamətdə apardığımız tədqiqatlar, gördüyümüz işlər barədə konkret məlumat vermək imkan xaricindədir.

Son 8 ilə yaxın dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uzaqgörən və tarazlaşmış xarici siyasəti və bu siya-

sətdə Şərq ölkələrinin mühüm yer tutduğunu nəzərə alaraq "Prezident İlham Əliyevin Şərq siyasəti" adlı irihəcmli monoqrafiya tədqiqat planlarımıza salınıb. Azərbaycanda "dövlət-din-cəmiyyət" münasibətlərində görülən böyük işləri, əldə edilmiş nailiyyətləri və bunların bir çox Şərq ölkələri üçün örnək ola biləcəyini nəzərə alaraq bu istiqamətdə də geniş araşdırma aparılır. Türkdilli xalqların inteqrasiyası sahəsində müstəqil Azərbaycanda dövlət səviyyəsində görülən işlər də tədqiqat obyektinə çevrilmişdir. Kollektivimiz hesab edir ki, Azərbaycanın müasir sosial-iqtisadi və mədəni inkişafı, qazandığı uğurlar təbliğ olunmalı və tədqiq edilərək Şərq cəmiyyətlərinə bir model kimi təqdim olunmalıdır. Bunun Şərq xalqları üçün böyük əhəmiyyəti və faydası olacaq. Bu baxımdan, ilk addım kimi, 2010-cu il mart ayının 17-18 tarixlərində "Müasir Şərq ölkələrinin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli" adlı beynəlxalq konfrans təşkil edilmişdir.

Müasir dünyada şərqşünaslıq elminə maraq son dərəcə artmışdır. Təkcə böyük dövlətlərdə deyil, Malta kimi kiçik ölkələrdə də yeni şərqşünaslıq mərkəzləri yaradılır, mövcud araşdırma qurumları genişləndirilir. Bu da beynəlxalq proseslərdə Şərq dövlətlərinin rolu və yerinin güclənməsi ilə birbaşa bağlıdır. Hazırda dünyanın diqqət mərkəzində regional münaqişələr və terrorizm problemləri, etnokonfessional münasibətlər və demoqrafiya məsələləri, islam fundamentalizmi və radikal islami qruplaşmalar kimi mövzular dayanır ki, bunların da əsas meydanı Şərqdir. Azərbaycan bir tərəfdən Yaxın və Orta Şərq regionuna yaxındır, digər tərəfdən, Avrasiya geosiyasi məkanına daxildir. Belə olan halda aparıcı Şərq ölkələrində gedən proseslərin elmi araşdırılmasının ölkəmiz üçün əhəmiyyətini sübut etməyə ehtiyac varmı? Son aylarda ərəb dünyasında baş verən siyasi təlatümləri nəzərə alsaq, bu ehtiyac qat-qat artır. Bir qədər öncə keçirdiyimiz "Yaxın və Orta Şərq ölkələri son hadisələr işığında" elmi-nəzəri konfrans da məhz bu zərurətdən doğmuşdur.

Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti müsəlman Şərqinə qırılmaz tellərlə bağlıdır, cəmiyyətimizdəki

bir sıra mental xüsusiyyətlər, sosial-psixoloji faktlar islam dinindən qaynaqlanır. Bütün bunlar Azərbaycan şərqşünaslığının öyrənməli olduğu məsələlərdir.

Müasir mərhələdə Şərqşünaslıq İnstitutu ənənəvi İran-Türkiyə-Ərəb ölkələri üçbucağından çıxmalıdır. Bunu həm müstəqil dövlətimizin beynəlxalq mövqeyi və əlaqələri, həm də bu elmin inkişaf perspektivləri tələb edir. Belə ki, biz artıq Şərq anlayışına qonşu müsəlman dövlətləri çərçivəsində yanaşa bilmərik. Ölkəmizin Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, Pakistan, Mərkəzi Asiya dövlətləri ilə günbəgün genişlənən əlaqələri bu regionun öyrənilməsini də zəruriləşdirir. İnkişafın özünəməxsus modelini tapmış Malayziya , Cənub-Şərqi Asiya ölkələrinin tədqiqi də bizim üçün önəmlidir. Yenicə təşkil edilmiş "Mərkəzi Asiya və Uzaq Şərq ölkələri araşdırmaları" şöbəsi məhz bu sahədə ixtisaslaşacaqdır.

Daha bir məsələ. Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının dövlətidir. Bunu cənab İlham Əliyevin "Mən 50 milyonluq Azərbaycan xalqının prezidentiyəm" sözləri də təsdiq edir. Bu xalqın böyük bir hissəsi Arazın o tayında - İran İslam Respublikasında yaşayır. Düşünürəm ki, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın ictimai-siyasi və mədəni inkişafının öyrənilməsi də bizim institutumuzun prioritet istiqamətindən biri olmalıdır. Nəzərə alaq ki, cənubi azərbaycanşünaslıq elmi istiqamət kimi məhz Şərqşünaslıq İnstitutunda yaranıb və bu gün də uğurla inkişaf edir. Bir sözlə, Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi-tədqiqat mərkəzi olmaqla yeni dövrün tələbləri ilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub.

Xüsusi diqqət elmin təşkilində çevikliyin təmin olunmasına yetirilməlidir. Bu sahədə kök salmış bürokratik metodlardan imtina edilməli, elmi fəaliyyətin maliyyələşdirilməsində daha müasir və mütərəqqi formalardan istifadəyə üstünlük verilməlidir. Prezident İlham Əliyevin dəyərli nitqində qeyd etdiyi ən başlıca fikir - "müasir dövlətin qurulması elmin inkişafı olmadan müm-

kün deyildir" - bu gün biz alimlərin, tədqiqatçıların əsas elmi amalına çevrilməli, fəaliyyətimizdə istinadgah olmalıdır.

İnanırıq ki, hörmətli Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı və hazırda müstəqil ölkəmiz qarşısında duran ən ümdə vəzifə - "neft kapitalını insane kapitalına" çevirmək işində məhz Milli Elmlər Akademiyasının böyük elmi potensialı həlledici rol oynayacaq.

*“Azərbaycan” qəzeti, 25.05.2011*

# AZƏRBAYCAN ZİRVƏSİ

Öz taleyini yaşayan insanlar olduğu kimi, bütöv toplumun, xalqın taleyində böyük rol oynayan, hətta bir çox cəhətdən onu müəyyənləşdirən şəxsiyyətlər də olur. Xalqımızın tarixində və taleyində otuz ilə yaxın zaman kəsiyində müstəsna təsirə malik olmuş Ümummilli Liderimiz Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Həmin xeyirxah təsir mənim və ailəmizin həyatında da özünü göstərmişdir və mən xoşbəxtəm ki, bu böyük şəxsiyyəti yaxından tanımaq, müşahidə etmək, onunla ünsiyyətdə olmaq imkanı da qismətimə düşüb.

Heydər Əliyevin hakimiyyətə ilk gəlişi mənim yeniyetməlik çağlarıma təsadüf etmişdir. Azərbaycan SSR KP MK-nın birinci katibi seçiləndən dərhal sonra Heydər Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Kadrlara qarşı tələbkarlıq, tapşırılan iş üçün məsuliyyət artırıldı. Rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlandı. Sovet hakimiyyəti tarixində ilk dəfə sosialist cəmiyyətində vəzifədən sui-istifadə, rüşvət və korrupsiya kimi mənfi halların olduğu və onlara qarşı mübarizənin vacibliyi Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda elan edildi.

Azərbaycana rəhbərliyə başlayandan az sonra – 1970-ci ildə Heydər Əliyev o vaxtacan maliyyə nazirinin birinci müavini vəzifəsində çalışan atam Baxşəli Həsən oğlu Baxşəliyevi respublikanın maliyyə naziri təyin etdi və o, 1987-ci ilin oktyabr ayınacan bu mühüm vəzifədə çalışmaqla, Azərbaycan tarixində bu postu ən üzün müddətə tutan dövlət məmuru oldu. Ümummilli liderimizin o dövrdə ölkəmiz və xalqımız üçün gördüyü nəhəng işlər haqqında ilk məlumatları da mən atamdan almış, bu bənzərsiz şəxsiyyət haqqında təsəvvürlərim onun söhbətləri əsasında formalaşmışdır. Atam daim Heydər Əliyevin əvvəlkilərdən fərqlənən tamamilə yeni tipli bir rəhbər olduğunu vurğulayar, onun respublikanın sosial-iqtisadi və mədəni inkişafı, ittifaq miqya-

sında nüfuzunun və çəkisinin artması istiqamətində göstərdiyi böyük, titanik fəaliyyətindən ağızdolusu danışardı. Hər il yayda İttifaqın paytaxtı Moskvaya etdiyi işgüzar səfərlər zamanı atam Heydər Əliyevin çoxşaxəli fəaliyyəti sayəsində respublikamızın nüfuzunun ilbəil artmasını əyani şəkildə hiss edir və bununla bağlı təəssüratlarını bizimlə bölüşürdü.

Atamın sözlərindən birdə bu qənaət hasil olurdu ki, Heydər Əliyevin Azərbaycanın hərtərəfli tərəqqisi üçün göstərdiyi gərgin fəaliyyətin mərkəzində insan dayanırdı – o, hədsiz məşğulluğuna baxmayaraq, ölkənin strateji inkişafı üçün lazım olan kadrların yetişməsinə böyük əhəmiyyət verir, mövcud kadr potensialından maksimum səmərəli istifadə olunmasına çalışır, bu baxımdan dəyər verdiyi insanları hər cür diqqət və qayğı ilə əhatə edirdi. Bir müddət sonra – atam ilk dəfə infarkt keçirdiyi zaman ailəmiz bunun canlı şahidi oldu: Heydər Əliyev vaxt tapıb xəstə yatdığı dövrdə iki dəfə atama zəng etdi, onun səhhəti ilə maraqlandı. 1982-ci ildə SSRİ rəhbərliyinə getdiyi zaman isə Heydər Əliyev respublikanın o vaxtkı baş nazirinə atamın qiymətli bir kadr olduğunu söyləmiş, ona qayğı ilə yanaşmağı tövsiyə etmişdi.

Mixail Qorbaçovun "perestroyka"sı dönəmində atam 1970-ci illərin "durğunluq dövrü" adlandırılması ilə heç cür razılaşmır, "bəlkə də haradasa durğunluq olub, amma Azərbaycanda yox!" – söyləyirdi. O, əksinə, bu illərdə Azərbaycanda böyük inkişaf yaşandığını bildirir, həmin inkişafın sükanı arxasında Azərbaycanın böyük oğlu – Heydər Əliyevin durduğunu ağız dolusu söyləyirdi. O, haqlı olaraq, deyirdi ki, məhz Heydər Əliyevin rəhbərliyi dövründə kənd təsərrüfatının, xüsusilə üzümçülük və pambıqçılığın inkişafı nəticəsində ən ucqar kəndlərdə belə, əhalinin maddi rifahı yaxşılaşmış, yeni sənaye sahələrinin təməli qoyulmuş, elm, təhsil və mədəniyyət sahəsində böyük uğurlara imza atılmışdır. Ümumiyyətlə, atam XX əsrin 70-80-ci illəri Azərbaycanın sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi səciyyələndirirdi. Bu illərdə respublikamızın sosial-iqtisadi tərəqqisi yolunda əsl dönüş yarandı: 250-dən çox zavod, fabrik istifadəyə verildi, 630 min nəfərlik yeni iş yeri yaradıldı. Heydər

Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublikada xalq təsərrüfatının inkişafı üçün beş xüsusi qərar qəbul etdi. 1971-85-ci illərdə iqtisadiyyata sərmayə qoyuluşunun həcmi 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə olunan vəsaitdən 2,1 dəfə çox idi.

1985-ci ildə Cənubi Qafqazda ən iri poladəritmə zavodu istifadəyə verildi, Dərin Dəniz Özülləri zavodu tikildi. Sənayedə struktur dəyişiklikləri aparıldı. Bakı Məişət Kondisionerləri zavodu qısa müddətdə tikilib, 1975-ci ildə istifadəyə verildi. "Ulduz", "Azon" cihazqayırma zavodları, Sumqayıt kompressorlar zavodu, Bakı elektrik qaynaq avadanlığı zavodu işə düşdü. Onlarla istehlak malları istehsal edən, o cümlədən Abşeron, Siyəzən broyler fabrikləri, Bakı Şampan şərabları zavodu, habelə Bakıda 2 evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıt şüşə zavodu, Ələt Ağac Emalı Kombinatı və s. müəssisələr istifadəyə verildi. Araz, Tərtər, Şəmkir su-elektrik stansiyaları, "Azərbaycan" DRES-i işə salındı. Azərbaycanın enerji müstəqilliyi təmin olundu.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-82-ci illərdə kənd təsərrüfatının dinamik inkişafı, respublikanın və bütövlükdə ölkənin iqtisadiyyatında onun rolunun artması ən mühüm iqtisadi nəticələrdən biri idi. Kolxoz və sovxozların maddi-texniki bazası daha da möhkəmləndi. Böyük meliorasiya proqramı həyata keçirildi. Baş Mil, Abşeron, Lənkəran, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Şəmkir və b. dəryaçalar istifadəyə verildi. Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan iri pambıqçılıq rayonlarına çevrildilər. Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında tərəvəzçilik daha da inkişaf etdirildi. Üzüm plantasiyaları 1970-ci ildəki 121,6 min ha-dan 1985-ci ildə 268 min ha-ra çataraq 2,2 dəfə artdı. İri heyvandarlıq kompleksləri tikildi. Respublikaya min baş cins qaramal gətirildi. Kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981-85-ci illərdə 1966-70-ci illərin səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı.

Geniş iqtisadi quruculuq sayəsində 1969-85-ci illərdə əmək məhsuldarlığı sənayedə 2,1, kənd təsərrüfatında 1,8 dəfə, xalq

təsərrüfatında gəlir 335 % və ya Ümumittifaq göstəricisindən 2 dəfə çox artdı.

Həmin illərdə yaradılmış iqtisadi, elmi-texniki və mədəni potensial gələcəkdə respublikanın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı. XX əsrin 70-80-ci illərində SSRİ-də öz iqtisadiyyatını müstəqil idarə etməyə qadir olan 2 respublikadan biri Azərbaycan idi.

Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Bakı, Sumqayıt, Gəncə və digər şəhərlər böyüyür, ətrafında yeni yaşayış massivləri salınırdı. Azərbaycanda 20 mln. m2 mənzil sahəsi istifadəyə verildi, yüzlərlə müasir binalar tikildi, yollar, körpülər, kənd və qəsəbələr salındı. Azərbaycan az vaxt içərisində inkişafın başlıca keyfiyyət ölçülərinə görə müttəfiq respublikalar içərisində önə çıxdı. Sürətli sosial-iqtisadi inkişaf nəticəsində ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların həcminə görə İttifaq miqyasında Azərbaycanın rolu xeyli artdı.

Respublikada elm, təhsil, ədəbiyyat, incəsənət və memarlığın inkişafına da diqqət artırıldı. Ali, orta ixtisas, ümumtəhsil məktəbləri, teatr, klub, muzey, kitabxanalar şəbəkəsi xeyli genişləndi. 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə milli hərbi kadrlar yetişdirilməsi üçün C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış internat məktəbi təşkil olundu. Yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlanmasına diqqət artırıldı. 17 mindən çox azərbaycanlı övladları SSRİ-nin 170 aparıcı ali təhsil ocağına göndərildi.

Azərbaycanda onlarla yeni elmi tədqiqat müəssisələri yaradıldı. 1975-ci ildə EA-nın nəzdində "Xəzər" Elmi Mərkəzi fəaliyyətə başladı. 1978-ci ildə mərkəzin əsasında Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutu, 1981-ci ildə isə Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyi təşkil edildi.

Respublikada kitab çapı və mətbuat xeyli inkişaf etdi. 1969-cu ildə "Qobustan" almanaxı nəşr edilməyə başladı. 1990-cı ildə 168 qəzet, 91 jurnal, 1300-dən çox kitab çap olunurdu. 1976-87-

ci illərdə Azərbaycanda ilk dəfə böyük informasiya tutumlu 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi.

Xalqın mədəni və mənəvi dəyərlərinə diqqət artırıldı. Nizami, Əcəmi, Nəsimi, Tusi, Vaqif, Aşıq Ələsgər, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Hüseyn Cavid kimi görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının 100 illiyi təntənə ilə qeyd olundu. Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalar yüksək dövlət mükafatlarına layiq görüldü. 1974-cü ildən ali məktəblərdə Azərbaycan tarixinin tədrisinə ayrılan saatlar artırıldı. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu, bu sahədə səmərəli işlər görüldü. Cənubi Azərbaycanla bağlı mövzuların ədəbiyyatda inikası üçün geniş imkanlar açıldı. 1979 ildə "Azərbaycan Yazıçılar İttifaqı"nın Cənubi Azərbaycan üzrə katibi seçildi. Vaxtilə "pantürkist" kimi damğalanmış Hüseyn Cavidin cənazəsinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi.

Heydər Əliyevin rəhbərliyi dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı qətiyyətlə alındı.

Qısa müddətdə Azərbaycan SSR-in sürətli sosial-iqtisadi və mədəni inkişafı SSRİ rəhbərliyində H.Ə.Əliyevə böyük nüfuz qazandırdı. O, 1976-cı ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçildi. 1982-ci ilin dekabrında Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosuna üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi və bu imkanlardan da Azərbaycanın inkişafı naminə istifadə etdi. Bütövlükdə 1969-87 illər Azərbaycanın quruculuq salnaməsinə parlaq səhifələr kimi daxil oldu. Bu dövrdə müasir müstəqil Azərbaycan Respublikasının təməli qoyuldu.

Bütün bunlara görə də atam M.Qorbaçovun təhriki ilə ittifaq miqyasında Heydər Əliyevə qarşı aparılan böhtan və qaralama kampaniyasını ürək ağrısı ilə qarşılayır, bu haqsızlıqla heç cür barışa bilmirdi. 1987-ci ildə Heydər Əliyev Siyasi Bürodan

uzaqlaşdığı zaman atam təzəcə təqaüdə çıxmışdı və ağır xəstə idi. O, bu xəbəri böyük narahatlıqla qarşıladı və demək olar, səhərəcən yata bilmədi. Narahatlığını bizimlə – övladları ilə bölüşərək: "Azərbaycan müdafiəsiz qaldı, indi görərsiniz xalqımızın başına nə bəlalar gələcək, ermənilər hansı oyunlardan çıxacaqlar, axı onların qarşısını alan yeganə qüvvə Heydər Əliyev idi", – deyirdi. Bundan bir neçə gün sonra atam dünyasını dəyişdi və... Qarabağ ətrafında məlum olaylar başladı. Ermənilərin SSRİ rəhbərliyi, şəxsən Qorbaçov tərəfindən dəs tək lə nən torpaq iddiaları atamın narahatlığının nə qədər əsaslı olduğunu, eyni zamanda Heydər Əliyev şəxsiyyətinin xalqımızın taleyi üçün necə önəm daşıdığını sübut etdi.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin müstəqilliyin ilk mərhələsində ölkədəki qeyri-sabit vəziyyət, Azərbaycan dövlətinin və parlamentinin başında duranların siyasi naşılığı, düşünülməmiş hərəkətləri, 25 nəfəri iqtidardan, 25 nəfəri isə müxalifətdən olan deputatların müxtəlif siyasi oyunlara cəlb edilməsi hakimiyyət böhranmı günbəgün dərinləşdirirdi.

1992-ci il fevral ayının 26-da Xocalıda faciə baş verdi. Bunun ardınca Şuşa, sonra Laçın, daha sonra Kəlbəcər işğal olundu. Gəncə hadisələri baş verdi. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı.

Sonrakı illərdə Azərbaycan davamlı hakimiyyət dəyişiklikləri ilə, Qarabağın və ətraf ərazilərin itkisi ilə üzləşdi, iqtisadi tənəzzül, xaos və anarxiya girdabına yuvarlandı. Bütün bu müddətdə xalqımızın əksəriyyəti kimi mən də yalnız Heydər Əliyevin gənc dövlətimizi bu ağır vəziyyətdən qurtara biləcəyini düşünür, onun yenidən siyasi hakimiyyətə qayıdışını arzulayırdım. Hər dəfə ölkədəki vəziyyətdən söhbət düşəndə, 1970-80-ci illəri həyatının ən gözəl illəri kimi xatırlayan rəhmətlik anam Azər-

baycana nicat verəcək şəxsiyyətin ancaq Heydər Əliyev olduğunu söyləyirdi.

Nəhayət, 1993-cü ilin keşməkeşli yayında H.Əliyev xalqın mütləq əksəriyyətinin təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə qayıtdı və böyük təcrübəyə malik müdrik dövlət adamı kimi addım-addım ölkəni düşdüyü fəlakətli vəziyyətdən çıxartmaq istiqamətində titanik fəaliyyətə başladı. Milli Məclisin 15 iyun tarixli iclasında Ali Sovetin sədri seçildi. Səsvermədən sonra proqram nitqlə çıxış edən Heydər Əliyev respublikanın o vaxtkı ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk etdiyini və bunun aradan qaldırılması üçün əlindən gələni əsirgəməyəcəyini bildirdi, qarşıda duran əsas vəzifələri müəyyənləşdirdi.

Marksist-leninçi ideologiyanın artıq keçmişdə qaldığını söyləyən natiq yeni ideologiyanın hansı zəmində yaranmasının yollarını göstərdi: "Marksizmleninizm ideyasına müstəqil Azərbaycan Respublikası artıq dönməməlidir. Ancaq eyni zamanda biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. Bizim indiki ideyamız isə milli tarixi ənənələrimiz əsasında, millətimizin keçdiyi tarixi yol əsasında, xalqımızın keçdiyi tarixi yol əsasında, bizim ulu babalarımızın yaratdığı ümumi bəşəri dəyərlər əsasında, Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Fizulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu alimlərimizin, tarixçilərimizin, ədəbiyyat çılarımızın, filosoflarımızın qoyduğu mənəvi dəyərlər əsasında bizim xalqımız, şübhəsiz ki, öz bugünkü mənəviyyatını inkişaf etdirməlidir".

Beləliklə, Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetin sədri vəzifəsində fəaliyyət göstərdiyi qısa zaman kəsiyində ölkənin həm daxili, həm xarici siyasətində böyük işlər görüldü, müstəqil Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu.

Heydər Əliyev parlamentdəki fəaliyyətində ilk addım olaraq xalqla birbaşa təmasa keçdi. Milli Məclisin bütün iclasları, mətbuat konfransları, brifinqlər, problem məsələlərə həsr olunmuş müşavirələr canlı yayımla televiziya ekranlarında göstərildi. Xalq hər şeydən xəbərdar oldu. Tədricən problemlərin həlli yolları ilə əlaqədar konstruktiv tədbirlər həyata keçirilməyə başladı. Xalqın itirilmiş inamı özünə qaytarıldı. Ən başlıcası isə sabitlik yarandı. Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı.

Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inki-

şaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensiv-ləşməyə və fəallaşmağa başladı. Nüfuzlu dövlətlərlə pozulmuş münasibətlər bərpa edildi. Özünə xas olan uzaqgörənliklə o, müharibə şəraitinə baxmayaraq, hərbi-siyasi və sosial-iqtisadi problemlərlə yanaşı, Azərbaycan elmi və mədəniyyətinin məsələləri ilə də yaxından məşğul olmağa başladı və özünün ilk görüşlərindən birini 21 sentyabr 1993-cü ildə həmin vaxt ciddi böhran yaşayan Azərbaycan Elmlər Akademiyasında keçirdi. Bu, bir tərəfdən, ölkə rəhbərinin alimlərimizə bəslədiyi böyük ehtiram, Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətlə, digər tərəfdən ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizlikdən irəli gələn narahatlıqlarla bağlı idi. Elə həmin görüşdə Heydər Əliyev belə narahatlıqların əsassız olduğunu təsdiqlədi: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq... Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu Akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu Akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq”.

Şərqşünaslıq İnstitutunun direktor müavini kimi mən də həmin görüşdə iştirak edirdim. Heydər Əliyevin parlaq nitqi görüş iştirakçılarına güclü təsir bağışladı, hər kəs onun ölkənin problemləri və onların həlli yolları barədə necə dəqiq təsəvvürə malik olduğuna heyran qaldı. Görüşdən sonra mən foyedə dayanmış ümummilli liderə yaxınlaşıb özümü təqdim etdim. Çöhrəsi-

nə təbəssüm qondu, atamı xoş sözlərlə xatırladı, ailəmizin vəziyyəti ilə maraqlandı, institutumuzun durumu ilə bağlı suallar verdi. Bu, mənim bu nadir şəxsiyyətlə ilk görüşüm, ilk yaxın təmasım idi və mən uzun müddət bu ünsiyyətin xoş təsirindən çıxa bilmədim.

Hər bir cəmiyyət onun elmə, ziyalıya, alimə münasibəti ilə qiymətləndirilir. Ona görə Akademiyaya olan münasibət məni çox sevindirirdi. İlk növbədə Akademiya işçilərinin maaşlarının iki dəfə artırılması ilə bağlı Prezidentin sərəncamını elm adamları böyük ruh yüksəkliyi ilə qarşıladılar. Məsələ təkcə maddi tərəfdə deyil, eyni zamanda məsələnin mənəvi tərəfi də var idi. Bütün cəmiyyət bir daha əmin oldu ki, Elmlər Akademiyası bu cəmiyyətə, müstəqil Azərbaycana lazımdır və dövlət imkan tapan kimi Elmlər Akademiyasını tam təmin etmək üçün əlindən gələni edir.

Sonra ən fərəhləndirici bir hadisə baş verdi. Bu da Azərbaycan Elmlər Akademiyasının Naxçıvan bölməsinin açılmasıdır. Hesab edirəm ki, bu təkcə Naxçıvanın həyatında yox, bütövlükdə Azərbaycan Elmlər Akademiyasının həyatında böyük hadisədir. İlk növbədə o məsələlər ki bilavasitə Naxçıvanda öyrənilməlidir, arxeologiya, tarix sahələrində orada elmi potensial yaradılmalıdır. Bu baxımdan fərmanın böyük əhəmiyyəti var. Orada 500-ə qədər adam işləyəcək, yüksək məvacib alacaqlar. İşsizlik probleminin həllində də bunun rolu olacaq. Bundan başqa bu, Naxçıvanda elmi potensialın qorunub saxlanılmasına kömək olacaq. Bütövlükdə Elmlər Akademiyası üçün bunun əhəmiyyəti ondan ibarətdir ki, yenə də elmin xalqa lazımlığı bir daha təsdiq olundu.

Çox keçmədi ki, səriştəsiz şəkildə aparılan, reallığı, qüvvələr nisbətini nəzərə almayan və xalqın milli mənafelərinə ziyan vuraraq nəticədə yenicə müstəqillik əldə edən və ağır müharibə şəraitində olan Azərbaycanın beynəlxalq aləmdə təklənməsinə gətirib çıxaran yarıtmaz xarici siyasətdən imtina edildi. Böyük səylər nəticəsində qısa bir zamanda ölkədə hakimiyyət boşluğu aradan götürüldü, Azərbaycanın dövlətçiliyinə, ərazi bütövlüyü-

nə qəsd edən separatçı qüvvələr, cinayətkar ünsürlər zərərsizləşdirildi, Gəncədəki gərginlik ocağı söndürüldü, ictimai-siyasi böhran aradan qaldırıldı, orduda təxirə salınmaz tədbirlər həyata keçirildi, azad vətəndaş cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atıldı.

Xalqın geniş təbəqələrinin arzularını ifadə edən və onların qətiyyətli dəstəyinə söykənən Heydər Əliyevin ardıcıl səyləri pozucu qüvvələrin Azərbaycanın ərazi bütövlüyünə və dövlət müstəqilliyinə qarşı yönəlmiş fəaliyyətinin qarşını almağa imkan verdi. Respublikamız onun başı üzərini almış qanlı vətəndaş qarşıdur-masından və parçalanıb məhv olmaq təhlükəsindən xilas oldu. Həyatımızda baş verən köklü dəyişikliklərin əsası məhz o vaxt qoyuldu.

l993-cü ildən bəri ölkə həyatının bütün sahələrində aparılan islahatlar özünün müsbət nəticələrini vermişdir: istər iqtisadiyyatda, istər siyasətdə, istərsə də mədəni həyatda böyük dəyişikliklər olmuşdur. Beləliklə, hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolu seçən müstəqil ölkəmiz dövlətçiliyini, müstəqilliyini itirmək təhlükəsindən xilas olaraq davamlı inkişaf tendensiyasına malik, gözəl perspektivləri olan respublikaya çevrilmişdir.

Fəxrlə deyə bilərik ki, respublikamız çoxlarını heyrətləndirən böyük transmilli layihələrin təşəbbüsçüsüdür. Nəzərə alsaq ki, "Əsrin müqaviləsi", onun mühüm tərkib hissələrindən olan Bakı-Tbilisi-Ceyhan, qədim İpək yolu, şimal-cənub nəqliyyat dəhlizi və s. layihələr artıq reallaşmaqdadır, onda Azərbaycanın artıq beynəlxalq birliyin layiqli üzvü olduğunu deməyə əsasımız var. Həm ölkə daxilində, həm də xaricdə aparılan siyasətin, Azərbaycanda ardıcıl həyata keçirilən siyasi və iqtisadi islahatların, demokratikləşmə prosesinin hüquqi bazası yaradılmışdır.

1997-ci ildə mən Şərqşünaslıq İnstitutunun direktoru əvəzi təyin olundum. Artıq ulu öndərin gərgin və yorulmaz fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Ermənistanla atəşkəsə nail olunmuş, ölkədə siyasi və iqtisadi sabitlik bərqərar edilmiş, dövlətimizin inkişafı üçün fövqəladə əhəmiyyətə malik "Əsrin

müqaviləsi" imzalanmışdı. Ölkədə görkəmli tarixi şəxsiyyətlərin yubileylərinin, əlamətdar hadisələrin ildönümlərinin qeyd olunması ənənəsi bərpa olunmuşdu və bu işlər şəxsən Heydər Əliyevin rəhbərliyi ilə, onun sərəncamı əsasında yaradılmış komissiyalar tərəfindən həyata keçirilirdi. Mən də öz sahəmə aid olan komissiyaların işində iştirak edir, bununla əlaqədar ölkə başçısının yanında keçirilən iclaslara qatılırdım. Həmin iclaslardan ikisi xüsusilə xatirimdədir: Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyinə və Dədə Qorqud eposunun 1300 illiyinə həsr olunmuş iclaslar. Bu iclasların birində mən xaricdəki elmi mərkəz və kitabxanalarda Azərbaycanla bağlı məlumat və ədəbiyyatın qıtlığına diqqəti çəkdim. Heydər Əliyev qarşısındakı kağızda müvafiq qeyd edərək, bunun aradan qaldırılmasının zəruri olduğunu vurğuladı, sonra da təbəssümlə üzünü əyləşənlərə tutub: "Mənim qızımla bir oxuyub", – dedi. Çıxışıma Heydər Əliyevin bu cür diqqət yetirməsi mənim üçün çox qiymətli oldu, məni yeni elmi axtarışlara, ictimai fəallığımı artırmağa ruhlandırdı.

2000-ci ildə mən ilk dəfə Azərbaycan Milli Məclisinin üzvü seçildim, 2001-ci ildə isə o böyük şəxsiyyətin tövsiyəsi ilə deputat həmkarlarım məni Milli Məclis sədrinin müavini seçdilər. Bu mənə göstərilən böyük etimad idi. Bu statusum mənə Ulu Öndərimizlə müxtəlif tədbirlərdə daha tez-tez görüşmək, onun nəhəng şəxsiyyətinin çeşidli cəhətlərini daha dərindən anlamaq imkanı verdi. Onun daimi qayğısı sayəsində şərqşünas alimlərimiz daha həvəslə çalışmağa başladılar, vaxtilə institutumuzu tərk etməyə məcbur olmuş bir çox insanlar sevimli kollektivin sıralarına qayıtdılar, bütövlükdə Elmlər Akademiyası dirçəliş və inkişaf mərhələsinə qədəm qoydu...

Burada bir məsələni qeyd etməyə bilmərəm. Heydər Əliyevin 33 illik fəaliyyətini müşahidə edəndə, həmişə bir şeyə qibtə etmişəm. Bu adam nə edibsə, günbəgün, ilbəil Azərbaycanın mənafeyi üçün edib. Onun bir amalı olub: Azərbaycanın inkişafı, Azərbaycanın tərəqqisi, Azərbaycan balalarının sabahı. Ona görə də, onun bütün xidmətləri Azərbaycan naminə olub. Son illərdəki fəaliyyətini götürəndə baxırsan ki, bütün həyatını Azər-

baycanın inkişafına sərf edir. Bəlkə bəzi adamlar müəyyən işlərin xalqımız üçün əhəmiyyətini tam dərk edə bilmirlər. İllər keçəndən sonra o adamlar da etiraf edirlər ki, doğrudan da Heydər Əliyev Azərbaycanın tarixinə böyük qurucu kimi daxil olub. Bunu başa düşmək lazımdır. Mən bunu cəsarətlə demək istəyirəm, indi kim necə qiymətləndirirsə qiymətləndirsin, mən elmi işçiyəm, haqqa haqq deməyə öyrənmişəm, tarix boyu ən böyük azərbaycanlı Heydər Əliyev olub. Bunu qiymətləndirmək lazımdır. Mən çox təəssüf edirəm ki, bəzi adamlar ya başa düşmürlər, ya da bilərəkdən onun fəaliyyətini təhrif edirlər. Amma çox insafsız iş görürlər. Özü də elə adamlar təhrif edirlər ki, onlar özləri Azərbaycan üçün heç bir iş görməyiblər. Özləri görə bilmədiyi yetmir, iş görənə də şər, böhtan atırlar. Belələri xalqın qəzəbinə gələcəklər.

İstənilən şəxsin vətənə, xalqa xidməti onun gördüyü işlərlə, yaratdığı maddi sərvətlərlə, harada olursa-olsun vətəninin, xalqının mənafeyini hər şeydən uca tutması ilə ölçülür. Hörmətli Prezidentimiz Heydər Əliyevin həyat yolunu nəzərdən keçirərkən bir daha əmin oluruq ki, onun çoxşaxəli yorulmaz və zəngin fəaliyyəti Azərbaycana, Azərbaycan xalqına fədakarcasına xidmətin bariz nümunəsidir. Bu sovet dövründə də belə olub, vətənimiz müstəqillik əldə edəndən sonra da.

Heydər Əliyevin həm ötən əsrin 70-80-ci illərində ölkəyə rəhbərlik edərkən, həm də son on ildə müstəqil dövlət qurarkən apardığı ümumi siyasət bu olmuşdur: Azərbaycanın ümummilli mənafelərini istənilən səviyyədə müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın və ölkənin təhlükəsizliyini təmin etmək. Hesab edirəm ki, ulu öndər bütün hallarda öz istəyinə nail olmuşdur və ona görə də xalqının ümummilli liderinə çevrilmişdir. Təəssüf edirəm ki, onun xalqı üçün gördüyü işlərin mində birini görməyən insanlar bu gün ona qarşı böhtan kampaniyası aparırlar. Tam əminəm ki, Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu kimi daxil olub. Hesab edirəm ki, I Pyotr və Mustafa Kamal Atatürk öz xalqlarının tarixində hansı yeri tuturlarsa, Heydər Əliyev də Azərbaycan xalqının tarixində o yerə sahibdir.

Ümummilli liderin vəfatı bütün xalqımız kimi məni də dərindən sarsıtdı. Heydər Əliyevin apardığı işlərin miqyasını və əhəmiyyətini bilən bir şəxs kimi bunun dövlətimiz üçün necə ağır bir itki olduğunu yaxşı anlayırdım. Amma mənə, eləcə də bütün xalqımıza təsəlli və ümid verən o oldu ki, Heydər Əliyevin qurduğu Azərbaycan dövlətinin sükanı arxasına onun siyasi kursunun ən layiqli davamçısı - prezident İlham Əliyev keçdi və onun ideyalarını yaşadaraq, çiçəklənən Azərbaycanı daha uca zirvələrə aparmaqdadır. Bu yolda ulu öndərimiz daim bizimlədir, çünki onun ömrü vətənə fədakarcasına xidmətin bariz nümunəsi, dövlətimizin tarixinin parlaq səhifəsi, onu tanıyanların, onunla birgə çalışanların həyatının ayrılmaz parçasıdır.

*"Azərbaycan" qəzeti, 7.04.2013,*
*"Heydər Əliyev mənim həyatımda" kitabı,*
*I cild, Bakı, 2013.*

## HEYDƏR ƏLİYEV VƏ İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI

1993-cü ildə hakimiyyətə yenidən qayıtdığı ilk günlərdən Ümummilli Lider Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlət lərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o, xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır». Sözünə davam edərərək, Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: «Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır». Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasə-

ti "özümüzün özümüzə vurduğumuz zərbə" anlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Əməkdaşlıq Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasə ti mizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yenı nəfəs aldı, İƏT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı. 23 noyabr 1993-cü ildə İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan

artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər. Bundan sonra ölkəmiz ilə İƏT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkılatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İƏT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir. Ulu öndər Heydər Əliyevin İƏT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İƏT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İƏT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir. 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İƏT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İƏT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı. Azərbaycan Respublikasının İƏT-nin beynəlxalq aləmdəki nü-

fuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Əbdüləziz Əl-Səudla faydalı danışıqları və İƏT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İƏT-in BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandınlması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi. 1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İƏT-ə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak etdi. Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Əməkdaşlıq Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifık problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Əməkdaşlıq Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir». Ulu öndər bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da

Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi. Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İƏT-ə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı. Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimızin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi. Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından nitq söylədi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır.

Böyük öndər İƏT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti

şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir. 1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İƏT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İƏT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İƏT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəskin qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir. İƏT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qəmamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İƏT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə

Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İƏT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İƏT-ə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İƏT-ə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırki sədrinə məlumat verməsini İƏT Baş katibindən tələb edir» və s. İƏT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İƏT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İƏT-ə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Ümummilli liderimiz Heydər Əliyev İƏT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq

tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İƏT tarix və mədəniyyət mərkəzini (İRSİCA) də ziyarət etmişdir. O, öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Əməkdaşlıq Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islam tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər. Ulu öndər qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır. Dövlət başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin «Leyli və Məcnun» poemaları əsasında 1908-ci ildə «Leyli və Məcnun» operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə «Leyli və Məcnun» simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir. Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İslam Əməkdaşlıq Təşkilatının mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazır-

lanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir. Məhz ümummilli liderimizin bu tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRSİCA arasında sıx əlaqə yaranmış və bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlıq davam edir, müştərək mövzular işlənilir, qarşılıqlı ezamiyyətlər həyata keçirilir, birgə elmi tədbirlər təşkil edilir.

*Azərbaycanşünaslığın aktual problemləri.*
*Ümummilli lider Heydər Əliyevin*
*90 illik yubileyinə həsr olunmuş*
*IV beynəlxalq konfransın materialları,*
*Bakı, 1-4.05.2013.*

## DÖVLƏT QADIN SİYASƏTİ İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA DAVAM ETDİRİLİR

"Həm də buna görə Azərbaycan qadını bu gün Prezident İlham Əliyevin siyasətinə alternativ görmür. Bəzən məndə elə təsəvvür yaranır ki, bu siyasət bir insanın yox, bütöv bir alimlər ordusunun elmi əsaslarla işləyib hazırladığı siyasətdir".

Gövhər Baxşəliyeva 26 noyabr 1954-cü ildə Bərdədə dünyaya göz açıb. 1972-ci ildə Bakı şəhəri 212 saylı orta məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb bölməsinə daxil olub. 1977-ci ildə ADU-nu fərqlənmə diplomu ilə bitirdikdən sonra laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi kimi fəaliyyət göstərib, daha sonra isə "Şərq filologiyası" şöbəsinin müdiri vəzifəsində çalışıb.

1993-cü ildə Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini təyin olunan Gövhər Baxşəliyeva 1997-ci ildən adı çəkilən elm mərkəzinin direktoru vəzifəsini icra edən, 2002-ci ildən direktor vəzifəsində çalışır. 1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyasını müdafiə edib. Filologiya elmləri doktoru, professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. "Qızıl qələm " mükafatı laureatıdır. Klassik və müasir ərəb ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və mənbəşünaslıq üzrə mütəxəssisdir.

Gövhər Baxşəliyevanın rəhbərliyi ilə son illərdə institutun beynəlxalq elmi əlaqələri xeyli genişlənib. ABŞ, Almaniya, Hollandiya, Çin, Rusiya, Türkiyə, Ərəb ölkələri, İran, Özbəkistan, Qazaxıstan və sairə bir sıra xarici ölkələrdəki şərqşünaslıq mərkəzləri ilə fəal elmi mübadilələr həyata keçirilir. Hazırda o, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilən "Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən qədim və yeni dövr xəritələrin axtarışı və surətlərinin gətirilməsi" mövzusunda layihə üzərində çalışır. Bu-

nunla əlaqədar dünyanın bir çox ölkələrinin kitabxanalarında axtarışlar aparır.

Gövhər Baxşəliyeva 5 noyabr 2000-ci ildə 57 saylı Bərdə-Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının II çağırış Milli Məclisinə deputat seçilib. 2005-2010-cu illərdə də III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilib. Milli Məclisin Elm və Təhsil məsələləri üzrə Daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikası Milli Məclisinin İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında nümayəndə heyətinin rəhbəridir. Onun 2001-ci ildən rəhbərlik etdiyi parlament nümayəndə heyəti İƏT Pİ-nin sessiya və konfranslarında Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, Xocalı soyqırımını insanlığa qarşı cinayət adlandıran, üzv parlamentlərə bu haqda qanunvericiliyə əlavələr etməyi təklif edən, işğal edilmiş Azərbaycan ərazilərində müqəddəs islam məbədlərinin, məscidlərinin və məqbərələrinin dağıdılmasını kəskin pisləyən bir sıra qətnamələrin qəbuluna və yekun bəyannamələrə müvafiq maddələrin salınmasına nail olub. Hal-hazırda da bu işi uğurla davam etdirir.

***– Gövhər xanım, bildiyimiz kimi siz Azərbaycan Qadınlarının IV qurultayında təmsil olunurdunuz. Söhbətimizə məhz qurultay təəssüratlarınızla başlamaq istərdim.***

– Öncə deməliyəm ki, qurultay möhtəşəm keçdi. Qurultayın təşkili, gedişatı, çıxışlar, qurultayda qəbul olunan sənədlər, qurultayın prezidentimiz İlham Əliyevi yeni müddətə prezidentliyə təqdim etməsi kimi məsələlər bir Azərbaycan ziyalısı kimi məndə ruh yüksəkliyi yaratdı. Mən hesab edirəm ki, bu gün Azərbaycan qadınları çox yüksək səviyyədə inkişaf ediblər, Azərbaycan qadınlarını bu gün ən yüksək potensiala malik olan xanımlar təmsil edir, sözün həqiqi mənasında Azərbaycan xanımının bu günü inkişafı ilə biz fəxr edə bilərik. Bunu mən Azərbaycana gələn qonaqların fikirlərindən nəticə çıxararaq deyirəm. Yəni, Azərbaycana istər qərbdən, istər şərqdən gələn qonaqlar ilk növbədə Azərbaycan qadınının yüksək intellektindən, potensialından, geniş mütaliəsindən, cəmiyyətdəki fəal rolundan ağız dolu-

su danışırlar və hətta hesab edirlər ki, onların ölkələrinin xanımları Azərbaycan qadınlarından çox şey öyrənə bilər. Mən də fəxrlə deyə bilərəm ki, həqiqətən də müasir, cəmiyyətdə öz sözünü deyə bilən, cəmiyyətdə önəmli rol oynaya bilən fəal bir xanımdır Azərbaycan qadını.

Mən çox şadam ki, belə bir səviyyəli qurultayda mən də iştirak edirdim. Elə bir qurultayda ki, sözün əsl mənasında Azərbaycan qadınlığının bayramına çevrildi. Və ən önəmli olan da qadınlarımızın yekdilliklə İlham Heydər oğlu Əliyevi yeni müddətə prezidentliyə namizədliyini irəli sürməsi faktı oldu. Qadınlarımız cəmiyyətə müraciət etdilər ki, yenidən hamı bir nəfər kimi prezidentimizə səs versinlər. Hesab edirəm ki, qadınlarımızın seçimi düzgündür. Əvvəla ona görə ki, İlham Əliyev artıq on ildir prezidentdir. Və bu 10 il ərzində sübut edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət qadın siyasəti xəttini addımbaaddım, dönmədən davam etdirir. Yəni, o, bu siyasətin layiqli davamçıdır. Bildiyiniz kimi Qadın, Ailə, Uşaq problemləri üzrə Dövlət Komitəsi məhz Heydər Əliyev tərəfindən yaradılmışdı. Qadınlara fəaliyyətləri üçün geniş meydan açılmışdı. Mən elə bir ölkə tanımıram ki, orda qanunvericilik səviyyəsində dövlət idarəetmə orqanlarında qadınların kışilərlə bərabər təmsilçiliyi barədə fərman olsun. Düşünürəm ki, Azərbaycanda qadının idarəedicilikdə rolu məqsədyönlü şəkildə idarə edilir. Ulu Öndər qadına böyük önəm verirdi. Bu siyasət sovetlər dönəmində də belə idi, sonralar - 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı zamanı da belə olaraq qaldı.

O, müstəqil Azərbaycanın qadın siyasətini yüksək səviyyədə yenidən qurdu. Dövlət qadın siyasəti bu gün də İlham Əliyev tərəfindən dönmədən, inamla davam etdirilir. Məhz bu baxımdan da Azərbaycan qadını bu gün Prezident İlham Əliyevin siyasətinə alternativ görmür. Ötən 10 il sübut etdi ki, bu gün həm dövlət idarəetmə təcrübəsinə görə, həm aparılan çoxşaxəli islahatların həyata keçirilməsinə görə, həm qəbul olunan sosial-iqtisadi proqramların dönmədən yerinə yetirilməsinə görə, yürüdülən daxili və xarici siyasətə görə İlham Əliyevə əvəz yoxdur. Öl-

kəmizin daxili və xarici siyasəti prezidentimiz tərəfindən çox düzgün və müdrikcəsinə formalaşdırılıb. Bəzən məndə elə təsəvvür yaranır ki, bu siyasət bir insanın yox, bütöv bir alimlər ordusunun elmi əsaslarla işləyib hazırladığı siyasətdir.

Bilirsiniz, çox mürəkkəb zamanda yaşayırıq. Azərbaycan kiçik dövlət olmasına baxmayaraq mühüm strateji geopolitik mövqedə yerləşir. Digər tərəfdən Azərbaycan zəngin enerji resurslarına malik bir ölkədir. Belə ölkələri böyük dövlətlər daima öz nüfuz dairəsində saxlamaq istəyirlər. Böyük dövlətlər enerji resursları ilə zəngin ölkələrdən asanlıqla əl çəkmək istəmirlər, daima orda gedən prosesləri izləyir və təsir etmək istəyirlər. Bax, bu 10 il həm də sübut etdi ki, İlham Əliyev siyasəti elə qurubdur ki, heç bir dövlət müstəqil Azərbaycanın işinə müdaxilə edə bilmir. O, 10 ildir ki, dönmədən, inamla, inadla xalqı yalnız onun köklü mənafelərindən çıxış edərək irəliyə doğru aparır. Mən bu qənaətə bir alim kimi gəlmişəm. Hərtərəfli təhlil nəticəsində bu fıkrə gəlmişəm ki, həqiqətən də İlham Əliyevin siyasəti çox güclü siyasətdir. Bu siyasətin isə müsbət nəticə verməsi üçün onun arxasında bir səriştəli insanın durması kifayət etmir. İşin uğurlu sonluğu bir Prezidentdən asılı deyil, bizim hər birimizdən, məndən, səndən və hər bir Azərbaycan vətəndaşından asılıdır. Təəssüf ki, bəzən real həyatda elə insanlara rast gəlirik ki, onlar heç də vətən naminə çalışmırlar. Dildə bunu desələr də arxada öz merkantlil maraqlarını həyata keçirirlər. Bu reallıqdır. Hesab edirəm ki, Azərbaycan vətəndaşının bu gün bir vəzifəsi də vətənə münasibətdə həmin merkantil maraqların daşıyıcıları ilə mübarizə olmalıdır.

***– Gövhər xanım, siz həm də millət vəkilisiniz. Növbəti sualım elm komissiyasının işi ilə bağlıdır. Bildiyimiz kimi artıq komissiyaya Elm haqqında qanun təqdim edilib. Bu barədə nə deyə bilərsiniz?***

– Ümumiyyətlə, elm haqqında qanunu bütün elmi- pedaqoji ictimaiyyət səbirsizliklə gözləyir. Bir çox illərdir bu qanun işlənilir və bizə təqdim edilən variant, hesab edirəm ki, çox təkmil bir variantdır. Uzun illərdir alimləri narahat edən, həllini gözlə-

yən məsələlər həmin o layihədə öz əksini tapıbdır. Məsələn, alimlərin elmi dərəcəyə görə aldıqları təzminatın artırılması, sosial problemlərinin həlli, o cümlədən, alimlərin mənzil problemlərinin həlli, məvaciblərinin artırılması məsələsi, elmin maliyyələşmə mexanizminin təkmilləşməsi məsələsi ortaya qoyulub. Burada gənc alimlər haqda xüsusi müddəalar vardır. Məsələn, gənc alimlərin güzəştli ipoteka kreditləri alması, yaxud ev tikdirmək üçün onlara pulsuz torpaq sahəsinin verilməsi məsələsi və sairə məqamlar var. Qarşıda duran əsas məsələlərdən biri Azərbaycan elminin modernləşməsi, müasir dünyanın elm məkanına inteqrasiya etməsidir. Layihədə müasir dünya elmi praktikasından maksimum istifadə olunub. "Azərbaycan elminin inkişafı hansı yollarla həyata keçirilməlidir" sualına cavab dolğunluğuyla həmin layihədə verilir. Və mən inanıram ki, Elm haqqında qanun həmin variantda qəbul olunarsa, Azərbaycan elmi böyük yüksəlişə nail olacaq. Qanun Milli Məclisin payız sessiyasında müzakirə ediləcəkdir. Digər bir məsələ gənclər üçün mükafatların təsis olunmasıdır.

Bununla əlaqədar may ayında prezident tərəfindən fərman imzalandı. Elmdə, təhsildə, ictimai işlərdə, mədəniyyət və ədəbiyyat sahəsində fərqlənən gənclərə 10 min manat məbləğində xüsusi mükafat təsis edildi. Bu isə gənc ictimai xadimlərin, yazarların, alimlin gələcəkdə daha böyük uğurlar əldə etmələri üçün stimuldur.

***– Gövhər xanım, artıq uzun illərdir ki, siz Bərdədən millət vəkili seçilirsiniz. Sizcə, Bərdə bu gün hansı problemlər yaşayır?***

– Mən 94 saylı Bərdə kənd dairəsindən millət vəkili seçilmişəm. Mənim təmsil etdiyim dairə 63 Bərdə kəndindən ibarətdir və təbiidir ki, orada yaşayan insanlar kənd əhalisidir. Onlar əsasən kənd təsərrüfatı fəaliyyəti ilə məşğuldurlar. Əsas narahatlıqları su problemindəndir. Bildiyiniz kimi ermənilər su anbarını bağladıqdan sonra aran zonasında böyük bir su çatışmazlığı problemi yaşanır ki, bu da dövlət tərəfindən tədricən həll olunur. hər il əlavə olaraq suvarma quyuları, artezian quyuları qazılsa da

problem tam həllini tapmır. Bu da ondan irəli gəlir ki, kənd təsərrüfatı sahələrini, yəni, əkin sahələrini bir-birindən böyük məsafələr ayırır. Quyunun suyu kəndin bir tərəfində vurulanda o biri tərəfi susuz qalır. Hər bir kəndli isə istəyir ki, quyu onun sahəsinə yaxın olsun. Bu problem də prezidentin diqqətindədir. Bununla əlaqədar bir sərəncam da var ki, su quyularının qazılması üçün vəsait ayrılsın və quyuların sayı artırılsın. Artıq həmin layihə çərçivəsində 2 ay müddətində 6 quyu qazılıb. Və 2-ci mərhələyə də sentyabr ayında başlanacaq. Mənim 13 il deputatlığım müddətində mən həmişə Bərdədə su problemi ilə üzləşmişəm. Mən də millət vəkili kimi daim bu problemin aradan qaldırılması il bağlı əlaqədar təşkilatlara müraciət etmişəm. Çalışıram ki, mümkün qədər kənd camaatına yardımçı olam. Dövlət son zamanlar bu məsələ ilə bağlı intensiv iş aparır. Biz inanırıq ki, bu məsələ öz həllini tapacaq.

Qadın olduğuma görədir bəlkə şikayətçilərin çoxu qadın olur. Onların şikayəti ən çox ərləri tərəfindən fiziki zorakılığa məruz qalmaları, sosial yardımla bağlı olur. Bəzən qadınlar övladının və yaxud da qardaşının haqsız həbs olunmasından şikayət edir. Onların azadlığa buraxılması arzusu ilə mənə müraciət edirlər. Amma heç bir millət vəkilinin məhkəmə orqanlarına müdaxilə etmək səlahiyyəti yoxdur. Mənim də o cümlədən. Bu baxımdan onlara yardımçı ola bilmədiyimə görə üzülürəm. İş üçün, maddi yardım üçün, xəstəliklə bağlı da müraciət edənlər olur.

***– Gövhər xanım, kəndlərdə xəstəxanalar varmı?***

– Xəstəxanalar yoxdur, ambulatoriyalar var. Amma bu ambulatoriyalar sovet dövründən qalıb və yararsız vəziyyətdədir. Uşaq bağçaları da bu gün bir problem kimi qarşımızda durur. Məndən asılı olan hər bir işi canla-başla görürəm. Amma məndən asılı olmayan məsələlərdə onlara yardımçı ola bilmirəm. Hər halda aidiyyatı təşkilatlara məktublar yazıram. Onların bəziləri müsbət cavablanır, bəziləri isə cavabsız qalır. Bunun bir səbəbi də Bərdənin Qarabağda yerləşməsidir. Bərdə Qarabağın aran rayonudur. Dağlıq Qarabağla sərhəddi yoxdur. Yəni Bərdə birbaşa döyüş zonası kimi hücuma məruz qalmır, lakin bir mil-

yonluq qaçqın ordusunun böyük hissəsi elə Bərdədə məskunlaşıb. Bu baxımdan çətinliklər var, bu özünü ilk vaxtlarda daha çox biruzə verirdi. Bərdəyə daxil olanda yol qırağında çadırlarda, palçıq və samandan düzəldilmiş köçkün evlərinə rast gəlirdim. Onların bu vəziyyəti insanın ürəyini ağrıdırdı. Sonralar ərəblər Bərdədə çadır şəhərciyi saldılar. Buna baxmayaraq yolun kənarındakı köçkün evləri uzun müddət ləğv olunmadı. Amma indi onlar get-gedə azalır. İndinin özündə də bəzi Bərdə məktəblərində, internatlarında məcburi köçkünlərə rast gəlmək mümkündür. Bu da Bərdədə məktəb problemi yaradırdı. Dediyim 63 kənddən, elə 53-də məktəb var. Bu məktəblər də tədricən yararsız hala düşmüşdü. Bir hissəsində qaçqınlar yerləşmişdi, digər hissəsində isə uşaqlar dərs keçirdi. Bu problemlər tədricən həllini tapır. Son 10 ildə Bərdədə müasir tipli məktəblər tikilib. Buna da yerli əhali çox sevinir. Bərdə sürətlə inkişaf edir. Bərdə pambıq zavodu tam yenidən tikilib, bir sıra emal müəssisələri, pendir zavodu və s. müəssisələr də fəaliyyət göstərir. Bərdə pendiri Bakıda çox alınan və istifadə edilən məhsuldur. Şəhərin mərkəzi çox gözəlləşib. Bərdədə şahmat, musiqi məktəbləri də var və onlar da əsaslı təmir olunaraq xalqın istifadəsinə verilib. Tarix-diyarşunaslıq muzeyi, elektron kitabxana, böyük diaqnostika mərkəzi tikilərək sakinlərin ixtiyarına verilib. Bu da bərdəlilərin ürəyincədir. Ümumiyyətlə, şəhər gözəlləşib, təmizdi. Məişət tullantıları istiqamətində də böyük işlər görülür. Bilirsiniz, mədəniyyət çox mühüm amildir. Ən xırda detal da insanın mədəni səviyyəsinin göstəricisi ola bilir. Elə götürək zibilin hara gəldi atılması məsələsinə. Təmizlik mədəniyyət göstəricisidir. Tədricən Bərdə camaatı da bu mədəniyyətə yiyələnir.

***– Gövhər xanım, siz uzun illərdir ki, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktorusunuz. Elmi dərəcələriniz var, ziyalı xanım, millət vəkilisiniz və eyni zamanda anasınız. Bu titullardan ən çox hansı sizə yaxındır?***

– Ana... Bəli. Ana adını hər şeydən uca tuturam. Qadın üçün ana olmaq hər şeydən vacibdir. Əlbəttə, həyatda hər şey olur. Əgər kiməsə analıq xoşbəxtliyi nəsib olmayıb, hesab edi-

rəm ki, bu da faciə deyil. Həyatdır, o qədər qadın tanıyıram ki, ana olmasa da, digər sahələrdə çox böyük uğurlara imza atıblar. İnsanın hər bir dəyərli işi onun yetirməsidir, övladıdır. Bu - bir fəlsəfədir. İnsan şükranlıqla yaşamalıdır. Tale, alın yazısı adlı bir məfhum var və insan buna qarşı çıxa bilməz. Əlbəttə, qadının ilk funksiyası ana olmaqdır. Lakin insanı xoşbəxt edən digər amillər də var ki, bunlardan əsası, fikrimcə, Vətən naminə yaşayıb çalışmaqdır. Biz bu gün varıq, sabah yox, odur ki, Allahın verdiyi ömrü elə yaşamalıyıq ki, sevgili vətənimiz daha da çiçəklənsin, inkişaf eləsin. Vətən eşqi ilə yaşayan insanlara çox böyük hörmətim var. İnsan təkcə özünü düşünməməlidir. Biz mütləq gənc nəsli vətənpərvər böyütməliyik. "Öncə Vətən" amalını uşaqlıqdan onlara aşılamalıyıq. Biz düşünməməliyik ki, vətən mənə nə verdi, düşünməliyik ki, mən vətənə nə verə bilərəm.

O taylı, bu taylı Azərbaycanımızın milli birlik rəmzinə çevrilmiş böyük şair ustad Şəhriyar demişkən:

Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyib heçdir vətənsiz can, Azərbaycan.

***– Gövhər xanım, siz AMEA-nın Şərqşünaslıq İnstitunun direktorusunuz. Şərqşünaslıq İnstitutu Aida İmanquliyeva, Ziya Bunyadov, Rüstəm Əliyev, Sumbatzadə, Vasim Məmmədəliyev kimi qiymətli alimlər yetişdirib. Dərin ənənələrə malik olan bu institutun sələfləri barədə nə deyə bilərsiz?***

– Bu kollektivdə çalışan hər bir alim, həmən o sadaladığınız alimlərin sələfləridir. Hər bir akademikin öz məktəbi olub. Məsələn, akademik Ziya Bünyadovun məktəbi, akademik Həmid Araslının məktəbi, akademik Sumbatzadənin məktəbi, akademik Əddülkərim Əlizadənin məktəbi, professor Aida İmanquliyevanın məktəbi, professor Rüstəm Əliyevin məktəbi. Bu alimlərin hər biri bu institutda bir məktəb yaradıb. Və bu gün onların yaratdığı məktəblərin müdavimləri bu institutda fəaliyyət göstərir və artıq öz tələbələrini yetişdirirlər. Bu baxımdan institutda çalışan hər bir gənc alim, eyni zamanda həmən o böyük alimlərin də tələbələri hesab olunurlar. Onların əsərləri sayəsində öz əsərlərin yazırlar, öz elmi tədqiqatlarını aparırlar. Və təbiidir ki, həmən

məktəbin yetirmələri hesab olunurlar. Bu gün bu institutda tarixçi alimlər var ki, Ziya Bünyadovun əsərləri üzərində çalışırlar. Həqiqətən, institutumuzda ərəb, fars, türk dillərinin gözəl biliciləri var. Burada çalışan hər bir kəs şərqşünaslıq elminin və bu elmin korifeylərinin layiqli davamçıları hesab edilir.

***– Gövhər xanım, 11 ayın sultanı Ramazana təsadüf edib görüşümüz. Oruca münasibətiniz necədir?***

– Ramazan ayı müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu aydır. "Əl-Bəqərə" surəsinin 185-ci ayəsində buyurulur: Quran Ramazan ayında nazil edilmişdir. Ramazan ayına yetişən şəxslər bu ayı oruc tutmalıdırlar. Ramazan ayında müsəlman aləmi üçün önəmli olan bir sıra başqa hadisələr də baş vermişdir: məsələn, Kərbəla şəhidi İmam Hüseyn anadan olmuşdur. Peyğəmbərimizin zövcəsi həzrəti Xədicə bu ayda dünyasını dəyişmişdir, 17 Ramazanda məşhur Bədr döyüşü baş vermişdir, bu aya həzrəti Əlinin doğum və ölüm günləri də təsadüf edir və s. Oruca münasibətim isə normaldır. Uca tanrı hamının oruc və namazını qəbul etsin deyirəm. Bütün müsəlmanları Müqəddəs Ramazan münasibəti ilə təbrik edirəm.

***– Bir şərqşünas alim kimi şərqi, yoxsa müasir standartlara uyğun qərbi sevirsiniz?***

Böyük, möhtəşəm mədəniyyətlərin yaradıcısı daşıyıcısı kimi mənə Şərq, həm də Qərb əzizdir. Onlar hər ikisi ümumbəşər sivilizasiyasının ayrılmaz hissələridir. Hesab edirəm ki, Şərq və Qərb daim bir-biriləri ilə sıx təmasda inkişaf edib və qarşılıqlı surətdə bundan faydalanıblar.

*"Zəriflik" jurnalı, iyun-avqust, 2013.*

## MİLLİ MƏNAFENİ TƏMİN EDƏN, XALQIN CARİ VƏ STRATEJİ MARAQLARINA XİDMƏT EDƏN SİYASİ XƏTT DÖNMƏDƏN DAVAM ETDİRİLMƏLİDİR

Müstəqil Azərbaycan Respublikası özünün qısa, lakin şərəfli tarixinin mühüm bir dövrünə qədəm qoyur. Son illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş möhtəşəm nailiyyətləri davam etdirmək, sosial-siyasi və iqtisadi inkişafın daha yüksək səviyyəsinə ucalmaq baxımından ciddi vəzifələrin qarşıda durduğu hazırkı mərhələdə yeni seçiləcək prezidentin şəxsiyyətindən, onun ölkədə həyata keçirilən böyük quruculuq işlərini qətiyyətlə davam etdirmək bacarığından çox şey asılıdır. Belə şəraitdə hər bir Azərbaycan vətəndaşının, xüsusən onun ziyalı təbəqəsinin üzərinə böyük məsuliyyət düşür.

Həqiqi ziyalı mövqeyi kimi səciyyələndirilən mövqe əslində istənilən partiya mənafelərindən və korporativ maraqlardan kənarda dayanaraq, milli mənafelərin və dövlətçilik maraqlarının önə çəkilməsi deməkdir. Bu isə başlıca ideya kimi milli birlik və həmrəyliyin möhkəmləndirilməsini, ictimai-siyasi sabitliyin qorunmasını və vətənin bütün sahələrdə davamlı inkişafının təmin edilməsini ehtiva edir. Hal-hazırda prezident İlham Əliyevin siyasi kursunun ziyalı təbəqəsinin böyük əksəriyyəti tərəfindən dəstəklənməsi bu kursun dövlətimizin cari və strateji maraqlarına cavab verməsi ilə şərtlənmişdir.

İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə istər iqtisadi sahədə, istər daxili və xarici siyasət sahəsində, istər sosial sahədə misli görünməmiş uğurlara imza atılmışdır: ümumi daxili məhsul üç dəfə artmışdır, iqtisadiyyatın bütün sahələrində surətli inkişafa nail olunmuşdur, tikinti sektorunda artım tempi dörd dəfəyə yaxınlaşır, daxili və xarici investisiyalar artmışdır, dövlət büdcəsi 25 milyard manata çatmışdır, yoxsulluğun səviyyəsi kəskin azalmış, işsizlik 6% enmişdir, nəhəng sosial-iqtisadi layihələr həyata keçirilmiş, Azərbaycan Qafqazın lider dövlətinə

çevrilmişdir. Şəhərlərimizin və kəndlərimizin siması dəyişmiş, minlərlə yeni emal müəssisə, xəstəxanalar, müalicə mərkəzləri, məktəblər, uşaq evləri və bağçalar, mədəniyyət obyektləri tikilib, xalqın istifadəsinə verilmişdir. Cəsarətlə deyə bilərik ki, bütün bunlar İlham Əliyevi Azərbaycan tarixinə böyük qurucu lider kimi artıq daxil etmişdir.

Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident İlham Əliyevin yürütdüyü xarici siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha qənaətə gəlirik ki, prezidentimizin xarici siyasəti də daxili siyasəti kimi daim bir marama, bir məqsədə, bir amala xidmət edir – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

Bu gün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Azərbaycan Respublikasının xarici Şərq siyasətində heç şübhəsiz birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır.

Ulu öndər Heydər Əliyevin uğurlu siyasi fəaliyyətinin davamı olaraq 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir.

Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin yaradılması, Azərbaycanda türk litseylərinin fəaliyyət göstərməsi birgə mədə-

ni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır.

Türkdilli ölkələrin Dövlət Başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, ötən ay Qəbələdə türkdilli dövlət və hökumət başçılarının görüşü türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqların inteqrasiyası istiqamətində baş tutan digər bir çox önəmli hadisə - Türkdilli Dövlətlərin Parlament Assambleyasının (Türk PA) təsisi və Baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət, Prezident İlham Əliyev tərəfindən də davam etdirilir.

İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. Azərbaycanda İƏT-nin bir sıra konfrans, forum, seminar və digər tədbirləri keçirilmişdir. 2005-ci ildə İƏT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 2006-cı ildə (19-21 iyun) təşkilata

üzv ölkələrin xarici işlər nazirlərinin XXXIII konfransı Bakıda keçirildi.

İƏT indiyə qədər Azərbaycanla bağlı bir sıra önəmli qətnamələr qəbul edib: Azərbaycana iqtisadi yardım barədə qətnamə, Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində islam tarixi və mədəni abidələrinin dağıdılması barədə qətnamə, Ermənistan və Azərbaycan arasındakı münaqişə barədə qətnamə və sairə. Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti, İƏT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pisləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbul olunmasına nail olmuşdur.

Prezident İlham Əliyevin apardığı dərin düşünülmüş xarici siyasət nəticəsində Şərqin digər ölkələri - Çin, Yaponiya, Cənubi Koreya, Pakistan, Hindistan, İndoneziya, Malayziya və s. ilə də əlaqələr yaradılır, səfirliklər açılır, qarşılıqlı səfərlər həyata keçirilir, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev elmdə islahatlar, elmin inkişaf strategiyası, Elmin İnkişafı Fondunun yaradılması, gənc alimlərə Dövlət mükafatlarının verilməsi ilə bağlı sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi istiqamətində mühüm addımlar atdı. Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə artırılıb. Xüsusən də dövlət başçısının sərəncamları ilə görkəmli alimlərimizə yüksək dövlət mükafatları, elmi adlar, prezident təqaüdü və mənzillər verilməsini qeyd etmək istərdim. Elmin inkişafına yönəldilən xərclər təxminən 8 dəfə artıb. Azərbaycan Elminin İnkişaf Strategiyası təsdiq olunub, 2009-2015-ci illərdə elmin inkişaf strategiyasının həyata keçirilməsi üçün Dövlət Proqramı qəbul edilib, Elmin İnkişaf Fondu yaradılıb və s. Bütün bunlar göstərir ki, AMEA-ya, Azərbaycan elminə diqqət ilbəil artırılır.

Son illər elm və mədəniyyət ocaqlarının təmirinə, maddi-texniki bazasının gücləndirilməsi işinə də böyük diqqət yetirilir.

Nümunə kimi bir müddət öncə Tarix muzeyinin əsaslı şəkildə təmir olunmasını və onun yeni eksponatlarla təchiz olunmasını, köhnə eksponatların bərpası üçün dövlətin hər il vəsait ayırmasını, eləcə də, Nizami adına Ədəbiyyat muzeyinin təmir edilməsini göstərmək olar. Hər iki muzeyin təmirdən sonra açılışında cənab Prezident şəxsən iştirak edib və onların işi ilə yaxından tanış olub. Bütün bunlar Azərbaycanda elmə, mədəniyyətə yüksək diqqət və qayğıdan xəbər verir. Eyni zamanda, Elmin İnkişafı Fonduna çox böyük vəsaitlər ayrılır. Elm ocaqlarının yeni avadanlıqlar ilə təchiz olunması, modernləşməsi, dünya elminə inteqrasiya etməsi, qrant müsabiqələrinin keçirilməsi, elmi işçilərin əməyinin stimullaşdırılması üçün bu fond ciddi işlər görməkdədir. Ümumiyyətlə, akademiyanın təchizat məsələləri də son illər xeyli səviyyədə yaxşılaşdırılıb. İnformasiya texnologiyaları ilə təchiz olunması, ezamiyyətlərin verilməsi, xarici ədəbiyyatların alınması və s. məsələlərdə müsbət irəliləyişlər çoxdur.

Xeyli vaxt idi ki, AMEA-nın əsas və digər binalarında əsaslı şəkildə təmir işləri aparılırdı. Dövlət bu təmir-bərpa işləri üçün lazımi vəsaiti ayırmışdı. Bu məsələ Prezident İlham Əliyevin xüsusi diqqətində idi və dövlət başçısının akademiya şəhərciyində aparılan əsaslı təmir işlərindən sonra vəziyyətlə tanış olması buna bariz sübutdur.

Prezident İlham Əliyevin AMEA-nın illik hesabat yığıncağındakı söylədiyi nitq Azərbaycan elminin inkişafında çox böyük hadisədir. Dövlət başçısı yığıncaqdakı dərin məzmunlu çıxışında alimlərimizin əməyinə yüksək qiymət verib: «Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir».

Prezident Azərbaycanda elmin inkişafı, modernləşməsi, böyük elmi məktəblərin qorunub saxlanması haqqında dəyərli fikirlər bildirib. Bütün dövrlərdə alimlərimizin Azərbaycanın

müxtəlif istiqamətlərdə inkişafına dəyərli töhfələr verdiyini qeyd edən dövlət başçısı ölkəmizdə dünya səviyyəsində aparılan araşdırmaların öz müsbət təsirini göstərdiyini qeyd edib. Cənab Prezidentin geoloq alimlərimizin ölkəmizin təbii resurslarının kəşfi ilə bağlı əvəzolunmaz xidmətlər göstərdiyini, neft-kimya sahəsində böyük perspektivlərin olmasını, ölkə iqtisadiyyatının hərtərəfli inkişafını və iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən güclü elmi əsaslara söykənməli olduğumuzu, AMEA-nın aqrar bölməsinin yaradılması üçün konkret addımlar atılmasının vacibliyini, elmimizin dəstəyi ilə Azərbaycanda çox güclü kosmik sənaye yaradılacağına əminliyini, informasiya-kommunikasiya sektorunda uğurlarımızı xüsusi vurğulaması elmimizin bütün sahələrinin dövlətin nəzarət və qayğısı altında olmasının göstəricisidir.

Ölkə rəhbəri humanitar elmlərlə bağlı məsələlərin daim diqqət mərkəzində olduğunu deyərək, bu sahədə aparılan işləri çox uğurlu və təqdirəlayiq olduğunu dedi: «Biz bu sahəyə daim diqqət göstərməliyik. Çünki bildiyiniz kimi, müstəqillikdən əvvəl bizi millət kimi qoruyub saxlayan milli dəyərlərimiz, milli ənənələrimiz, ana dilimiz, ədəbiyyatımız, musiqimiz olub. Ona görə, bu sahəyə dövlət tərəfindən daim diqqət göstərilir. Hesab edirəm ki, Elmlər Akademiyası bu istiqamətdə çox uğurlu fəaliyyət göstərir». Cənab Prezidentin yığıncaqda Azərbaycan dili barədə söylədiyi fikri xüsusi vurğulamaq lazımdır: «Ana dilimizə hörmət və qayğı daimi olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir».

Prezident İlham Əliyevin ədəbiyyat, arxeologiya, tarix və digər elm sahələri ilə bağlı söylədiyi fikirlər də bu sahələrə böyük önəm verməsini, onları daim diqqət mərkəzində saxlamasını təsdiqləyir: «Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki,

bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır».

Yığıncaqda «Biz elə etməliyik ki, Azərbaycan elmi inkişaf etsin, yaşasın və Azərbaycan dövlətinə, Azərbaycanın milli maraqlarına həmişə olduğu kimi xidmət etsin,» - söyləyən Prezident İlham Əliyevin Akademiyanın gələcəyinə böyük inam bəsləməsini onun gənc alimlərlə bağlı söylədiyi fikirlər də təsdiqləyir: «Hazırda “Azərbaycan gəncliyi 2011-2015 illərdə” Dövlət Proqramı hazırlanır. Eyni zamanda, Azərbaycan elminin inkişafı üzrə dövlət proqramı da 2015-ci ilə qədər hesablanıbdır. Bu iki proqramı biz bir növ bir-biri ilə bağlamalıyıq və gənclərin, ümumiyyətlə, elmə cəlb edilməsi üçün əlbəttə ki, əlavə tədbirlər nəzərdə tutulmalıdır. Mən o fikirlə tam razıyam ki, biz gəncləri elmə cəlb etmək üçün əlavə mexanizmlər hazırlamalıyıq, stimullaşdırmalıyıq».

Ölkə başçısının Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağından sonra mayın 1-dən AMEA-nın həqiqi üzvlərinin aylıq rütbə maaşlarının 1200 manat, müxbir üzvlərininsə aylıq rütbə maaşlarının 850 manat məbləğində müəyyən edilməsi, AMEA-nın tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisələrində çalışan işçilərin əməkhaqlarının 20 faiz artırılması, eləcə də akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında verdiyi sərəncamlar alimlərimiz tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Bütövlükdə akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də konkret addımlar atıldı. Prezidentin sərəncamı ilə “Akademiya şəhərciyi”ndə AMEA-nın mərkəzi kitabxanasının yeni binasının tikilməsi, ərazidəki qeyri-akademik qurumların köçürülməsi, burada yerləşən Fizika və

Geologiya institutlarının, eləcə də Sumqayıt şəhərindəki Polimer Materialları İnstitutunun binalarının əsaslı təmiri nəzərdə tutulur, eləcə də "Xəzər Elmi Tədqiqat Mərkəzi"nin yaradılması, neft-kimya yönümlü institutların zəruri avadanlıqlarla təchiz edilməsi ilə bağlı təkliflərin hazırlanması müvafiq qurumlara tapşırıldı.

Bütün bunlar onu göstərir ki, Azərbaycan elminin inkişafı, modernləşməsi, dünya elminə inteqrasiya etməsi üçün dövlətimiz əlindən gələni edir, görülən işlərdə alimlərimizi dəstəkləyir, fəaliyyətini yüksək qiymətləndirir və alimlər üçün hər cür şərait yaradır.

Son illərin möhtəşəm uğurları bizdə zəngin sərvətlərə malik, əlverişli geoməkanda yerləşən Azərbaycanımızın parlaq gələcəyinə əminliyi artırır. Bu gələcəyə ölkədə aparılan köklü islahatlar, konstitusion ənənələrə əsaslanan sarsılmaz dövlət quruculuğu təminat verir.

Hesab edirəm ki, vətənin taleyi heç kimin siyasi ambisiyasının qurbanına çevrilməməlidir. Yaşadığımız taleyüklü dövrdə hər bir azərbaycanlı öz məsuliyyətini tam dərk edərək, milli maraqlardan çıxış etməlidir. Bu gün ümummilli mənafeyimiz tələb edir ki, prezidentin ətrafında sıx birləşərək hər birimiz müstəqilliyimizin möhkəmlən dirilməsinə, vətəninin inkişafına, onun ərazi bütövlüyünün bərpasına bacardığımız töhfəni verək. Ziyalı passiv mövqe tutmamalıdır. Artıq bir dəfə ziyalı təbəqəsinin passiv mövqeyinin acı nəticələrini bütün xalq öz üzərində hiss elədi, başımıza nələr gəldi.

Unutmamalıyıq ki, bədxahlarımıza Azərbaycanda zəif iqtidar lazımdır. Amma Azərbaycan xalqına güclü iqtidar gərəkdir, çünki güclü iqtidar güclü Azərbaycan deməkdir. İlham Əliyev isə güclü Azərbaycanın - ictimai-siyasi sabitlik şəraitində sürətli iqtisadi inkişaf yolu ilə inamla irəliləyən milli dövlətimizin qarantıdır. Növbəti prezident seçkilərində Azərbaycan xalqının İlham Əliyevdən layiqli namizədi yoxdur.

*"Azərbaycan" qəzeti, 7.09.2013*

# “BİR MİLLƏT, İKİ DÖVLƏT” PRİZMASINDAN AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

Keçən yüzilin ikinci yarısından başlayaraq dünyada informasiya vasitələrinin və texnologiyanın inkişafı sürətləndi. Elm və texnikanın digər sahələrində əldə edilən misli görünməmiş nailiyyətlər ölkələri, xalqları, o cümlədən mədəniyyətləri bir-birinə daha da yaxınlaşdırdı. Bunun nəticəsində də mədəniyyətlər arasında sıx ünsiyyətlər yarandı, müasir dünya xeyli dərəcədə kiçildi. Məhz XX yüzilin sonunda "yeni dünya" sistemi formalaşmağa başladı və bununla da beynəlxalq münasibətlər yeni məzmun və keyfiyyət kəsb etdi. Beynəlxalq aləmdə hegemonluq uğrunda mübarizə XXI yüzildə qloballaşma adı altında genişlənərək intensiv xarakter almaqdadır.

Beləliklə qloballaşma, universallaşma və mənəvi inteqrasiya ilə xarakterizə olunan yeni dünya şəraitində "konfliktsiz dünya" ideyasının reallaşa bilməməsi bir sıra çətinliklər ortaya çıxardı. Belə ki, ikili, fərqli standartlarla yanaşmanın, səmimiyyətsizliyin daha qüvvətli şəkildə ön plana çıxması sözügedən qloballaşma, universallaşma və mənəvi inteqrasiya vasitələri ilə insanların Qərb dəyərləri ilə tərbiyələndirilməsi xeyli anlaşılmazlıqlar və ziddiyyətlər doğurdu. Bu da sıx ünsiyyətlər və əlaqələr şəraitində daha böyük siyasi-hərbi və iqtisadi qüvvəyə əsaslanan mədəniyyətlər tərəfindən belə imkanlara sahib olmayan mədəniyyətlərin asimilyasiya edilməsi və milli-mənəvi dəyərlərin aşınma təhlükəsinin yaranmasına səbəb oldu.

Belə bir mərhələdə beynəlxalq münasibətlər sahəsində yenicə müstəqillik qazanmamış ölkələrin milli varlığını qoruması olduqca aktuallaşdı. Xüsusilə Azərbaycan kimi keçən yüzilin 90-cı illərinin əvvəlində milli və dövlət müstəqilliyini əldə etmiş ölkələr üçün bu aktuallıq daha açıq şəkildə özünü göstərirdi. Həmin problemin həlli yolunda milli maraqlara tam cavab verən xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsi zəruri mə-

sələ kimi qarşıya çıxırdı. Deməli, milli varlığın qorunub saxlanması və gələcək nəsillərə ötürülməsinin sözügedən kursun reallaşmasından asılılığı inkaredilməz idi.

Azərbaycanın milli maraqlarını hərtərəfli göz önündə canlandıran, onun milli mənafelərini tam şəkildə əks etdirən xarici siyasət kursunda, bu kursun müvəffəqiyyətlə reallaşmasında Azərbaycan-Türkiyə münasibətlərinin uğurlu inkişafı, mübaliğəsiz demək olar ki, birinci dərəcəli əhəmiyyət daşıyırdı. Bu isə bir daha ondan irəli gəlirdi ki, müasir dövrdə güclü dövlət olaraq sürətli inkişaf yolunda irəliləyən və beynəlxalq münasibətlərdə möhkəm yer tutan Türkiyə və Azərbaycanı tarix ümumiliyi və etnik-dini tellər bağlayırdı. İstər bir çox daxili məsələlərin həllində, istərsə də beynəlxalq münasibətlərdə Türkiyə kimi qardaş ölkə ilə tərəfdaşlıq və əməkdaşlıq Azərbaycanın müstəqil ölkə və dövlət olaraq intensiv inkişafı üçün olduqca zəruri idi.

Keçən yüzilin 90-cı illərinin başlanğıcında SSRİ-nin süqutundan sonra, ildən-ilə irəliləyən Türkiyə Qafqaz və Orta Asiya bölgələrində tanınan və nüfuzlu bir ölkə mövqeyini qazandı. Bu gün nəhəng Avrasiya bölgəsində Türkiyə sözü keçən, qüdrətli, mövqeyi dəyişməz dövlətlərdən biridir.

Bilindiyi kimi, Türkiyə 1952-ci ildən NATO-nun üzvüdür və onun Qərblə iqtisadi-mədəni əlaqələri mövcuddur. Beləliklə də Türkiyə bölgədə yeritdiyi siyasətlə həm milli-strateji, həm də etnik-dini amilləri diqqət mərkəzində saxlamaqdadır. Məlumdur ki, MDB məkanında bir sıra türkdilli və digər müsəlman xalqlar yaşamaqdadırlar. Türkiyənin bu bölgədə yeritdiyi siyasətdə bəzən etnik-dini amil lər daha açıq şəkildə özünü göstərir. Bu da onun Qərb müttəfiqlərinin müəyyən narazılığına səbəb olur. Buna baxmayaraq, Türkiyə bölgədə siyasətini uğurla yeritməkdədir.

Azərbaycanla Türkiyə arasında əlaqələrinin dərin tarixi kökləri vardır. Türkiyə daim Azərbaycanın köməyinə gəlmiş, ən çətin anlarda onu yalqız qoymamış, qardaşlıq yardımını əsirgəməmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etdikdə onu tanıyan ilk dövlət Türkiyə oldu. Amma

Türkiyə AXC-ni rəsmi olaraq tanımaqla kifayətlənmədi. Sözsüz ki, müstəqil dövlət kimi yenicə arenaya çıxan gənc AXC-nin ordu və dövlət quruculuğu prosesinə yardım etmək, ölkədə əmina-manlıq, nizam-intizam yaratmaq üçün yetərincə qüvvəsi yox idi. AXC daşnakbolşevik təcavüzü ilə qarşı-qarşıya qalmışdı. Gənc respublikanın qurtuluşu və dinc quruculuğu üçün xalqımızın dostluq münasibəti bəsləyən xarici bir tərəfdaşa böyük ehtiyacı var idi. Bu tərəfdaş isə yenə qardaş Türkiyə oldu. Yaranmış durumla bağlı olaraq AXC-nin qurucularından biri - N. Yusufbəyli deyirdi: "... Bu halda biz sevinə bilərik ki, buraya gəlməli olan xarici qüvvə dost və qardaş Türkiyədir" [8, s.324]. M. Ə. Rəsulzadə isə o çətin və tarixi anlarla bağlı sonralar yazırdı ki, o zaman yaranmış şəraitdə ümid yalnız Türkiyəyə qalırdı və bu qardaş millət Azərbaycanı düşmənlərin əlindən almalı idi [8,s.352].

Birinci Dünya müharibəsinə sürüklənən Türkiyə savaşın çətin anlarını yaşamasına baxmayaraq, qurtuluş missiyasını şərəflə yerinə yetirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam ordusu AXC-nin qüvvələri ilə birlikdə ağır döyüşlərdən qalib çıxaraq 1918-ci ilin sentyabrında Bakını azad etməsi ilə Azərbaycanın qurtuluşunu təmin etdi: "1918-ci ildə erməni-müsəlman münaqişəsi zamanı Azərbaycan xalqını məhv olma təhlükəsindən türk ordusu... qurtardı."[6,s.l86]

Ordu quruculuğunda, zabit kadrlarının hazırlanmasında, hüquqi dövlət quruculuğunda da Türkiyə AXC-yə təmənnasız yardımlar göstərdi. Bu şərəfli missiya iki ölkənin qardaşlıq münasibətlərinin sarsılmazlığını bütün dünya ictimaiyyəti qarşısında bir daha parlaq şəkildə nümayiş etdirmiş oldu. Birinci Dünya müharibəsinin sonunda imzalanan "barışığın", sanki bir tale yazısını ifadə edən şərtindən irəli gələrək Nuru paşa Bakıdan, Azərbaycandan ayrılmalı oldu. 10 noyabr 1918-ci il tarixində Azərbaycan hökuməti böyük minnətdarlıqla Nuru paşa ilə vidalaşma mərasimini təşkil etdi və onun şərəfinə təntənəli ziyafət verdi [8, s.337].

O tarixi və ağır illərdə Azərbaycan da müstəmləkə şəraitində (çarizm və bolşevizm) yaşamasına baxmayaraq, Türkiyəyə

qardaşlıq yardımını əsirgəməmişdi. Hələ 1912-1913-cü illərdə Balkan və Birinci Dünya (Şərq cəbhəsində) savaşlarında Türkiyə tərəfində Azərbaycan könüllüləri də iştirak etmişdilər. Azərbaycanın xeyriyyə cəmiyyəti Türkiyənin şərq bölgələrində savaşdan zərər çəkən əhaliyə maddi və mənəvi yardımlar göstərdi. Azərbaycanda sovet rejiminin ilk aylarında da iki qardaş ölkənin arasında yardım əlaqələri davam edirdi. Türkiyə 1919-1922-ci illərdə imperialistlərə və onların əlaltılarına qarşı qurtuluş savaşı apararkən Azərbaycan ona müxtəlif yardımlar edirdi. "Bosfor" qəzetinin 12 yanvar 1922-ci il tarixli sayında dərc olunmuş bir xəbər bu baxımdan diq qəti çəkir: "Azərbaycan hökuməti Anadolu yetimlərinə 3 vaqon ağ neft bağışlamışdır." [10,s.287]

Amansız Sovet rejimi tezliklə iki qardaş ölkə arasında əlaqələri qırdı. Ancaq bu "qırılma" müvəqqəti xarakter daşıdı. Haqq və ədalət yenidən zəfər çaldı – Sovet rejimi tarixdə qaldı və qardaş ölkələr arasındakı tarixi bağlılıqlar bərpa olundu. Azərbaycan Respublikas 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini elan etdikdən sonra qarşıda duran ən mühüm məsələlərdən biri də onun beynəlxalq aləmdə rəsmən tanınması idi. Noyabr ayının 9-da Türkiyə hökuməti Azərbaycanın müstəqilliyini rəsmi olaraq tanıdı [bax:7]. Beləliklə, Azərbaycanın müstəqilliyini rəsmən tanıyan ilk dövlət yenə də qardaş Türkiyə oldu. Bundan dörd ay sonra, 14 yanvar 1992-ci il tarixində, Azər bay canla Türkiyə arasında diplomatik münasibətlər yaradıldı [9,s.332]. Bununla da iki ölkə arasında çoxtərəfli əlaqələrinin inkişafı üçün geniş imkanlar açıldı, 1992-ci ilin fevralında isə Türkiyə Respublikası və Azərbaycan Respublikası xarici işlər nazirlikləri arasında vizasız gediş-gəlişə dair məktub mübadiləsi haqqında sazişlər imzalandı. Buna 1-3 may 1992-ci il tarixində Türkiyə Respublikasının prezidenti Turqut Özal Azərbaycanda rəsmi səfərdə oldu. Səfər zamanı birgə bəyanat imzalandı və bununla da iki ölkə arasında strateji əməkdaşlığın təməl daşı qoyuldu [13). Noyabr ayında ticarət-iqtisadi əməkdaşlıqlara investisiyalara dair imzalanmış sənədlər ilə iki ölkə arasında qarşılıqlı

münasibətlərin hüquqi-normativ bazasının yaradılması sahəsində mühüm irəliləyiş oldu.

1993-cü ildə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə Respublikanın milli maraqlarını əks etdirən bir çox sahələrdə olduğu kimi, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına yeni təkan verən mərhələnin əsası qoyuldu. Bu hər iki ölkənin daxili durumlarını, beynəlxalq şəraiti, Azərbaycan və Türkiyənin maraqlarını çevik və realistcəsinə əks etdirən bir mərhələ idi. Heydər Əliyevin hazırladığı və yön verdiyi xarici siyasət kursu, sözün həqiqi mənasında, həssaslığı və çevikliyi ilə fərqlənirdi. Məhz bu səbəbdən, H. Əliyev tərəfindən ifadə edilən "Bir millət, iki dövlət" şüarı iki qardaş ölkə arasında hərtərəfli inkişafın rəmzinə çevrildi.

H. Əliyev 8-11 fevral 1994-cü il tarixlərində Türkiyədə ilk rəsmi səfərdə oldu. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bir sıra mühüm sənədlər imzalandı. Bunlar əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokollardan, iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında sazişlərdən, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı haqqında müqavilə və digər sənədlərdən ibarət idi [14]. Həmin ilin 20 sentyabrında isə sadəcə iqtisadi deyil, həm də siyasi baxımdan beynəlxalq əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə Azərbaycan Respublikasının iqtisadi inkişafına böyük təkan verməklə bərabər, onun beynəlxalq münasibətlərdə mövqeyinin möhkəmlənməsinə, o cümlədən Türkiyə ilə hərtərəfli əlaqələrinin dərinləşməsinə böyük töhfə idi. Türkiyənin "Türk Petrolları" Anonim Ortaqlığı (TPAO) şirkəti müqaviləni imzalayan xarici neft şirkətləri konsorsiumunda iştirak edirdi.

Türkiyə prezidenti S. Dəmirəlin 1995-ci il dekabrın 7-9-da Azərbaycana rəsmi səfəri zamanı yenə bir sıra mühüm sənədlər imzalandı və ikitərəfli əlaqələrin çərçivəsi daha da genişləndirildi [9,s.332]. 1996-cı ildə Azərbaycan və Türkiyə arasında hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı [9,s.332]. Beləliklə, qarşılıqlı münasibətlərin hüquqi-

normativ əsaslarının genişlənməsi nəticəsində, iqtisadiyyat, texnika, hərbi, elm və mədəniyyət sahələrində əməkdaşlığın gələcək inkişafı üçün geniş imkanlar açıldı.

Artıq hər iki ölkənin dövlət və hökumət başçılarının, rəhbər işçilərinin qarşılıqlı rəsmi və işgüzar səfərləri müntəzəm xarakter almağa başladı. Bütün bu tədbirlər öz müsbət nəticələrini verirdi. Iki ölkə arasında hərtərəfli əlaqələrin inkişafı H. Əliyevin daim diqqət mərkəzində idi. Türkiyə Respublikasının quruluşunun ildönümü münasibətilə 29 oktyabr 1994-cü il tarixində Gülüstan sarayında təşkil edilən mərasimdə çıxışında H. Əliyev Azərbaycan və Türkiyə dostluq və qardaşlığını belə dəyərləndirirdi: "Türkiyə Respublikası Azərbaycanın müstəqilliyini tanıyaraq, eyni zamanda, dünyada öz nüfuzundan, təsirindən istifadə edərək respublikamızın mövqeyinin müdafiə olunmasında mühüm rol oynamışdır. İki qardaş ölkənin dostluq, qardaşlıq əlaqələri bizi daha da yaxınlaşdırmış, daha da birləşdirmişdir. Respublikamızın bu ağır şəraitində, Azərbaycanın müharibə içərisində olduğu, iqtisadi-siyasi böhran keçirdiyi bir dövrdə, şübhəsiz ki, dünya birliyinin köməyinə, həmrəyliyinə ehtiyacımız var. Bizim səsimizə səs verənlər arasında Türkiyə Respublikasının səsi həmişə daha yüksəklərə qalxır, daha güclü olur və bunların hamısı bizim dostluğumuzun, qardaşlığımızın rəmzidir, əlamətidir." [l, s.432]

H. Əliyev 5 may 1997-ci il tarixində Türkiyədə rəsmi səfərdə olarkən mətbuat üçün verilən bəyanatda ürək sözlərini belə ifadə edirdi: "Bizim ölkələrimizi, xalqlarımızı tarixi köklərimiz, tarixi keçmişimiz, ənənələrimiz, mədəniyyətimiz, dilimiz, dinimiz birləşdiribdir." [2,s.276]

Prezident Heydər Əliyev Türkiyə Respublikasının qurucusu Atatürkə böyük dəyər verir, onu, eyni zamanda, bütün türkdilli xalqların mənafeyi baxımından da örnək bir şəxsiyyət kimi xarakterizə edirdi. O, 8 fevral 1994-cü il tarixində Türkiyədə rəsmi səfər zamanı Atatürkün qəbrini ziyarət edərkən xatirə kitabında bu səmimi sözləri yazmışdır: "Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan

dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır." [3, s.5] H. Əliyevə 1999-cu il Atatürk Beynəlxalq sülh mükafatı Ankarada təqdim edilərkən o, çıxışında Atatürkü belə dəyərləndirdi: "Mustafa Kamal Atatürk bəşər tarixinin, XX əsrin ən böyük şəxsiyyətlərindəndir. İstiqlal savaşına başçılıq edərkən qalib gəlib, Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmışdır. Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir" [3,s.39].

Azərbaycanın Türkiyə ilə qarşılıqlı əlaqələri ildən-ilə daha böyük uğurla inkişaf etməkdə idi. Heydər Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində iki ölkə arasında bağlılıqlar Azərbaycan siyasətinin prioriteti oldu. Regional və beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında səmərəli əməkdaşlığın möhkəm təməli quruldu. Bu əməkdaşlıq BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk PA, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, EKO, İslam Əməkdaşlıq Təşkilatı (keçmiş İKT) kimi nüfuzlu beynəlxalq və regional təşkilatlarda müvəffəqiyyətlə həyata keçirilir.

Azərbaycan-Türkiyə münasibətlərində Dağlıq Qarabağ məsələsi də çox mühüm yer tutur. Ermənistanın Azərbaycana təcavüzünün ilk günlərindən, Dağlıq Qarabağ münaqişəsinin ilk başlanğıcından Türkiyə istər ikitərəfli münasibətlərdə, istərsə də regional və beynəlxalq səviyyələrdə daim Azərbaycanın yanında olmuş, onun beynəlxalq hüquq normalarına tam uyğun olan tələblərini yorulmadan ardıcıl şəkildə müdafiə etmişdir. Qardaş ölkə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün ardıcıl təşəbbüslər göstərmiş və bu istiqamətdə fəaliyyətini davam etdirməkdədir. Ümumiyyətlə, bir çox vacib məsələlərdə olduğu kimi, Dağlıq Qarabağ məsələsində də Türkiyə Azərbaycanı heç bir vaxt yalqız qoymamışdır. Bu münaqişənin dinc yolla və

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə həll edilməsi üçün əlindən gələn köməyi əsirgəmir.

Türkiyənin dövlət və hökumət rəhbərlərinin də Azərbaycana rəsmi və işgüzar səfərlərində müntəzəm xarakter alaraq iki ölkə arasında hərtərəfli münasibətlərin dərinləşməsinə böyük töhfələr vermişdir: 1995-ci ilin dekabrında (7-9) Türkiyə prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri, prezident Əhməd Nəcdət Sezərin 11-12 iyul 2002-ci il tarixində Azərbaycana ilk xarici səfəri zamanı mühüm sənədlər imzalandı. 8-9 dekabr 1998-ci il tarixində "Böyük İpək Yolu"nun bərpasına dair Bakıda keçirilən beynəlxalq konfransın işində prezident S.Dəmirəl də iştirak edirdi. Ümumiyyətlə, Azərbaycan Respublikası bir çox sahələrdə olduğu kimi, qlobal iqtisadi layihələrin həyata keçirilməsində də Türkiyənin yaxından iştirakını ön plana çəkirdi və çəkməkdədir.

Azərbaycan Respublikasının neft strategiyası, Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarına çıxarılması məsələsi Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələrində çox mühüm yer tutmaqdadır. Azərbaycan tərəfindən Əsas İxrac Boru Kəməri marşrutunun müəyyən edilməsində Azərbaycanın və Türki yənin mənafelərini tam əks etdirən qərarın qəbul edilməsi iki ölkə arasında qardaşlığın aydın ifadəsi idi. 18 noyabr 1999-cu il tarixində ATƏT-in İstanbul zirvə toplantısında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri-Heydər Əliyev, Eduard Şevarnadze və Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tibilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzaladılar və "Şahdəniz" yatağından çıxarılan təbii qazın Bakı-Tbilisi-Ərzurum marşurutu ilə Türkiyəyə nəqli üçün qaz boru kəmərinin inşası haqqında qərar qəbul etdilər [9,s.333].

Yuxarıda sözügedən saziş və qərarın həyata keçirilməsi işi uğurla davam etdirildi. Nəhayət, 13 iyul 2006-cı il tarixində Bakı-Tibilisi-Ceyhan boru xəttinin açılışı oldu [4,s.211-212]. Bu boru xətti istismara verilən gündən 2013-cü ilin yanvar ayının 1-nə qədər Ceyhan limanından 203 milyon 317 min 33 ton Azər-

baycan nefti dünya bazarlarına yola salındı [17). qəbrini 2007-ci ilin 18 noyabrında isə "Şahdəniz" yatağından çıxarılan təbii qaz Avropa sərhəddinə çatdırıldı [6,s.354]. Bununla da Azərbaycanın təbii qaz qaynaqları Türki yə-İtaliya-Yunanıstan təbii qaz boru xətti ilə birləşdirildi. Bu birləşmənin Azərbaycanın Avropa məkanına qovuşmasında mühüm rolu oldu.

Azərbaycan-Türkiyə münasibətlərində hərbi sahədə, ordu quruculuğunda əməkdaşlıq da yüksələn xətlə davam edirdi. 1999-2002-ci illərdə imzalanan bir sıra sənədlər iki ölkə arasında əməkdaşlığın reallaşmasında mühüm rol oynadı. Bunun bir örnəyi olaraq 1999-cu ildə Azərbaycanın hərbi kontingentinin Türkiyənin hərbi hissələrinin tərkibində Kosovada sülhməramlı missiyanın yerinə yetirilməsində iştirakını qeyd edə bilərik. Hərbi əməkdaşlığa dair sənədlərin imzalanması sonrakı illərdə də davam etdirildi.

İlham Əliyevin 2003-cü ildən Azərbaycanın prezidenti kimi fəaliyyəti Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş daxili və xarici siyasət kursunun, o cümlədən Azərbaycan-Türkiyə əlaqələrinin uğurla davam etdirilməsiylə xarakterizə olundu. İ. Əliyevin 13-15 aprel 2004-cü il tarixində Türkiyəyə rəsmi səfəri iki ölkə arasında əlaqələrin inkişafına yeni təkan verdi. Azərbaycanın Prezidentinin 27 may 2004-cü il tarixində Türkiyədə Azərbaycan Dərnəkləri Federasiyasının Təsis Konfransının iştirakçılarına müraciətində deyilirdi: "Dost və qardaş Azərbaycan və Türkiyə dövlətlərini və xalqlarını bütün sahələrdə eyni məqsədlər, ortaq mövqe birləşdirib. Strateji məqsədlərin ümumiliyi, eyni mədəni-mənəvi dəyərlər, üst-üstə düşən milli maraqlar, bütün sahələrdə səmərəli əməkdaşlıq üçün gözəl zəmin yaradır." [5,s.37]

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına təkan verən daha bir əlamətdar hadisəni Bakıda Atatürk Mərkəzinin yaradılmasını qeyd etmək yerinə düşərdi. 9 mart 2001-ci il tarixində Azərbaycanın paytaxtında Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalandıqdan üç il sonra 2004-cü il aprelin 10-da mərkəzin təntənəli şəkildə açılışı oldu. Açılış mərasimin-

də iştirak edən Prezident İlham Əliyevin çıxışında mərkəzin əhəmiyyəti, məqsəd və vəzifələri dəqiq şəkildə müəyyənləşdirildi: "...Heydər Əliyev türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi ilə 200-ci il martın 9-da Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır...Atatürk Mərkəzinin yaradıcısı və ilk fəxri sədri olan Heydər Əliyev bu sənədi imzalamaqla Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha nümayiş etdirdi... Elmi araşdırmalar və mədəniyyət təşkilatı olan bu mərkəzin əsas vəzifəsi Mustafa Kamal Atatürkün türk dünyasındakı yerini və rolunu, türkdilli xalqların tarixi və mədəniyyətini fundamental şəkildə hərtərətli öyrənmək və bu xalqların zəngin irsini təbliğ etməkdir." [4,s.27]

2007-ci il fevralın 7-də Tbilisi şəhərində üç dövlət (Azərbaycan, Gürcüstan və Türkiyə) arasında Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin layihəsi ilə bağlı sazişin imzalanması Azərbaycan və Türkiyə arasında münasibətlərdə növbəti əlamətdar hadisə oldu [6.s,353]. Bu xətt Asiyanı Avropa ilə birləşdirəcək. Sazişə əsasən, Bakı-Tbilisi-Qars istiqamətində 422 milyon dollara başa gələcək 98 kilometr yeni dəmiryolu xətti (68 km Türkiyə, 30 km Gürcüstan ərazisindən keçməklə) çəkiləcək. Fevralın 21-də isə Azərbaycan Prezidenti İlham Əliyev sözügedən dəmiryolu xətti layihəsinin həyata keçirilməsinə dair qərarı imzaladı [6,s.354].

Azərbaycan Türkiyə münasibətlərinin səmərəli, uğurlu inkişafı türkdilli dövlətlər birliyinin möhkəmlənməsinə də müsbət təsir göstərir. 2009-cu ilin oktyabr ayında Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) yaradıldı[17]. Şuranın ikinci zirvə görüşü 2012-ci ildə avqustun 23-də Bişkekdə keçirildi, üçüncü görüşün isə 2013-cü ildə Bakıda keçirilməsi qərara alındı [15].

Azərbaycan-Türkiyə əlaqələri, yuxarıda da deyildiyi kimi, kifayət qədər çoxşaxəlidir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, Azərbaycanın Türkiyə ilə ticarət əlaqələri 2012-ci ildə 2011-ci ilə nisbətən idxal üzrə 116.7, ixrac üzrə 131.7 faiz təşkil etmişdi [12,s.614]. Yenə 2012-ci ildə Azərbaycanın idxalında əsas tərəfdaşların xüsusi çəkisinə görə Türkiyə 15.8 faizlə 1-ci yeri tutmuşdur [12,s.615]. Sözügedən ildə Azərbaycanın ixracında Türkiyə bir qədər sonrakı yerlərdən birində - 2.5 faizlə 11-ci yerdə qərar tutmuşdu [12,s.616].

Azərbaycan ilə Türkiyə arasında ikitərəfli intensiv əlaqələr mədəniyyət, elm və təhsil sahələrində də özünü göstərir. Azərbaycanın və Türkiyənin ali təhsil müəssisələri arasında müntəzəm şəkildə həyata keçirilən təcrübə mübadilələri bu qardaş ölkələrin təhsil sisteminin daha da təkmilləşməsinə yönəlmişdir. Azərbaycan və Türkiyənin ali məktəblərində hər iki ölkənin vətəndaşları qarşılıqlı şəkildə təhsil almaqdadır. Azərbaycanın dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində 2012-2013-cü tədris ilinin əvvəlində təhsil alan 3926 nəfər xarici vətəndaşın böyük çoxluğu- 2232-si Türkiyə vətəndaşı olub, bu sahədə 23-dən çox ölkənin arasında Türkiyə birinci yerdə idi [12,s.247]. Yenə həmin tədris ilinin əvvəlində dövlət xətti ilə xaricdə təhsil alan 2270 nəfər azərbaycanlı tələbədən 877-si Türkiyənin təhsil müəssisələrində oxuyurdu[12,s.248). Bu sahədə də 28-dən çox ölkə arasında birinci yer Türkiyəyə məxsusdur. 2011-ci ildə fəlsəfə doktorlarının hazırlanması proqramını həyata keçirən Azərbaycanın təhsil müəssisələrində 35 nəfər Türkiyə vətəndaşı təhsil alırdı [1 l,s.l96].

Beləliklə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra onun qardaş Türkiyə ilə hərtərəfli əlaqələrinin yüksələn xətlə inkişaf etməsi Azərbaycan Respublikasının müstəqilliyininin möhkəmlənməsinə xidmət etməsi inkarolunmaz həqiqətdir. Bu səbəblə, sözügedən əlaqələrin Azərbaycanın siyasi- iqtisadi, sosial-mədəni, hərbi sahələrdə qüdrətinin artmasına, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin güclənməsinə yardım edəcəyi şübhə doğurmur.

## Ədəbiyyat

1. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir. İkinci kitab [may 1994-dekabr 1994). Bakı, "Azərnəşr", 1997.

2. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. Bakı, "Azərnəşr" 2000.

3. Heydər Əliyev Atatürk haqqında. Bakı, 2003 GÖVHƏR BAXŞƏLİYEVA 66.

4. Prezident Ilham Əliyev və mədəniyyət. 2 cilddə, I cild Bakı, 2008.

5. Prezident İlham Əliyev və mədəniyyət. 2 cilddə, II cild Bakı, 2008.

6. Aliyev İlham: İpek Yolu Uygarlığı ve Azerbaycan Diplomasisi, İstanbul, 2009.

7. Həsənov H. Türkiyənin Azərbaycanı tanıması tarixindən. Bakı 2005.

8. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı, "Elm", 2008.

9. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.

10. Azərbaycan - Türkiyə münasibətləri. 1920-1922, Sənədlər və materiallar, Bakı, "Orxan", 2003.

11. Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Bakı, 2012.

12. Azərbaycanın Statistik göstəriciləri 2013. B.,2013

13. "Azərbaycan" qəzeti 3 may 1992, 4 may 1992-ci il

14. "Azərbaycan" qəzeti 9,10,11,12 fevral 1994-cü il

15. "Respublika" qəzeti, 24 avqust 2012-cü il

16. "Respublika" qəzeti, 28 avqust 2012-cü il

17. "Respublika" qəzeti, 15 yanvar 2013-cü il

*TÜRKİYƏ-90. Türkiyə Cümhuriyyətinin 90 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, 28.10.2013*

## "PREZİDENTİMİZİN SİYASİ İRADƏSİ İSTƏNİLƏN TƏZYİQİ DƏF ETMƏYƏ QADİRDİR"

*Milli Məclisin (MM) deputatı, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyevanın "525"ə müsahibəsi*

***– Gövhər xanım, bildiyiniz kimi, qarşıdan Birinci Avropa Oyunları gəlir. Artıq xeyli vaxtdır ki, bununla bağlı bəzi xarici və daxili dairələr tərəfindən anti-Azərbaycan kampaniyası başladılıb. Hətta, bugünlərdə müxtəlif ölkələrdən olan 45 QHT təmsilçisinin, siyasətçi və ekspertlərin dövlət başçılarına və beynəlxalq ictimaiyyətə müraciət edərək, Bakıda keçiriləcək Birinci Avropa Oyunlarını boykot etməyə, Azərbaycanın rəsmi şəxslərinə qarşı isə sanksiyaların tətbiqinə çağırış ediblər. Siz bu haqda nə deyərdiniz?***

– Doğrudan da, ölkəmiz çox möhtəşəm beynəlxalq tədbir ərəfəsindədir. Heç də asan başa gəlməyən hazırlıq işləri artıq uğurla tamamlanmaqdadır. Prezidentimizin və onun mütəşəkkil komandasının qısa bir zaman kəsiyində hansı böyük işlər gördüyünün hamımız fərqindəyik. Belə bir məqamda sağlam məntiq iş görənə kömək etməyi tələb edir, ətrafında sıx birləşərək, yardım əlimizi uzatmağı tələb edir. Çünki gözlənilən tədbirin – I Avropa oyunlarının uğurla başa çatması hamımız üçün lazımdır, Azərbaycanın qüdrətli və modern bir dövlət kimi imicinin dünya miqyasında yüksəldilməsi, xalqımızın sülhpərvər, sivil, tolerant, multikultural obrazının dünyada tanıdılması üçün zəruridir, yeni tərəfdaş və dost qazanmaq üçün gərəklidir. Çox təəssüf ki, belə bir məqamda sapı özümüzdən olan elə baltalar tapılır ki, beynəlxalq anti-azərbaycançı qüvvələrə dəstək verir. Nədir məqsədi bu anti-azərbaycançı qüvvələrin? Haradan qaynaqlanır? Kimdir onları bu mənfur əməllərə sövq edənlər?

Bu suallara Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda özü ətraflı aydınlıq gətirdi:

"Azərbaycanın mövqeyi bir çox məsələlərlə bağlı çox böyük önəm daşıyır. Təkcə enerji siyasəti deyil, ümumiyyətlə, geosiyasi məsələlər, təhlükəsizlik məsələləri, iqtisadi əməkdaşlıq və sabitlik. Çünki baxın, indi dünyanın hər bir yerində qarşıdurma, müharibə, ziddiyyət, böhran, çevrilişlər və digər xoşagəlməz hallar müşahidə edilir. Bir il deyil, iki il deyil, artıq 10 ilə yaxındır ki, hər tərəf yanır. Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır və təbii ki, bu dünya birliyi tərəfindən yüksək qiymətləndirilir." Belə olan halda, erməni və ermənipərəst qüvvələrin yetişdirdiyi anti-azərbaycançı dairələr fəallaşır. Ölkəmizin inkişafı və artan nüfuzu onları narahat edir.

Odur ki, Azərbaycanın uğurlu inkişafını qəbul etməyən, işimizə kölgə salmaq, ləkələmək istəyən dairələr öz səylərini davam etdirirlər. Ancaq nə Azərbaycanda, nə də ölkəmizdən kənarda onların səyləri heç bir nəticə vermir və verə bilməz. Ötən illər mütləq bir həqiqəti də ortaya qoydu: Prezidentimizin siyasi iradəsi istənilən təzyiqi və maneəni dəf etməyə qadirdir.Onun dediyi kimi,"sabitlik, inkişaf, xalqla iqtidar arasındakı birlik bir daha onu göstərir ki, bizə qarşı aparılan kampaniyalar, yaxud da ki, burada hansısa iğtişaş yaratmaq cəhdlərinin heç bir təsiri yoxdur, ola da bilməz. Azərbaycan inamla inkişaf edir".

***– Bu yöndəki kampaniyaların kökündə bəlkə daha çox Azərbaycanın müstəqil siyasət yeritməsi dayanır?***

– Tamamilə razıyam. Həqiqətən Azərbaycan nadir ölkələrdəndir ki, tam müstəqil siyasət yürüdür, heç kimdən və heç bir ölkədən asılı deyil. Bu isə böyük dövlətləri qane etmir və onları qıcıqlandırır. Odur ki, belə ölkələr Azərbaycana təzyiq etmək və onun rəhbərliyini dünya ictimaiyyətinin gözündən salmaq fürsətini əldən vermirlər. Prezidentimizin sözləri ilə desək,"bu səylər davam edəcək. Çünki uğurlarımızı həzm edə bilməyən dairələr, əlbəttə ki, bizdən əl çəkməyəcəklər. Biz isə onlara ən

yaxşı cavabı öz işlərimizlə veririk və onların nə sözlərinə, nə məqalələrinə, nə bəyanatlarına heç bir əhəmiyyət vermirik və verməyəcəyik”. Azərbaycana qarşı yönəlmiş kampaniyalar beynəlxalq tədbirlər ərəfəsində xüsusilə eybəcər forma alır. Amma Azərbaycan xalqı kimin kim olduğunu gözəl bilir, öz Prezidenti və onun milli mənafeyə söykənən siyasətinin arxasında möhkəm durur və istənilən təzyiqə və şər-böhtan kampaniyasına cavab verməyə qadirdir.

*“525-ci qəzet”, 17.04.2015.*

## MÜSTƏQİL AZƏRBAYCANIN ŞƏRQ SİYASƏTİ

Yaxın Şərq bu gün dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir. Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər böyük dövlətlərin və beynəlxalq güc mərkəzlərinin diqqətini daim bölgəyə cəlb edir. Hazırda regionda gərginliyin kəskin artması, hərbi qarşıdurmanın yaranması, davam edən İsrail-Fələstin qarşıdurması, İraq və Suriya ətrafındakı hadisələrə bir sıra ölkələrin cəlb edilməsi, müxtəlif etnik münaqişələr, dini-fundamentalist cərəyanlar, beynəlxalq terrorizm təhlükəsi, əhalinin müharibə zonalarından kütləvi miqrasiyası və s. problemlər bütün dünyanın nəzər-diqqətini bu regiona yönəldib. Təsadüfi deyil ki, son illərdə Amerika və Avropada yeni-yeni "Şərq araşdırmaları mərkəzləri" yaranır, region ilə bağlı nəşrlərin sayı artır.

ABŞ administrasiyasının elan etdiyi "Böyük Yaxın Şərq" strategiyası və regionda bir çox ölkələrin maraqlarının toqquşması yaxın gələcəkdə bu regionda əmin-amanlığın hələ bərqərar olmamasından xəbər verir. Bu baxımdan müstəqil Azərbaycanın milli və dövlət maraqları burada baş verən və gələcəkdə baş verə biləcək hadisələri ciddi təhlil edib daim nəzarətdə saxlamağı və xarici və daxili siyasətdə nəzərə alınmasını tələb edir. Eyni zamanda müxtəlif Şərq ölkələri ilə iqtisadi əməkdaşlığı genişləndirən respublikamız üçün bu sahənin prioritet istiqamətlərini aydınlaşdırmaq daim aktuallığını itirmir.

Həmin dövrdə hakimiyyətdə olan şəxslər tərəfindən tarixi təcrübədən düzgün nəticə çıxarılmamış, qeyri-peşəkar və strateji baxış olmadan daha çox həvəskarcasına yürüdülən xarici siyasət fəaliyyəti nəticəsində ölkəmiz təcrid vəziyyətinə sürüklənmiş, respublikamız ətrafında informasiya blokadası daha da daralmışdır. Xarici siyasət və diplomatik fəaliyyət mahiyyət etibarilə ölkənin dost və müttəfiqlərinin sırasını genişləndirməli və erməni təcavüzünün qarşısını almaq üçün əlverişli beynəlxalq mühit

formalaşdırmalı olduğu halda, məsuliyyətsiz addımlar sayəsində onsuz da çətinliklər burulğanında çırpınan respublika ətrafında tamamilə əlverişsiz diplomatik mühit formalaşdırılmışdır.

Belə bir ağır vəziyyətdə geniş xalq kütlələrinin arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyəti başladı. Dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə böyük dövlətlərin diqqətini çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edirdi.

İlk günlərdən Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi, strateji ana xəttinin konturlarını cızdı. Ulu öndər ilk növbədə Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Ölkəmizin yaxın və uzaq tarixi keçmişi, üzləşdiyi geosiyasi reallıqlar dərindən təhlil edilərək ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılan xarici siyasət strategiyası ilk növbədə respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını, uğurlu enerji və nəqliyyat infrastrukturları diplomatiyası vasitəsilə uzunmüddətli perspektivdə davamlı inkişafın əldə edilməsini, xarici siyasətimizin manevr imkanlarının və strateji dərinliyinin artırılmasını, ən əsası Ermənistanın Azərbaycana qarşı təcavüzünün məhəlli səviyyədən çıxarılaraq beynəlmiləlləşdirilməsini, işğalın nəticələrini aradan qaldırmaq üçün Ermənistana qarşı beynəlxalq siyasi təzyiqin gücləndirilməsini və son hədəf olaraq Azərbaycanın suverenliyi, ərazi bü-

tövlüyü və sərhədlərinin toxunulmazlığının təmin olunmasını özündə ehtiva etmişdir.

Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan respublika rəhbərliyi öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və sair sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və digər ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik və müdriklik həmişə duyulurdu.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacib idi. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Əməkdaşlıq Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Heydər Əliyev türk dünyasının problemlərinə də daim diqqət yetirmişdir. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının II forumunun iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində o özünün türklük düşüncəsinin əsas aspektlərini açıqlamışdır: ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması, türk dünyasının birliyinə çalışılması və həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi.

Türk dünyasına məxsus, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin bərpası və inkişaf etdirilməsi məhz yuxarıdakı

prinsiplərdən irəli gəlirdi. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur "Bakı bəyannaməsi"nin elan edilməsi ilə başa çatmışdır.

Azərbaycanla ən uzun sərhədlərə malik olan İranla mehriban qonşuluq münasibətlərinin ölkəmiz üçün zəruriliyini, İranla Azərbaycan arasında çoxsaylı mədəni, tarixi və etnik tellərin olmasını gözəl anlayan Prezident bu sahədə də uzaqgörən, düşünülmüş, tarazlaşdırılmış siyasətə üstünlük verdi.

Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Heydər Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya, Qətər, İordaniya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, İordaniya, Liviya, Sudan və s. ərəb ölkələrində səfirlikləri var. 1994-cü ildə Heydər Əli yev Səudiyyə Ərəbistanı Krallığında səfərdə olmuş, "Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mə dəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş" imzalanmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Əməkdaşlıq Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu

beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini daim vurğulayırdı.

Azərbaycan Respublikasının İƏT-in beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində ulu öndər Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. 1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Heydər Əliyev İƏT-ə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının VII Zirvə toplantısında iştirak etdi. Toplantı Mərakeşin Kasablanka şəhərində keçirildi. 1997-ci ildə Heydər Əliyev Tehranda İƏT-in VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Ulu öndərin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur.

Ötən illər mütləq bir həqiqəti ortaya qoyub. Əsası ümummilli liderimiz tərəfindən qurulan müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti daim yüksələn xətlə inkişaf edir, xalqımızın haqq səsinin ucaldılmasında və mənafelərinin qorunmasında daha da böyük rol oynayır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir.

Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Azərbaycan Respublikasının xarici Şərq siyasətində birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır. Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır. Türkdilli ölkələrin dövlət başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublikamızın Prezidenti qazax, qırğız, özbək və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası", Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqların inteqrasiyası istiqamətində baş tutan digər önəmli hadisə - Türkdilli Dövlətlərinin Parlament Assambleyasının (TürkPA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindəndir. 2005-ci ilin 17-19 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri edib. 2007- ci ilin aprel ayında Prezident İlham Əliyev Koreya Respublikasına rəsmi dövlət səfəri etdi. Digər ölkələr ilə (Yaponiya, Pakistan, Hin-

distan, İndoneziya, Malayziya və s.) də əlaqələr yaradılır, səfirliklər açılır, qarşılıqlı səfərlər həyata keçirilir, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir. Son iki ildə ölkə Prezidenti İlham Əliyev 27 dəfə xarici ölkələrə, o cümlədən Türkiyəyə (dəfələrlə), Qırğızıstana, İrana, Birləşmiş Ərəb Əmirliklərinə, Çinə, Qazaxıstana dövlət, rəsmi və işgüzar səfərlər edib.

Bu gün Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var. 2013-cü ildə Azərbaycanın Vyetnamda səfirliyi fəaliyyətə başlayıb. Daha sonra Avstraliya, Fidji və Yeni Zelandiyadakı səfirlərimiz bu ölkələrdə öz etimadnaməsini təqdim edib. Bütün bu səfirliklər ölkəmizin milli maraqlarının təmin olunmasında, xarici siyasətin həyata keçirilməsində, iqtisadi əlaqələrimizin coğrafiyasının genişləndirilməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində, eləcə də respublikamızın xarici ölkələrdə təbliği, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiə edilməsi işində onların qarşısında qoyulan vəzifələri icra edirlər.

Çoxtərəfli diplomatiyamızın tərkib hissəsi kimi Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional beynəlxalq təşkilatların üzvü olaraq bu təşkilatlar çərçivəsində də fəal iş aparır. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.

Çoxminillik tarixində multikulturalizm və tolerantlığın nəinki mümkünlüyünü, hətta inkişafını sübut etmiş Azərbaycan bu xüsusda dünya üçün bir örnəkdir. Ona görə də Bakı bu gün sivilizasiyalararası dialoq və multikulturalizm mövzusunda aparılan qlobal müzakirələrin mərkəzi məntəqələrindən birinə çevrilmişdir.

Multikulturalizm siyasətimizin tərkib hissəsi kimi Azərbaycan diplomatiyasının yeni istiqamətləri meydana çıxmışdır ki,

bu sırada da mədəni və humanitar diplomatiyamız diqqət çəkir. Bu xüsusda ölkənin birinci xanımı, Milli Məclisin deputatı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rolu xüsusilə qeyd edilməlidir. Dünyanın bir sıra ölkələrində Azərbaycan tərəfindən həyata keçirilən humanitar layihələr beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən böyük minnətdarlıqla qarşılanır. Buna nümunə kimi Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistanda Qızlar məktəbinin təmiri, Misirdə məktəbin tikintisini qeyd etmək olar. Humanitar diplomatiya siyasətimizin sistemli şəkildə həyata keçirilməsi, qlobal səviyyədə aclıq və yoxsulluğa qarşı mübarizə aparılması, təbii və texnogen fəlakətlərdən əziyyət çəkən dövlətlərə yardım göstərilməsi məqsədilə Xarici İşlər Nazirliyi daxilində Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi təsis edilmişdir. BMT-nin müvafiq strukturları, Afrika İttifaqı və İslam Əməkdaşlıq Bankı ilə yaxından əməkdaşlıq edən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi Afrika qitəsində, Əfqanıstanda, Fələstində uğurlu humanitar layihələr həyata keçirmişdir və bundan sonra da bu nəcib missiya davam etdiriləcəkdir.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində, zəngin neft-qaz ehtiyatlarına malik olan, dünyanın aparıcı dövlətlərinin maraqlarının kəsişdiyi bölgədə yerləşən Azərbaycan üçün xarici siyasətin düzgün seçilməsi ölkənin müstəqilliyinin qorunub saxlanmasında və möhkəmləndirilməsində başlıca amillərdən biri olaraq qalır. Bu gün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Bu siyasət milli mənafeni təmin edir, xalqın cari və strateji maraqlarına xidmət edir, ölkəmizin təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

*"Azərbaycan" qəzeti, 27.10.2016*

## BİRLİK VƏ İNKİŞAF NAMİNƏ SÜLHMƏRAMLI MİSSİYA

*İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır*

XX əsrin axırları - XXI əsrin əvvəllərində islam dünyagörüşü sistemi, həyat və davranış tərzi kimi dünyada baş verən mürəkkəb və ziddiyyətli siyasi, iqtisadi və mədəni proseslərdə mühüm rol oynamaqda davam edir. Bu gün islam amilini nəzərə almadan dünya xalqlarının ictimai inkişaf yönümlərini dəqiq izləmək mümkün deyil. Bir sıra beynəlxalq və regional münaqişələrdə islamın adından getdikcə daha çox istifadə edilir.

Müsəlman dünyasında baş verən hadisələrin arxasında digər amillərlə yanaşı, qeyri-bərabər inkişaf, ənənəvi sosial-mədəni və siyasi strukturların dağılmasına reaksiya ilə bağlı meydana çıxan problemlər durur. Dini hərəkatlar dövlət hüdudlarını aşır, beynəlxalq xarakter kəsb edir, bəzən dünya siyasətinin subyektinə çevrilir. Cərəyan edən proseslər bir daha göstərir ki, islam hələ uzun müddət real siyasi amil rolunu oynayacaq, dünya siyasətinə güclü təsir göstərə biləcəkdir.

Eyni zamanda bəzi ifrat radikal qruplaşmalarının öz ekstremist, terrorçu fəaliyyətini islam prinsipləri ilə əlaqələndirmək səyləri ciddi narahatlıq doğurur. Narahatlığı artıran həm də odur ki, bu səylər Qərbin bəzi kütləvi informasiya vasitələri tərəfindən islama, bu dinin mahiyyətcə insanpərvər dəyərlərinə qara yaxmaq məqsədilə istifadə olunur. Son vaxtlar beynəlxalq aləmdə baş verən hadisələr açıq-aydın göstərir ki, bu gün ixtilaf və münaqişələri hərbi yolla həll etmək mümkün deyil. Siyasi yollar, sülh və danışıq, qarşılıqlı anlaşma yolları araşdırılıb aşkar edilməlidir.

İslam din və dünyagörüşü sistemi kimi insanlara, cəmiyyətə, dünyaya münasibət kimi, davranış və təfəkkür tərzi kimi elə bir sivilizasiya yarada bilmişdir ki, mədəni inkişaf səviyyələri-

nin, dillərinin, talelərinin, mentalitetlərinin müxtəlifliyinə baxmayaraq, fərqli coğrafi mövqelərdə yaşayan insanları birləşdirmiş, aralarında bir dinə mənsubluq əsasında həmrəylik yarada bilmişdir. İslamın orbitinə cəm edilmiş xalqların mədəniyyətlərinin sintezi nəticəsində vahid, bütün müsəlman xalqları üçün ümumi islam sivilizasiyası təşəkkül tapmışdır.

Azərbaycan xalqı islam aləminin ayrılmaz hissəsi olaraq islam sivilizasiyasının yaradıcılarından biri olub, bu sivilizasiyanın inkişafına və təkamülünə əvəzsiz incilər bəxş edib. VII əsrin birinci yarısında Mərkəzi Ərəbistanda meydana gələn İslam tezliklə böyük bir ərazidə, o cümlədən Azərbaycanda da yayıldı. Tarixçilər bu prosesin başlanğıcını 642-ci ilə aid edirlər. O vaxt islam Dərbəndə qədər gedib çıxa bilmişdi. Vətənimizin çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər.

Böyük Azərbaycan mütəfəkkir və alimləri, şair və ədibləri - Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Mahmud Şəbüstəri, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və yüzlərlə digərləri qiymətli əsərləri ilə ecazkar islam mədəniyyətinə bənzərsiz incilər bəxş etmişlər. Bu gün dünyaya inteqrasiya olunan ölkəmiz yeni sistemə məhz tarixən formalaşmış həmin milli-mənəvi dəyərlərlə daxil olur.

Xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, müsəlman Şərqinə qırılmaz tellərlə bağlıdır, cəmiyyətimizdəki bir sıra mental xüsusiyyətlər, sosial-psixoloji faktlar İslam dinindən qaynaqlanır. Belə bir vəziyyətdə, yəni, çoxəsrlik mədəniyyətinin təməlində İslam faktoru aparıcı yer tutan müstəqil dövlətimizin müsəlman aləminə diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin müsəlman dövlətlərinə ardıcıl səfərləri, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional

beynəlxalq təşkilatlarda Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.

Ötən illər mütləq bir həqiqəti ortaya qoyub: Müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti daim yüksələn xətlə inkişaf edir, ümummüsəlman mənafelərinə xidmət edərək xalqımızın haqq səsinin ucaldılmasında və mənafeyinin qorunmasında daha da böyük rol oynayır. Bu gün müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir.

İslam aləmi ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşdirilməkdədir. İslam ölkələrinin dövlət başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Son iki ildə ölkə Prezidenti cənab İlham Əliyev onlarca islam ölkəsinə, o cümlədən Türkiyəyə, Qırğızıstana, İrana, Birləşmiş Ərəb Əmirliklərinə, Qazaxıstana rəsmi və işgüzar səfərlər edib. Artıq Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var və onların əksəriyyəti müsəlman ölkələridir.

Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya, Qətər, İordaniya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir çox ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, İordaniya, Liviya, Sudan və s. ərəb ölkələrində səfirlikləri fəaliyyət göstərir. Azərbaycan ilə ərəb ölkələri arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair sazişlər imzalanmışdır.

Bu gün müsəlman aləmi dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir. Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər böyük dövlətlərin və beynəlxalq güc mərkəzlərinin diqqətini durmadan bölgəyə cəlb edir.

Hazırda regionda gərginliyin kəskin artması, hərbi qarşıdurmanın yaranması, davam edən İsrail-Fələstin qarşıdurması, İraq və Suriya ətrafındakı hadisələrə bir sıra ölkələrin cəlb edilməsi, müxtəlif etnik münaqişələr, dini-fundamentalist cərəyanlar, beynəlxalq terrorizm təhlükəsi, əhalinin müharibə zonalarından kütləvi miqrasiyası və s. problemlər bütün dünyanın nəzər-diqqətini bu regiona yönəldib.

Regionda bir çox ölkələrin maraqlarının toqquşması yaxın gələcəkdə bu regionda əmin-amanlığın hələ bərqərar olmamasından xəbər verir.

Belə şəraitdə müsəlman ölkələrinin birləşməsi, islami dəyər və prinsipləri rəhbər tutaraq həmrəylik nümayiş etməsi, bir-birinə əməkdaşlıq əlini uzatması həyati əhəmiyyət kəsb edir. Odur ki, Azərbaycanda 2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi dünyada və regionda baş verən hadisələrə adekvat və uzaqgörən reaksiyadır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin yekunlarına, sosial-iqtisadi inkişafın nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bir çox məsələlər müzakirə edildi, yeni vəzifələr müəyyənləşdirildi. 2017-ci il ölkə Prezidenti tərəfindən "İslam həmrəyliyi ili" elan edildi. Prezident iclasa yekun vuraraq dedi: "Kimsə düşünürsə ki, bu, yalnız idman tədbiridir, səhv edir, bunun böyük ictimai-siyasi əhəmiyyəti var". Bu, həqiqətən belədir. Ölkəmizdə keçiriləcək mühüm bir hadisəyə - IV İslam Həmrəyliyi Oyunlarına sayılı günlər qalır. Hazırlıq işləri artıq yekunlaşmaqdadır. İnanırıq ki, ölkəmiz bir daha İslam ölkələrini təmsil edən idmançıları, azarkeşləri, həvəskarları bir araya gətirəcək və idman bayramı ən yüksək səviyyədə keçəcək. İslamiada təkcə idman yarışları yox, həmrəylik, sülh, əmin-amanlıq, tolerantlıq bayramı olacaq. Hələ qədim zamanlarda olimpiya idman oyunları keçiriləndə müharibələr, qarşıdurmalar dayandırılırdı, insanlar bir araya gəlib idman yarışları keçirirdi. Bu baxımdan IV İslam Həmrəyliyi Oyunları bir daha insanları birliyə, barışa, əməkdaşlığa dəvət edəcək. Bu kontekstdə 2017-ci ilin "İslam həmrəyliyi ili" elan

edilməsi həm Prezident İlham Əliyevin dövlət başçısı kimi mövqeyini, İslam aləminin birlik və həmrəyliyinə verdiyi böyük önəmi, həm də bu aləmin problemlərini yaxından yaşamasının göstəricisidir. Bu gün həmrəylik İslam aləminə hava və su kimi lazımdır. Tarixən İslam aləminin yaşadığı bir çox problemlər məhz müsəlmanların arasında təfriqə və nifaq salan ayrı-seçkilik, birlik və həmrəyliyin pozulmasıdır. Bunun nəticəsidir ki, yarandığı elə ilk əsrdə İslam dininə sitayiş edənlər arasında parçalanma baş verdi, müsəlmanlar sünnilərə və şiələrə bölündülər, daha sonra isə bir-biri ilə yola getməyən onlarca məzhəblərə ayrıldılar. Halbuki İslam dinini yaradan Peyğəmbərimiz bütün müsəlmanları milli və irqi ayrı-seçkilikdən uzaq vahid ümmətdə birləşdirmişdir (ər-Rə`d, 30; Ali-İmran, 110).

Bu gün Suriyanın, İraqın, digər ərəb ölkələrinin yaşadığı fəlakəti təkcə Qərbin təcavüzkar siyasəti ilə izah etmək düzgün olmazdı. Nə qədər acı olsa da, etiraf edilməlidir ki, ərəb aləminin yaşadığı faciələr eyni zamanda İslam ölkələri arasında birlik və həmrəyliyin əməldə yox, yalnız sözdə qalması ilə bağlıdır, bəzi ərəb liderlərinin qonşu qardaş dövlətlərdə onları qane etməyən rejimləri dəyişdirmək siyasətidir. Bu zaman özlərini "həqiqi islamın" carçıları hesab edənlər hansısa bir mifik ideya yaxud merkantil mənfəət naminə on minlərlə, yüz minlərlə günahsız insanların - uşaqların, qocaların, qadınların ölümünə bais olur.

Bu yerdə bir haşiyə çıxmaq istərdik. Azərbaycanın da üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı (İƏT) müasir dövrdə müsəlman ölkələrini birləşdirən ən nüfuzlu beynəlxalq qurumdur. Dini birlik əsasında yaradılan bu təşkilatın əsas məqsədi üzv dövlətlər arasında İslam həmrəyliyini möhkəmləndirmək, elm, mədəniyyət, sosial-iqtisadi və digər mühüm sahələrdə əməkdaşlığa tərəfdar çıxmaq, irqi ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarının ləğv olunmasına səy göstərmək, müsəlman xalqlarının inkişafına yardım etmək, üzv dövlətlərin digər ölkələrlə əməkdaşlığı üçün hər cür şərait yaratmaqdan ibarətdir.

Əsas fəaliyyət prinsipi İslam həmrəyliyi olan İslam Əməkdaşlıq Təşkilatı, onun Parlament İttifaqı (İƏT Pİ) hər il keçirdiyi

sessiya və konfranslarda çoxsaylı qərar, qətnamə və bəyannamə qəbul edir. Lakin təəssüf ki, onların əksəriyyəti kağız üzərində qalır, elə bəzi müsəlman ölkələri tərəfindən kobud pozulur.

Məsələn, İƏT Pİ Bağdadda yekdilliklə qəbul etdiyi "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair" adlı qətnaməyə nəzər salaq:

"İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 24-25 yanvar 2016-cı ildə İraq Respublikasının Bağdad şəhərində keçirilmiş on birinci sessiyası

*İslam Əməkdaşlıq Təşkilatının Nizamnaməsinin prinsipləri və məqsədlərindən çıxış edərək;*

*Azərbaycanın ərazisinin 20 faizindən artıq bir hissəsinin işğalı ilə nəticələnən Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzündən dərin narahatlıq hissi keçirdiyini ifadə edərək;*

*Erməni təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün durumu və bu humanitar problemlərin miqyası və ciddilik dərəcəsindən olduqca mütəəssir olaraq,*

*Ermənistan Silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin pozulmasının nəticəsi olaraq Azərbaycanın cəbhə xəttində məskunlaşmış mülki əhalisi arasında uşaq və qadınlar da daxil olmaqla insan itkiləri və yaralanma hallarından narahatlığını bildirərək;*

*Müvafiq keçmiş qətnamələri bir daha təsdiq edərək;*

*BMT Nizamnaməsinə ciddi şəkildə riayət olunması və Təhlükəsizlik Şurasının bütün müvafiq qətnamələrinin bütünlüklə yerinə yetirilməsində israrlı olaraq;*

*Ermənistan və Azərbaycan arasındakı münaqişənin həllinə yönələn bütün diplomatik və digər səyləri alqışlayaraq;*

*Bütün üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət etmək öhdəliyini bir daha təsdiqləyərək;*

Həmçinin Ermənistan Respublikasının təcavüz siyasətinin ATƏT çərçivəsindəki sülh proseslərinə dağıdıcı təsirini qeyd edərək:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü qəti pisləyir;

2. İşğal olunmuş Azərbaycan ərazilərində Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş əməlləri insanlıq əleyhinə cinayət kimi dəyərləndirir;

3. İşğal olunmuş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrin talanını və dağıdılmasını qəti pisləyir;

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icra edilməsini və Dağlıq Qarabağ ərazisi də daxil olmaqla Azərbaycan ərazilərindən erməni qüvvələrinin dərhal, qeyd şərtsiz və tamamilə çıxarılmasını tələb edir və Ermənistanın Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət etməsində israr edir;

5. Yuxarıda qeyd edilmiş BMT Təhlükəsizlik Şurasının qətnamələrində nəzərdə tutulan tələblərin Ermənistan tərəfindən hələ də icra olunmamasından narahat olduğunu bildirir;

6. Təcavüzkarı münaqişənin gələcək eskalasiyası imkanından və Azərbaycan ərazilərini işğal altında saxlamağa davam etməkdən məhrum etmək üçün bütün dövlətləri Ermənistanı hər hansı silah və hərbi sursatla təmin etməkdən çəkinməyə çağırır. Üzv dövlətlərin ərazisi bu cür təchizatın tranziti üçün istifadə edilməməlidir;

7. Üzv dövlətləri, həmçinin beynəlxalq ictimaiyyətin digər üzvlərini erməni təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoymaq məqsədilə tələb olunan belə effektiv siyasi və iqtisadi vasitələrdən istifadə etməyə, bununla əlaqədar olaraq Ermənistan Respublikası ərazisində iqtisadi fəaliyyətdən, Ermənistan Respublikasında iqtisadi, sənaye, maliyyə və digər sahələrə investisiya qoyuluşundan çəkinməyə və Ermənistan Respublikası ilə ümumi əməkdaşlığı məhdudlaşdırmağa çağırır;

8. İƏT-ə üzv dövlətlərdən öz milli və hüquqi qurumlarından Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərin-

də iqtisadi, turistik və digər fəaliyyətlərə cəlb olunmamağı xahiş edir;

9. Erməni millətindən olan əhalinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülmələrinin qarşısını almağı və dayandırmağı tələb edir, belə ki, bu köçürmələr beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qəbul edilir və bu münaqişənin sülh yolu ilə həll olunması prosesinə zərər vura biləcək təsirə malikdir və üzv dövlətləri Azərbaycan tərəfindən bu məqsədlə həyata keçirilən səyləri, habelə BMT-nin Baş Assambleyasında və o cümlədən BMT-nin Nyu-Yorkdakı daimi nümayəndəliyi vasitəsilə həyata keçirilən fəaliyyəti dəstəkləməyə çağırır".

Bu kimi sənədlərin İƏT Pİ bütün sessiya və konfranslarında qəbul edilməsinə və üzv dövlətlərin onlara yekdilliklə səs verməsinə baxmayaraq, təşkilatın elə üzvü tapılır ki, sözdə Azərbaycanın haqq işini dəstəklədiyini desə də, əməldə İslam həmrəyliyi prinsipini kobud şəkildə pozaraq təcavüzkar Ermənistanla hərtərəfli əməkdaşlıq edir. Buna nə ad verəsən? Özünü müsəlman adlandıran bir ölkə 1 milyon dindaşlarının əzab-əziyyətin görməzliyə vuraraq, xristian ermənilərlə nəinki iqtisadi, hətta hərbi sahədə əməkdaşlıq edir. Çox təəssüf!

Azərbaycanın dövlət siyasəti və xalqı isə daim İslam həmrəyliyi prinsipinə sədaqətli olub. Bunu müstəqil Azərbaycanın ardıcıl Şərq siyasəti, o cümlədən Fələstin xalqının mübarizəsinə daim verdiyi dəstək bir daha təsdiq edir.

Məlumdur ki, Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi ab-havanı müəyyənləşdirən əsas məsələ - 60 ildən çox davam edən ərəb-İsrail qarşıdurmasıdır. Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olaraq birtərəfli xarakter daşımır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab

verdiyi nəzərə alınır, digər tərəfdən güclü potensiala malik olan ərəb dünyası ilə İslam aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu daim nəzərə alınır.

Azərbaycan Prezidenti İlham Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə alır. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İƏT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Sirr deyil ki, müsəlman ölkələrinin əksəriyyəti öz inkişaflarında geri qalırlar. Bir sıra problemlərlə üz-üzədirlər: yoxsulluq, səfalət, qeyri-stabillik, düzgün olmayan idarəçilik metodları və sair. Artıq qısa zaman kəsiyində öz sosial-iqtisadi, siyasi-ictimai və mədəni inkişafında böyük nailiyyətlərə imza atmış müstəqil Azərbaycan Respublikası bir çox müsəlman ölkəsinə nümunədir.

Hazırda Avropa mədəniyyətinin praqmatik nailiyyətləri Azərbaycan cəmiyyətində başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çoxdur. Bu amillər modernləşmənin tələblərinə cavab verən dəyərlərin və həyat oriyentasiyalarının Azərbaycan cəmiyyətində yayımlanmasına və möhkəmlənməsinə geniş şərait yaradır. Bununla yanaşı, Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, İslam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutur.

Bu gün dünyada baş verən iqtisadi, hərbi-siyasi, mədəni proseslər, demoqrafiya və dinlə bağlı dəyişikliklər açıq-aşkar göstərir ki, din mövzusu hələ uzun müddət əhəmiyyətini qoruyub saxlayacaqdır. Odur ki, müsəlman aləmində alovlanan tonqalı söndürmək, regionun çoxsaylı problemlərini həll etmək istiqamətində Azərbaycan əlindən gələni edir. Bu baxımdan 2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi islami dəyərlərin və bütövlükdə müsəlman aləminin böyük təəssübkeşi Prezident İlham Əliyev tərəfindən zamanında verilmiş çox gərəkli, uzaqgörən ictimai-siyasi qərar kimi qiymətləndirilməlidir.

*"Azərbaycan" qəzeti, 28.01.2017*

## AZƏRBAYCAN - ŞƏRQİN PARLAYAN ULDUZU

*Prezident İlham Əliyevin uğurlu Şərq siyasəti ölkəmizin diplomatic nailiyyətlərinin artmasına mühüm töhfə verir*

Ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz möhtəşəm, çoxəsrlik tariximizdə görünməmiş inkişaf yolu keçib. Yüksək vətənpərvərlik, mahir idarəetmə qabiliyyəti, polad iradə, sarsılmaz qətiyyət və uzaqgörənlik, yalnız milli maraqlara söykənən daxili və xarici siyasət bir həqiqəti ortaya qoydu: 15 il öncə müdrik xalqımız yeganə düzgün seçim edib.

İdarəetmə sisteminin bütün sahələri kimi müstəqil dövlətimizin beynəlxalq münasibətləri də daim Prezidentin diqqət mərkəzindədir. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə diqqəti çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edir. Dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müyyənləşdirən Prezident İlham Əliyev ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Onun tərəfindən formalaşdırılan xarici siyasət strategiyası ilk növbədə, respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını, uğurlu enerji və nəqliyyat infrastrukturları diplomatiyası vasitəsilə uzun müddətli perspektivdə davamlı inkişafın əldə edilməsini, xarici siyasətimizin manevr imkanlarının və strateji dərinliyinin artırılmasını, ən əsası, Ermənistana qarşı beynəlxalq siyasi təzyiqin gücləndirilməsini və son hədəf olaraq

Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin olunmasını özündə ehtiva edir.

Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımlar atan Prezident Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər edir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən Prezident İlham Əliyevin xarici siyasət konsepsiyası dövlətimizin xarici siyasətdə nəzərdə tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Mənafeyi Azərbaycanın dövlətçilik və milli maraqları ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaradılır, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə edilir. Dövlətimiz bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirak edir, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeridir, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə edir. Aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli iş görülür. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin prioritetləri müəyyənləşdirildi və həyata keçirildi.

Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan ölkə Prezidenti öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışır. Prezidentin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulur.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanuna uyğunluqlarını çox gözəl dəyərləndirən Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacibdir. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilir. Belə ölkələrə birinci növbədə, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və digərləri aiddir. Bu və İslam Əməkdaşlıq Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı dövlətimiz üçün çox vacibdir. Bütün bu amilləri nəzərə alan İlham Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Bu gün müstəqil Azərbaycan əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir. Prezident İlham Əliyev diplomatik xidmət orqanları rəhbərləri ilə müşavirədə inkişafımızın hazırkı mərhələsinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə yeni tapşırıq və vəzifələr müəyyən etmişdir:

- Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması;
- Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində fəaliyyətin daha aktiv şəkildə davam etdirilməsi;
- Ermənistanın siyasi, iqtisadi, enerji və nəqliyyat layihələrindən təcridinin davam etdirilməsi;
- Azərbaycan haqqında həqiqətlərin dünya miqyasında yayılmasının daha da gücləndirilməsi, erməni yalanlarının ifşa edilməsi və Azərbaycana qarşı olan məqsədyönlü əks-təbliğat əməllərinin qarşısının alınması;

- ikitərəfli əsasda dünya ölkələri ilə əlaqələrin inkişafına xüsusi önəm verilməsi və ikitərəfli siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin daha da inkişaf etdirilməsi;

- Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda ədalət və beynəlxalq hüququn prinsiplərinə uyğun, ikitərəfli və çoxtərəfli çərçivələrdə çevik diplomatic fəaliyyətin davam etdirilməsi;

- xarici iqtisadi əlaqələrin genişləndirilməsinin dəstəklənməsi və Azərbaycan məhsullarının ixracı üçün yeni bazarların müəyyən edilməsi;

- Azərbaycan xalqının əsrlərdən bəri formalaşmış zəngin irsi əsasında dünya miqyasında multikulturalizm və tolerantlıq meyillərinin inkişafına töhfə verilməsi;

- mədəni diplomatiya siyasətinin davam etdirilməsi və dünya miqyasında Azərbaycan xalqının sahib olduğu zəngin mədəni irsin tanıdılması;

- dünya azərbaycanlıları və diaspor təşkilatları ilə əlaqələrin daha da gücləndirilməsi və onların fəaliyyətinin dəstəklənməsi.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması xarici siyasətimiz qarşısında duran vəzifə və tapşırıqlar sırasında prioritet yer tutmaqla yanaşı, bu sahədə daim konstruktiv və praqmatik yanaşma nümayiş etdirilir. Ümumiyyətlə, qeyd olunmalıdır ki, Azərbaycanın ümumi inkişaf və xarici siyasət strategiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarmışdır. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının qarşısı alınmış və yalanları ifşa olunmuşdur. Erməni lobbisinin sıx cəmləşdiyi ölkələrdə belə, Azərbaycan haqqında həqiqətlər bu ölkələrin geniş ictimai dairələrinə sirayət etmişdir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir.

Azərbaycan Respublikasının xarici Şərq siyasətində birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sa-

hələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır. Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir. Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək, Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.

Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin, parkların yaradılması, birgə mədəni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir. Son üç ildə Azərbaycan Prezidenti dəfələrlə Türkiyəyə rəsmi və işgüzar səfərlər etmiş, Çanaqqala zəfərinin 100 illiyi mərasimində, burada keçirilən Dünya Humanitar Sammitində, Dünya Neft Konqresində, Dünya Enerji Şurasının Konqresində, Əskişəhərdə TANAP layihəsinin açılış mərasimində, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında, “Star” neftayırma zavodunun açılışında iştirak etmişdir. Ölkələrimiz arasında əməkdaşlıq haqqında bir çox yeni sənədlər imzalanmışdır. Eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Azərbaycana rəs-

mi və işgüzar səfərlər etmiş, “Asiyanın Qəlbi-İstanbul Prosesi” çərçivəsində 7-ci Nazirlər konfransında, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 6-cı iclasında, Bakının azad edilməsinin 100 illiyinə həsr edilmiş paradda iştirak etmiş, Prezident seçiləndən sonra ilk rəsmi səfərini daim Azərbaycana gerçəkləşdirmişdir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır. Türkdilli ölkələrin dövlət başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublika Prezidenti qazax, qırğız və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir. 2008-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun Bakıya səfəri çərçivəsində özbək mütəfəkkir-şairi Əlişir Nəvainin Bakıda heykəlinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün və böyük şairimiz Nizami Gəncəvinin heykəlinin Daşkənd şəhərində ucaldılması, görkəmli qazax ziyalısı Oljas Suleymenovu qəbul edərək 75-illik yubileyi münasibəti ilə “Dostluq” ordeni ilə təltif etməsi və digər hadisələr mədəni əlaqələrdə böyük önəm daşıyır.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli Ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə “Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategi-

yası", Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqların inteqrasiyası istiqamətində baş tutan digər bir çox önəmli hadisə - Türkdilli Dövlətlərin Parlament Assambleyasının (Türk PA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan-İran qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədədir.

Müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamağı və inkişaf etdirməyi rəhbər tutan İslam Əməkdaşlıq Təşkilatı ilə yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsipləri xarici siyasətimizin vacib istiqamətidir. İƏT ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. 2005-ci ildə İƏT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan Prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 2006-cı ildə (19-21 iyun) Təşkilata üzv Ölkələrin Xarici İşlər Nazirlərinin XXXIII konfransı Bakıda keçirildi. Bakıda keçirilən İƏT Turizm Nazirlərinin V konfransının (10-11 iyun 2009) nəticəsi olaraq qəbul edilmiş yekun bəyannamədə Ermənistanın Azərbaycana təcavüzü pislənməklə yanaşı, işğal edilmiş ərazilərdə və habelə Ermənistan daxilindəki mədəniyyət və islam abidələrinə qarşı həyata keçirilən vandalizm siyasəti, eləcə də işğal olunmuş ərazilərin təbii resurslarından istifadə edilməsini pisləyən maddələr əksini tapıb.

Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti İƏT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pis-

ləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbuluna nail olmuşdur.

Keçən illər ərzində beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qərar və qətnamələr, o cümlədən Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının son Qahirə sammitinin sənədləri artıq münaqişənin həlli çərçivəsini, hüquqi bazasını və onun əsas elementlərini müəyyənləşdirmişdir. Beynəlxalq ictimaiyyətin əsaslandığı bu sənədlər ATƏT-in Minsk qrupunun daha nəticə yönümlü fəaliyyəti üçün əsasdır. Azərbaycan öz növbəsində təşkilatın qərarlarının qəbul edilməsində fəal iştirak edir. İslam dövlətlərində baş verən proseslərə münasibətdə konstruktiv mövqe tutur. Təşkilatın bütün tədbirlərində Azərbaycan nümayəndələri birmənalı şəkildə Fələstin xalqının suverenlik hüququnu müdafiə edib, Qüdsdəki islam abidələrinin toxunulmazlığına tərəfdar çıxıb. Azərbaycan İƏT-nın aidiyyəti strukturları ilə də sıx əməkdaşlıq edərək, həmin qurumların işində, eyni zamanda, üzv ölkələrdə keçirilən tədbirlərdə çox yaxından iştirak edir. Bu nöqteyi-nəzərdən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti və onun ISESCO-nun xoşməramlı səfiri təyin edilməsi və təşkilatın humanitar məsələlər üzrə xüsusi elçisi diplomu ilə təltif edilməsi təqdirəlayiqdir.

2016-cı ilin aprel ayında Prezident İlham Əliyev İstanbulda İƏT XIII sammitində, 2017-ci ilin sentyabr ayında Astanada İƏT-nin Elm və Texnologiya üzrə I sammitində, həmin il İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə zirvə toplantısında iştirak və çıxış etmişdir.

Regionda strateji əhəmiyyət daşıyan ərəb ölkələri ilə də ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir. Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident İlham Əliyev tərəfindən diqqətə alındı. Əlbət-

tə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi ab-havanı müəyyənləşdirən əsas məsələ artıq 70 il davam edən İsra-il - ərəb qarşıdurmasıdır. İslam dünyası və İsrail arasındakı gər-ginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublika-sının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımamalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə öl-kəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstər-diyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan müsəl-man aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əla-qələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaş-dırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İƏT çərçivəsin-də böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya, Qətər, İordaniya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət gös-tərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, İordaniya, Liviya və s. ərəb ölkələrində səfirlikləri var.

2004-cü ildən başlayaraq Prezident İlham Əliyevin ərəb öl-kələrinə bir sıra rəsmi dövlət səfərləri baş tutdu: 2004-cü ildə Qətərə, 2005-ci ildə Səudiyyə Ərəbistanı Krallığına, 2006-cı il-də Birləşmiş Ərəb Əmirliklərinə, 2007-ci ildə Misir Ərəb Res-publikasına və İordaniya Haşimilər Krallığına, 2009-cu ildə Kü-veytə, 2016-cı ilin fevralında BƏƏ-yə rəsmi səfər etdi. Növbəti ilin fevral ayında Qətər Əmiri Şeyx Təmim əl-Tani Azərbaycana səfər etdi. Aparılmış böyük işlərin, yaradılmış mühüm əlaqələrin

və qarşılıqlı faydalı əməkdaşlığın nəticəsidir ki, 2008-ci il martın 14-də BMT-nin Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamənin qəbul olunmasına dair keçirilən səsvermədə müsəlman ölkələri Azərbaycanın mövqeyini dəstəkləmişdir.

2017-ci il ölkəmizdə "İslam həmrəyliyi ili" elan olunmuş, Bakıda IV İslam Həmrəyliyi İdman Oyunları keçirilmişdir. Həmin ilin may ayında dövlətimizin başçısı Ərəb-İslam-Amerika sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanına işgüzar səfər etmişdir. ISESCO ilə də əməkdaşlıq yüksələn xətlə inkişaf edir, təşkilatın Baş Katibi Əbdüləziz Tuveycri Bakıya müntəzəm səfər edir, burada ən müxtəlif mədəni layihələrin açılışında iştirak edir, ölkə rəhbəri və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə müntəzəm görüşlər keçirir, qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə edir. Son illərdə Bakının, daha sonra Naxçıvanın "İslam mədəniyyəti paytaxtı" elan edilməsi bu əməkdaşlığın bariz nümunəsidir.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də böyük işlər görülüb. 2017-ci ilin mart ayında Azərbaycan Prezidenti təşkilatın XIII sammitində iştirak etmək üçün Pakistana işgüzar səfər etmişdir.

Çin, Yaponiya, Koreya, Monqolustan, Pakistan, Hindistan, İndoneziya, Malayziya və digər ölkələrlə əlaqələr möhkəmləndirilir, dövlət başçılarının qarşılıqlı səfərləri təşkil olunur, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

Bu gün Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var. Bu ölkələrdəki səfirliklərimiz ölkəmizin milli maraqlarının təmin olunmasında, xarici siyasətin həyata keçirilməsində, iqtisadi əlaqələrimizin coğrafiyasının genişləndirilməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində, eləcə də respublikamızın xarici ölkələrdə təbliği, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiə edilməsi işində onların qarşısında qoyulan vəzifələri icra edirlər.

Etibarlı tərəfdaş olan və beynəlxalq münasibətlərə beynəlxalq hüququn prinsipləri çərçivəsində yanaşan Azərbaycan ikitərəfli münasibətlərin fəlsəfəsinə, siyasi, hüquqi çərçivəsinə uyğun olaraq hər bir dövlət ilə olan əlaqələrini üçüncü tərəfə qarşı istifadə etməkdən tamamilə uzaq, xoşməramlı, tarazlı siyasətinə görə dünya dövlətlərinin etimad və rəğbətini qazanmışdır.

Çoxtərəfli diplomatiyamızın tərkib hissəsi kimi Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional beynəlxalq təşkilatların üzvü olaraq bu təşkilatlar çərçivəsində də fəal iş aparır. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.

İkitərəfli və çoxtərəfli qaydalar əsasında xarici siyasətimizin coğrafiyasının genişləndirilməsini şərtləndirən vacib amillərdən biri də Azərbaycanın iqtisadi imkanlarının artmasıdır. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan artıq investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmişdir. Yürütdüyü çoxistiqamətli siyasət nəticəsində Azərbaycan bu gün kəsişmə nöqtəsində yerləşdiyi Xəzər, Qara və Aralıq dənizləri hövzələri, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa regionlarının siyasi-iqtisadi proseslərində, onları birləşdirən enerji, nəqliyyat layihələrində yaxından iştirak edir və bir çox hallarda belə layihələrin təşəbbüskarı kimi çıxış edir.

Sülh və təhlükəsizlik sosial-iqtisadi inkişafla bir-birinə sıx bağlıdır. Bu regional məsələlərin həllində sülh və tərəqqi təşviqi baxımdan strateji əhəmiyyət kəsb edir. Azərbaycan regionda sülh və təhlükəsizliyin möhkəm və dayanıqlı olması üçün ciddi addımlar atmışdır və görülən işlər regionun inkişafına və dünya birliyinə inteqrasiyasına öz töhfəsini vermişdir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gətirilmiş Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri, eləcə də yaxın vaxtlarda inşası başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu

layihəsi, şübhəsiz ki, regionda iqtisadi, sosial inkişafa, ən əsası isə qarşılıqlı inam və faydanın üzərində qurulan uzunmüddətli əməkdaşlığa səbəb olmuşdur. Bu sırada Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq TANAP və TAP layihələri üzrə əldə edilmiş razılıqlar da qeyd olunmalıdır.

Prezident İlham Əliyevin təşəbbüsü və himayəsi sayəsində ərsəyə gələn Bakı Humanitar Forumunda hazırlanan tövsiyə və təkliflər multikulturalizmin konseptual inkişafında mühüm rol oynayır, bu tövsiyələr beynəlxalq təşkilatlar, dövlətlər və tədqiqat mərkəzləri tərəfindən ciddi şəkildə öyrənilir, tətbiq edilir. Azərbaycan bu kimi fəaliyyəti ilə milli, dini, mədəni və irqi müxtəliflik şəraitində dünyada sülhün bərqərar olmasına və sivilizasiyalararası dialoqun möhkəmlənməsinə əsaslı töhfəsini verir.

Xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident İlham Əliyevin Şərq siyasətini, o cümlədən, İƏT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, ölkə diplomatiyası üçün müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, Prezidentin apardığı xarici siyasət də daxili siyasət kimi daim bir marama, bir məqsədə, bir amala xidmət edir - müstəqil Azərbaycanı yaşatmaq, onu hər tərəfli inkişaf etdirmək, problemləri həll etmək, xalqımızın dünya xalqları bir liyində özünə layiq yer tutmasına nail olmaq.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində, zəngin neft-qaz ehtiyatlarına malik olan, dünyanın aparıcı dövlətlərinin maraqlarının kəsişdiyi bölgədə yerləşən Azərbaycan üçün xarici siyasətin düzgün seçilməsi ölkənin müstəqilliyinin qorunub saxlanmasında və möhkəmləndirilməsində başlıca amillərdən biri olaraq qalır. Azərbaycan kifayət qədər mürəkkəb, eyni zamanda, strateji əhəmiyyətli bölgədə yerləşdiyinə görə xarici siyasət kursunu müəyyənləşdirərkən bir tərəfdən öz milli maraqlarını qorumaq və bölgənin aparıcı dövlət statusunu saxlamaq, digər tərəfdən bölgədə maraqları olan bütün dövlətlərlə, habelə qonşularla bərabərhüquqlu tərəfdaşlıq münasibətlərini saxlamaq prinsipin-

dən çıxış edir. Bu gün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Bu siyasət milli mənafeni təmin edir, xalqın cari və strateji maraqlarına xidmət edir, ölkəmizin təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

Ötən müddət ərzində Azərbaycan ətrafında əlverişli xarici mühit formalaşdırmışdır. Xaricdən olan təzyiqlər, hədə və təhdidlər zərərsizləşdirilmişdir. Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı çoxtərəfli və ikitərəfli əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilmişdir.

Əsası ümummilli lider tərəfindən qurulan müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti daim yüksələn xətlə inkişaf edir, xalqımızın haqq səsinin ucaldılmasında və mənafelərinin qorunmasında daha da böyük rol oynayır.

*“Azərbaycan” qəzeti, 28.11.2018*

# TARİXİN ƏN QÜDRƏTLİ AZƏRBAYCANI

*Yola saldığımız il bizi Qarabağa*
*daha da yaxınlaşdırdı*

Narahat dünyamızda bir çox siyasi, ictimai, iqtisadi, hərbi hadisələrlə, proseslərlə zəngin olmuş 2018-ci il artıq başa çatdı, tarixə qovuşdu.

Bütün dünyanın qlobal kataklizmlərlə, sarsıntılarla qarşılaşdığı ildə ölkəmiz nəinki sabitliyi, əmin-amanlığı qoruyub saxladı, həyatın bütün sahələrində irəliyə doğru inamlı addımlar ataraq, bir çox uğurlara nail oldu, inkişafının yeni mərhələsinə qədəm qoydu.

Daha bir ili arxada qoyduq, daha bir ilə əlvida deyib, yeni ümidlər, yeni arzularla və yeni müsbət gözləntilərlə 2019-cu ilə qədəm qoyduq. Artıq bir neçə gündür ki, yeni ilin ilk günlərini yaşayırıq. Bu il də ölkəmiz, xalqımız üçün bir çox mühüm hadisələrin yaşanacağı gözlənilir.

Belə ki, 2011-ci ildən əməkdaşlıq etdiyimiz, üzvü olduğumuz, BMT-dən sonra dünyanın ikinci nüfuzlu beynəlxalq təşkilatı sayılan Qoşulmama Hərəkatının 18-ci Zirvə toplantısı ölkəmizdə keçiriləcək. Azərbaycan bu nüfuzlu qurumun möhtəşəm toplantısına yüksək səviyyədə ev sahibliyi etməklə yanaşı, həm də 2019-2022-ci illərdə bu təşkilata sədrlik funksiyasını yerinə yetirəcək. Bu il, həmçinin, qlobal nüfuzlu tədbirlərin keçirildiyi məkana çevrilən Bakıda UNESCO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. Eyni zamanda, bu il, sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan və ilk ali təhsil ocağımız, elm məbədgahımız sayılan Bakı Dövlət Universitetinin təsis olunmasının 100 yaşı tamam olur ki, bu istiqamətdə də yüksək səviyyəli yubiley tədbirləri keçiriləcək, Azərbaycan təhsilinin və elminin keçdiyi şərəfli yola bir daha nəzər yetiriləcək.

Bu il görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi də qeyd olunacaq ki, bununla bağlı ötən ilin sonlarında Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanıb. İnanırıq ki, dahi şairimizin 650 illik yubileyi də onun adına layiq səviyyədə keçiriləcək.

Dekabr ayında respublikamızda həmçinin növbəti bələdiyyə seçkiləri keçiriləcək ki, bu da 1999-cu ildən bu yana ölkəmizdə reallaşdırılan sayca 5-ci seçkilər olacaq. Azərbaycan bu seçkilərlə demokratik inkişafa doğru daha bir addım atacaq. Çünki demokratiya, demokratik inkişaf bizim öz könüllü seçimimizdir və biz bu istiqamətdə də addım atarkən bunu kimlərinsə diktəsi ilə deyil, özümüzün istəyimiz ilə edirik.

Bu il Azərbaycan daha bir nüfuzlu idman yarışmasına - Avropa Gənclər Olimpiya Festivalına ev sahibliyi edəcək. Festival iyul ayının 20-dən 28-dək keçiriləcək. 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslamiadaya uğurla ev sahibliyi edən, özünü dünyanın idman ölkəsi kimi tanıdan məmləkətimiz olimpiya festivalını da layiqincə keçirməklə adını bir daha imzalar içində həkk edəcək, yazacaq...

***“Cümhuriyyət ili”***

Ötən ilin yanvar ayında Prezidentin sərəncamı ilə 2018-ci il ölkəmizdə “Cümhuriyyət ili” elan olundu. Çünki ötən il şərəf və qürur tariximiz olan Şərqdə ilk demokratik respublika Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi idi.

Düzdür, bu dövlətin ömrü cəmi iki il çəkdi, 1920-ci ilin qara 28 aprel tarixində müstəqiliyimizin daxili və xarici əleyhdarlarının əli ilə Azərbaycan bolşeviklər tərəfindən işğal olundu, başqa dövlətin tərkibinə ilhaq edildi. Bununla belə, 23 aylıq cümhuriyyətimiz çox böyük və şərəfli yol keçdi, Azərbaycanın imzasını imzalar içində elə tanıtdırdı ki, onu yaddaşlardan silib atmaq mümkün olmadı. Və beləliklə də 1991-ci ildə yenidən müstəqilliyini bərpa edən xalqımız 2018-ci ildə AXC-nin 100 illiyini ən yüksək səviyyədə qeyd etdi.

“Cümhuriyyət ili” əsnasında iyun ayının 26-da Azərbaycan Milli Ordusunun yaranmasının 100 illiyi təntənəli şəkildə, möh-

təşəm hərbi parad təşkil olunmaqla qeyd edildi. Azərbaycan Ordusunun 100 illiyinə ən böyük töhfə isə Naxçıvanın Günnüt kəndinin erməni işğalından azad edilməsi, Ermənistana 2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, böyük sarsıdıcı zərbə endirilməsi oldu. Belə ki, 1992-ci ildə Ermənistan silahlı birləşmələrinin işğal etdiyi Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər 26 ildən sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən azad edildi. Bu əməliyyat nəticəsində ümumilikdə 11 min hektara yaxın ərazi düşməndən azad olundu. Hərbi paradda çıxışı zamanı Ali Baş Komandan bu tarixi hadisəyə toxunaraq, "Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır" deyə vurğuladı...

Ötən il sentyabr ayının 15-də Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyi Azərbaycan və Türkiyə prezidentlərinin birgə iştirakı ilə yüksək səviyyədə qeyd olundu. Həmin gün Bakıda möhtəşəm parad təşkil edilməklə bir daha Azərbaycanın dünyaya nə qədər güclü və qüdrətli dövlət olduğu nümayiş etdirildi, həmçinin Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyi, sarsılmazlığı növbəti dəfə bəyan edildi. Bunu hər iki ölkənin liderləri də öz çıxışlarında dilə gətirdilər...

Sentyabr ayının 21-də isə "Cümhuriyyət İli" çərçivəsində müsəlman-Şərq aləmində ilk dəfə yaradılan parlamentin - AXC Parlamentinin 100 illiyi Milli Məclisin (MM) xüsusi və təntənəli iclası ilə qeyd olundu. Bu tədbirlərdə 50-yə yaxın ölkənin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların parlament nümayəndə heyətləri iştirak etdi.

***Ölkə Prezidentinə növbəti etimad***

2018-ci ilin ən yaddaqalan və tarixi hadisələrindən biri də 11 aprel prezident seçkiləridir. Alternativ əsaslarla və demokratik seçki mühitində keçirilən seçkilərdə qədirbilən Azərbaycan xalqı yenə öz müdrik seçimini etdi, ölkə Prezidenti İlham Əliye-

və səs verməklə, etimad göstərməklə onu yenidən növbəti 7 il müddətinə rəhbər seçdi. Azərbaycan seçicilərinin tam mütləq əksəriyyəti - 3 milyon 397 min 664 nəfəri, yəni 86,03 faizi İlham Əliyevə səs verdi. Bundan cəmi bir həftə sonra, aprel ayının 18-də dövlət başçısı Milli Məclisdə təşkil edilən andiçmə mərasimi ilə özünün yeni prezidentlik mərhələsinə qədəm qoydu. Mərasimdə çıxışında bir daha ona göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirən dövlət başçısı dedi: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və vətənə ləyaqətlə xidmət edəcəyəm".

Həmçinin prezident seçkilərinin Azərbaycan xalqının iradəsini əks etdirdiyini vurğulayan ölkə rəhbəri "Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir" deyə sözlərinə əlavə etdi...

Prezident seçkilərindən və andiçmə mərasimindən çox qısa müddət sonra dövlət başçısı özünün konstitusion səlahiyyətlərindən istifadə edərək hökuməti, Nazirlər Kabinetini buraxdı. Eyni zamanda yeni hökumətin formalaşdırılması istiqamətində addımlar ataraq yeni baş nazirin namizədliyinin təsdiqlənməsi ilə bağlı Milli Məclisə təqdimat göndərdi. Daha sonra yeni hökumətin tərkibi müəyyənləşdirildi.

### *"Cənub qaz dəhlizi", TANAP, STAR, Aktau Konvensiyası...*

Prezident seçkiləri və hökumətin tam tərkibdə formalaşdırılmasından bir qədər sonra nəinki bölgənin, bütövlükdə Avropanın və dünyanın enerji təhlükəsizliyinin təminatında böyük rol oynayacaq bir sıra uğurlara imza atıldı. Daha doğrusu, AXC-nin

100-cü ildönümünün səhərisi günü, may ayının 29-da Səngəçal terminalında Azərbaycan Prezidentinin iştirakı ilə "Cənub qaz dəhlizi"nin tarixi rəsmi açılış mərasimi keçirildi və bununla da Azərbaycanın dünyanın enerji təhlükəsizliyi təminatında böyük rolu bir daha təsbit olundu.

Bundan cəmi 14 gün sonra, iyun ayının 12-də Türkiyənin Əskişəhər şəhərində bir neçə dövlət başçısının iştirakı ilə "ikinci qan damarı" adlandırılan TANAP-ın rəsmi açılış mərasimi keçirildi. Dövlət başçısı cənab İlham Əliyev mərasimdəki nitqində bunu böyük tarixi hadisə adlandıraraq, "Türkiyənin gücü bizim gücümüzdür. Bu gün dünyada bir-birini bu qədər dəstəkləyən ölkə tapmaq çətindir. TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının təzahürü, zəfəridir. Biz XXI əsrin enerji tarixini yazırıq. Bu, əməkdaşlıq, sabitlik layihəsidir. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə və Azərbaycan liderlərinin birgə siyasi iradəsi nəticəsində mümkün olub" deyə bəyan etdi, Azərbaycan-Türkiyə qardaşlığının dönməzliyinə bir daha xüsusi diqqət çəkdi.

Bu tarixi hadisənin üstündən də cəmi iki ay keçəndən sonra, avqust ayının 12-də 1996-cı ildən davam edən 22 illik Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar müsbət sonluqla nəticələndi. Həmin gün, 2018-ci ilin 12 avqust tarixində Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlət başçısının iştirakı ilə tarixi Aktau Konvensiyasına imza atıldı ki, bununla da Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik həll edildi. Qeyd etmək lazımdır ki, Aktau anlaşması məhz Azərbaycan dövlətinin, dövlət başçısının yeritdiyi son dərəcədə təmkinli, səbirli, balanslaşdırılmış siyasət nəticəsində baş tutdu və Azərbaycan bununla daha bir uğuruna imza atdı.

Oktyabr ayının 19-da Azərbaycan-Türkiyə qardaşlığının növbəti nümunəsi olaraq birgə səylərlə reallaşdırlan və nəinki iki ölkənin iqtisadi inkişafına, bütövlükdə regionun inkişafına böyük töhfəsi olacaq "STAR" neft emalı zavodunun açılış mərasimi keçirildi. Mərasimdə hər iki ölkənin liderləri iştirak və çıxış etdi. Azərbaycan Prezidenti bildirdi ki, bu gün Türkiyə-Azərbaycan

qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. "Biz "Star Rafineri"nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada "Star"ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq" deyən Azərbaycan Prezidentinin sözlərinə görə, bu, bir daha onu göstərdi ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var və bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

***İqtidar-xalq vəhdəti***

Bu yerdə qeyd etmək lazımdır ki, Azərbaycanın 28-ci ilinə qədəm qoyan ikinci müstəqilliyi də asan başa gəlməyib, bir çox ağrılı-acılı hadisələrdən keçib. Bu illər ərzində Azərbaycanın müstəqilliyini, inkişafını həzm və qəbul edə bilməyən qüvvələr, yəni koordinasiyalı şəkildə fəaliyyət göstərən antiazərbaycançı dairələr ölkəmizin əleyhinə fəaliyyətlərini daim açıq və gizli şəkildə davam etdiriblər. Ötən ilin iyul ayında onlar bu dəfə dini zəmində qarşıdurma yaratmağa cəhd göstərdilər. Gəncədə baş verən hadisələrdə, çox təəssüflər olsun ki, qan da töküldü, yaralananlar, xəsarət alanlar, həlak olanlar da oldu. Ancaq iqtidar-xalq birliyi sayəsində Azərbaycanı yenidən qarışdırmaq istəyən dağıdıcı qüvvələrin niyyətləri baş tutmadı, onlara sarsıdıcı zərbə vuruldu.

Baş vermiş hadisələrlə bağlı hüquq mühafizə orqanlarının iştirakı ilə keçirdiyi 13 iyul müşavirəsində dövlət başçısı bir daha Azərbaycanın daxili və xarici düşmənlərinə kəskin mesajlarını göndərdi. Dövlət başçısı çıxışında qeyd etdi ki, cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. "Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm: xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz... Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə

bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq" deyə dövlət başçısı vurğuladı.

***Brüssel zəfəri, dünya liderləri ilə bir cərgədə***

İyul ayında Prezident İlham Əliyev Belçikaya səfər etdi. Bu səfər siyasi tariximizə "Brüssel zəfəri" kimi düşdü. Həmin səfər zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında yüksək uğura imza atılmaqla yanaşı, Ermənistanın siyasi-diplomatik təcridi istiqamətində böyük qələbə əldə edildi. Birinci uğur tərəfdaşlığın prioritetləri ilə bağlı Avropa İttifaqı və Azərbaycanın münasibətlərini keyfiyyətcə yeni mərhələyə daşıyan sənədin paraflanması oldu. İkinci uğur isə NATO-nun Brüssel Sammitində qəbul edilən yekun kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının xüsusi olaraq qeyd edilməsidir.

Brüsseldə diqqət çəkən məsələlərdən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməni tərəfinin siyasi avantürasına son qoyulması oldu. Məlum olduğu kimi, Ermənistanda ötən il baş verən may hadisələrindən, hakimiyyət dəyişikliyindən, hərbi xunta rejiminin populist Paşinyan iqtidarı ilə əvəzlənməsindən sonra yeni baş nazir tərəfindən avantürist fikirlər səsləndirilir, Dağlıq Qarabağ ermənilərinin danışıqlarda tərəf kimi təqdim olunması kimi məsələlər gündəmə gətirilirdi. Ancaq bu mötəbər toplantıda dünya siyasətini müəyyənləşdirən, onun keyfiyyətini, istiqamətlərini təyin edən beynəlxalq təşkilatların mövqeyi bir daha ölkəmizin lehinə oldu. NATO-nun qəbul etdiyi kommunikeni, habelə Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan sənədi buna misal göstərmək olar. Bu, Azərbaycanın Ermənistan üzərində növbəti siyasi-diplomatik qələbəsi, uğuru idi...

Ötən il həmçinin Azərbaycanın dünyanın ən nüfuzlu ölkələri - Rusiya, Böyük Britaniya, Fransa, İtaliya, Almaniya, Belarus və digər dövlətlərlə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri baş verdi. Dövlət başçısının Böyük Britaniyaya, Fransaya və

Rusiyaya səfərləri, eləcə də İtaliya və Almaniya liderlərinin Azərbaycana gəlmələri, il ərzində Azərbaycan və Rusiya prezidentlərinin 6 dəfə görüşməsi Azərbaycanın etibarlı tərəfdaş kimi dünyadakı yerini bir daha təsdiqlədi, eyni zamanda Ermənistanın təcridi siyasətində böyük rola malik oldu.

***Elm və təhsilin inkişafında uğurlu mərhələ***

2018-ci il eyni zamanda Azərbaycan elminin və təhsilinin inkişafında növbəti uğurlu mərhələ kimi yadda qaldı. Belə ki, ölkə parlamenti tərəfindən təhsilin inkişafına böyük və müsbət təsir göstərəcək bir sıra qanunlar qəbul edildi. Konkret olaraq “Peşə təhsili haqqında” yeni qanun qəbul edildi, “Təhsil haqqında” çərçivə qanununa birdəfəlik və üst-üstə (parlament tarixində nadir sayılacaq hadisələrdəndir) 64 dəyişiklik olundu və mövcud qanun, demək olar ki, tam yeniləndi. Həmçinin dekabrın 28-də “Ümumi təhsil haqqında” yeni qanun layihəsi birinci oxunuşda qəbul edildi. Bundan başqa, 2019-cu ilin büdcə müzakirələrində deputatların təhsil kreditləri ilə bağlı təkliflərinin bir qismi nəzərə alınaraq 2019-cu ildən ödənişli qəbul planının azaldılması istiqamətində müvafiq addımlar atıldı...

Parlamentdən söz düşmüşkən onu da qeyd etmək istərdim ki, 2018-ci ilin yaz və payız sessiyalarında bütövlükdə 31 iclas keçirildi, 463 qanun qəbul edildi. 2018-ci il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından da məhsuldar oldu. Belə ki, parlamentin nümayəndə heyətləri il ərzində 45 ölkəyə 135-dən çox səfər həyata keçirdi. Deputatlarımız Türkiyədə keçirilən prezident və parlament seçkilərində, Rusiyada, Gürcüstanda və Monteneqroda prezident, Latviyada keçirilən parlament seçkilərində müşahidəçi kimi fəal iştirak etdilər. Həmçinin bu il 85 xarici dövlətin və 27 beynəlxalq təşkilatın 160-dan çox nümayəndə heyəti, ümumiyyətlə, 2050 deputat və əcnəbi vətəndaş parlamentdə oldu. Beynəlxalq təşkilatların xətti ilə 9 tədbir keçirildi...

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi və müxbir üzvlərinin aylıq rütbə maaşlarının artırılması haqqında 17 oktyabr 2018-ci il tarixdə sərən-

cam imzaladı. Ötən il AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu üçün də yaddaqalan oldu. Belə ki, Azərbaycan və dünya şərqşünaslıq elminə böyük töhfələr vermiş Şərqşünaslıq İnstitutunun 60 illiyi tamam oldu və yubiley tədbiri yüksək səviyyədə keçirildi. İnstitutumuzda böyük alim, akademik Ziya Bünyadovun büstünün açılış mərasimi oldu. Ötən ilin sonlarına yaxın Rusiyanın Şərq Əlyazmaları İnstitutu ilə əməkdaşlıq sazişi imzalandı.

***Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır***

2018-ci il əlamətdar hadisələr ilə tarixə döndü. Üstündən illər də keçsə, 2018-ci il yaddaşlardan, hafizələrdən silinməyəcək, hələ çox xatırlanacaq, yad ediləcək. Çünki ölkə Prezidentinin də 31 dekabr tarixində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində qeyd etdiyi kimi, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuş, bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf etmiş Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləmişdir. Ən əsası isə, ölkə Prezidentinin də qeyd etdiyi kimi, dünyada gərginlik, risklər, təhdidlər artdığı halda Azərbaycan sabitlik məkanı olmuşdur.

Dövlət başçısı "2018-ci ildə xalqımız əmin-amanlıq, sabitlik şəraitində yaşayıb. Sabitliyin əsas səbəbi və onun mənbəyi xalq-iqtidar birliyidir" deyərək, bir daha bugünkü Azərbaycanın AXC-nin varisi olduğunu bəyan etdi və inamlı şəkildə vurğuladı ki, Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu, tarixi həqiqətdir. Bu həqiqəti bizlərə yaşadan isə Heydər Əliyev siyasi kursu - İlham Əliyev qətiyyətidir.

*www.azerbaijan-news.az, 09.01.2019*

## FÖVQƏLADƏ MİSSİYA, YAXUD TARİXİN ƏN BÖYÜK AZƏRBAYCANLISI

Yaşadığımız günlər çoxəsrlik tariximizin mühüm hadisələrindən biri ilə əlamətdardır. Xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 ili tamam oldu. Bu əlamətdar tarix münasibətilə Ulu Öndərin zəngin həyat yolunu, çoxşaxəli titanik fəaliyyətini, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işləri, bütövlükdə xalqımızın və dövlətimizin inkişafında həyata keçirdiyi fövqəladə missiyanı bir daha təhlil etmək zərurəti yaranır. Qəti əminəm ki, Heydər Əliyev kimi nəhəng şəxsiyyətin fəaliyyətini müəyyən zaman kəsiyində qiymətləndirmək doğru deyil.

İctimai elm çoxdan mütləq həqiqəti ortaya qoymuşdur. Böyük dövlət xadimlərinin fəaliyyəti yalnız müqayisəli-tarixi aspektdə qiymətləndirilməli, onların ölkəsinin və xalqının taleyində oynadığı rolu yalnız zaman özü dəyərləndirməlidir. Məşhur bir deyimə görə, dağın əzəmətini duymaq və müşahidə etmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir. Ölkəmizdə son 50 ildə baş verən proseslərə və həmin proseslərin mərkəzində dayanan ulu öndər Heydər Əliyevin fövqəladə missiyasına nəzər saldıqda, o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik. Öz taleyini yaşayan insanlar olduğu kimi, bütöv toplumun, xalqın taleyində böyük rol oynayan, hətta bir çox cəhətdən onu müəyyənləşdirən şəxsiyyətlər də olur. Xalqımızın tarixində və taleyində artıq 50 il zaman kəsiyində müstəsna təsirə malik olmuş ümummilli lider Heydər Əliyev belə şəxsiyyətlərdəndir.

İlk dəfə Azərbaycanda siyasi hakimiyyətə 1969-cu il iyulun 14-də gələn Heydər Əliyev qısa zamanda ölkəmizin sosial-iqtisadi və mədəni yüksəlişinin əsasını qoydu. Bu illərdə respublikamızın sosial-iqtisadi tərəqqisi yolunda əsl dönüş yarandı: 250-dən çox zavod, fabrik istifadəyə verildi, 630 min nəfərlik yeni iş

yeri yaradıldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublikada xalq təsərrüfatının inkişafı üçün beş xüsusi qərar qəbul etdi. 1971-1985-ci illərdə iqtisadiyyata sərmayə qoyuluşunun həcmi 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə olunan vəsaitdən 2,1 dəfə çox idi. 1985-ci ildə Cənubi Qafqazda ən iri poladəritmə zavodu istifadəyə verildi, Dərin Dəniz Özülləri zavodu tikildi. Sənayedə struktur dəyişiklikləri aparıldı. Bakı Məişət Kondisionerləri zavodu qısa müddətdə tikilib istifadəyə verildi (1975). "Ulduz", "Azon" cihazqayırma zavodları, Sumqayıt kompressorlar zavodu, Bakı elektrik qaynaq avadanlığı zavodu işə düşdü. Onlarca istehlak malları istehsal edən, o cümlədən Abşeron, Siyəzən broyler fabrikləri, Bakı Şampan şərabları zavodu, Sumqayıt şüşə zavodu, Ələt Ağac Emalı Kombinatı və s. müəssisələr istifadəyə verildi. Araz, Tərtər, Şəmkir su elektrik stansiyaları, "Azərbaycan" DRES-i işə salındı. Azərbaycanın enerji müstəqilliyi təmin olundu. Böyük meliorasiya proqramı həyata keçirildi. Baş Mil, Abşeron, Lənkəran, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Şəmkir və başqa dəryaçalar istifadəyə verildi. Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan iri pambıqçılıq rayonlarına çevrildi. Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında tərəvəzçilik daha da inkişaf etdirildi. Üzüm plantasiyaları 1970-ci ildəki 121,6 min hektardan 1985-ci ildə 268 min hektara çataraq 2,2 dəfə artdı. İri heyvandarlıq kompleksləri tikildi. Kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981-1985-ci illərdə 1966-1970-ci illərin səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı. Geniş iqtisadi quruculuq sayəsində əmək məhsuldarlığı sənayedə 2,1, kənd təsərrüfatında 1,8 dəfə, xalq təsərrüfatında gəlir 335 faiz və ya ümumittifaq göstəricisindən 2 dəfə çox artdı. Həmin illərdə yaradılmış iqtisadi, elmi-texniki və mədəni potensial gələcəkdə respublikanın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı. XX əsrin 70-80-ci illərində SSRİ-də öz iqtisadiyyatını müstəqil idarə etməyə qadir olan 2 respublikadan biri Azərbaycan idi. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Bakı, Sum-

qayıt, Gəncə və digər şəhərlər böyüyür, ətrafında yeni yaşayış massivləri salınırdı. Azərbaycanda 20 milyon kvadratmetr mənzil sahəsi istifadəyə verildi, yüzlərlə müasir bina tikildi, yollar, körpülər, kənd və qəsəbələr salındı. Azərbaycan az vaxt ərzində inkişafın başlıca keyfiyyət ölçülərinə görə müttəfiq respublikalar içərisində önə çıxdı. Sürətli sosial-iqtisadi inkişaf nəticəsində ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların həcminə görə ittifaq miqyasında Azərbaycanın rolu xeyli artdı.

Respublikada elm, təhsil, ədəbiyyat, incəsənət və memarlığın inkişafına da diqqət artırıldı. Ali, orta ixtisas, ümumtəhsil məktəbləri, teatr, klub, muzey, kitabxanalar şəbəkəsi xeyli genişləndi. 1971-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə milli hərbi kadrlar yetişdirilməsi üçün C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış internat məktəbi yaradıldı. Yüksəkixtisaslı mütəxəssis kadrlar hazırlanmasına diqqət artırıldı. On yeddi mindən çox azərbaycanlı övladı keçmiş SSRİ-nin 170 aparıcı ali təhsil ocağına göndərildi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı qətiyyətlə alındı. Qısa müddətdə Azərbaycan SSR-in sürətli sosial-iqtisadi və mədəni inkişafı keçmiş SSRİ rəhbərliyində Heydər Əliyevə böyük nüfuz qazandırdı. Ulu Öndər 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında Büroya üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi və bu imkanlardan da Azərbaycanın inkişafı naminə istifadə etdi.

1969-1987-ci illər Azərbaycanın quruculuq salnaməsinə parlaq səhifələr kimi daxil olub. Bu dövrdə müasir müstəqil Azərbaycan Respublikasının təməli qoyulub.

Sovet İttifaqının dağılması ərəfəsində SSRİ rəhbərliyi mühüm geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə fərqlənən Azərbaycana qarşı məkrli siyasət həyata keçirməyə başladı. İlk növbədə bu proseslərin qarşısını ala biləcək, məhz öncəki illərdə

Azərbaycan xalqına qarşı hər hansı təxribatın qarşısını cəsarətlə almış bir insan - ulu öndər Heydər Əliyev sovet rəhbərliyindən düşünülmüş şəkildə uzaqlaşdırıldı. Məhz bundan sonra Azərbaycana qarşı istənilən təxribatı həyata keçirmək mümkün oldu. SSRİ-nin dağılması nəticəsində iqtisadi böhran, ərazilərin itirilməsi, qaçqın, köçkün ordusunun yaranması Azərbaycanın inkişafına, iqtisadi-siyasi durumuna mənfi təsir göstərdi. Ölkəyə səriştəsiz insanların rəhbərlik etməsi həm iqtisadi, həm də siyasi böhran şəraitində müstəqilliyimizin, dövlətimizin mövcudluğunu belə sual altında qoymuşdu.

Ümummilli lider Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə gələndən sonra istər siyasi, istər iqtisadi, istərsə də sosial sferalarda böyük inqilabi dəyişikliklər baş verdi. Azərbaycan xalqı, ilk növbədə lider qazandı – uzun illər respublikamızı idarə etmiş, əməyi sayəsində özünü təsdiqləmiş, daim xalqın uğuruna çalışmış, xalqımızı çox çətin bir dövrdə ağır bəlalardan qurtaran, millətin gələcəyinin, dövlətçiliyin təməlini quran, siyasi sabitliyi, əmin-amanlığı təmin edən, gələcək iqtisadi inkişafın əsasını qoyan bir lider. Ulu öndər Heydər Əliyevin bu amallar uğrunda hələ sovet dövründə böyük xidmətləri olmuşdu. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, C.Naxçıvanski adına hərbi liseyin yaradılması, ölkədə müstəqil sosial-iqtisadi infrastrukturun yaradılması və inkişafı, istehsal müəssisələrinin artırılması gələcək müstəqilliyin təməlini qoyurdu. Ulu öndər özü də deyirdi ki, dili, ordusu olan bir ölkə, iqtisadiyyatı güclü olan dövlət müstəqil sayılır. Biz tariximizin bütün anlarını yadda saxlamalıyıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Faciəvi olub ona görə ki, zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğramış, atababalarımızın müstəqillik arzuları yadelli işğalçılar tərəfindən qan içində boğulmuşdur. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də rolu olub. Daxili çəkişmələr və münaqişələr, regional və sinfi maraqların milli mənafelərdən üstün tutulması, ən

başlıcası xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu XVIII əsrdə - bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda Azərbaycanın xanlıqlara parçalanması faktı da təsdiq edir, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da. XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi ümummilli lider, böyük siyasi iradəyə və təcrübəyə malik şəxsiyyət Heydər Əliyev şəxsiyyəti var idi. Xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Bakıya gəlib Ali Sovetin sədri, daha sonra ölkə Prezidenti seçilən ulu öndər Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində Heydər Əliyevin daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir. Biz o günlərin canlı şahidləri olsaq da, həmin dövrdə baş vermiş prosesləri yenidən mənalandırmaq, onların mahiyyətinə daha dərindən

varmaq ehtiyacı duyuruq. Heydər Əliyevin Ali Sovetin sədri seçilərkən etdiyi çıxışın mətni xüsusi diqqət çəkir. Ötən bu illərdən həmin proqram xarakterli çıxışa nəzər saldıqda görürük ki, Ulu Öndərin bütün sonrakı fəaliyyəti o tarixi çıxışdakı müddəaların addımaddım gerçəkləşdirilməsindən ibarətdir. Millət və dövlət qarşısında götürülmüş öhdəliklərə sədaqətin bundan böyük nümunəsini təsəvvür etmək çətindir. Ulu Öndər müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq onu, öz təbirincə desək, dönməz və əbədi etmişdir. Həmin çıxışda müəyyən edilən digər iki istiqamət - demokratik islahatların həyata keçirilməsi və ərazi bütövlüyünün təmin olunması istiqamətində də ardıcıl işlər görülmüşdür.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər, iqtisadi uğurlar Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxartdı. Məhz ölkə başçısı İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan iqtisadi inkişaf tempinə görə ən yüksək yeri tutdu, bütün dünyanı iqtisadi böhran bürüdüyü bir dövrdə həmin böhranı, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi. Azərbaycanın dünya dövlətləri arasında layiqli, möhkəm yerini tutmasında Ulu Öndərin müdrik xarici siyasəti mühüm rol oynadı.

Mən bir şərqşünas kimi, ilk növbədə görkəmli dövlət xadimi Heydər Əliyevin xarici siyasətindən danışmaq istərdim. Ulu Öndər dövlətin xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Ümummilli lider Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusən Türkiyə, İran və digər ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu. Azərbaycanla çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələri ilə bərabərhüquqlu münasibətlər qurulur, regionda yerləşən bütün dövlətlərlə mehriban qonşuluq əlaqələri saxlanılır, bu əlaqələr inkişaf etdirilərək möhkəmləndirilirdi və indiyədək də bu siya-

sət uğurla davam etdirilir. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına (indiki İslam Əməkdaşlıq Təşkilatı) daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan ümummilli lider Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından və Elmlər Akademiyasının üzvləri ilə, elmi ictimaiyyətlə tarixi görüşündən və bu görüş nəticəsində atdığı addımlardan sonra akademiya sistemində mövcud olmuş dərin böhran, tənəzzül, hətta iflas proseslərinin qarşısı alındı. Elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrlar hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirildi. Ümummilli lider Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verildi. Bu tarixi Fərman ölkədə fundamental elmin nailiyyətlərini, Azərbaycan xalqının sosial, iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu, dövlətin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqlədi. Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyev isə elmdə islahatlar, elmin inkişaf strategiyası istiqamətlərində müvafiq sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi üçün mühüm addımlar atdı. Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə artırılıb. Elmin inkişafına yönəldilən xərclər təxminən 7 dəfə artıb. Azərbaycanda elmin inkişafı üzrə Milli Strategiya təsdiq olunub, onun həyata keçirilməsi üçün Dövlət Proqramı qəbul edilib və s. Bütün bunlar göstərir ki, AMEA-ya, Azərbaycan elminə diqqət ilbəil artırılır. Elmimi-

zin dünyaya inteqrasiyası məsələsinə gəldikdə isə bu proses davamlı olaraq həyata keçirilir. Hazırda bu istiqamətdə böyük işlər gedir, mütəmadi beynəlxalq konfrans, simpozium, seminarlar təşkil edilir. Beynəlxalq jurnallarda məqalələr dərc olunur.

Hər bir şəxsin Vətən, xalq qarşısında xidməti onun gördüyü işlərlə, yaratdığı maddi sərvətlərlə, harada olursa-olsun vətəninin, xalqının mənafeyini hər şeydən üstün tutması ilə ölçülür. Dahi şəxsiyyət Heydər Əliyevin həyat yolunu nəzərdən keçirərkən bir daha əmin oluruq ki, onun çoxşaxəli yorulmaz və zəngin fəaliyyəti Azərbaycana, Azərbaycan xalqına fədakarcasına xidmətin bariz nümunəsidir. Bu keçmiş sovet dövründə də belə olub, Vətənimiz müstəqillik əldə edəndən sonra da. Ulu öndər Heydər Əliyevin bütün rəhbərliyi dövrü apardığı ümumi siyasət bu olmuşdur: Azərbaycanın ümummilli mənafelərini istənilən səviyyədə müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın və ölkənin təhlükəsizliyini təmin etmək. Hesab edirəm ki, Ulu Öndər tarix boyu xalqımızın yaşadığı ən möhtəşəm renessans dövrünün banisidir. Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu kimi daxil olub. Hesab edirəm ki, I Pyotr və Mustafa Kamal Atatürk öz xalqlarının tarixində hansı yeri tuturlarsa, ulu öndər Heydər Əliyev də Azərbaycan xalqının tarixində o yerə sahibdir.

Bu gün dahi rəhbər Heydər Əliyevin qurduğu Azərbaycan dövlətinin sükanı arxasında onun siyasi kursunun ən layiqli davamçısı – Prezident İlham Əliyev və onun ən yaxın silahdaşı Mehriban Əliyeva dururlar və Ulu Öndərin ideyalarını yaşadaraq, çiçəklənən Azərbaycanı daha uca zirvələrə aparmaqdadırlar. Bu yolda Ulu Öndərimiz daim bizimlədir, çünki onun ömrü Vətənə fədakarcasına xidmətin bariz nümunəsi, dövlətimizin tarixinin parlaq səhifəsi, xalqımızın həyatının ayrılmaz bir parçasıdır.

*Azərtac,16.07.2019*
*"Xalq" qəzeti, 18.07.2019*

## ZƏMANƏMİZİN DAHİ AZƏRBAYCANLISI

2019-cu il bir çox hadisələrlə yanaşı, zəmanəmizin nəhəng şəxsiyyəti, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi ilə də yadda qalacaq. Bu gün ulu öndər aramızda olmasa da, onun ideyaları Azərbaycanı xoşbəxt gələcəyə doğru aparır. Onun zəngin həyat yolunu, çoxşaxəli titanik fəaliyyətini, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işləri, bütövlükdə, xalqımızın və dövlətimizin inkişafında həyata keçirdiyi fövqəladə missiyanı bir daha təhlil etmək zərurəti yaranır. İctimai elm çoxdan mütləq həqiqəti ortaya qoymuşdur: böyük dövlət xadimlərinin fəaliyyəti müqayisəli-tarixi aspektdə qiymətləndirilməli, onların ölkəsinin və xalqının taleyində oynadığı rolu yalnız zaman özü dəyərləndirməlidir. Məşhur bir deyimə görə, dağın əzəmətini duymaq və müşahidə etmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir. Ölkəmizdə son 50 ildə baş verən proseslərə və həmin proseslərin mərkəzində dayanan ulu öndər Heydər Əliyevin fövqəladə missiyasına nəzər saldıqda, o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik.

İlk dəfə Azərbaycanda siyasi hakimiyyətə 1969-cu il iyulun 14-də gələn Heydər Əliyev qısa zamanda ölkəmizin sosial-iqtisadi və mədəni yüksəlişinin əsasını qoydu. Bu illərdə respublikamızın sosial-iqtisadi tərəqqisi yolunda əsl dönüş yarandı: 250-dən çox zavod, fabrik istifadəyə verildi, 630 min nəfərlik yeni iş yeri yaradıldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün beş xüsusi qərar qəbul etdi. 1971-1985-ci illərdə iqtisadiyyata sərmayə qoyuluşunun həcmi 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə olunan vəsaitdən 2,1 dəfə çox idi.

1985-ci ildə Cənubi Qafqazda ən iri poladəritmə zavodu istifadəyə verildi, Dərin Dəniz Özülləri zavodu tikildi. Sənaye-

də struktur dəyişiklikləri aparıldı. Bakı məişət kondisionerləri zavodu qısa müddətdə tikilib istifadəyə verildi (1975). “Ulduz”, “Azon” cihazqayırma zavodları, Sumqayıt kompressorlar zavodu, Bakı elektrik qaynaq avadanlığı zavodu işə düşdü. Onlarca istehlak malları istehsal edən, o cümlədən Abşeron, Siyəzən broyler fabrikləri, Bakı şampan şərabları zavodu, Sumqayıt şüşə zavodu, Ələt ağac emalı kombinatı və s. müəssisələr istifadəyə verildi. Araz, Tərtər, Şəmkir su-elektrik stansiyaları, “Azərbaycan” DRES-i işə salındı. Azərbaycanın enerji müstəqilliyi təmin olundu.

Böyük meliorasiya proqramı həyata keçirildi. Baş Mil, Abşeron, Lənkəran, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Şəmkir və başqa dəryaçalar istifadəyə verildi. Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan iri pambıqçılıq rayonlarına çevrildi. Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında tərəvəzçilik daha da inkişaf etdirildi. Üzüm plantasiyaları 1970-ci ildəki 121,6 min hektardan 1985-ci ildə 268 min hektara çataraq 2,2 dəfə artdı. İri heyvandarlıq kompleksləri tikildi.

Kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981-1985-ci illərdə 1966-1970-ci illərin səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı. Geniş iqtisadi quruculuq sayəsində əmək məhsuldarlığı sənayedə 2,1, kənd təsərrüfatında 1,8 dəfə, xalq təsərrüfatında gəlir 335 faiz və ya Ümumittifaq göstəricisindən 2 dəfə çox artdı. Həmin illərdə yaradılmış iqtisadi, elmi-texniki və mədəni potensial gələcəkdə respublikanın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı.

XX əsrin 70-80-ci illərində SSRİ-də öz iqtisadiyyatını müstəqil idarə etməyə qadir olan 2 respublikadan biri Azərbaycan idi. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Bakı, Sumqayıt, Gəncə və digər şəhərlər böyüyür, ətrafında yeni yaşayış massivləri salınırdı. Azərbaycanda 20 milyon kvadratmetr mənzil sahəsi istifadəyə verildi, yüzlərlə müasir bina tikildi, yollar, körpülər, kənd və qəsəbələr salındı. Azərbaycan az vaxt ərzində inkişafın başlıca keyfiyyət ölçülərinə görə müttəfiq respublikalar içərisində önə çıxdı. Sürətli sosial-iqtisadi

inkişaf nəticəsində ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların həcminə görə İttifaq miqyasında Azərbaycanın rolu xeyli artdı.

Heydər Əliyevin rəhbərliyi dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı qətiyyətlə alındı. Qısa müddətdə Azərbaycan SSR-in sürətli sosial-iqtisadi və mədəni inkişafı keçmiş SSRİ rəhbərliyində Heydər Əliyevə böyük nüfuz qazandırdı. Ulu öndər 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında Siyasi Büroya üzv seçildi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildi və bu imkanlardan da Azərbaycanın inkişafı naminə istifadə etdi.

Bütövlükdə, 1969-1987-ci illər Azərbaycanın quruculuq salnaməsinə parlaq səhifələr kimi daxil olub. Bu dövrdə müasir müstəqil Azərbaycan Respublikasının təməli qoyulub.

Sovet İttifaqının dağılması ərəfəsində SSRİ rəhbərliyi mühüm geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə fərqlənən Azərbaycana qarşı məkrli siyasət həyata keçirməyə başladı. İlk növbədə, bu proseslərin qarşısını ala biləcək, məhz öncəki illərdə Azərbaycan xalqına qarşı hər hansı təxribatın qarşısını cəsarətlə almış bir insan – ulu öndər Heydər Əliyev sovet rəhbərliyindən düşünülmüş şəkildə uzaqlaşdırıldı. Məhz bundan sonra Azərbaycana qarşı istənilən təxribatı həyata keçirmək mümkün oldu. SSRİ-nin dağılması nəticəsində iqtisadi böhran, ərazilərin itirilməsi, qaçqın, köçkün ordusunun yaranması Azərbaycanın inkişafına, iqtisadi-siyasi durumuna mənfi təsir göstərdi. Ölkəyə səriştəsiz insanların rəhbərlik etməsi həm iqtisadi, həm də siyasi böhran şəraitində müstəqilliyimizin, dövlətimizin mövcudluğunu belə sual altında qoymuşdu.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra siyasi, iqtisadi, sosial, mədəni sferalarda böyük inqilabi dəyişikliklər baş verdi. Azərbaycan xalqı, ilk növbədə, özünə lider qazandı – uzun illər respublikamızı idarə etmiş, əməyi sayəsində özünü təsdiqləmiş, daim xalqın uğuruna çalışmış,

respublikamızı çox çətin bir dövrdə ağır bəlalardan qurtaran, millətin gələcəyinin, dövlətçiliyin təməlini quran, siyasi sabitliyi, əmin-amanlığı təmin edən, gələcək iqtisadi inkişafın əsasını qoyan bir lider. Ulu öndərin hələ sovet dövründə bu amallar uğrunda böyük xidmətləri olmuşdu. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, C.Naxçıvanski adına hərbi liseyin, ölkədə müstəqil sosial-iqtisadi infrastrukturun yaradılması və inkişafı, istehsal müəssisələrinin artırılması gələcək müstəqilliyin təməlini qoyurdu. Ulu öndər özü də deyirdi ki, dili, ordusu olan bir ölkə, iqtisadiyyatı güclü olan dövlət müstəqil sayılır.

Biz tariximizin bütün anlarını yadda saxlamalıyıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğramış, ata-babalarımızın müstəqillik arzuları yadelli işğalçılar tərəfindən qan içində boğulmuşdur. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də rolu olub. Daxili çəkişmələr və münaqişələr, regional və sinfi maraqların milli mənafelərdən üstün tutulması, ən başlıcası xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu XVIII əsrdə – bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda Azərbaycanın xanlıqlara parçalanması faktı da təsdiq edir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə dövlət idarəçiliyində təcrübəsi

və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı ciddi səhvlər xalqımızı çətinlikər qarşısında qoydu. Siyasi didişmələr və qeyri-qanuni silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə çatdırdı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi ümummilli lider, böyük siyasi iradəyə və zəngin idarəçilik təcrübəsinə malik şəxsiyyət Heydər Əliyev var idi.

Xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidi ilə Bakıya gəlib Ali Sovetin Sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində Heydər Əliyevin daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir. Biz o günlərin canlı şahidləri olsaq da, həmin dövrdə baş vermiş prosesləri yenidən mənalandırmaq, onların mahiyyətinə daha dərindən varmaq ehtiyacı duyuruq.

Heydər Əliyevin Ali Sovetin Sədri seçilərkən etdiyi çıxışın mətni xüsusi diqqət çəkir. Ötən illərin arxasından həmin proqram xarakterli çıxışa nəzər saldıqda görürük ki, ulu öndərin bütün sonrakı fəaliyyəti o tarixi çıxışdakı müddəaların addım-addım gerçəkləşdirilməsindən ibarətdir. Millət və dövlət qarşısında götürülmüş öhdəliklərə sədaqətin bundan böyük nümunəsini təsəvvür etmək çətindir. Ulu öndər müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq, onu, öz təbirincə desək, dönməz və əbədi etmişdir. Həmin çıxışda müəyyən edilən digər iki istiqamət – demokratik islahatların həyata keçirilməsi və ərazi bütövlüyünün təmin olunması istiqamətində də ardıcıl işlər görülmüşdür.

Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxardı. Məhz ölkə başçısı İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan iqtisadi inkişaf tempinə görə ən yüksək yerlərdən birini tutdu. Dünyanı iqtisadi böhran bürüdüyü bir dövrdə respublikamız həmin böhranı, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi.

Mən bir şərqşünas alim kimi, ilk növbədə, görkəmli dövlət xadimi Heydər Əliyevin xarici siyasətindən danışmaq istərdim. Ulu öndər dövlətin xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Ümummilli lider Heydər Əliyevin xarici siyasətində, Şərqə, qonşu ölkələrlə, xüsusən Türkiyə, İran və digərləri ilə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu. Azərbaycanla çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələri ilə bərabərhüquqlu münasibətlər qurulur, regionda yerləşən bütün dövlətlərlə mehriban qonşuluq əlaqələri saxlanılır, bu əlaqələr inkişaf etdirilərək möhkəmləndirilirdi və indiyədək də uğurla davam etdirilir. Burada, əsasən, dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan, bizə coğrafi və siyasi cəhətdən yaxın ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və digərləri aiddir. Bu və İslam Konfransı Təşkilatına (indiki İslam Əməkdaşlıq Təşkilatı) daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan ümummilli lider Heydər Əliyevin apardığı siyasət nəticəsində böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Heydər Əliyevin hakimiyyətə qayıdışından və Elmlər Akademiyasının üzvləri ilə, elmi ictimaiyyətlə tarixi görüşündən, bunun nəticəsində atdığı addımlardan sonra akademiya sistemin-

də mövcud olan dərin böhran, tənəzzül, hətta iflas proseslərinin qarşısı alındı. Elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrlar hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirildi. Ümummilli liderin 2001-ci il 15 may tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verildi. Bu tarixi fərman ölkədə fundamental elmin nailiyyətlərini, Azərbaycan xalqının sosial, iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu, dövlətin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqlədi. Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu sahədə islahatları, elmin inkişaf strategiyası istiqamətlərində müvafiq sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi üçün mühüm addımlar atdı.

Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə, elmin inkişafına yönəldilən xərclər, təxminən, 7 dəfə artırılıb. Azərbaycanda elmin inkişafı üzrə Milli Strategiya təsdiq olunub, onun həyata keçirilməsi üçün dövlət proqramı qəbul edilib və s. Bütün bunlar göstərir ki, AMEA-ya , Azərbaycan elminə diqqət ilbəil artırılır. Elmimizin dünyaya inteqrasiyası məsələsinə gəldikdə isə bu proses davamlı olaraq həyata keçirilir. Hazırda bu istiqamətdə böyük işlər gedir, mütəmadi beynəlxalq konfrans, simpozium, seminarlar təşkil edilir.

İstənilən şəxsin Vətən, xalq qarşısında xidməti onun gördüyü işlərlə, yaratdığı maddi sərvətlərlə, harada olursa-olsun, Vətəninin, xalqının mənafeyini hər şeydən uca tutması ilə ölçülür. Dahi şəxsiyyət Heydər Əliyevin həyat yolunu nəzərdən keçirərkən, bir daha əmin oluruq ki, onun çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycana, xalqa fədakarcasına xidmətin bariz nümunəsidir. Bu keçmiş sovet dövründə də belə olub, Vətənimiz müstəqillik əldə edəndən sonra da. Ulu öndər Heydər Əliyevin bütün rəhbərliyi dövrü apardığı ümumi siyasət bu olmuşdur: Azərbaycanın ümummilli mənafelərini istənilən səviyyədə müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın və ölkənin təhlükəsizli-

yini təmin etmək. Hesab edirəm ki, ulu öndər tarix boyu xalqımızın yaşadığı ən möhtəşəm renessans dövrünün banisidir. Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu kimi daxil olub.

Bu gün dahi rəhbər Heydər Əliyevin memarı olduğu Azərbaycan dövlətinin sükanı arxasında onun siyasi kursunun ən layiqli davamçısı – Prezident İlham Əliyev və dövlət başçısının ən yaxın silahdaşı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva durur. Onlar ulu öndərin ideyalarını yaşadaraq, çiçəklənən Azərbaycanı daha uca zirvələrə aparırlar. Ulu öndərimiz bu yolda daim bizimlədir, onun siyasi kursu uğurla davam etdirilir. Çünki Heydər Əliyevin ömrü Vətənə fədakarcasına xidmətin bariz nümunəsi, dövlətimizin tarixinin parlaq səhifəsi, xalqımızın həyatının ayrılmaz bir parçasıdır.

*“Xalq” qəzeti, 7.12.2019*

## AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ SİYASƏTİ

Sovetlər Birliyi süquta uğradıqdan sonra Azərbaycan öz müstəqilliyini bərpa etdi, bununla da çoxəsrlik tarixinin yeni mərhələsinə qədəm qoydu. Qarşıda bir çox mürəkkəb vəzifələr dayanmışdı.

Çox mürəkkəb vəziyyətdə bütöv xalqın arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyəti başladı.

Müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi, strateji ana xəttinin konturlarını cızdı. O, ilk növbədə ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütdü. Ölkəmizin yaxın və uzaq tarixi keçmişi, üzləşdiyi geosiyasi reallıq dərindən təhlil edilərək ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılan xarici siyasət strategiyası ilk növbədə respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını, eyni zamanda, Avro-Atlantik inteqrasiya xəttinin tutulmasını, uğurlu enerji və nəqliyyat infrastrukturları diplomatiyası vasitəsilə uzunmüddətli perspektivdə davamlı inkişafın əldə edilməsini, xarici siyasətimizin manevr imkanlarının və strateji dərinliyinin artırılmasını, ən əsası Ermənistanın Azərbaycana qarşı təcavüzünün məhəlli səviyyədən çıxarılaraq beynəlmiləlləşdirilməsini, işğalın nəticələrini aradan qaldırmaq üçün Ermənistana qarşı beynəlxalq siyasi təzyiqin gücləndirilməsini və son hədəf olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin olunmasını özündə ehtiva etmişdir. Hələ Milli Məclisin

sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifə və prioritetlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır...

Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır...

Mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir. Xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar, həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşına hərəkət etmədi, onun bir neçə ittifaqları var».

H.Əliyev əvvəlki iqtidarın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz hesab etdi. «Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə tə-

min etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında gedəcəkdir». Göstərilən prinsiplər dövlətimizin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Onlardan:

– mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üstüstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək,

– regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək,

– dövlətimizin bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək, - və sairə kimi tezislərə nəzər saldıqda görürük ki, aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Getdikcə Azərbaycanın xarici siyasəti sahəsində əsaslı dönüş yarandı. Axtarışlar dövrü başa çatdı və yeni mərhələ başlandı. Beləliklə, xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı.

Ümumiyyətlə, Heydər Əliyevin Şərq ölkələri eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə – mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır.

Heydər Əliyevin 1982-1987-ci illərdə Misirə, Pakistana, İordaniyaya, Suriyaya, İraqa, Yəmənə və başqa ölkələrə səfərləri və islam dünyasının kral Hüseyn, Hafiz Əsəd, Yasir Ərafat və başqa liderləri ilə görüşləri onu dünyada aparıcı siyasətçilərdən biri kimi tanıtdı. O, köhnə əlaqələrini bərpa edərək respublikamızın dünyada öz mövqeyini möhkəmlətməsi üçün yeni münasibətlər yaratdı.

Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycanın bu ölkə ilə siyasəti ilə müəyyənləşir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər Ermənistanla əlaqələr yaratmayacağını bəyan edib.

1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı. Bir çox görüşlər keçirildi. Sonralar ölkə Prezidenti dəfələrlə Türkiyədə rəsmi səfərlərdə olmuş və bu zaman qəbul olunmuş çoxsaylı sənədlər daim Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə xidmət etmişdir.

1992-1993-cü illərdə əvvəlki iqtidarın qonşu İranla münasibətlərdə yol verdiyi səhvlər nəticəsində yaranan problemləri yada salsaq, Azərbaycan-İran münasibətlərinin xüsusi əhəmiyyət kəsb etməsi aydınlaşar. İran İslam Respublikası rəsmi olaraq 12

mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıdı. Azərbaycan-İran münasibətləri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yüksələn xətlə inkişaf etməyə başlamışdır. Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirdi.

Ölkələrimiz arasındakı əlaqələr günü-gündən genişlənməkdə, inkişaf etməkdədir. Elə regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir. İran ilə münasibətlərin formalaşdırılmasında Azərbaycan Respublikasının İran İslam Respublikasının şimal əraziləri ilə iqtisadi- coğrafi oxşarlığı, respublikamızda yaşayan azərbaycanlıların İranda yaşayan azərbaycanlılarla etnik, dini, tarixi, mədəni eyniliyi kimi amillər nəzərə alınmağa başlandı. Müxtəlif xarakterli əlaqələr daha da genişləndi. Sərhədlər açıldı, gediş-gəliş, ticari əlaqələr çoxaldı, müxtəlif müqavilələr bağlandı.

Heydər Əliyevin düzgün siyasəti nəticəsində ölkəmiz Xəzər dənizinin statusu ilə əlaqədar müstəqil siyasət apararaq öz sektoruna aid neft yataqlarını işlətdi, eyni zamanda Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edərək İranda yaşayan soydaşlarımızın ictimai şüurunun formalaşmasına təsirinin güclənməsinə nail oldu.

Prezident Heydər Əliyev İranla əlaqələrimizin hərtərəfli, qarşılıqlı faydalı inkişaf etdirilməsini ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirərək, qonşu dövləti rəsmi səfərlə ziyarət etdi, həyatımızın bir çox sahələrinə aid müqavilələrin bağlanmasına nail oldu.

Yaxın və Orta Şərq regionundakı ictimai-siyasi münasibətləri müəyyənləşdirən əsas amil - 70 ildən çox davam edən İsrail - ərəb qarşıdurmasıdır. Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının maraqlarına cavab verən bir siyasətin aparılmasını tələb edirdi. Bu konstruktiv, çoxvektorlu siyasət olmalı idi. İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının fəaliyyət göstərdiyi, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə

əməkdaşlıq, eyni zamanda güclü potensiala malik ərəb dünyası və islam aləmi ilə ənənəvi iqtisadi və mədəni əlaqələrimiz nəzərə alınmalı idi.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət bütün bunları nəzərə aldı. Tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İƏT çərçivəsində uğurla fəaliyyət göstərir, həm də İsraillə konstruktiv əməkdaşlıq edir. 1993-cü ilin ikinci yarısından başlayaraq İslam Əməkdaşlıq Təşkilatı ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı.

23 noyabr 1993-cü ildə İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Bundan sonra İƏT-in bütün mötəbər yığıncaqlarında Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamələr və yekun bəyannamələrə maddələr qəbul edildi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin qaçqınlara təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

Bundan sonra ölkəmiz ilə İƏT arasında əlaqələr daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İƏT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azər-

baycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir.

Prezident Heydər Əliyevin İƏT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İƏT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq üçün də mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İƏT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

Hələ 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İƏT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İƏT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Prezident Heydər Əliyev 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfər etdi. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Əbdüləziz Əs-Saudla səmərəli danışıqları və İƏT rəhbərliyi ilə çoxsaylı görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İƏT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informativ və siyasi işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının araşdırılması ölkəmiz üçün çox vacib idi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İƏT-ə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının VII Zirvə toplantısında iştirak etdi. Toplantı Mərakeşin Kasablanka şəhərində keçirildi.

Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Əməkdaşlıq Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Əməkdaşlıq Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bir çox mesajlar ünvanlandı.

Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi. Bu nitqdə Azərbaycan Prezidenti göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuzunun artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə yeni imkanlar yaradacaqdır. Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Əməkdaşlıq Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Əməkdaşlıq Təşkilatının sıralarının 45-dən 52-

yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı.

Azərbaycan Prezidenti Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda qaldırılmasını təqdir etdi, həm də onların həlli ilə bağlı nikbinliyin artmasını vurğuladı. Prezidentimiz bu problemlərin həllini dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Əməkdaşlıq Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına inandığını bildirdi.

Heydər Əliyev iştirakçıların diqqətinə onu da çatdırdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Səfər zamanı Azərbaycan Prezidenti Azərbaycanla İƏT-ə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökumət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdir.

İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İƏT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili çıxarılması, Azər-

baycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyuldu.

Dövlətimizin başçısı İƏT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İƏT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş əks-səda doğurmuşdur. İƏT-nin sabiq Baş katibi İzəddin İraqı dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra demişdir: «Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik… Mən cənab Prezidenti əmin etdim ki, İƏT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki,

Azərbaycanın İƏT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İƏT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İƏT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İƏT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malaziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İƏT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İƏT-ə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İƏT-ə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırkı sədrinə məlumat verməsini İƏT Baş katibindən tələb edir» və s.

İƏT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul

etdiyi qətnamələr Azərbaycan-İƏT münasibətlərinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İƏT-ə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağılması haqqında» qətnamə qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir. Konfrans İƏT Baş katibinin bu barədə müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və hökmən yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İƏT-ə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İƏT Baş katibindən xahiş etmişdir.

Qeyd etmək lazımdır ki, İƏT qətnamələri Azərbaycan üçün təkcə siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və başqa yardımın böyük bir hissəsi İƏT konfranslarının qəbul etdiyi mühüm sənədlər əsasında həyata keçirilirdi. İslam İnkişaf Bankı 1994-cü ildən etibarən mütəmadi olaraq qaçqınlarımıza humanitar yardım göstərir, onlar üçün iş yerləri yaradılması məqsədi ilə dəz-

gah və avadanlığın alınmasına 1 milyon ABŞ dolları vəsait ayırmışdır. Respublikamızın sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq 1,424 milyon ABŞ dolları vəsait ayırmışdır. Bankın respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıq idi. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

Ümummilli liderimiz Heydər Əliyev İƏT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İƏT Tarix və Mədəniyyət Mərkəzini (İRSİCA) də ziyarət etmişdir. O, öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islam tarixinin, mədəniyyətininöyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Prezident qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır.

Dövlətimizin başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. XX əsrdə Azərbaycan ədə-

biyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiqdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin «Leyli və Məcnun» poemaları əsasında 1908-ci ildə «Leyli və Məcnun» operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə «Leyli və Məcnun» simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir. Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İRCİCA ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir.

Məhz ümummilli liderimizin bu tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRCİCA arasında sıx əlaqə yaranmış və bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlıq davam edir, müştərək mövzular işlənilir, qarşılıqlı ezamiyyətlər həyata keçirilir, birgə elmi tədbirlər təşkil edilir. Bu əməkdaşlığın bir nümunəsi kimi 10-13 iyul 2019-cu ildə "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumun keçirilməsini göstərmək olar. Simpozium İRCİCA ilə birgə AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Azərbaycan İlahiyyat İnstitutu təşkil etmişlər.

1997-ci il oktyabr 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində İƏT xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş əlaqələndirmə toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı, Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü də öz əksini tapmışdır.

Toplantı Ermənistanın Azərbaycan Respublikasına təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməz-

liyini bir daha təsdiq etmişdir. Münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

Bu Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş düzgün xarici siyasətimizin nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini, o cümlədən, İƏT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, keçirdiyi görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha qənaətə gəlirik ki, Böyük Öndərimizin apardığı xarici siyasəti də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

O vaxtdan artıq on ildən çox keçib. Amma ötən illər mütləq bir həqiqəti ortaya qoyub. Əsası ümumilli liderimiz tərəfindən qurulan müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti, daim yüksələn xətlə inkişaf edir, xalqımızın haqq səsinin ucaldılmasında və mənafelərinin qorunmasında daha da böyük rol oynayır.

Bu gün müstəqil Azərbaycan əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir. Prezident İlham Əliyev diplomatik xidmət orqanları rəhbərləri ilə müşavirədə inkişafımızın hazırkı mərhələsinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə yeni tapşırıq və vəzifələr müəyyən etmişdir:

– Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması;

– Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində fəaliyyətin daha aktiv şəkildə davam etdirilməsi;

– Ermənistanın siyasi, iqtisadi, enerji və nəqliyyat layihələrindən təcridinin davam etdirilməsi;

– Azərbaycan haqqında həqiqətlərin dünya miqyasında yayılmasının daha da gücləndirilməsi, erməni yalanlarının ifşa edilməsi və Azərbaycana qarşı olan məqsədyönlü bəzi əks təbliğat əməllərinin qarşısının alınması;

– İkitərəfli əsasda dünya ölkələri ilə əlaqələrin inkişafına xüsusi önəm verilməsi və ikitərəfli siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin daha da inkişaf etdirilməsi;

– Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda ədalət və beynəlxalq hüququn prinsiplərinə uyğun səmərəli fəaliyyətinin davam etdirilməsi ikitərəfli və çoxtərəfli çərçivələrdə çevik diplomatik fəaliyyətimizin davam etdirilməsi;

– Xarici iqtisadi əlaqələrin genişləndirilməsinin dəstəklənməsi və Azərbaycan məhsullarının ixracı üçün yeni bazarların müəyyən edilməsi;

– Azərbaycan xalqının əsrlərdən bəri formalaşmış zəngin irsi əsasında dünya miqyasında multikulturalizm və tolerantlıq meyillərinin inkişafına töhfə verilməsi;

– Mədəni diplomatiya siyasətinin davam etdirilməsi və dünya miqyasında Azərbaycan xalqının sahib olduğu zəngin mədəni irsin tanıdılması;

– Dünya azərbaycanlıları və diaspor təşkilatları ilə əlaqələrin daha da gücləndirilməsi və onların fəaliyyətinin dəstəklənməsi.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması xarici siyasətimiz qarşısında duran vəzifə və tapşırıqlar sırasında prioritet yer tutmaqla yanaşı, bu sahədə daim konstruktiv və praqmatik yanaşma nümayiş etdirilir. Ümumiyyətlə, qeyd olunmalıdır ki, Ermənistanın hərbi təcavüzü şəraitində təşəkkül tapan Azərbaycanın ümumi inkişaf və xarici siyasət strategiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarmışdır. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının qarşısı alınmağa və yalanları ifşa olunmağa başlanmışdır. Erməni lobbisinin sıx cəmləşdiyi ölkələrdə belə Azərbaycan haqqında həqiqətlər bu ölkələrin geniş ictimai dairələrinə çatdırılmışdır. Bu is-

tiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir.

Azərbaycan Respublikasının xarici Şərq siyasətində birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır. Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir.

Prezident İlham Əliyevin 2003-cü ildə Türkiyədə «Avro-Atlantik İttifaqı Yol Ayrıcında» mövzusunda beynəlxalq konfransda, 2004-cü ildə NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə, İstanbulda Avro- Atlantik Tərəfdaşlıq Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə, 2006-cı ildə Antalyada Türkdilli Dövlətlərin və Toplumların X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayında, 2008-ci ildə Qarsda Bakı-Tbilisi-

Qars dəmir yolunun Türkiyə hissəsinin təməlqoyma mərasimində, Antalyada Türkdilli ölkələrin Dövlət Başçılarının VIII Zirvə görüşündə, sonrakı illərdə Türkiyəyə işgüzar səfərlərində IV Enerji sammitində, İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammitində, Asiyada Qarşılıqlı Fəaliyyət və Tədbirlər üzrə müşavirənin III Zirvə toplantısında, Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə görüşündə və digər mühüm beynəlxalq forumlarda iştirakı, habelə 2007-ci ilin martında Bakıda keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın, həmin ilin noyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün və baş nazir R.T.Ərdoğanın Bakıda keçirilən «XV Beynəlxalq Xəzər neft və qaz, neftayırma, neft kimyası» sərgi və konfransında, Naxçıvanda «Duzdağ» fizioterapiya mərkəzinin açılışında iştirakları, 2008-ci ilin sentyabrında və 2010-cu ilin avqustunda Abdullah Gülün Azərbaycana səfəri və digər iş-

güzar səfər və görüşlərin qısa xronikası Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin mühüm tərkib hissəsi olduğunu bir daha nümayiş etdirir.

2010-cu ildə «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında» Birgə Bəyannamə qəbul olunmuş və «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında» Müqavilə imzalanmışdır.

2003-cü il Türkiyəyə səfəri zamanı Bilkənd Universitetinin fəxri doktoru seçilmiş İlham Əliyev eyni zamanda İhsan Doğramacı adına Dünya Sülh mükafatına, 2005-ci il 5 mart tarixində İpək Yolu Vəqfinin «2004-cü ilin siyasətçisi», 2006-cı il 12 iyulda Türkiyə Respublikasına işgüzar səfəri zamanı nüfuzlu «Ekovitrin» jurnalının «Avrasiyada ilin siyasət adamı» mükafatına və digər mükafatlara layiq görülmüşdür. Prezident İlham Əliyevin Türkiyənin ayrı-ayrı televiziya, mətbuat işçiləri ilə şəxsən özünün görüşləri mühüm əhəmiyyət daşıyır. Müxtəlif vaxtlarda TRT televiziyasının sədrini, «Sərhədlərarası» proqramının aparıcısını qəbul edən, NTV, Samanyolu, SOY-TV kanallarına, daha sonra «İHLAS» xəbərlər agentliyinə, «TÜRKİYƏ» qəzetinə, «EKOVİTRİN» jurnalının müxbirlərinə, «CÜMHURİYYƏT», «HÜRRİYYƏT» qəzetlərinə müsahibələr verməsi ölkə başçımızın Türkiyə ilə əməkdaşlığa verdiyi önəmə daha bir bariz sübutdur.

Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin yaradılması birgə mədəni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır.

Türkdilli ölkələrin Dövlət Başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublikamızın Prezidenti qazax, qırğız və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir. 2008-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun Bakıya səfəri çərçivəsində özbək mütəfəkkir-şairi Əlişir Nəvainin Bakıda heykəlinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün, böyük şairimiz Nizami Gəncəvinin heykəlinin Daşkənd şəhərində ucaldılması, görkəmli qazax ziyalısı Oljas Suleymenovu qəbul edərək 75-illik yubileyi münasibəti ilə «Dostluq» ordeni ilə təltif etməsi və digər hadisələr mədəni əlaqələrdə böyük önəm daşıyır.

2010-cu ilin sentyabr ayında Özbəkistana rəsmi səfər edən dövlətimizin başçısı bir sıra çox mühüm sənədlərə - «Azərbaycan Respublikası Prezidentinin və Özbəkistan Respublikası Prezidentinin birgə bəyannaməsi», «Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2011-2015-ci illər üzrə iqtisadi əməkdaşlıq haqqında» saziş və s. - imza atmışdır. 2010-cu ilin dekabr ayında Prezident İlham Əliyev ATƏT-in VII sammitində iştirak etmək üçün Qazaxıstana işgüzar səfər etmişdir. Səfər zamanı Qazaxıstan Prezidenti və bir sıra digər rəsmi şəxslərlə ikitərəfli görüşlər keçirilmişdir.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə «Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategi-

yası», Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqlarının inteqrasiyası istiqamətində baş tutan digər önəmli hadisə - Türkdilli Dövlətlərinin Parlament Assambleyasının (Türk PA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət, Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan-İran münasibətlərində müxtəlif dövrlərdə narazılıqlar baş versə də, hər iki tərəf qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədə saxlamışdır. Narazılıqların əsasında İranın Ermənistana hərtərəfli dəstək verməsi, Xəzər dənizinin bölgüsü məsələsində İran rəhbərliyinin beynəlxalq hüquqa zidd mövqe tutması, İİR-da fəaliyyət göstərən bəzi qurumların ölkəmizin daxili işlərinə kobud müdaxiləsi faktları dayanır. Lakin bunlara baxmayaraq əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi hər iki xalqın maraqlarına cavab verir.

2004-cü ilin avqustunda İran prezidenti Məhəmməd Hatəmi Azərbaycana səfərə gəlib. O, bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar İranın Azərbaycanı müdafiə etdiyini bildirən bəyanat verib. Hatəminin səfəri zamanı müxtəlif sahələrdə əməkdaşlıq müqavilələrinin bağlanması ilə yanaşı, Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğunun açılması məsələsi də həll edilib. Bu Azərbaycan-İran münasibətlərində həlli çətin olan problemlərdən idi və yalnız Prezident İlham Əliyevin böyük səyi nəticəsində öz həllini tapdı.

2005-ci ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrana rəsmi səfər etdi. Səfər zamanı tərəflər arasında sərhəd, maliyyə, mədəniyyət, hidroenergetika və s. sahələrdə əməkdaşlıq haqqında müqavilələr imzalanıb.

2005-ci il 8-9 yanvar tarixlərində Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyasının növbəti 6-cı iclası keçirilmişdir. İclasın nəticəsi olaraq iqtisadi, ticarət və humanitar sahələr üzrə əməkdaşlığa dair Memorandum imzalanmışdır.

2005-ci ilin dekabrında İran prezidenti Mahmud Əhmədinejad İrandan Naxçıvana çəkilmiş qaz kəmərinin açılışında iştirak etmək üçün Muxtar Respublikaya gəlib. Burada Əhmədinejad və prezident İlham Əliyev tərəfindən enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. 2006-cı ilin iyununda İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən IX Zirvə toplantısında Azərbaycan və İran prezidentləri ikitərəfli görüş keçirərək, bir sıra ikitərəfli və regional məsələlərə dair fikir mübadiləsi aparmışlar. Bu görüşlərdə prezidentlər iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bəyan etdilər.

Prezident İlham Əliyev 2005-ci ilin sonu və 2006-cı il ərzində beynəlxalq miqyasda kəskinləşən nüvə enerjisi məsələsi ilə bağlı müsahibələrində İrana qarşı sanksiya tətbiq edilməsinin əleyhinə olduğunu bildirdi. O, Azərbaycan ərazisindən heç bir dövlətə qarşı istifadəyə yol verilməyəcəyini, nüvə məsələsinin danışıqlar və qarşılıqlı razılıq əsasında həllinə tərəfdar olduğunu söylədi.

2007-ci il avqustun 21-də İran Prezidenti Mahmud Əhmədinejad növbəti dəfə Azərbaycanda səfərdə olub. Prezident İlham Əliyevlə söhbətində dövlət başçıları bu səfərin əhəmiyyətli olduğunu vurğulayıblar. Səfər nəticəsində bir sıra sənədlər imzalanıb. 2007-ci il oktyabrın 16-da isə Prezident İlham Əliyev Xəzəryanı dövlət başçılarının II Zirvə toplantısında iştirak etmək üçün İrana səfər edib. Prezidentlərin görüşü zamanı siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin hər iki tərəfin mənafeyinə uyğun şəkildə uğurla inkişaf etdiyi bildirildi.

10 mart 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrana rəsmi səfər edib. Prezidentlərin təkbətək görüşü zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri və bir sıra beynəlxalq və regional məsələlər müzakirə edilib. Səfər zamanı Prezident İlham Əliyev İranın

ali dini rəhbəri Seyid Əli Xameneyi ilə görüşüb. Görüşdə iki ölkə arasında qonşuluq və əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə də uğurla inkişaf etdiyi bildirilib, Azərbaycan-İran münasibətlərinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilib. Səfər zamanı bir sıra sənədlər, o cümlədən «Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair» Protokol imzalanıb. Daha sonra Prezident İlham Əliyev Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının X Zirvə görüşündə iştirak edib. Zirvə görüşünün yekunlarına dair Tehran Bəyannaməsi qəbul olunub.

2010-cu ilin sentyabrında İran İslam Respublikasında keçirilən Azərbaycan mədəniyyət günləri iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verib. Azərbaycan mədəniyyət günləri bu ilin ən yaddaqalan mədəniyyət hadisələrindən biri kimi tarixə düşdü. Ölkəmiz müstəqillik qazandıqdan sonra ilk dəfə idi ki, İranda Azərbaycan mədəniyyət günləri keçirilirdi. Tədbirin yüksək səviyyədə təşkil olunması iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin, Azərbaycan və İran rəhbərliyinin qarşılıqlı tərəfdaşlığa və mehriban qonşuluğa verdikləri önəmin bariz təzahürüdür. Bu əlamətdar hadisə, eyni zamanda, iki ölkə arasında qədim mədəniyyət körpüsünün daha da möhkəmlənməsi, iki ölkənin mədəni mübadiləsinin yeni müstəviyə qədəm qoyması deməkdir. 2015-ci il aprel ayının 9-da Azərbaycan Respublikası Prezidentinin İİR-na rəsmi səfəri iki ölkə arasında əlaqələrinin inkişafına böyük töhfə vermişdir. Görüş zamanı ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, sərmayə qoyuluşu, enerji, nəqliyyat, infrastruktur, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi. Bu imkanların reallaşdırılması, əməkdaşlığın daha da dərinləşməsinə mane ola biləcək əngəllərin aradan qaldırılması istiqamətində səylərin gücləndirilməsinin zəruriliyi vurğulandı. Prezident İlham Əliyevin və Prezident Həsən Ruhaninin təkbətək görüşü oldu. Daha sonra “Azərbaycan

Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə İran İslam Respublikasının Daxili işlər Nazirliyi arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu, "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərin İnkişafı Nazirliyi arasında meteorologiya və əlaqədar məsələlərə dair Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında "Ordubad" və "Marazad" Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında Saziş" imzalandılar.

İƏT ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. 2005-ci ildə İƏT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan Prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 19-21 iyun 2006-cı ildə təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin XXXIII konfransı Bakıda keçirildi. Bakıda keçirilən İƏT turizm nazirlərinin V konfransının (10-11 iyun 2009) nəticəsi olaraq qəbul edilmiş yekun bəyannamədə Ermənistanın Azərbaycana təcavüzü pislənməklə yanaşı, işğal edilmiş ərazilərdə və Ermənistanda mədəniyyət və islam abidələrinə qarşı həyata keçirilən vandalizm siyasəti, eləcə də işğal olunmuş ərazilərin təbii resurslarından istifadə edilməsini pisləyən maddələr əksini tapıb.

Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti İƏT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pisləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbul olunmasına nail olmuşdur.

Keçən illər ərzində beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qərar və qətnamələr, o cümlədən Qoşulmama hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının son Qahirə sammitinin sənədləri artıq münaqişənin həlli çərçivəsini, hüquqi bazasını və onun əsas elementlərini müəyyənləşdirmişdir. Beynəlxalq

ictimaiyyətin əsaslandığı bu sənədlər ATƏT-in Minsk qrupunun daha səmərəli fəaliyyəti üçün əsasdır.

Azərbaycan öz növbəsində təşkilatın qərarlarının qəbul edilməsində fəal iştirak edir. İslam dövlətlərində baş verən proseslərə münasibətdə konstruktiv mövqe tutur. Təşkilatın bütün tədbirlərində Azərbaycan nümayəndələri birmənalı şəkildə Fələstin xalqının suverenlik hüququnu müdafiə edib, Qüdsdəki islam abidələrinin toxunulmazlığına tərəfdar çıxıb.

Azərbaycan İƏT-in aidiyyatı strukturları ilə də sıx əməkdaşlıq edərək həmin qurumların işində, eyni zamanda üzv ölkələrdə keçirilən tədbirlərdə çox yaxından iştirak edir. Bu baxımdan Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti və onun İSESKO-nun xoşməramlı səfiri təyin edilməsi və İƏT-in baş katibi Əkmələddin İhsanoğlu tərəfindən göstərdiyi xidmətlərə görə təşkilatın humanitar məsələlər üzrə xüsusi elçisi diplomu ilə təltif edilməsi təqdirəlayiqdir.

İƏT-in Uqandada keçirilən XI sammitinin (10-11 iyun 2008) və Seneqalda 13-14 mart 2008-ci ildə keçirilən xarici işlər nazirlərinin XXXV konfransında nazir Elmar Məmmədyarov geniş çıxış edərək Azərbaycan-İƏT münasibətlərinin səmərəli şəkildə inkişaf etdiyini vurğulayıb. Konfransın sonunda erməni işğalını pisləyən, eləcə də ermənilərin işğal etdikləri ərazidən dərhal və qeyd-şərtsiz çıxmalarını tələb edən sənəd qəbul edilib. Təşkilatın XI sammitində Azərbaycan tərəfinin məqsədyönlü fəaliyyəti nəticəsində yekun xartiyanın «məqsədlər və prinsiplər» bölməsinə üzv ölkələrin dövlət müstəqilliyi və təcavüz nəticəsində ərazisi işğala məruz qalmış dövlətlərin ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlı xüsusi bənd daxil edilib.

2010-cu ildə «Azərbaycan Respublikası Hökuməti və İslam Əməkdaşlıq Təşkilatına bağlı beynəlxalq qurum-Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏİKGF) arasında DƏİKGF-ın Avrasiya üzrə Regional Mərkəzin Bakı şəhərində yerləşməsi haqqında» saziş imzalandı.

Regionda strateji əhəmiyyət daşıyan ərəb ölkələri ilə də ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir. 2004-cü ildən

başlayaraq Prezident İlham Əliyevin Ərəb ölkələrinə bir sıra rəsmi dövlət səfərləri baş tutdu: 2004-cü ildə Qətərə, 2005-ci ildə Səudiyyə Ərəbistanı Krallığına, 2006-cı ildə Birləşmiş Ərəb Əmirliklərinə, 2007-ci ildə Misir Ərəb Respublikasına və İordaniya Haşimilər Krallığına, 2009-cu ildə Küveytə. Bütün bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə edilmiş, birgə bəyannamələr qəbul olunmuş, bir sıra mühüm müqavilələr və sazişlər imzalanmışdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın işğal edilmiş ərazilərində yaranmış vəziyyət xüsusi müzakirə obyekti olmuşdur. Ermənistanın ölkəmizə qarşı təcavüzü artıq Pakistan və İordaniya parlamentləri səviyyəsinə çıxarılmış, insanlıq əleyhinə cinayət kimi tanınmışdır. Azərbaycan hökuməti ilə bir sıra ərəb ölkələri hökumətləri arasında əməkdaşlığa dair Birgə Komissiyalar yaradılmışdır.

Aparılmış böyük işlərin, yaradılmış mühüm əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın nəticəsidir ki, 2008-ci ilin 14 mart tarixində BMT-nin Baş Assambleyasının 62-ci sessiyasında «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnamənin qəbul olunmasına dair keçirilən səsvermədə bir çox müsəlman ölkələri Azərbaycanın mövqeyini dəstəkləmişdir.

2005-ci ilin 17-19 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri edib. Martın 17-də iki ölkənin dövlət başçılarının rəhbərliyi ilə geniş tərkibdə Azərbaycan-Çin danışıqları keçirilib. Daha sonra Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında birgə bəyannamə imzalandı. Martın 17-də Azərbaycan və Çin rəsmiləri arasında Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş üzrə əməkdaşlıq haqqında saziş, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə Çin Mərkəzi Televiziyası arasındasaziş, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin İnformasiya Sənayesi Nazirliyi arasında qarşılıqlı əlaqələr haqqında Memorandum, habelə, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında saziş və

digər ikitərəfli sənədlər imzalanıb. Səfər zamanı keçirilən bütün görüşlərdə Azərbaycan və Çin dövlətləri arasında əməkdaşlığın istiqamətləri müzakirə edilib və bu sahədə geniş perspektivlərin olduğu müəyyənləşdirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 8-11 mart 2006-cı ildə Yaponiyaya etdiyi rəsmi səfərdən sonra iki ölkə arasındakı siyasi-iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu səfər iki ölkə arasında əlaqələri daha da inkişaf etdirib. Səfər çərçivəsində keçirilən iqtisadi forumda Prezident İlham Əliyev nitq söylədi və Yaponiya şirkətlərini Azərbaycanda daha geniş fəaliyyət göstərməyə, xüsusilə qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün yeni texnologiyaların gətirilməsində iştirak etməyə çağırdı. Prezident İlham Əliyev kənd təsərrüfatı, təhsil, səhiyyə sahəsində ölkəmizdə konkret proqramlar həyata keçirildiyini söyləyərək Yaponiyanı təmsil edən şirkətlərin bu sahədə fəal iştirak etmələrini arzuladı.

Forumun nəticəsi olaraq, hər iki ölkəni təmsil edən bəzi şirkətlər arasında bir neçə milyon dollarlıq müqavilələr imzalandı. Martın 10-da Yaponiya Baş nazirinin iqamətgahında ikitərəfli sənədlərin imzalanma mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi «Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə» imzaladılar. Sonra Azərbaycanın iqtisadi inkişaf naziri və Yaponiyanın ölkəmizdəki səfiri Tadahiro Abe «Azərbaycan Respublikasının Hökuməti və Yaponiya Hökuməti arasında texniki əməkdaşlıq haqqında saziş»i, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və səfir Tadahiro Abe «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq proqramı»nı imzaladılar.

2007-ci ilin aprel ayında Prezident İlham Əliyev Koreya Respublikasına rəsmi dövlət səfəri etdi. Səfər zamanı aparılmış danışıqlar, müzakirələr, görüşlər nəticəsində prezidentlər İlham Əliyev və Ro Mu Hyun Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə bəyannamə imzaladılar. Daha sonra

Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında saziş, Elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə anlaşma Memorandumu, İntellektual nəqliyyat sistemi sahəsində əməkdaşlıq üzrə anlaşma Memorandumu, Fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında anlaşma Memorandumu və digər sənədlər imzalandı. Prezident İlham Əliyev Azərbaycanın Koreya şirkətləri ilə əməkdaşlığa maraq göstərdiyini, gələcəkdə, əsasən energetika, nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları sahəsində əməkdaşlığın genişlən diril məsinə hazır olduğunu bildirdi. Aprelin 24-də Seulda Azərbaycan və Cənubi Koreya iş adamlarının biznes forumu keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak edərək, geniş nitq söylədi.

Regionun digər ölkələri ilə (Pakistan, Hindistan, İndoneziya, Malayziya və s.) də əlaqələr yaradılır, səfirliklər açılır, qarşılıqlı səfərlər həyata keçirilir, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

Bu gün Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var. 2013-cü ildə Azərbaycanın Vyetnamda səfirliyi fəaliyyətə başlayıb. Cari 2015-ci ilin avqust ayının 26-da mətbuatda məlumat getdi - Azərbaycan Respublikasının Avstraliya, Fidji və Yeni Zelandiyadakı səfiri bu ölkələrdə öz etimadnaməsini təqdim edib. Bütün bu səfirliklər ölkəmizin milli maraqlarının təmin olunmasında, xarici siyasətin həyata keçirilməsində, iqtisadi əlaqələrimizin coğrafiyasının genişləndirilməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində, eləcə də respublikamızın xarici ölkələrdə təbliği, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiə edilməsi işində mühüm vəzifələr icra edirlər.

Çoxtərəfli diplomatiyamızın tərkib hissəsi kimi Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, ATƏT, Avropa Şurası, Qoşulmama hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi

Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional beynəlxalq təşkilatların üzvü olaraq bu təşkilatlar çərçivəsində də fəal iş aparır. Bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.

Xarici siyasətimizin coğrafiyasının genişləndirilməsini şərtləndirən vacib amillərdən biri də Azərbaycanın iqtisadi imkanlarının artmasıdır. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan artıq investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmişdir. Yürütdüyü çoxistiqamətli siyasət nəticəsində Azərbaycan bu gün kəsişmə nöqtəsində yerləşdiyi Xəzər, Qara və Aralıq dənizləri hövzələri, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa regionlarının siyasi-iqtisadi proseslərində, onları birləşdirən enerji, nəqliyyat layihələrində yaxından iştirak edir və bir çox hallarda bu layihələrin təşəbbüskarı kimi çıxış edir.

Sülh və təhlükəsizlik sosial-iqtisadi inkişafla bir-birinə sıx bağlıdır. Bu regional məsələlərin həllində sülh və tərəqqi təşviqi baxımdan strateji əhəmiyyət kəsb edir. Azərbaycan regionda sülh və təhlükəsizliyin möhkəm və dayanıqlı olması üçün ciddi addımlar atmışdır və görülən işlər regionun inkişafına və dünya birliyinə inteqrasiyasına öz töfhəsini vermişdir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gətirilmiş Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz infrastruktur layihələri, eləcə də Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi, şübhəsiz ki, regionda iqtisadi, sosial inkişafa, ən əsası isə qarşılıqlı inam və faydanın üzərində qurulan uzunmüddətli əməkdaşlığa səbəb olmuşdur. Bu sırada Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq TANAP və TAP layihələri üzrə əldə edilmiş uğurlar böyük əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin təşəbbüsü və himayəsi sayəsində ərsəyə gələn Bakı Humanitar Forumlarında hazırlanan tövsiyə və təkliflər multikulturalizmin konseptual inkişafında mühüm rol oynayır, bu tövsiyələr beynəlxalq təşkilatlar, dövlətlər və tədqiqat mərkəzləri tərəfindən ciddi şəkildə öyrənilir, tətbiq edilir. Azərbaycan bu kimi fəaliyyəti ilə milli, dini, mədəni və irqi müxtəlif-

lik şəraitində dünyada sülhün bərqərar olmasına və sivilizasiyalararası dialoqun möhkəmlənməsinə əsaslı töhfəsini verir.

Ölkəmizin Şərq siyasətinin dinamik və hərtəfərli inkişafı son illərdə də yüksələn xətlə davam etmişdir. 2019-cu il dekabrında İordaniya kralı II Abdullah ölkəmizə rəsmi səfər etmişdir. Daha öncə, oktyabr ayında Qoşulmama hərəkatının üzv ölkələrinin Bakı Zirvə Görüşündə bir sıra şərq ölkələrinin dövlət və hökumət başçıları iştirak edirdi. Yekun olaraq çox vacib sənədlər qəbul edildi. Nümunə kimi 2020-ci ilin mart ayında ölkəmizə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun səfərini də göstərmək olar. Səfər zamanı bir çox sənədlər imzalandı:

Birgə bəyanat, Aviasiya sahəsində əməkdaşlıq haqqında protokol, Televiziya, radio və kinematoqrafiya sahəsində əməkdaşlıq haqqında saziş, Miqrasiya sahəsində əməkdaşlıq haqqında saziş, Miqrasiya sahəsində əməkdaşlıq haqqında Rabitə, Nəqliyyat, Xəzər dənizinin müdafiəsi sahəsində və bir çox digər sahələrdə əməkdaşlıq haqqında sənədlər imzalanmışdır. Daha öncə, fevral ayının 25-də Türkiyə Prezidenti R.T.Ərdoğan Azərbaycan-Türkiyə Yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında iştirak etmək üçün Bakıya səfər etdi. Tərəflər arasında tədbirin Protokolu və bir sıra sahələrdə əməkdaşlığa dair sənədlər imzalandı.

Yekun olaraq aşağıdakıları demək olar:

Ötən müddət ərzində Azərbaycan ətrafında müsbət xarici mühit formalaşdırılmış, ölkəmiz öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı çoxtərəfli və ikitərəfli əməkdaşlıq prinsipləri əsasında bütün tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilmişdir.

# ПОЧЕМУ Я БУДУ ГОЛОСОВАТЬ ЗА ИЛЬХАМА АЛИЕВА

Приближаются выборы Президента Азербайджанской Республики, скоро начнется завершающая фаза предвыборной гонки. От того, кто станет у руля государственного управления на следующие семь лет, зависит очень многое в нелёгкой, тернистой судьбе нашего народа и страны. Имея важнейшее геостратегическое расположение, благодатные земли и богатейшие природные ресурсы, Азербайджан веками привлекал внимание иноземных завоевателей, ждущих удобный момент для захвата наших территорий. Вот почему наши исторические земли, некогда простиравшиеся от Дербента до Киркука, ныне сократились до 86, 6 квадратных километров, 20% которых сегодня оккупированы армянскими вооруженными формированиями. А народ сто лет назад впервые на Востоке создавший парламентскую республику, всего через 23 месяца оказался в составе новой империи и лишь через 70 лишним лет смог восстановить свою государственную независимость.

В многовековой истории азербайджанцев много славных, героических страниц борьбы за свободу и национальную независимость. Но каждый раз, когда наш народ обретал независимость, она длилась недолго и вскоре подавлялась иноземными захватчиками. Причина этого не только объективна-крайне неблагоприятная для нас международная обстановка, но и субъективна-внутренние распри и противостояния.

Мы должны помнить все периоды нашей истории, не забывать, что история борьбы нашего народа за национальную независимость столь же трагична, сколь славная и героическая. Десятки раз самые лучшие представители народа поднимались на борьбу за свободу и независимость, сотнями и тысячами гибли во имя национальной идеи. Но

каждый раз движение, возглавляемое ими, жестоко подавлялось иноземными захватчиками и захлебывалось в крови. При этом самым поучительным и горьким являлось то, что эти поражения были обусловлены не только объективными процессами, но и серьёзными субъективными факторами. Меркантильные интересы отдельных лиц или групп людей, преобладание узколичностных интересов над коренными национальными интересами, неумение лидеров объединить массы вокруг единой национальной идеи-это именно те субъективные факторы, которые создавали благоприятную почву для иностранного вмешательства и препятствовали воплощению исторического шанса в жизнь. Это подтверждается и раздробленностью Азербайджана на ханства в XVIII веке, когда во всем мире шёл процесс формирования национальных государств, и падением АДР после 23-х месячного существования, и итогами освободительных движений Хиябани, Саттар-хана, и поражением национального правительства Пищевари в Иранском Азербайджане.

В конце XX века вновь сложились исторические условия для восстановления национальной независимости. Но на этот раз история не повторилась. Потому что во главе страны встал выдающийся политический лидер Гейдар Алиев, пользующийся доверием, глубоким уважением и поддержкой всего народа, личность, обладающая железной политической волей и богатейшим опытом государственного управления. Он за короткое время смог изменить традиционный сценарий против нашей независимости и не дал иностранным силам превратить Азербайджан в некий форпост или марионетку, управляемую извне. Преодолев направленные против нашей независимости факторы, Гейдар Алиев сделал её необратимой и вечной. За короткое время были преодолены давления извне, стабилизирована внутренняя социально-экономическая жизнь, началось осуществление важнейших энергетических и транспортных проектов, заложены основы сбалансированной внешней

политики и т.д. Эта многовекторная политика, направленная на всестороннее развитие страны и укрепление нашей независимости с 2003 года успешно продолжается Президентом Ильхамом Алиевым. Проделана колоссальная работа, благодаря которой Азербайджан превратился сегодня в ведущую страну региона. Без нас не может быть решен здесь ни один серьёзный вопрос международной политики. Уверенно проводится диверсификация экономики, доля нефтяных доходов в структуре бюджета снижается, уровень жизни населения растет (и это при охватившем весь мир финансовом кризисе), безработица снижается, укрепляется внутренняя стабильность и безопасность. Заметны сдвиги в социальной сфере: увеличивается рождаемость, растёт средняя продолжительность жизни, построены сотни прекрасно оснащенных социальных и спортивных объектов, школы, детские дома, особой заботой окружены дети, нуждающиеся в специализированном уходе, дети из неблагополучных семей, социально малозащищённые слои населения и т.д. Завершается полная газификация страны, развивается сельское хозяйство, реформируются все органы управления и т.д. Укрепляется обороноспособность страны, модернизируются все отрасли экономики, осуществляются все новые энергетические проекты.

Не могу утверждать, что все проблемы, стоящие перед страной решены. Нет, есть, ещё нерешенные проблемы. И главная среди них - восстановление территориальной целостности, освобождение оккупированных земель. Но самое главное, что в стране делается все возможное и даже невозможное для разрешения всех существующих проблем.

Учитывая все вышеизложенное, думаю, что абсолютное большинство избирателей проголосует за нынешнего Президента. Ибо проголосовать сегодня за Ильхама Алиева это значит однозначно проголосовать за стабильность, развитие, процветание Родины, дальнейшую модернизацию страны, взвешенную сбалансированную внешнюю поли-

тику, укрепление независимости, рост авторитета страны на мировой арене. Как говорится в мудрой русской пословице: «От добра добро не ищут».

В первых рядах сторонников президентства Ильхама Алиева, думается, будет идти азербайджанская интеллигенция, ибо она, как и весь народ, прекрасно осознает ответственность исторического момента: быть или не быть вовеки веков независимому Азербайджану - воплощенной в жизнь прекрасной мечте десятков и сотен поколений нашего народа.

Вспоминаются слова Александр Сергеевича Пушкина:

Поэтом можешь ты не быть,

Но гражданином быть обязан!

Думается, что мудрый народ Азербайджана, сделав правильные выводы из прошлого, проявит истинно гражданскую ответственность за судьбу родины и проголосует именно за того, кто способен в архисложнейших условиях современного мира повести страну и народ вперед – к прогрессу, развитию, модернизации, укреплению страны и восстановлению территориальной независимости.

Не могу не сказать несколько слов о предвыборной борьбе. В демократическом и плюралистическом обществе, в условиях многопартийности, политическая борьба, столкновение политических интересов, идеологические и тактические разногласия естественны. Но общенациональные интересы сегодня требуют, говоря философским языком, сберечь единство борющихся противоположностей, то есть не дать политическим страстям разрушить единство нашего общества, вести политическую борьбу и политику в конструктивном русле. В этом смысле политическая борьба должна протекать только в этических нормах, без личностных оскорблений и клеветы. А для этого необходимо наличие определенного культурного потенциала, которого, к сожалению, у некоторых новоявленных «диссидентов» просто нет.

Нельзя забывать и то обстоятельство, что низкопробные шоу, устраиваемые подобными горе-диссидентами играют на руку нашим общим врагам-армянскими агрессорам. Они с удовольствием смакуют подобные сцены и при случае используют против нас же.

Не могу не привести слова выдающегося поэта Мамеда Араза, которые прекрасно звучат именно в оригинале:

Məndən ötdü, sənə dəydi,
Səndən ötdü, mənə dəydi,
Məndən ötən, səndən ötən,
Vətən, Vətən, Sənə dəydi.

Советую всем не забывать эту великую истину, блестяще выраженную поэтическим гением выдающегося Мастера.

*www.day.az 21.03.2018*

## СОЗДАТЕЛЬ НЕЗАВИСИМОГО ГОСУДАРСТВА

*Гейдар Алиев сформулировал национальную идею новой азербайджанской государственности*

### ЛИЧНОСТЬ

15-ю годовщину ухода из жизни великого сына азербайджанского народа Гейдара Алиева отмечают во всем мире, поскольку в любой стране, где есть хоть один азербайджанец, эта дата не пройдет незамеченной. В любой точке Земли вспоминают общенационального лидера, заложившего основы современной государственности Азербайджана и наметившего долговременную стратегию и политический курс страны на многие десятилетия вперед.

В эти декабрьские дни у входа в Аллею почетного захоронения большое оживление: почтить память общенационального лидера, архитектора современного Азербайджана Гейдара Алиева приходят и приезжают тысячи людей. Вместе с бакинцами дань глубокого уважения человеку, изменившему судьбу Азербайджана, спешат выразить жители регионов, а также гости нашей страны.

Именно благодаря этому наследию нашей стране удалось в нелегкие годы глобальных перемен совершить мощный экономический рывок, заложить фундамент нашего будущего вхождения в сообщество развитых государств мира. Дань уважения Гейдару Алиеву как личности планетарного масштаба отдают в эти дни и лидеры разных стран.

Практически в любом городе и районе, в каждой организации, учебном заведении или министерстве проходят встречи, посвященные этой дате. И это не только дань

традиции. Прежде всего это выражение признательности людей, которые помнят личное участие Гейдара Алиева в жизни их города, отрасли, организации.

Научно-практические конференции, «круглые столы», встречи и другие мероприятия, посвященные памяти общенационального лидера, проходят по всей стране, во многих государствах СНГ и дальнего зарубежья. В этом – непреходящее желание его соотечественников осмыслить и использовать на благо страны огромное наследие Гейдара Алиева.

Вернувшись на пост главы Азербайджана летом 1993 года, Гейдар Алиев предотвратил развал государства, только-только вставшего на путь независимости. Положив конец гражданскому противостоянию, консолидировав общество, он вывел страну из тяжелейшего политического и экономического кризиса. Гейдар Алиев сформулировал для Азербайджана национальную идею - идею новой азербайджанской государственности, и направил на ее претворение в жизнь духовные, интеллектуальные, политические и экономические ресурсы нации. Ему принадлежит простая для понимания и вместе с тем глубокая по своему содержанию фраза: «Я горжусь тем, что я - азербайджанец!» Этими словами Гейдар Алиев выразил не только свою любовь и преданность Родине, но и отстаиваемую им цель всемерной защиты интересов Азербайджана.

Гейдар Алиев закрепил позиции Азербайджана в процессе мирного урегулирования карабахского конфликта под эгидой Минской группы ОБСЕ. Наша страна преодолела международную изоляцию, установленную в связи с агрессией Армении, прорвала информационную блокаду, довела до мировой общественности свою правдивую позицию по карабахской проблеме. Одновременно Гейдар Алиев внес огромный вклад в строительство боеспособной Национальной армии, готовой к выполнению священной миссии освобождения захваченных врагом азербайджанских земель. Не

зря он говорил: «Чтобы смело вести мирные переговоры, необходимо обладать сильной армией».

Благодаря заложенной Гейдаром Алиевым сбалансированной дипломатии Азербайджан занял достойное место в мировом сообществе. Нашему государству удалось развить дружественные и взаимовыгодные отношения с зарубежными странами, развернуть активную деятельность в рамках ведущих организаций мира. Успешное совмещение во внешней политике Азербайджана разных векторов - западного и восточного, северного и южного, спасло нашу страну от многих геополитических потрясений, способствовало ее превращению в лидера Южно-Кавказского региона.

Гейдара Алиева не случайно считают одним из создателей новейшей истории Евразии, крупным политиком мирового масштаба. Сформированная и развитая Гейдаром Алиевым философия азербайджанства определила место Азербайджана в современном мире, составляя идейную основу нашей национальной государственности, создала прочную базу для солидарности азербайджанцев мира. Благодаря деятельности Гейдара Алиева в те годы проблемы национального возрождения, серьезно беспокоившие азербайджанскую интеллигенцию на протяжении последних столетий, целиком вошли в стратегическую государственную политику, перейдя из науки, социологии и философии в плоскость практической политики.

В результате эффективной политики Гейдара Алиева стало возможным восстановление и обогащение в конце XX столетия традиций государственности в Азербайджане, укрепление независимости Азербайджана, которая приняла вечный и необратимый характер, уверенное продвижение нашей страны по пути динамичного экономического развития, стремительный рост ее международного авторитета. Своим мудрым руководством, политической дальновидностью, решительностью и настойчивостью Гейдар Алиев прославился, как выдающийся политический деятель совре-

менности, превратился в общенационального лидера азербайджанского народа. Стратегические направления, подготовленные им для всестороннего развития Азербайджанской Республики, еще долгие годы будут служить укреплению и усилению независимого Азербайджанского государства, приумножению его экономического могущества, обеспечению народу достойной его счастливой жизни.

Стратегия Гейдара Алиева и сегодня приносит поразительные дивиденды Азербайджану в контексте его экономического развития, укрепления позиций нашей страны на международной арене. Наше государство не стало и никогда не станет разменной картой в геополитической игре великих держав. И в этом - огромная заслуга Гейдара Алиева, заложившего основу государственного развития нашей страны. Его достойный преемник - Президент Ильхам Алиев успешно продолжает эту политику, направленную на дальнейшее укрепление независимости Азербайджана.

*www.kaspiy.az 12.12.2018*

# MÜSAHİBƏLƏR

## MİLLƏTİ ŞƏXSİYYƏTİNƏ GÖRƏ SAYIRLAR

– Baharın ılıq nəfəsini duyaraq görüşürük. Bahar bayramınız mübarək olsun...

– Çox sağ olun. Mən də bütün Azərbaycan xalqının bahar bayramını təbrik edirəm. Qoy bu bahar ölkəmizə sülh, əmin-amanlıq gətirsin.

– Gövhər xanım, siz həmişə elmlə məşğul olmusunuz. Bu sahədə xeyli uğurlarınız var. Bəs necə oldu ki, deputat olmaq istədiniz?

– Mənim ata-babam Bərdədə yaşayıb. Qohum-əqrəbam hamısı oradadır. Qohumlardan dedilər ki, bərdəlilər istəyir MM-də onları təmsil edəsən. Atam respublikada tanınmış adam olub. Maliyyə sahəsində böyük xidmətləri var. Bütün ömrünü maliyyə sisteminə həsr edib. 17 il yarım Azərbaycanın maliyyə naziri olub. Onu tanıyanlar, onunla işləyənlər deyir ki, atamın vaxtında Azərbaycanın maliyyəsi saat mexanizmi kimi işləyirdi. Atam təbiətcə ürəyiyumşaq, xeyirxah adam olub. Həmişə bərdəlilərə kömək edib. Ona görə də onlar istəyiblər ki, tanıdıqları, bildikləri bir ziyalı kimi təmsilçiləri olum. Mən də açığı deyim ki, ilk vaxtlar bir az tərəddüd etdim. Elmdən uzaqlaşmaq mənim üçün o qədər də asan deyil. Siyasətlə heç vaxt məşğul olmamışam. Lakin düşündüm, daşındım, yaxınlarımla məsləhətləşdim. Belə qənaətə gəldim ki, ziyalı özünü cəmiyyətin problemlərindən kənara çəkə bilməz. Əgər bu gün xalqıma lazımamsa, nə isə bacarıramsa, gərək mütləq bunu edim. Bəlalarımızdan biri də ondan ibarətdir ki, ziyalılar bir çox məqamlarda passiv mövqe tuturlar. Ziyalı həmişə cəmiyyətin önündə getməlidir. Tarixən bizdə ziyalıya, elmə, alimə hörmət olubdur. Bir sözlə, namizədliyimi verdim və seçicilərin etimadını qazandım.

– Dediniz ki, heç vaxt siyasətlə məşğul olmamısınız. İndi millət vəkilisiniz. Birbaşa siyasətin qaynar yerindəsiniz. Bunun ağırlığını hiss edirsinizmi?

– Bilirsiniz, mentalitetimizin elə məqamları var ki, qadın özünü daha təvazökar aparmalıdır. Bax, o məqamlarda hiss edirəm ki, qadının siyasətlə məşğul olmağı ağır işdi. Eyni zamanda qadın əgər artıq siyasətə daxil olubsa, bunları kənara qoymalıdır. Tam öz fıkrini bildirməlidir. Siyasətlə məşğul olanda unutmuram ki, bitərəfəm. Müstəqil, obyektiv mövqe tutmağa çalışıram. Yalnız inandığım, düzgünlüyünü yəqin etdiyim məsələləri dəstəkləyirəm.

– Azərbaycan Elmlər Akademiyası haqqında müxtəlif fikirlər səslənir. EA-nın fəal təmsilçilərindən biri və Milli Məclisin üzvü kimi bu fikirlərə münasibətinizi bilmək istərdik.

– Mənə elə gəlir ki, hələ 1997-ci ilin əvvəllərində EA nümayəndələri ilə görüşərkən möhtərəm Prezidentimiz Heydər Əliyev bu cür fıkirləşənlərin cavabını vermişdir. Yadınızdadırsa, o demişdi ki, EA şəxsən respublika Prezidentinin himayəsindədir və heç kəs bu məsələdə özbaşınalığa yol verə bilməz. Mən də bununla əlaqədar mövqeyimi mətbuatda bildirmişəm və sizinlə tamamilə razıyam ki, EA-nın bağlanmasına dair fıkirlər heç bir məntiqə söykənməyən cəfəng fıkirlərdir. Hesab edirəm ki, bu cür fıkirlər millətin və cəmiyyətin inkişafı haqqında təsəvvürü olmayan, fundamental elmin nə demək olduğunu anlamayan şəxslər tərəfindən irəli sürülə bilər. Təsəvvür edin ki, bu tipli qurumlara malik olmayan ölkələr belə elmi mərkəzlər yaratmağa çalışdıqları bir zamanda, biz nəsillərin zəhməti bahasına yaranmış yeganə elm məbədini dağıdırıq. Buna nə ad vermək olar?! Bəs gələcək nəsillər qarşısında cavabdehlik hissini, məsuliyyəti kim daşıyacaq? Dağıtmağa nə var ki! Amma belə bir potensialı yaratmaq, belə bir təşkilatı formalaşdırmaq üçün onilliklər tələb olunur. Odur ki, EA-ya münasibətdə cari maraqlardan və subyektiv düşüncələrdən çıxış etmək olmaz. Axı elm və mədəniyyət millətin varlığını təmin edən, onun şüurunu təyin edən amillərdir. Bu mənada EA-ya strateji bir qurum kimi yanaşılmalıdır. Və o, millətimizin və dövlətimizin strateji mənafelərinə uyğunlaşdırılaraq, inkişaf etməlidir. Yəni söhbət yalnız EA-da islahatlar aparılmasından gedə bilər. Bu islahatların zəruriliyini isə heç kəs

inkar etmir. Mən əminəm ki, Milli Məclisdə "Elm və elmi-texniki siyasət haqqında" qanun qəbul edildikdən sonra EA respublikanın ictimai həyatında öz layiqli yerini tutacaqdır.

– Həm institut rəhbərisiniz, həm Milli Məclisdə çalışırsınız, həm də anasınız. Bütün bu işləri görməyə vaxtı necə bölürsünüz? Evdə kömək göstərəniniz varmı?

– Evdə köməkçim yoxdur. Mən xoşlayıram ki, evdə hər işi özüm görüm. İnstitutda da işimi elə qururam ki, hər iş öz qaydasında gedir. Milli Məclisin iclaslarına da vaxtında çatıram. Yəni vaxtımı səmərəli bölürəm.

– Çətin anlarınızda kimə müraciət edirsiniz?

– Çalışıram ki, heç kimə öz problemlərimi bildirməyim. Bir anamdı, onu da narahat etmək istəmirəm.

– İnsanlarda ən çox hansı xüsusiyyətləri xoşlayırsınız?

– Birincisi mədəniyyət. İnsan mədəni olmalıdır. Daxili mədəniyyətin olmaması böyük bəladır. Bu heç bir təhsildən asılı deyil. Mənə elə gəlir ki, gənc nəslin tərbiyəsində ilk növbədə buna fıkir verməliyik. Mədəni insan başqasının malına əl uzatmaz, ələlxüsus dövlətin malına, xalqın, Vətənin malına xain gözlə baxmaz. Mədəni insan başqasınma böhtan atmaz. Bilmədiyi şey haqqında yalan danışmaz.

İnsanlarda xeyirxahlığı xoşlayıram. İnsan ətrafında olanlara kömək etməlidir.

– Gövhər xanım, bu yaxınlarda MM-də Qarabağ probleminin həlli yolları müzakirə edilərkən Prezidentimiz bütün siyasi partiyalara, ziyalılara müraciət etdi ki, öz təkliflərini versinlər. Bəs sizin təklifiniz nədir?

– Mən tam inanıram ki, Prezidentimizin özü bu problemin həllini tapacaq. Uzun illər müşahidə etmişəm, elə bir imkan olmayıb ki, onu bizim Prezidentimiz əldən versin, bu məsələdə istifadə etməsin. Nə mümkündür, onu edir. Qarabağ məsələsində qələbə bizim olacaq. İnkişafa doğru gedirik. Hər birimiz öz sahəmizdə Qarabağ məsələsinin həllinə çalışmalıyıq. Bu məsələdə iqtidar-müxalifət olmamalıdır, hamı yumruq kimi birləşməlidir. Eyni zamanda sülh danışığı aparıla-aparıla müharibəyə də hazır

olmalıyıq. Azərbaycanın ordusu da, iqtisadiyyatı da güclü olmalıdır. Bu sahədə irəliləyiş var. İnanıram ki, ədalət zəfər çalacaq.

– Həyatda ən çətin anınız nə vaxt olub?

– Atamı itirdiyim gün ən ağır vaxtım olub. Günlərin bir günü onun yox olması çox ağır idi. İndi də elə gün olmur ki, onun haqqında danışmayaq. Artıq on dördüncü ildir ki, atam həyatda yoxdur, amma həmişə onun sözləri qulaqlarımda səslənir. Məsələn, hörmətli Heydər Əliyevə inamı məndə o yaradıb. Hələ uşaq idim, yadımdadır, atam büdcə ilə bağlı hər il Moskvaya gedirdi. Gəlib evdə danışardı ki, Heydər Əliyevin sayəsində Azərbaycanın hörməti nə qədər artıb. Milləti də onun şəxsiyyətinə görə sayırlar. Bu, həqiqətdir. H.Əliyevə görə o vaxt Azərbaycanın nüfuzu qat-qat artmışdı. Atam ağır xəstə yatırdı. İstəyirdi ki, memuar yazsın. On yeddi ildə Azərbaycan iqtisadiyyatının necə inkişaf etdiyi haqqında kitab yazmaq arzusunda idi. Amma dedi ki, bilmirəm, onu çap edəcəklər, yoxsa yox. Atama dedim: sən yaz, vaxt olacaq ki, onu mütləq çap edəcəklər. Amma ömür vəfa etmədi. Təqaüdə çıxandan 15 gün sonra dünyasını dəyişdi. Mənim yadımdadır, H.Əliyevi Moskvada Siyasi Bürodan çıxaranda atam çox narahat oldu. O, gecəni yata bilmədi ki, bəs Azərbaycan xalqının taleyi necə olacaq? İndi siz görəcəksiniz ki, xalqın başına necə bəlalar gələcək. O, bilirdi ki, H.Əliyev ermənilərə qarşı necə mübarizə aparır. Ermənilər həmişə çalışıblar ki, onu Siyasi Bürodan uzaqlaşdırsınlar. Bilirdilər ki, nə qədər H.Əliyev Siyasi Bürodadı, Azərbaycan xalqına qarşı onlar heç nə edə bilməyəcəklər. Təəssüf ki, sapı özümüzdən olan baltaların köməyi ilə ermənilər istəklərinə nail oldular. İndi kimlərsə özünü vətənpərvər, xalqını sevən kimi göstərməyə çalışır. Belə cılız insanları görəndə adamın gülməyi gəlir. Bir dəfə institutumuza bir əfqan gəlmişdi. Dissertant düzəlmək istəyirdi, alınmadı, çıxdı getdi. O, Əfqanıstanın düşdüyü vəziyyətdən danışanda dedi ki, təəssüf ki, Əfqanıstanda H.Əliyev kimi bir rəhbər olmadı, silahları yığsın, hamını yerində oturtsun. Dərəbəyliyin nəticəsi Əfqanıstanı bu günə qoyub. H.Əliyev hakimiyyətə vaxtında gəlməsəydi, Azərbaycan da Əfqanıstanın gününə düşə bilərdi. İstənilən anda ölkə-

nin sükanı arxasında güclü şəxsiyyət durmalıdır, o ki qala keçid dövrünü yaşayan Azərbaycanda.

– Maraqlı söhbət üçün sağ olun.

– Siz də sağ olun.

*Müsahibəni apardı: Şəmsiyyə Musaqızı*
*"İki sahil" qəzeti, № 55, 23 mart, 2001-ci il*

## VƏTƏNİN TALEYİ HEÇ KİMİN SİYASİ AMBİSİYASININ QURBANINA ÇEVRİLMƏMƏLİDİR

– Gövhər xanım, yaz sessiyasının sonuna doğru Milli Məclisin sosial qanunvericiliklə bağlı fəaliyyətində bir canlanma hiss olunur. Mən "Azərbaycan dilinin işlənməsi və qorunması haqqında" qanun layihəsinin uzun müddətdən sonra müzakirəyə çıxarılmasını, mədəni sərvətlərimizin düşmən tərəfindən mənimsənilməsindən narahatlıq ifadə edən kəskin bəyanatın qəbulunu, cəmiyyətin yetkinlik yaşına çatmayan üzvlərinə qarşı daha həssas münasibət göstərməli olduğundan yaranan sənədi və s. misal göstərmək istəyirəm. Sizin adını çəkdiyim və çəkmədiyim bu məsələlərə dair fikrinizi bilmək oxucularımız üçün maraqlı olardı.

– Bilirsiniz, sosial sahə bəzilərinin düşündüyü kimi təkcə adamların rifahı ilə bağlı deyil. Bu, o qədər həssas, müntəzəm münasibət göstərməyi tələb edən sahədir ki, əgər indi hər hansı konkret məsələyə müdaxilə etməsən, sabah olduqca təhlükəli vəziyyət yaranar, hətta ölkənin müstəqilliyinə, suverenliyinə xələl gələr. Bu baxımdan ilk növbədə parlamentdə dilimizlə bağlı qaldırılan məsələlərə toxunmaq istəyirəm.

Xalqımızın bir çox sərvətləri var ki, bunlardan da ən əsasları torpaq və dildir. Hər ikisi bizə əcdadlarımızdan miras qalıb və hər ikisini göz bəbəyi kimi qoruyub gələcək nəsillərə çatdırmaq müqəddəs borcumuzdur. İnzibati Xətalar Məcəlləsinə əlavə edilməsi zərurəti keçən il hörmətli prezidentimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanından irəli gəlib. Yeri gəlmişkən deyim ki, cənab prezidentin həmin fərmanı Azərbaycan dilinin hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Dilimizin qorunmasına və inkişafına xidmət edən bu cür fərman tarixdə olmamışdır. Deyim ki, sözügedən layihənin müzakirəsi çox qızğın keçdi, Milli Məclis üzvlərinin bir çoxu çıxış edib məsələyə münasibət bildirdi.

Azərbaycan dili türk dilləri ailəsində həm leksik, həm də semantik tərkibinə görə ən zəngin, ən inkişaf etmiş dillərdəndir. Sirr deyil ki, Azərbaycan dili qanunla dövlət dili elan olunsa da, real həyatda heç də həmişə dövlət dili statusu səviyyəsində işlədilmir. Bu kimi halların qarşısını almaq məqsədilə məcəlləyə əlavədə dövlət dilinin tətbiqinə qarşı çıxan, Azərbaycan dilinin işlənməsi sahəsini məhdudlaşdırmağa çalışan, latın qrafikalı yeni Azərbaycan əlifbasının yayılmasına mane olan vəzifəli və hüquqi şəxslərin cəzalandırılması nəzərdə tutulur. Qanuna əlavədə eyni zamanda dövlət dilinə etinasız yanaşanlara, əcnəbi dillərdə danışmağa üstünlük verənlərə, yazı işlərini Azərbaycan dilində aparmayan vəzifəli və hüquqi şəxslərə qarşı inzibati tədbirlərin görülməsi öz əksini tapıb.

Dövlət Azərbaycan dilinin tətbiqi, qorunub inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlıları arasında aparıcı ünsiyyət, milli-mədəni özünüifadə forması kimi işlədilməsinə kömək göstərir. Bu müddəa "Azərbaycan dilinin işlənməsi və qorunması haqqında" qanun layihəsində ifadə olunur. Sənəd Azərbaycan dilinin hüquqi statusunu müəyyənləşdirir, dilimizin işlənməsi və qorunması sahəsində dövlətin əsas vəzifələrini müəyyən edir. Aydın deyilir ki, Azərbaycan Respublikasında təhsil Azərbaycan dilində aparılır. Daha sonra Azərbaycan dilinin ümumi ünsiyyət vasitəsi kimi işlənməsi, tətbiqi formaları, Azərbaycan yazı dilinin əlifbası, tətbiqi məsələləri müəyyənlə°dirilir. Azərbaycan dilinin nəşriyyat işində işlənməsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən həyata keçirilir. Ölkədə lövhələr, reklam tabloları, plakatlar və s. Azərbaycan dilində olmalıdır. Paralel olaraq xarici dildə də verilirsə, həcmi mütləq Azərbaycan dilindəki yazıdan bir qədər kiçik nəzərdə tutulmalıdır. Azərbaycan dilinin beynəlxalq yazışmalarda işlənməsinə ciddi fikir verilir. Mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların rəhbərləri Azərbaycan dilinin işlənməsi və qorunması üçün məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasında Azərbaycan dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, dilin işlədilməsinə müqavimət göstərmək, onun tarixən

müəyyənləşmiş hüquqlarını məhdudlaşdırmağa cəhd etmək qanunla qadağandır. Dünya elminin, mədəniyyətinin, ictimai fikrinin ən mühüm örnəkləri planlı şəkildə Azərbaycan dilinə tərcümə edilməlidir. Bu, çox vacibdir. İndi belə bir problemlə qarşılaşırıq ki, məktəblilərin dərsdənkənar oxu vəsaitləri demək olar ki, yoxdur. Özəl televiziya kanallarında, qəzet və jurnallarda əcnəbi sözlərdən lüzumsuz şəkildə istifadə edilməsi Azərbaycan dilinin düzgün inkişafına mane olur. Bu qanun layihəsi möhtərəm prezidentimizin yuxarıda adını çəkdiyim müvafiq fərmanından irəli gələn müddəalarla xeyli zənginləşmişdir.

Yeri gəlmişkən deyim ki, Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasətini həyata keçirən Ermənistan Respublikası maddi sərvətlərimizi talamaqla yanaşı mədəni sərvətlərimizi də mənimsəyir. Zaman-zaman Azərbaycan musiqisi, incəsənəti, folkloru, ədəbiyyatı ermənilər tərəfindən özününküləşdirilib. Artıq mədəni sərvətlərimizi onlar YUNESKO-da sənədləşdirməyə çalışsalar da, biz ciddi əks tədbirlər görməliyik. Mən uzun müddət ədəbi əlaqələri öyrənmişəm. Bilirəm ki, ədəbi proseslərdə zəif ədəbiyyat daha zəngin ədəbiyyatı mənimsəyir. Ermənilər Suriya və Livanda da çoxdular. Ərəblərin içində yaşayırlar, onların musiqisini, mədəniyyətini mənimsəyiblər. Ümumiyyətlə, harada yaşayıblarsa, qonşu xalqların mədəniyyətlərini öz adlarına çıxıblar. Çünki sırf erməni mədəniyyəti olduqca kasıbdır. Biz mədəniyyətimizin ermənilər tərəfindən özününküləşdirilməsinə yol verə bilmərik. Milli Məclisin bəyanatı da elə bu məqsəd üçün qəbul edilmişdir. Beynəlxalq konvensiyalar mövcuddur və bu sənədlərlə uyğun olaraq məsələni beynəlxalq təşkilatlarda qaldırmaq lazımdır. Bəyanat Azərbaycanın öz haqqını qoruyan sənəd kimi qiymətləndirilməlidir.

Sosial sahəyə aidiyyəti olan və yaxınlarda ikinci oxunuşda MM-də qəbul edilən "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" sənəd barədə danışmaq istəyirəm. Hesab edirəm ki, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların yaradılması çox vacibdir. Cəmiyyət yetkinlik yaşına çatmayanlara

mərhəmətli yanaşmalıdır. Bu layihənin müzakirəsi zamanı mən də çıxış etdim. Yeniyetmələrin əksəriyyəti birinci dəfə büdrəyəndə cəmiyyət onlara qarşı qeyri-humanist münasibət göstərərsə, onda onlar sonradan cinayətkara çevrilirlər, qəddarlaşırlar. 14 yaşından 18 yaşınadək insan yeniyetmədir, onun təfəkkürü, dünyagörüşü tam formalaşmayıb. Ona görə də yeniyetmələrə bir qədər güzəştlə yanaşmaq lazımdır. İlkin olaraq bu komissiyalar onların hərəkətlərini qiymətləndirir, mümkün köməyi edir, hüquqlarının müdafiəsi ilə məşğul olurlar.

Bilirsiniz ki, Azərbaycanda formasiya dəyişir, bir iqtisadi sistemdən başqa iqtisadi sistemə keçirik. Artıq ölkədə özəl sektor yaranıb. İqtisadiyyatın gələcək inkişafı sahibkarların, yəni işəgötürənlərin öz işlərini necə qurmasından çox asılıdır. Azərbaycanın ən böyük problemlərindən olan işsizlik problemini məhz bu təbəqə həll etməlidir. Dövlət özəl sektorun, sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradır. Sahibkarlığın inkişafı üçün müvafiq qanunvericilik bazası yaradılmışdır. İşəgötürənlər birlikləri haqqında qanun layihəsi də bu istiqamətdə yaranan sənədlərdəndir.

Sənədi zəruri edən səbəb odur ki, işəgötürənlər öz birliklərini yaratsınlar, öz hüquqlarını kollektiv şəkildə müdafiə edə bilsinlər. Bu, sahibkarlar üçün hüquqi baza yaradacaq, birlik üzvlərinin sosial, əmək və iqtisadi hüquqlarını, maraqlarını qoruyacaq, onlara sosial və iqtisadi siyasət, əmək münasibətləri üzrə normativ hüquqi aktların hazırlanmasında iştirak etməyə imkan verəcək. Qanun sahibkarlığın inkişafına mane olan hallara qarşı yönəlmişdir.

– Sizcə, "Kütləvi informasiya vasitələri haqqında" qanuna edilən dəyişikliklər zamanın tələbi idimi? Nədənsə, əvvəllər qanunun sözügedən müddəalarının mətbuatımızın inkişafına mane olduğunu car çəkənlər indi dəyişikliklər qüvvəyə mindikdən sonra KİV-dəki nöqsanlar barədə susurlar.

– Bilirsiniz ki, mətbuat haqqında qanuna dəyişikliklərlə KİV-ə ən geniş hüquqlar verildi. Təəssüfləndirici hal budur ki, heç də bütün qələm sahibləri bu hüquqlardan düzgün istifadə et-

mirlər. Vətənimiz tarixinin ən məsuliyyətli dövrünü yaşayır. Keşməkeşli keçid dövrünü daha tez arxada qoyub iqtisadi tərəqqi yoluna çıxmaq üçün əldə olunmuş ictimai-siyasi sabitliyi qoruyub saxlamaq və vətəndaş birliyinə, həmrəyliyinə tam nail olmaq lazımdır.

Özünü həqiqi vətənpərvər hesab edən hər kəs ilk növbədə bu mərama xidmət etməlidir. Məlum həqiqətdir ki, KİV ictimai rəyi formalaşdırır. Tənqid demokratiya, söz azadlığı bərqərar olmuş cəmiyyətin mütləq ünsürüdür. Lakin tənqid təhqirə keçməməlidir. Amma biz nə görürük: mütəmadi olaraq bir sıra qəzetlər məqsədyönlü şəkildə ölkənin tanınmış ziyalılarını, dövlət xadimlərini təhqir edir, onların şərəf və ləyaqətini alçaldırlar. Hesab edirəm ki, bu, ilk növbədə həmin yazıların müəlliflərinin peşəkarlıq səviyyəsinin aşağı olmasından irəli gəlir.

AŞPA-nın sabiq sədri Rassel Conston ötən ilin sentyabrında Cənubi Qafqaz regionunda oldu və səfərin nəticələri barədə məruzə ilə AŞPA-da çıxış etdi. Həmin məruzədə deyilirdi: "Səfərimin bütün gedişi boyu, xüsusilə Azərbaycanda mətbuatla bağlı narahatlıqlarla üzləşərək, mətbuatın onun üçün təmin edilmiş geniş söz azadlığından istifadə edərək yanlış və ya yarımdüzgün informasiya yaymasını, heç bir sübut və əsas olmadan ittihamlar irəli sürməsini təəssüfləndirici hesab edirəm. Mətbuat, televiziya və elektron mətbuat öz sözlərinin təsirini götür-qoy etməli və daha ehtiyatla yaymalıdır. AŞ şübhəsiz ki, bölgənin üç ölkəsi ilə söz azadlığı, mətbuat və jurnalist etikası ilə bağlı əməkdaşlıq proqramını inkişaf etdirməlidir". Hesab edirəm ki, KİV nümayəndələri öz məsuliyyətlərini tam dərk etməli, öz üzərlərində işləməli, peşəkarlıq səviyyələrini artırmalı, jurnalist etikasına riayət etməli, öz vəzifə borcunu vicdan və namusla yerinə yetirməlidirlər.

– Siz həm də ziyalısınız, ölkənin əqidəli ziyalıları ilə seçilən bir institutuna rəhbərlik edirsiniz. Necə bilirsiniz, cəmiyyətdə yaşayıb cəmiyyətdən kənarda qalmaq olarmı - bu sual seyrçi mövqe tutmağa üstünlük verənlərə aiddir.

Yaxud cəmiyyətdə yaxşı qarşılanmasa da, ziyalı qruplaşması mövcud ola bilərmi - bu isə siyasiləşməyə meyli olan bir neçə nəfərə aiddir.

– Son vaxtlar ölkə mətbuatında "ziyalı kimdir?" sualı tez-tez qoyulur və ona ən müxtəlif cavablar verilir. Bəziləri hesab edirlər ki, ziyalı mükəmməl təhsil almış, dərin savada və zəngin biliyə malik şəxsdir. Digərləri düşünürlər ki, əsl ziyalı xalqın yoluna işıq saçan, onu xoş sabaha aparan böyük insandır. Əsl ziyalı vətən, millət naminə özünü fəda edən, qurban verən insandır - deyənlər də var. Bəli, bu keyfıyyətlər əsl ziyalıya xas olmalıdır. Amma fıkrimcə, bunlar kifayət deyil. Qəti əminəm ki, əsl ziyalı alicənablığı, yüksək mədəniyyəti ilə seçilməlidir, ətrafdakılar üçün saf mənəviyyat nümunəsi olmalıdır. Onun sözü ilə əməli vəhdət təşkil etməlidir. Hər bir hərəkətinin ətrafındakılara nə kimi təsir edəcəyini, nə kimi nəticələr verəcəyini əvvəlcədən ölçüb-biçməlidir, heç vaxt məsuliyyət hissini itirməməlidir. Təbii ki, ziyalı xalqının çətin günündə, taleyüklü məqamlarda kənardan müşahidəçi ola bilməz. O, proseslərə ən fəal şəkildə müdaxilə etməlidir, xalqın önündə getməlidir.

Xalqımızın ümummilli mənafeləri tələb edir ki, ərazi bütövlüyümüzü təmin edək, keçid dövrünü adlayıb azad, fıravan cəmiyyət, demokratik, hüquqi, dünyəvi dövlət quraq. Bütün bunlara isə ictimai-siyasi sabitliyi təmin etməklə nail olmaq mümkündür. Odur ki, bu gün kim öz fəaliyyəti ilə yaranmış ictimai-siyasi sabitliyi pozmaq istəyirsə, o artıq düşmənçilik mövqeyindən çıxış edir. Müxaliflik o deməkdir ki, plüralist, demokratik cəmiyyətdə fərqli, alternativ fikir irəli sürülür. Amma əgər bu müxalif artıq elə hərəkətlərə yol verirsə ki, bu hərəkətlər əmin-amanlığa, sabitliyə xələl gətirir, ölkənin inkişafını ləngidir, xoşagəlməz vəziyyət yaradır, bu artıq müxaliflik deyil. Siyasi mübarizə mədəniyyəti var və hər hansı müxalif buna riayət etməlidir.

Bizdə isə bəzi müxalif dairələr müəyyən edilmiş yerlərdə mitinq keçirə bilmirlər, aşkar olunur ki, onların sosial bazaları yoxdur, xalq bu adamların sözünə inanmır. Ona görə də radikal üslublara əl atırlar, süni surətdə qarşıdurma yaradırlar. Belə olan

təqdirdə onların vətənpərvər olduqlarına inanmaq çətindir. Bu adamlar yalnız şəxsi ambisiyalarını həyata keçirmək istəyirlər. Mən onları başa düşə bilmirəm. Heç olmasa xalq, vətən naminə gərək öz şəxsi maraqlarını kənara qoysunlar və məsuliyyətlərini dərk etsinlər.

Azərbaycan əsrlər boyu müstəqilliyə can atıb, nəhayət, azadlıq əldə edib. Vətənin taleyi heç kimin siyasi ambisiyasının qurbanı olmamalıdır. Hesab edirəm ki, yaşadığımız taleyüklü dövrdə hər bir azərbaycanlı öz məsuliyyətini tam dərk etməli və ümummilli maraqlardan çıxış etməlidir. Bu gün ümummilli mənafeyimiz tələb edir ki, prezidentin ətrafında sıx birləşərək hər birimiz müstəqilliyimizin möhkəmləndirilməsinə bacardığımız töhfəni verək. Ziyalı passiv mövqe tutmamalıdır. Artıq bir dəfə ziyalı təbəqəsinin passiv mövqeyinin acı nəticələrini bütün xalq öz üzərində hiss elədi, başımıza nələr gəldi.

*Müsahibəni apardı: Validə İsmaydova*
*"Azərbaycan" qəzeti, № 106, 11 may, 2002-ci il*

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN TARİXİNƏ BÖYÜK QURUCU KİMİ DAXİL OLUB

*MÜSAHİBİMİZ MİLLİ MƏCLİSİN SƏDR MÜAVİNİ, PARLAMENTİN MÜSTƏQİL DEPUTATLAR QRUPUNUN KOORDİNATORU GÖVHƏR BAXŞƏLİYEVADIR*

– Gövhər xanım, bu gün ölkədəki ictimai-siyasi vəziyyəti necə qiymətləndirirsiniz?

– Azərbaycan payızda keçiriləcək prezident seçkiləri kimi mühüm tarixi hadisə ərəfəsindədir. Bu gün Azərbaycandakı ictimai-siyasi vəziyyət sabit və sivil xarakterdədir. 1993-cü ildən bəri ölkə həyatının bütün sahələrində aparılan islahatlar özünün müsbət nəticələrini vermişdir: istər iqtisadiyyatda, istər siyasətdə, istərsə də mədəni həyatda böyük dəyişikliklər olmuşdur. Beləliklə, hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolu seçən müstəqil ölkəmiz dövlətçiliyini, müstəqilliyini itirmək təhlükəsindən xilas olaraq davamlı inkişaf tendensiyasına malik, gözəl perspektivləri olan respublikaya çevrilmişdir.

Fəxrlə deyə bilərik ki, respublikamız çoxlarını heyrətləndirən böyük transmilli layihələrin təşəbbüsçüsüdür. Nəzərə alsaq ki, "Əsrin müqaviləsi", onun mühüm tərkib hissələrindən olan Bakı-Tbilisi-Ceyhan, qədim İpək Yolu, şimal-cənub nəqliyyat dəhlizi və s. layihələr artıq reallaşmaqdadır, onda Azərbaycanın artıq beynəlxalq birliyin layiqli üzvü olduğunu deməyə əsasımız var. Həm ölkə daxilində, həm də xaricdə aparılan siyasətin, Azərbaycanda ardıcıl həyata keçirilən siyasi və iqtisadi islahatların, demokratikləşmə prosesinin hüquqi bazası yaradılmışdır. Milli Məclis islahatların qanuni əsasını möhkəmləndirmək və təkmilləşdirmək işini Konstitusiya ilə müəyyənləşdirilmiş səlahiyyətləri daxilində yerinə yetirmişdir.

**Yeri gəlmişkən, parlamentin yaz və növbədənkənar sessiyaları uğurlu fəaliyyətlə yekunlaşdı. Bu sessiyada Milli Məclisin 31 iclası olmuşdur, iş planında nəzərdə tutulan, qanunvericilik təşəbbüsü qaydasında göndərilən 79 qanun və qərar ətraflı müzakirələrdən sonra qəbul edilmişdir. 30 beynəlxalq konvensiya təsdiq olunmuşdur. 17 qanuna əlavə və dəyişikliklər edilməsi məqsədəuyğun sayılmışdır.** Qəbul olunan və cənab prezident tərəfindən imzalanan qanunlar sırasında «2002-ci il dövlət büdcəsinin icrası haqqında», «Feldyeger rabitəsi haqqında», "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında», "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında», "Sərnişinlərin icbari sığortası haqqında», "Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarının pozulmasına görə məsuliyyət haqqında" və başqalarının adını çəkmək istəyirəm. Bu qanunların, o cümlədən qüvvədə olan "Azərbaycan Respublikasında dövlət dili haqqında», "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə qərarlarının icrası haqqında», «Sığorta haqqında» qanunlara, habelə İnzibati Xətalar və Torpaq Məcəllələrinə edilən əlavə və dəyişikliklərin ölkə həyatının bu və ya digər sahələrinin nizama salınmasında, dövlət quruculuğu prosesinin dərinləşməsində, qanunların aliliyinin təmin edilməsində, nəticə etibarilə dövlətin sosial siyasətinin təkmilləşdirilməsində mühüm əhəmiyyəti vardır. «Dövlət yaxşı yaşamaq üçün yaradılır» konsepsiyası Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti üçün tamamilə xarakterikdir. Cənab prezidentin həm ötən əsrin 70-80-ci illərində ölkəyə rəhbərlik edərkən, həm də son on ildə müstəqil dövlət qurarkən apardığı ümumi siyasət bu olmuşdur: Azərbaycanın ümummilli mənafelərini istənilən səviyyədə müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın və ölkənin təhlükəsizliyini təmin etmək. Hesab edirəm ki, cənab prezident bütün hallarda öz istəyinə nail olmuşdur və ona görə də xalqının ümummilli liderinə çevrilmişdir. Təəssüf edirəm ki, onun xalqı üçün gördüyü işlərin mində birini görməyən insanlar bu gün ona qarşı böhtan kampaniyası aparırlar. Tam əminəm ki, Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu

kimi daxil olub. Hesab edirəm ki, I Pyotr və Mustafa Kamal Atatürk öz xalqlarının tarixində hansı yeri tuturlarsa, Heydər Əliyev də Azərbaycan xalqının tarixində o yerə sahibdir.

– Siz Milli Məclisin yaz və növbədənkənar sessiyalarında qəbul olunan bir sıra sənədlər haqqında danışdınız. Yəqin razılaşarsınız ki, Seçki Məcəlləsinin qəbulu bu dövrün ən diqqətəlayiq hadisəsidir. Parlamentdə çoxluq təşkil edən partiyanın təmsilçilərinin seçki orqanlarının təşkili ilə bağlı güzəştə getməsi YAP-ın bəzi nümayəndələri tərəfindən narazılıqla qarşılanmışdır. Elə müstəqil deputatlar da hesab edirdilər ki, bu format onların cəmiyyətdəki statuslarına uyğun deyil. Belə isə nə üçün bu varianta səs verdiniz?

– Milli Məclis seçkilərin bütün növlərini, həmçinin referendumun təşkili və keçirilməsi mexanizmini institutlaşdıran vahid sənəd - Seçki Məcəlləsini qəbul etmişdir. Məcəllə layihəsi parlamentə təqdim edilməzdən əvvəl siyasi partiyaların, ictimaiyyətin geniş təbəqələrinin müzakirəsinə verilmiş, müvafıq beynəlxalq qurumlarla birgə dəyirmi masalar təşkil edilmiş, bir sıra mühüm təkliflər nəzərə alınmışdır. Parlamentdə isə sənəd 6 ay müzakirə olunmuşdur. Seçki komissiyalarının təşkili ilə bağlı müddəalar cəmiyyətdəki reallığı nəzərə almasa da, ilkin variantda parlamentdə azlıq təşkil edən müxalif siyasi partiyalara paritet əsaslarla yer verilsə də, bu, parlamentdən kənarda qalan müxalifət partiyalarını qane etmirdi. Onlar seçki komissiyalarında təmsil olunmaq, özü də daha çox təmsil olunmaq istəyirdilər, seçkilərdə qalib gəlmək üçün seçki komissiyalarında iştirak etməyi əsas şərt sayırdılar. Onlar öz ambisiyalarına sadiq qalaraq layihənin parlamentəqədərki müzakirələrində iştirak etmədilər, lakin beynəlxalq qurumlara məlumatlar ötürdülər. Bu dövrdə heç bir siyasi partiyaya mənsub olmayan müstəqil deputatların tutduqları mövqe tamamilə ədalətli idi və cəmiyyətdəki reallığı nəzərə alırdı. Layihənin ilkin variantında müstəqil deputatların seçki komissiyalarındakı iki namizədi maraqlı tərəflərlə razılaşdırılmalı idi və bu, müstəqil deputatların haqlı etirazı ilə qarşılanırdı. Prinsipcə biz obyektiv idik: əvvəla, seçicilərin 90 faizinin parti-

ya mənsubiyyəti yoxdur, ikincisi, parlamentdə çoxluq təşkil edən ikinci qüvvə bizik. Nəhayət, məhz müxalifət partiyalarının hamısının seçkidə iştirakını təmin etmək, cəmiyyətin bütün təbəqələri arasında konsensusa nail olmaq naminə ATƏT-in, AŞ-nin müvafıq qurumları keçid dövrü üçün nəzərdə tutulan tövsiyələrini parlamentə göndərdilər. Həmin tövsiyələr əsasında Milli Məclisin üç daimi komissiyası keçid dövrü üçün seçki orqanlarının formalaşması prinsiplərini hazırladı və parlamentdə deputatları çoxluq təşkil edən partiya, eyni zamanda müstəqil deputatlar bu güzəşt variantını qəbul etməyi qərara aldılar. Onu da deyim ki, bu variantda heç bir siyasi partiyaya mənsub olmayan deputatların maraqları əvvəlkinə nisbətən daha az nəzərə alınmışdır. Belə ki, MSK-da müstəqil deputatlara təkmandatlı seçki dairələri üzrə seçilmiş və proporsional seçki siyahıları ilə təmsil olunmayan partiyaların nümayəndələri ilə birlikdə cəmi üç yer verilir. Buna baxmayaraq, biz bu layihəni qəbul etməyi ona görə lazım bildik ki, qarşıdakı prezident seçkilərində iddialı şəxslərin hamısı iştirak edə bilsin, seçkilərdən sonra səsvermənin nəticələri barədə fıkirlər obyektiv olsun. Bu qayda 2005-ci ildə yeni seçiləcək Milli Məclisin ilk iclasınadək qüvvədə olacaqdır. Düşünürəm ki, parlament seçki komissiyalarının indiki formatda təşkili qaydasını qəbul etməklə tarixi addım atmışdır.

Milli Məclisin qərarı ilə MSK-nın üzvləri artıq seçilmişdir, dairə və məntəqə seçki komissiyaları formalaşmağa başlamışdır, prezidentliyə 15-dən artıq namizəd MSK tərəfindən təsdiq olunmuşdur. Təsdiq olunan namizədlər arasında vaxtilə Seçki Məcəlləsini kəskin tənqid edən partiyaların sədrlərinin olması və bu kampaniyaya qoşulmaq istəyənlərin sayının getdikcə artması onu göstərir ki, parlamentin qərarı düzgündür. Seçki Məcəlləsində dünyanın qabaqcıl ölkələrin təcrübəsi, beynəlxalq təşkilatların təklifləri və tövsiyələri, Azərbaycan Konstitusiyasının müddəaları nəzərə alınmışdır. Bu, seçkilərin demokratik, şəffaf, ədalətli keçirilməsinə təminat verən, sivil seçki texnologiyalarına əsaslanan yüksək səviyyəli qanundur. Seçki Məcəlləsi haqqında müvafıq beynəlxalq qurumlar, müxtəlif dövlətlərin ölkəmizdəki

səfırləri müsbət fikirlər söyləmişlər. İndi hər şey qanunun necə tətbiq olunmasından asılıdır.

Onu da deyim ki, bu sessiyada Seçki Məcəlləsinin müddəalarının pozulmasına görə məsuliyyət haqqında qanunun qəbulu hüquqi dövlət quruculuğunda vacib amil kimi qiymətləndirilməlidir. Milli Məclisin qərarına əsasən, Mülki Prosessual Məcəllənin 34-cü maddəsinə edilən əlavəyə görə, seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi haqqında işlərə birinci instansiya üzrə rayon (şəhər) məhkəmələri və ya Apellyasiya məhkəməsi tərəfindən baxılacaqdır. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə və əlavələrə görə, seçki (referendum) ilə əlaqədar hədə-qorxu və ya zorakılığa çağıran çıxışlar edilməsi və ya bu cür materialların yayılması, seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə maneolma, seçki sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səslərin gizliliyini pozma üçün məsuliyyət nəzərdə tutulmuşdur. Seçki Məcəlləsi vətəndaşların konstitusion hüquqlarının tam təmin olunmasına imkan yaradır, bu isə o deməkdır ki, Konstitusiyada nəzərdə tutulan vəzifələr, o cümlədən qanunlara riayət hər bir vətəndaş üçün ali meyara çevrilməlidir. Demokratik cəmiyyətin əsas şərti qanunların aliliyini təmin etməkdir.

– Bəziləri cənab prezidentin təhsil, səhiyyə, elm, gənclər, idman, sosial təminat və s. sahələrdə çalışan işçilərin əmək haqlarının artılırması haqqında sənədlər imzalamasını seçkiqabağı atılan addım kimi qiymətləndirir. Bu barədə sizin fikrinizi bilmək maraqlı olardı.

– Bəri başdan deyim ki, bu, belə deyildir. Yadınızdadırsa, son illər parlamentdə müzakirə olunan dövlət büdcəsi haqqında sənədlərin hamısı barədə deputatların ümumi fikirləri belə olmuşdur ki, layihə sosialyönümlüdür, təhsilə, elmə, səhiyyəyə, mədəniyyətə və s. ayrılan xərclər əvvəlki ilə nisbətən artmışdır. Xalq tərəfindən seçilən, konkret dairələrin əhalisi qarşısında məsuliyyət daşıyan deputatlar büdcə sənədlərinin vaxtında və təkmil vəziyyətdə Milli Məclisə təqdim edildiyinin, ölkənin inkişafı, vətəndaşların həyat səviyyəsinin yaxşılaşması üçün bütün im-

kanların səfərbər olunduğunun, yeni neft strategiyasının reallaşmasının öz bəhrələrini verdiyinin fərqinə varırlar. Beləliklə, 2003-cü ilin dövlət büdcəsi layihəsi müzakirə olunarkən, habelə bu ilin martında Nazirlər Kabinetinin hesabatı dinlənilərkən ölkənin imkanlarının artdığına əsasən biz bu ildən dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının artırılacağını bilirdik.

Bütün bunlar onu göstərir ki, hakimiyyət vətəndaşlarına yönəlik populist çıxışlar etmək, yalançı vədlər vermək, həyata keçirilməsi mümkün olmayan xülyalar söyləmək fıkrində deyil. Reallıq belədir ki, dövlətimiz, iqtisadiyyatımız inkişaf etdikcə, Azərbaycana yatırılan sərmayələr hesabına gəlirlərimiz artdıqca əmək haqları çoxalacaq, insanların həyat səviyyəsi yüksələcəkdir.

Ümumiyyətlə, **cənab prezident əhalinin sosial müdafiəsi ilə bağlı müntəzəm tədbirlər həyata keçirir və bu, xalq təsərrüfatının müxtəlif sahələrində əldə edilən uğurlarla bilavasitə bağlıdır. 2003-cü ilin beş ayında da ümumi daxili məhsulun həcmi 9,4 faiz, dövlət büdcəsinin gəlirləri son ildə 36 faiz, əhalinin banklarda olan əmanətləri 51 faiz artmışdır.** Bu göstəricilər ilk dəfədir ki, qazanılır və MDB ölkələrində analoqu yoxdur. Demək, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması müntəzəm xarakter alan prosesdir. Konkret misal deyim. Əgər 1994-cü ildə dövlət budcəsinin xərclərində elm bölməsinin xüsusi çəkisi 0,7 faiz idisə, bu il həmin rəqəm 1,3 faizi ötüb keçmişdir. Elm sahəsinə büdcədən ayrılan vəsaitin xüsusi çəkisi təxminən 2 dəfə artmışdır və bu, bütün sahələr üçün xarakterikdir. 1995-ci ildən bəri cənab prezident elmi işçilərin əmək haqlarının artırılması ilə bağlı beş qərar qəbul etmişdir. Elm xərcləri 2003-cü ildə 87,6 milyon manat müəyyən edilmişdir. 1994-cü illə müqayisədə bu sahəyə ayrılan vəsait 15,1 dəfə çoxalmışdır. Ötən il Azərbaycan prezidenti AMEA işçilərinin əmək haqlarının artırılması ilə bağlı sərəncam imzalamış, maaşları 100 faiz artırmışdır. Cənab prezidentin 23 iyun 2003-cü il tarixli sərəncamı isə elm sahəsində çalışan 15 mindən çox əməkdaşın sosial vəziyyətinin yaxşılaşması-

na kömək edəcəkdir. Bunlar sübut edir ki, dövlətimizin başçısının qanunvericilik təşəbbüsü qaydasında parlamentə təqdim etdiyi sənədlərin, dövlət büdcəsinin, parlamentin qəbul etdiyi qanunların nəzərdə tutulduğu kimi icra olunması Azərbaycan prezidentinə social müdafıə ilə bağlı mühüm addımlar atmağa imkan verir. Hakimiyyət Əsas Qanunumuzda dövlətin ali məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarına təminat vermək olduğunu nəzərə alaraq, hər kəsin öz müstəqil dövlətinin imkanlarından yararlanmasına şərait yaradır.

*Müsahibəni apardı: Validə İSMAYILOVA*
*"Azərbaycan" qəzeti, 10 iyul, 2003-cü il.*

## GÜCLÜ İQTİDAR – QÜDRƏTLİ AZƏRBAYCAN DEMƏKDİR

– Gövhər xanım, yaxşı olar ki, ilk əvvəl yaz və növhədənkənar sessiyalarda Milli Məclisin səmərəli işinin bəzi məqamları barədə oxucularımıza məlumat verəsiniz. Bu sessiyalarda qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan bir sıra sənədlər müzakirə edilmiş, qanunvericilik bazasında beynəlxalq normalara uyğunluq baxımından təkmilləşdirilmə aparılmış, ölkədə həyata keçirilən quruculuq işlərinin davamı kimi konstitusion islahatları əsaslandıran hüquqi aktlar qəbul olunmuşdur. Azərbaycan Respublikasının xarici dövlətlərlə bağladığı sazişlərin təsdiqi, parlament nümayəndə heyətinin müxtəlif beynəlxalq qurumlarda fəal iştirakı - bütün bunlar Milli Məclisin fəaliyyətində önəmli yer tutur.

– Doğrudan da 2002-ci ilin yaz və növbədənkənar sessiyalarında parlamentin fəaliyyəti çox məhsuldar olmuşdur. Bu müddət ərzində Milli Məclisin qanunvericilik işləri planında nəzərdə tutulan və qanunvericilik təşəbbüsü qaydasında hörmətli prezidentimiz tərəfindən təqdim edilən bir çox vacib qanun layihələri ətraflı müzakirə olunaraq qəbul edilmişdir. Bir sıra qanunlar isə birinci və ikinci oxunuşda müzakirədən keçmişdir. Qəbul edilmiş 115 qanun və qərar Azərbaycanda ardıcıl həyata keçirilən siyasi, iqtisadi və hüquqi islahatların qanunvericilik bazasını daha da möhkəmləndirmişdir. Bu sırada "Gənclər siyasəti haqqında", "Televiziya və radio yayımı haqqında", "Büdcə sistemi haqqında", "İcbari ekoloji sığorta haqqında" və sairə qanunları göstərmək olar. Bundan başqa iki Konstitusiya Qanunu - "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" və "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" - qəbul olunmuşdur və altı

aydan sonra Konstitusiyamıza uyğun olaraq yenidən səsverməyə çıxarılacaqdır. Bir sıra əsasnamələr qəbul olunmuş, hərbi quruculuq sahəsində fərqlənməyə görə medallar təsis olunmuşdur. Mövcud qanunvericiliyi təkmilləşdirmək məqsədilə bəzi qanunlara dəyişikliklər və əlavələr edilmişdir.

Yaz və növbədənkənar sessiyalar zamanı Milli Məclis bir sıra beynəlxalq konvensiyalara və beynəlxalq təşkilatların (BMT, MDB, GUÖAM, QİƏT və s.) hüquqi sənədlərinə qoşulması barədə qanunlar qəbul etmişdir. Bundan əlavə Milli Məclis Azərbaycan Respublikasının xarici dövlətlərlə (Türkiyə, Rusiya, Gürcüstan, İran, Fransa, Niderland, Ukrayna, Qazaxıstan, Latviya və s.) bağladığı müqavilə və sazişləri təsdiq etmişdir. Parlament nümayəndə heyətləri ən müxtəlif beynəlxalq təşkilatların tədbirlərində fəal iştirak etmiş, Azərbaycan həqiqətlərini dünyaya çatdırmışlar.

– Siz İranın adını çəkdiniz. Məlumdur ki, İranla bizi bağlayan tellər çoxdur. Lakin müstəqilliyimizin ilk illərindəki hakimiyyətlər dövründə İranla münasibətlərimizə ciddi zərər vurulmuşdu. AXC hakimiyyəti isə qonşu ölkələrdən guya təkcə Türkiyə ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi, amma bu yaxınlarda məlum oldu ki, onlar bu qardaş ölkə ilə şəffaf əlaqə qura bilməmişlər. Yalnız xalqın tələbi ilə Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra ilk növbədə qonşu ölkələrlə, eyni zamanda dünyanın bütün dövlətləri ilə qarşılıqlı faydalılığa əsaslanan tarazlaşdırılmış siyasət həyata keçirdi. Prezidentimizin İrana son səfəri zamanı ölkələrimiz arasında ilk dəfə imzalanan müqavilə və sazişlərin əhəmiyyəti xüsusi vurğulanmalıdır...

– İran Azərbaycanın böyük qonşusudur və regionda böyük əhəmiyyətə malik olan ölkədir. İranla Azərbaycanı çoxsaylı mədəni, tarixi və etnik tellər bağlayır. Bu baxımdan İranla ağıllı, düşünülmüş, tarazlaşdırılmış siyasət aparmaq bizim üçün çox vacibdir. 1992-1993-cü illərdə əvvəlki iqtidarın bu sahədə yol verdiyi səhvləri və onların ölkəmiz üçün yaratdığı problemləri yada salsaq, Azərbaycan-İran münasibətlərinin xüsusi əhəmiyyət kəsb etməsi aydınlaşar. Prezidentin İrana son səfəri zamanı mü-

qavilə və üç saziş imzalandı ki, bu sənədləri də parlament son iş həftəsində təsdiq etdi. "Dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə, Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında "Hava nəqliyyatı haqqında", "Beynəlxalq avtomobil daşımaları haqqında", "Gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" sazişlər ikitərəfli əməkdaşlığın konkret sahələri üzrə problemlərin həllini təmin edəcək və bir çox sahələrdə əməkdaşlığı genişləndirəcək. Bağlanmış müqavilədə qarşılıqlı əməkdaşlığın çox vacib prinsipləri təsdiqlənir: bir-birinin ərazi bütövlüyünə hörmət və daxili işlərinə qarışmamaq, sərhəd əməkdaşlığı sahəsində birgə fəaliyyət, mübahisələri müzakirələr yolu ilə və qarşılıqlı anlaşma şəraitində həll etmək, beynəlxalq tanınmış sərhədlərin zor işlətməklə pozulmasının nəticələrini tanımama və s. Tərəflər öz ərazisində ayrı-ayrı təşkilatlar, dəstələr və şəxslərin digər tərəfə qarşı fəaliyyət göstərməsinə və öz ərazisindən digər tərəfə qarşı təcavüz məqsədilə istifadə edilməsinə imkan verməyəcəklər. Hər iki dövlət Xəzəryanı ölkələrin ümumi razılığı əsasında Xəzər dənizinin hüquqi statusuna dair danışıqların sürətləndirilməsinə və mövqelərinin yaxınlaşdırılmasına tərəfdar olduqlarını bildiriblər. Nəzərə çarpan cəhət odur ki, İranda əldə edilmiş razılaşmalar gələcəyə yönəlmişdir. İnanıram ki, Azərbaycan-İran münasibətləri bağlanmış sənədlər əsasında yüksələn xətlə inkişaf edəcək və hər iki ölkəyə fayda verəcək.

– Məlumdur ki, Azərbaycan Respublikasının Konstitusiyasına möhtərəm prezidentimiz tətəfindən təklif olunan dəyişikliklər zərurətdən, cəmiyyətin tələbindən doğur. Bu dəyişiklikləri ölkədə 1995-ci ildən bəri aparılan islahatlardan ayrılıqda təsəvvür etmək mümkün deyil. Referendum aktı layihəsindəki müddəalar dövlətimizin seçdiyi yola və sivil ölkələrin təcrübəsinə uyğundur?

– Əlbəttə. Bildiyiniz kimi, cənab prezidentin fərmanı ilə Konstitusiyaya dəyişikləərlə bağlı avqustun 24-də ümumxalq səsverməsi - referendum keçiriləcəkdir. Referendum aktı layihəsinə görə, Konstitusiyanın 20 maddəsinə 39 dəyişiklik təklif edilir.

1995-ci ildə referendum yolu ilə qəbul etdiyimiz Konstitusiya artıq 7 ildir ki, fəaliyyətdədir və bu müddət ərzində ölkədə bir çox köklü dəyişikliklər baş vermiş, Azərbaycan demokratik dünya birliyinə inteqrasiya olunmuşdur. Əslində təklif olunan dəyişikliklər ölkənin bugünkü reallıqlarını əks etdirir və gələcək rəvan, sabit inkişafa zəmin yaradır. Konstitusiyaya edilən hər hansı dəyişiklik və əlavələr cəmiyyətin inkişafı üçün vacib şərtdir. Belə ki, Konstitusiyaya dəyişiklik və əlavələr olmasa, o, günün tələblərinə cavab verməz, bu isə cəmiyyətdə gedən sosial-siyasi prosesləri ləngidər. 1966-1973-cü illərdə ABŞ prezidenti olmuş Riçard Niksonun sözlərini xatırlatmaq istərdim. O demişdir: "ABŞ demokratiyası öz əksini Konstitusiyaya edilmiş dəyişikliklərdə tapır". Hesab edirəm ki, haqqında danışdığımız dəyişikliklər müasir durumda real siyasi prosesləri əks etdirməklə yanaşı, hörmətli prezidentimizin bu proseslərə tam adekvat reaksiyasıdır.

Mən təklif olunan dəyişikliklərin yalnız bir neçəsinə münasibət bildirmək istərdim. Vətəndaşların birbaşa Konstitusiya Məhkəməsinə müraciəti çox əhəmiyyətli məsələdir və artıq cəmiyyətdə öz həllini gözləyirdi. Parlamentə külli miqdarda məktublar gəlir, vətəndaşlar mövcud qanunvericiliyin təhlil edilməsini istəyirlər. Çünki ölkənin ən müxtəlif sahələrini əhatə edən qanunlar çoxdur, bəzən bu qanunlar arasında anlaşılmazlıqlar meydana çıxır. Bütün bunları düzgün təhlil etmək Konstitusiya Məhkəməsinin işidir. Ona görə də vətəndaşların birbaşa Konstitusiya Məhkəməsinə müraciət etməsi, yaxud məhkəmələrin özlərinin belə bir hüquq alması çox düzgün normadır, vaxtında atılmış addımdır.

Milli Məclisin işinin təkmilləşdirilməsi ilə əlaqədar dəyişikliklər məqsədəuyğundur. Prezident səlahiyyətlərini müxtəlif səbəbdən icra edə bilməyəndə bu səlahiyyətlər üç ay müddətində MM sədrinə keçirsə, belə bir norma Konstitusiyanın, sivil dövlətlərin ali qanunvericilik aktlarının müddəaları ilə ziddiyyət yaradır. Milli Məclis qanunverici orqandır, prezident dövlətin başçısı kimi icra hakimiyyətinə rəhbərlik edir, icra hakimiyyətində də prezidentdən sonra ikinci şəxs baş nazirdir. Əgər səlahiyyət-

lər prezidentdən sonra MM sədrinə keçirsə, bir şəxsin əlində həm qanunvericilik, həm də icra funksiyaları cəmləşir. Bu, hakimiyyət bölgüsü baxımından düzgün deyil. Ona görə də prezident səlahiyyətlərinin baş nazir tərəfindən icrası vacibdir. O, icra məsələləri ilə yaxından tanışdır, icra sahəsində idarəetməyə MM sədrinə nisbətən daha qabildir. Hesab edirəm ki, Milli Məclisin əlindən onun heç bir funksiyası alınmır. Parlament Konstitusiyada təsbit olunmuş bütün səlahiyyətləri yerinə yetirir, əksinə, referendum aktı layihəsinə görə MM-in işinin təkmilləşdirilməsi, səlahiyyət dairələrinin genişləndirilməsi istiqamətində bir sıra mühüm məsələlər nəzərdə tutulur.

Daha bir dəyişiklik - bütövlükdə majoritar seçki sisteminə keçid isə millət vəkilində məsuliyyəti artırır. Bu zaman vətəndaş birbaşa öz namizədinə səs verir və sonrakı illər ondan bilavasitə seçkiqabağı proqramında verdiyi vədlərə əməl etməsini tələb etmək imkanına malik olur. Məsələn, mən majoritar üsulla seçilmişəm. İndidən düşünürəm ki, öz seçicilərimə üç ildən sonra nə cavab verəcəyəm? Çalışıram ki, onlarla tez-tez görüşüm, ehtiyaclarını ödəyim. Amma partiya siyahısı ilə seçilən deputatlar tamamilə sərbəstdirlər, özlərini seçiciləri qarşısında borclu hesab etmirlər. Azərbaycan demokratik ölkədirsə, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutubsa, belə konstitusion islahatlar mütləq aparılmalıdır.

– Konstitusiyaya əlavə kimi Milli Məclis tərəfindən qəbul edilən konstitusiya qanunu layihələrinin bir çox müddəaları bilavasitə insan və vətəndaş hüquq və azadlıqlarının daha da təkmilləşdirilməsinə həsr edilmişdir. Ombudsman təsisatının yaranması ilə ölkəmiz insan hüquqları anlayışına xüsusi önəm verdiyini sübut etdi. Parlamentin son iclasında seçilən ombudsmanın üzərinə bu baxımdan məsul vəzifələr düşür. Necə bilirsiniz, insan hüquqları üzrə müvəkkil həmin vəzifələrin öhdəsindən gələcəkmi?

– Ombudsman yeni bir institutdur, son illər Azərbaycanda qurulan yeni cəmiyyətin tələblərindən biridir, Avropa standartlarına uyğunlaşmağımızın bariz təzahürüdür. Bu, Azərbaycan

üçün çox gərəkli, lazımlı təsisatdır. Tarixən xalqımızda ağsaqqal sözü yüksək tutulub, onun verdiyi qərara hamı tabe olub. Digər tərəfdən insan hüquqları üzrə müvəkkilə qoyulan tələblərdə yazılmışdı ki, ombudsman cəmiyyətdə yüksək nüfuza malik olmalı, ictimaiyyətin bütün təbəqələri tərəfindən qəbul edilməlidir. Cənab prezidentin təqdimatı ilə Milli Məclis üç nəfərin namizədliyini müzakirə etdi. Onların üçü də layiqli idi, amma mən Elmira Süleymanovanı daha yaxından tanıdığım üçün onun namizədliyi barədə Milli Məclisin iclasında da çıxış etdim.

Mən E.Süleymanovanın geniş mütaliəsinə, insani keyfiyyətlərinə hələ sovet dövründə qadın cəmiyyətində rəhbər işdə çalışarkən valeh olmuşdum. O, hər bir ağrılı məsələyə dərhal reaksiya verir, cəmiyyətdə baş verən heç bir hadisəyə biganə qalmırdı. Öz ürəyinin hökmü, vicdanının səsi ilə ən ağır problemlərlə məşğul olurdu, qadınları əsgərlərlə görüşə aparır, bölgələrdə qadın, ana və uşaq problemləri ilə məşğul olurdu. Qarabağ müharibəsi başlayan andan E.Süleymanovanın daha fəal işlədiyinin şahidi olduq. Qadın və inkişaf mərkəzi yaratdı. Qadınların 1995-ci ildə keçirilən Pekin konfransında ingilis dilində etdiyi çıxış, söylədiyi təkliflər çox sonralar Azərbaycana gələn əcnəbi qonaqlar tərəfindən xatırlandı. E.Süleymanova Azərbaycanı istənilən beynəlxalq təşkilatda şərəflə təmsil edəcək qadındır. Eyni zamanda Milli Elmlər Akademiyasının nümayəndəsidir, elmlər doktoru, professordur.

– Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra Elmlər Akademiyasını dağılmaqdan xilas etdi. Ölkə böhran içində çabaladığı anlarda möhtərəm Heydər Əliyev Elmlər Akademiyasına gələrək ziyalılarla, alimlərlə görüşmüş, məhz bundan sonra elm adamlarında Azərbaycan dövlətinə qarşı itmiş inam bərpa olunmuşdur. Bu gün imkan yaranan kimi dövlət elmin inkişafı, elm adamlarının rifahı qayğısına qalır. Siz həm də MEA-nın nüfuzlu bir institutuna rəhbərlik edirsiniz. 1992-93-cü illərlə müqayisədə alimlərimiz dövlət tərəfindən elmə göstərilən qayğını necə qiymətləndirirlər?

– 1992-93-cü illərdə, əvvəlki iqtidar hakimiyyətdə olanda səslənən fikirlər - EA-nı dağıtmaq lazımdır, onun institutlarını ayrı-ayrı təhsil universitetlərinə vermək gərəkdir - bizi çox narahat edirdi. Səriştəsiz rəhbərlərin EA-nın bağlanmasına dair fikirləri heç bir məntiqə söykənməyən cəfəng fikirlər idi.

Hörmətli prezidentimiz hakimiyyətə yenidən qayıtdıqdan sonra özünün ilk görüşlərindən birində - məhz EA-da elmimizə, alimlərimizə qarşı bu cür mövqe tutanlara çox tutarlı cavab verdi. Dövlət başçısı dedi ki, EA Azərbaycan xalqının XX əsrdə yaratdığı böyük sərvətdir, biz onu qoruyub saxlamalı, inkişaf etdirməliyik.

Ötən illər ərzində möhtərəm prezidentimiz bir neçə dəfə EA işçilərinin əmək haqqını artırıb. Etiraf etmək lazımdır ki, alimlərimizin aldığı məvacib onları hələ də tam təmin etmirdi. Alimlərin keçid dövrü ilə əlaqədar maddi sıxıntı içərisində yaşaması həm elmi işə, həm də MEA-nın ümumi durumuna təsir göstərirdi. Nəhayət, İqtisad Universitetinin yubileyində hörmətli dövlət başçımız dedi ki, bu yaxınlarda MEA-da çalışan işçilərin məvacibi artırılacaqdır, əlavə etdi ki, əhəmiyyətli dərəcədə, onlar bunu hiss edəcəklər. Biz prezidentimizin 1 iyul tarixli MEA işçilərinin əmək haqlarının artırılması haqqında sərəncamını çox böyük sevinclə qarşıladıq. Sərəncama görə, MEA işçilərinin vahid tarif cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə maaşları orta hesabla iki dəfə artırılır. İyulun 1-dən MEA-nın həqiqi üzvlərinə 1 milyon 500 min manat, müxbir üzvlərə 1 milyon manat aylıq rütbə maaşları verilir. Akademiyanın elmi bölmələrinin akademik katiblərinin və rəyasət heyəti üzvlərinin aylıq vəzifə maaşları artıq 1 milyon 200 min manatdır. Bunlar nə deməkdir? 8 min nəfərlik kollektivin maaşının birdən-birə bu qədər artırılması çox böyük vəsait tələb edir. Sərəncamı eşidən kimi biz iclas keçirdik, prezidentə müraciət qəbul etdik. Biz dövlət tərəfindən elmin dəstəklənməsinin bariz nümunəsini gördük və bu, alimlərimizdə çox böyük ruh yüksəkliyi yaratdı. Hiss olundu ki, MEA, alimlər dövlətə, cəmiyyətə lazımdır, dövlət imkan yaranan kimi elmin inkişafı qayğısına qalır.

Əvvəllər, sovet dövründə elmə böyük həvəs var idi, amma maddi problemlərlə əlaqədar elmə istedadlı kadrların gəlişi azalmışdı. Biz görürdük ki, gənclər daha gəlirli sahələrə üz tuturlar, bu da elmdə varislik prinsipinin pozulmasına gətirib çıxarırdı. Akademiklərə, müxbir üzvlərə belə bir rütbə maaşlarının verilməsi o deməkdir ki, elmə həvəs artacaq və Akademiya öz əvvəlki nüfuzunu, əhəmiyyətini bərpa edəcəkdir. Dahi Nizami Gəncəvidə belə bir beyt var: "Hamı elmə, fənnə eylədi rəğbət, çünki elmə təşviq edirdi dövlət". İnanırıq ki, akademiya cəmiyyətdə mövqeyini möhkəmləndirəcəkdir.

– Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti ilk növbədə vətəndaşlarının mənafeyini nəzərə alır. Dövlət əgər AXC-Müsavat dövründə olduğu kimi, öz işini bir və ya bir qrup şəxsin mənafeyi baxımından qurursa, iflasa uğrayır, lakin quruculuq işlərini bütövlükdə vətəndaşların mənafeyinə, xalqının maraqlarına əsasən aparırsa, uğur qazanır. Xalqımız bu fikirdədir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Siz parlamentdə həm də seçicilərin az qala 90 faizini - bitərəfləri təmsil edirsiniz. Konstitusiyaya əsasən ikinci dəfə prezident seçkilərində iştirak edəcəyini bəyan edən Heydər Əliyev həm də bitərəflərin vahid namizədi deyilmi?

– 2003-cü ildə Heydər Əliyev prezident seçkilərində öz namizədliyini verəcəyini bəyan etmişdir. Heydər Əliyev Konstitusiyaya əsasən prezident seçilmək hüququna malikdir. Azərbaycanda islahatları başa çatdırmaq onun missiyasıdır. Xalq inanır ki, mövcud olan bir sıra problemləri yalnız Heydər Əliyev həll edə bilər. Hörmətli prezidentimizin uğurlu xarici və daxili siyasətinin bəhrələrini hiss edən vətəndaşlarımız Heydər Əliyev siyasətinə alternativ olmadığını başa düşürlər. Vaxtilə bəziləri Heydər Əliyevin yeni neft strategiyasına şübhə ilə yanaşırdı. Amma indi həmin adamlar Azərbaycan prezidentinin yeritdiyi siyasətin düzgün olduğunu etiraf edirlər. Bilirsiniz, bədxahlarımıza Azərbaycanda zəif iqtidar lazımdır. Amma Azərbaycan xalqına güclü iqtidar gərəkdir, çünki güclü iqtidar güclü Azərbaycan deməkdir. Heydər Əliyev isə güclü Azərbaycanın - icti-

mai-siyasi sabitlik şəraitində sürətli iqtisadi inkişaf yolu ilə inamla irəliləyən milli dövlətimizin qarantıdır. Mən bitərəfləri təmsil edən deputat kimi Heydər Əliyevin strateji xəttinin düzgünlüyünə tam əminəm.

Heydər Əliyevin bütün fəaliyyəti Azərbaycan xalqının mənafeyi naminədir. 33 ildə qazanılan iqtisadi, mədəni, intellektual potensial onun xidmətinin bəhrəsidir. Heydər Əliyev Azərbaycanı yenidən qurdu. Bu böyük şəxsiyyət tarixə qurucu rəhbər kimi düşüb. Növbəti prezident seçkilərində Azərbaycan xalqının Heydər Əliyevdən layiqli namizədi yoxdur.

*Müsahibəni apardı: Validə İsmayılova*
*"Azərbaycan" qəzeti, № 161, 18 iyul, 2002-ci il*

## AZƏRBAYCAN PREZİDENTİNİN ELMƏ, TƏHSİLƏ QAYĞISI BU SAHƏNİN ADAMLARINDA RUH YÜKSƏKLİYİ YARADIB

– Xoş gördük, Gövhər xanım. Necəsiniz? Yay istirahətini necə keçirdiniz?

– Çox sağ olun, yaxşıyam. Yay istirahətini müalicədə oldum desəm, daha düzgün olar. İyulun 20-dən avqustun 14-dək Yesentukidə sanatoriyada oldum. Çünki bu il cərrahiyə əməliyyatı keçirmişəm. Bununla əlaqədar həkimlər məsləhət bildi ki, yayda mütləq müalicə olunum. İstirahətim bundan ibarət oldu. Avqustun 24-də ölkəmizdə referendum keçirildi. Bərdədə həm müşahidələrimi apardım, həm də seçicilərimlə görüşdüm.

Əvvəlcə onu da qeyd edim ki, səhər tezdən məntəqələri gəzməyə başladım. Məntəqələrdə olarkən heç bir qanun pozuntusu müşahidə etmədim. Münaqişəli vəziyyət, narahatçılıq görmədim. Tam sərbəst şəkildə, insanlar dəstə-dəstə gəlirdilər. Hətta növbələr düzülmüşdü. Bütün məntəqələrdə müxtəlif partiyaların müşahidəçiləri vardı. Onlara yanaşıb soruşdum ki, bəlkə hər hansı narazılıqları var. Deyirdilər ki, heç bir problemləri yoxdur, səsvermə prosesindən çox razıdırlar. Hətta Bərdənin 5 saylı orta məktəbində yerləşən 1 saylı məntəqədə amerikalılar müşahidəçi kimi iştirak edirdilər. 4 nəfər müşahidəçi idi, onlar da səsvermə prosesindən razı qalmışdılar...

– Amma müxalifət partiyalarının liderləri referendumda əhalinin çox az hissəsinin iştirak etdiyini iddia edirlər...

– Bilirsiniz, indiyədək Azərbaycanda hansı seçki olub ki, onun obyektivliyini müxalifət etiraf etsin? Hər hansı seçki keçirilibsə, hamısında deyiblər ki, saxtalaşdırılıb.

Onu deyim ki, artıq indiki müxalifətə inam qalmayıb. Ona görə də onların bu hay-küyü heç bir fayda verməyəcək. Bir illik hakimiyyətdə olduqları dövrdə Azərbaycanı fəlakətə sürüklədilər, qarışıqlıq, xaos yaratdılar. Həmin səhvlərini etiraf etməlidir-

lər ki, onlar bacarmadıqları işdən yapışdılar, etdikləri səhvlər xalqı yeni-yeni fəlakətlərə düçar etdi. Etiraf da cəsarət tələb edir. Bu cəsarəti onlar özlərində tapmalıdırlar. Yoxsa, dövlət tərəfindən görülən hər bir işə qara yaxmaq, mənfı qiymətləndirmək insafdan deyil. Ümumiyyətlə, mən demək istəyirəm ki, Azərbaycanın bu gün daha sivil, daha obyektiv, daha konstruktiv bir müxalifətə ehtiyacı var.

– Gövhər xanım, payız sessiyasında "Təhsil haqqında" qanun müzakirəyə çıxarılacaq...

– Bilirsiniz, hələlik payız sessiyasının planı tərtib olunmayıb. Ona görə də bu gün sizə nə cavab versəm, dəqiq olmaz...

Ümumiyyətlə, deyim ki, "Elm haqqında", "Təhsil haqqında" qanuna bu gün cəmiyyətdə çox ehtiyac var. Əhalinin böyük hissəsi bu qanunu gözləyir. Ölkədə hamı təhsillə maraqlanır. Taleyüklü məsələlərin bütövlükdə cəmiyyətə aidiyyəti var. Demək istəyirəm ki, cəmiyyət bu qanunları gözləyir. Həmin qanunlar işlənib hazırlanıb. Əvvəlki çağırış Milli Məclisdə iki oxunuşda müzakirə olunub. Qanunda çoxlu dəyişikliklər edilib...

Təhsildən danışanda, mən bir şeydən çox narahatam. Mənim deputatlığa namizədliyim 57 saylı Bərdə-Ağcabədi dairəsindən verilib. Bu dairəyə 58 kənd daxildir. Bunlardan 15-i Ağcabədi rayonunun, 43-ü isə Bərdənin kəndidir. Mən bu kəndlərin tam əksəriyyətini gəzmişəm. Seçiləndən sonra da ora mütəmadi olaraq gedirəm. Ürəyimi ağrıdan bir məsələ var ki, bu da kənd məktəblərinin vəziyyətidir. Binalar köhnə, şüşələr sınıq, damları uçuq, döşəmə örtüyü ya betondur, ya da ki, sınıq-salxaq vəziyyətdə olan taxtadır. Ləvazimat demək olar ki, yoxdur. Bax, bu məktəblərin vəziyyəti məni çox ağrıdır. Gəldim, zəng etdim təhsil naziri Misir müəllimlə danışdım ki, kənd məktəbləri pis vəziyyətdədir. Axı orada oxuyan uşaqlar bizim azərbaycanlı balalarımızdır. Bunların haqqı var ki, normal şəraitdə oturub dərs keçsinlər. Bu, onların hüququdur. Amma biz onları təmin edə bilmirik. Misir müəllim dedi ki, bu vəziyyəti o da bilir, çox narahatdır. Amma neyləmək olar ki, bu məktəblərə vəsait Təhsil Nazirliyindən ayrılmır. Həmin vəsait rayon İcra Hakimiyyəti tə-

rəfındən ayrılır. Ona görə də hesab edirəm ki, bu məktəblər bir növ nəzarətsiz qalıb. Bu məsələyə baxmaq lazımdır. Bəlkə həmin vəsaiti Təhsil Nazirliyində cəmləşdirmək lazımdır ki, nazir bilavasitə cavab versin. Bu gün o vəsaitlər onun əlində olmadığı üçün nazir cavab verə bilmir.

– Müstəqil Azərbaycanın gələcək qurucuları indiki yeni nəsil olacaq. Əgər onların normal təhsil almaları üçün şərait yaradılmırsa, Azərbaycanın gələcəyini savadsız kadrlara etibar etmək olarmı?

– Əlbəttə ki, buna ciddi diqqət yetirilməlidir. İlk növbədə onlara təhsil almaq üçün şərait yaradılmalıdır. Sonra da təhsilin səviyyəsindən söhbət getməlidir. Bir deputat kimi, çalışıram ki, kənd məktəblərində müəyyən işlər görülsün. Beynəlxalq təşkilatlarla əlaqə yaratmışam, bəlkə hər hansı yardım edə bilələr. Amma hər halda, bu gün bilavasitə rayon İcra Hakimiyyəti başçısının vəzifəsidir ki, o məktəblərə diqqət yetirsin, təmir etdirsin, təhsil üçün şərait yaratsın.

– Bir vaxtlar Milli Elmlər Akademiyasının ləğv olunması barədə heç bir məntiqə əsaslanmayan cəfəng fikirlər səslənirdi. Lakin bu yaxınlarda ölkə Prezidenti Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması barədə fərman verdi...

– Siz mənim üçün çox vacib bir məsələyə toxundunuz. Dövlətin elmə münasibətinin böyük əhəmiyyəti var. Elmlər Akademiyası Azərbaycanın elmi potensialını özündə cəmləşdirən bir sərvətidir. Onilliklər ərzində Azərbaycanın ən parlaq zəkaları tərəfindən yaradılan yeganə elm məbədidir. Bura çox böyük vəsaitlər qoyulub. Eşidəndə ki, hansısa qüvvələr Elmlər Akademiyasını dağıtmaq istəyir, onun Azərbaycana gərəksizliyi barədə fikir söyləyirlər, bu bizi çox məyus edirdi.

Hər bir cəmiyyət onun elmə, ziyalıya, alimə münasibəti ilə qiymətləndirilir. Ona görə son vaxtlar Akademiyaya olan münasibət məni çox sevindirir. İlk növbədə Akademiya işçilərinin maaşlarının iki dəfə artırılması ilə bağlı Prezidentin sərəncamını elm adamları böyük ruh yüksəkliyi ilə qarşıladılar. Məsələ təkcə maddi tərəfdə deyil, eyni zamanda məsələnin mənəvi tərəfi də

var. Bütün cəmiyyət bir daha əmin oldu ki, Elmlər Akademiyası bu cəmiyyətə, müstəqil Azərbaycana lazımdır və dövlət imkan tapan kimi Elmlər Akademiyasını tam təmin etmək üçün əlindən gələni edir.

Sonra ən fərəhləndirici bir hadisə baş verdi. Bu da Azərbaycan Elmlər Akademiyasının Naxçıvan bölməsinin açılmasıdır. Hesab edirəm ki, bu təkcə Naxçıvanın həyatında yox, bütövlükdə Azərbaycan Elmlər Akademiyasının həyatında böyük hadisədir. İlk növbədə o məsələlər ki bilavasitə Naxçıvanda öyrənilməlidir, arxeologiya, tarix sahələrində, orada elmi potensial yaradılmalıdır. Bu baxımdan fərmanın böyük əhəmiyyəti var. Orada 500-ə qədər adam işləyəcək, yüksək məvacib alacaqlar. İşsizlik probleminin həllində də bunun rolu olacaq. Bundan başqa bu, Naxçıvanda elmi potensialın qorunub saxlanılmasına kömək olacaq. Bütövlükdə Elmlər Akademiyası üçün bunun əhəmiyyəti ondan ibarətdir ki, yenə də elmin xalqa lazımlığı bir daha təsdiq olundu.

Burada bir məsələni qeyd etməyə bilmərəm. Heydər Əliyevin 33 illik fəaliyyətini müşahidə edəndə, həmişə bir şeyə qibtə etmişəm. Bu adam nə edibsə, günbəgün, ilbəil Azərbaycanın mənafeyi üçün edib. Onun bir amalı olub: Azərbaycanın inkişafı, Azərbaycanın tərəqqisi, Azərbaycan balalarının sabahı. Ona görə də, onun bütün xidmətləri Azərbaycan naminə olub. Son illərdəki fəaliyyətini götürəndə baxırsan ki, bütün həyatını Azərbaycanın inkişafına sərf edir. Bəlkə bəzi adamlar müəyyən işlərin xalqımız üçün əhəmiyyətini tam dərk edə bilmirlər. İllər keçəndən sonra o adamlar da etiraf edirlər ki, doğrudan da Heydər Əliyev Azərbaycanın tarixinə qurucu kimi daxil olub. Bunu başa düşmək lazımdır. Mən bunu cəsarətlə demək istəyirəm, indi kim necə qiymətləndirirsə qiymətləndirsin, mən elmi işçiyəm, haqqa haqq deməyə öyrənmişəm, tarix boyu ən böyük azərbaycanlı Heydər Əliyev olub. Bunu qiymətləndirmək lazımdır. Mən çox təəssüf edirəm ki, bəzi adamlar ya başa düşmürlər, ya da bilərəkdən onun fəaliyyətini təhrif edirlər. Amma çox insafsız iş görürlər. Özü də elə adamlar təhrif edirlər ki, onlar özləri Azərbaycan

üçün heç bir iş görməyiblər. Özləri görə bilmədiyi yetmir, iş görənə də şər, böhtan atırlar. Belələri xalqın qəzəbinə gələcəklər.

– Söhbətimizin sonunda bu gün sizi narahat edən başqa məsələləri bilmək istərdik...

– Məni ən çox narahat edən işsizlik problemidir. İstərdim ki, bu problem ölkədə tez həll olunsun. Əminəm ki, bunun üçün nə lazımdır, edilib. Elə götürək prezidentimizin Sahibkarlar Şurasının yaradılması və Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə imzaladığı fərmanları. Bu tədbirlər hamısı işsizliyin qarşısını almaq üçün görülür. Sadəcə, Prezident səviyyəsində görülən bütün işlərin, verilən qərarların tezliklə nəticəsini görmək üçün hər bir azərbaycanlı öz üzərinə düşən işi vicdanla yerinə yetirməlidir. Hamımız çalışmalıyıq ki, çətin dövrü tez addımlayıb keçək. İnanıram ki, Azərbaycanın gələcəyi gözəl olacaq. Bizdə inkişaf var.

Bir də, əlbəttə ki, məni narahat edən problemlərin ən əsası hələ də torpaqlarımızm işğalda olmasıdır. İnanıram ki, bu məsələnin həlli uzaqda deyil. Qüdrətli dövlət hər sahədə qalib gələ bilər. Prezidentimizin dediyi kimi, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

*Müsahibəni apardı: Şəmsiyyə Musaqızı*
*"İki sahil" qəzeti, № 172, 6 sentyabr, 2002-ci il.*

## AZƏRBAYCAN DÖVLƏTİNİN ƏSAS MƏQSƏDİ VƏTƏNDAŞLARIN TƏHLÜKƏSİZLİYİNƏ TƏMİNAT VERMƏK VƏ RİFAH HALINI YÜKSƏLTMƏKDİR

*Vətəndaş üçün ən əsası isə onun mənəviyyatı, mənəvi dəyərləri maddi dəyərlərdən üstün tutmasıdır*

1993-cü ildən başlayaraq ölkə həyatının ən müxləlif sahələrində yeni dövlət quruculuğu konsepsiyasının reallaşması istiqamətində mühüm işlər görülərkən, ilk növbədə islahatların qanunvericilik bazasının yaradılması əsas şərt kimi nəzərə alınırdı. Bu, Azərbaycanın qurduğu hüquqi, dünyəvi, demokratik dövlətin mahiyyətindən irəli gəlirdi. Eyni zamanda, bu illərin hər birini Azərbaycan üçün taleyüklü məsələlərin həlli baxımından aşağıdakı kimi xarakterizə etmək olar: əgər 1993-1995-ci illəri vətəndaş müharibəsinin, ölkənin parçalanması təhlükəsinin, dövlət çevrilişi cəhdlərinin qarşısının xalqın dəstəyinə arxalanan hakimiyyət tərəfindən alınması kimi qiymətləndirsək, 1996-cı və sonrakı illəri stabillik və inkişaf illəri kimi dəyərləndirə bilərik. Ən əsası isə odur ki, müstəqilliyimizin ilk mərhələsindəki iqtidarların yaratdığı şəraitdən fərqli olaraq, indi vətəndaşlarımız sabaha ümidlə baxır, gələcək üçün qorxu hissi keçirmir, illərin bir-birindən uğurlu olacağına inanırlar. 2002-ci il həm də Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyevin bir çox ideyalarının reallaşması ilə əlamətdar olmuşdur. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməlqoyma mərasimində üç ölkənin başçılarının və ABŞ dövlətinin nümayəndəsinin iştirakı Azərbaycanın dinc Qafqaz, dinc Avropa, dinc dünya uğrunda mübarizəsinin səmərə verdiyini göstərir.

Bütün bunlar və ötən il görülən işlər barədə söhbət açan Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyeva bildirdi ki,

ötən il bütövlükdə ölkəmiz üçün uğurlu olmuşdur. Müstəqil Azərbaycan ildən-ilə inkişaf edir,möhkəmlənir. Həyatımızın bir çox sahələrində baş verən müsbət dəyişikliklər cəmiyyətdə demokratikləşmə prosesini daha da dərinləşdirir. Ölkənin ali qanunverici orqanı Azərbaycan dövlətinin tərəqqisi üçün üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirir. G.Baxşəliyeva dedi:

– Hesab edirəm ki, ötən il də Milli Məclis ölkədə həyata keçirilən islahatların hüquqi bazasının yaradılmasında və milli qanunvericiliyin təkmilləşdirilməsində mühüm işlər görmüşdür. Parlament insan hüquq və azadlıqların müdafiəsi istiqamətində ölkədə aparılan işləri davam etdirəcək üç Konstitusiya qanunu qəbul etmişdir. Bilirsiniz ki, Azərbaycan Respublikası prezidentinin təklifi ilə ötən ilin 24 avqustunda ölkənin ali qanununa dəyişikliklər edilməsi üçün referendum keçirilmişdir. Referendum aktının qəbul olunması və qüvvəyə minməsi ilə əlaqədar bir sıra qanunvericilik aktları təkmilləşdirilmişdir.

Ölkədə aparılan islahatların uğurla həyata keçməsi, vətəndaşların sağlamlığının qorunması, ətraf mühitin mühafizəsi, inzibati ərazi quruluşunun təkmilləşdirilməsi, mədəniyyətin və s. inkişafı üçün hüquqi əsas yaratmaq istiqamətində bir sıra qanunlar qəbul olunmuş, yaxud mövcud qanunlara dəyişikliklər edilmişdir.

Milli Məclis Azərbaycan Respublikasının üzv olduğu, yaxud münasibətlər qurduğu beynəlxalq təşkilatların, əlaqələr yaratdığı ölkələrin parlamentləri ilə əməkdaşlığı daha da inkişaf etdirmişdir. Ölkənin ali qanunverici orqanı bir sıra beynəlxalq konvensiyaları, Azərbaycan Respublikasının müxtəlif ölkələrlə, beynəlxalq təşkilatlarla imzaladığı ikitərəfli müqavilələri təsdiq etmişdir. Bu qəbildən Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında "Xəzər dənizinin dibinin bölünməsi haqqında" ikitərəfli sazişlərin parlament tərəfindən qəbul olunmasını xüsusi qeyd etməyə dəyər.

– Gövhər xanım, bilirsiniz ki, normal demokratik dövlətin əsas məqsədi vətəndaşların təhlükəsizliyinə təminat vermək və yaxşı yaşaması üçün hər cür şərait yaratmaqdan ibarətdir. Azər-

baycan dövlətinin bu istiqamətdəki fəaliyyətini əhali yüksək qiymətləndirir. Məlumdur ki, iqtisadi islahatlar elmi surətdə aparılanda, daha doğrusu, intellektual potensial ölkənin inkişafı naminə hərəkətə gətiriləndə daha yaxşı nəticələr əldə etmək olar. Ötən ilin timsalında bu barədə nə deyə bilərsiniz?

– Bu baxımdan mən ilk növbədə elmin indiki vəziyyətinə toxunmaq istərdim. Uzun illərdən bəri Milli Elmlər Akademiyasında (MEA) yaranmış problemlər və bu elm məbədinin gələcək taleyinin qeyri-müəyyənliyi onun lazımi səviyyədə fəaliyyət göstərməsinə imkan vermirdi. Hamı gözləmə mövqeyində idi. Kütləvi beyin axını baş verirdi. 2001-ci ildə MEA-ya seçkilər keçirildi. Akademiklərin, müxbir üzvlərin sayı artdı. Akademiyaya yeni prezident, rəyasət heyəti seçildi.

2002-ci il MEA üçün çox əlamətdar olub. Ötən il əməkdaşların məvacibləri orta hesabla iki dəfə artırılıb. MEA-nın Naxçıvan bölməsi təsis olunub. Ötən ilin son günündə respublika prezidenti AMEA-nm prezidentini qəbul edib. Yeni ilin ilk günlərində akademiyanın statusu, nizamnaməsi və prezidenti haqqında fərmanlar imzalanıb, bununla da MEA-ya çox yüksək status verilib. MEA ölkədə elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi siyasətini həyata keçirən, respublikada bütün elmi-tədqiqat işlərini əlaqələndirən və istiqamətləndirən bir qurum kimi tanınmışdır. Akademiyanın statusunun artırılması elmi ictimaiyyətdə böyük ruh yüksəkliyi yaratmış, cəmiyyətdə MEA-nın nüfuzu qalxmış, gənclər arasında elmə həvəs artmışdır - bir vaxtlar Elmlər Akademiyasından getmiş mütəxəssislər yenidən geri qayıtmaq istəyirlər. Biz hamımız Azərbaycan elmində dirçəliş prosesinin başlanmasını müşahidə edirik. Onu düz vurğulayırsınız: tərəqqi o ölkələrdə sürətlə gedir ki, orada elmin inkişafı yüksək səviyyədədir. Bu mənada Milli Elmlər Akademiyasındakı elmi məktəblərin potensialından, bütövlükdə akademik elmdən səmərəli istifadə etsək, elmlə təcrübənin sıx vəhdətinə nail olsaq, daha yüksək nəticələr əldə edə bilərik.

Ölkə iqtisadiyyatında dinamik inkişaf meyllərinin artması təsadüfi deyildir. İslahatlar ardıcıl həyata keçirilir və ölkədə ba-

zar iqtisadiyyatı formalaşır. Ötən il ümumi daxili məhsul 10,5 faiz artmış, sənaye istehsalı 3,5 faiz, kənd təsərrüfatı istehsalı 6 faiz çoxalmışdır. Ölkəyə iki milyard dollar həcmində sərmayə qoyulmuşdur. Neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına böyük diqqət yetirilməsi onu göstərir ki, dövlətimizin əsas məqsədlərindən biri məhz tarazlı iqtisadiyyat yaratmaqdır. Sahibkarlığın inkişafı üçün zəruri şərait yaradılmış, dövlət başçısı kiçik və orta sahibkarlığın inkişafına yardım göstərən, biznesi təşviq edən fərmanlar imzalamışdır.

2003-cü ildə bir sıra makroiqtisadi tədbirlərin həyata keçirilməsi yolu ilə istehsalın həcminin artımı, məşğulluq probleminin həlli, yoxsulluğun azalması, regionların iqtisadi inkişafının sürətləndirilməsi nəzərdə tutulmuşdur. 2003-cü ilin büdcə və iqtisadi inkişaf strategiyası ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edəcək, əhalinin aztəminatlı təbəqəsinin həyat səviyyəsini yaxşılaşdıracaqdır.

Bütün bunlar ideya, fikir kimi müzakirə olunarkən müvafiq sahə üzrə mütəxəssislərin, alimlərin təklifləri daim əsas götürülür. Bu, həmişə belə olacaqdır. Əgər biz demokratiyadan, hüquqi dövlətdən danışırıqsa, demək, qanunların qəbulunda demokratik prinsiplərə əməl etməli, üstəlik, cəmiyyətdə qanunların aliliyinin bərqərar olmasına çalışmalıyıq.

– Siz cəmiyyət dediniz, cəmiyyətdə isə mənəvi dəyərlər hər zaman üstün qiymətləndirilib. Bazar iqtisadiyyatı şəraitində, Avropa standartlarına, beynəlxalq normalara inteqrasiya yolu tutduğumuz indiki anda cəmiyyətdə peyda olan neqativ hallara, mənəvi aşınmalara qarşı mübarizə aparmaq hər bir vətəndaşın borcudur. Xüsusən əgər Azərbaycan xalqının lideri, dövlətimizin başçısı Heydər Əliyev mənəviyyatı daha yüksək dəyərləndirirsə, bu, cəmiyyətimizin hər bir üzvünə örnək olmalıdır.

– Yaşadığımız bazar iqtisadiyyatı şəraitində bəzi insanlar elə hesab edir ki, yüksək mənəvi dəyərlər arxa planda qalıb, guya indiki şəraitdə hər şey yalnız bir məqsədə xidmət etməlidir: nə yolla olursa-olsun, qazanc əldə etmək, mümkün qədər çox pul qazanmaq. Belələri unudurlar ki, özlüyündə çoxlu pul, mal,

mülk insanı xoşbəxt edə bilməz. Əksinə, bunlar insan üçün əlavə problemlər yaradır.

Əsrlər boyu ən böyük dühalar, ən müdrik fikir sahibləri belə düşünmüşlər. Həyat dəfələrlə onların haqlı olduğunu sübuta yetirib. Mətbuatda məlumat getdi ki, dünyada ən zəngin adamlardan biri - məşhur Onassisin nəvəsi babasının və anasının ölümündən sonra çox böyük sərvətin - 3 milyard dolların varisi olub. Bu yaxınlarda Afina həddi-buluğa çatıb və ona bu sərvəti istədiyi kimi xərcləmək hüququ verilib. Qız bəyan edib ki, bu varidatın yalnız kiçik bir hissəsini özündə saxlayacaq, qalanını Afrikanın kasıb ölkələrinə bağışlayacaq, əlavə edib ki, "bu varidat mənim ailəmə xoşbəxtlik gətirmədi".

Dünyada ən nüfuzlu iqtisadi jurnal olar "Forbs"un sahibi, naşiri və baş redaktoru Amerikanın ən zəngin adamlarından biri Stiv Forbsdur. Stivin babası bu jurnalı 1917-ci ildə nəşr etməyə başlayıb, uğur qazanıb, sahibkarlığın başqa növləri ilə də məşğul olaraq, böyük sərvət sahibi olub. Jurnalın əsas mövzusu azad sahibkarlıq prinsiplərinin təbliğidir. Baba Forbs "Sahibkarlıqda uğur nədir"? - sualına belə cavab verirdi: "Sahibkarlıq xoşbəxtlik tapmaq üçün yaranıb, milyonlar toplamaq üçün yox... Bankda iri hesabı öz xoşbəxt həyatının rəhni hesab edən insanın ümidi boşa çıxacaq". Stiv Forbs isə deyir ki, xoşbəxtliyi insana yalnız mənəvi dəyərlər verə bilər. Sahibkar o zaman xoşbəxt ola bilər ki, qazandığı pulları insanlara kömək etməyə yönəldir, yeni iş yerləri yaradır, bütövlükdə cəmiyyətin inkişafına öz töhfəsini verir. Azərbaycan Respublikasının möhtərəm prezidenti də bütün həyatı boyu mənəviyyatı daha üstün tutaraq, çıxışlarında həmişə mənəvi dəyərləri yüksək qiymətləndirdiyini söyləmişdir. Prezidentimizin mədəniyyət xadimləri ilə görüşlərinin birində dediyi sözləri xatırlayaq: **"İnsan üçün mənəviyyatdan yüksək heç bir şey ola bilməz: nə mal, nə dövlət, nə villa, nə milyon - heç bir şey olmaz. Bunlar hamısı dünyada gəldi-gedər şeylərdir. İnsanı yüksəldən, insanı ucaldan, əsl vətəndaş edən onun mənəviyyatıdır".** Bu sözlərdə böyük həqiqət və dərin hikmət var.

Ölkədə mədəniyyətin inkişafına daim qayğı göstərilirsə, bu elə mənəvi dəyərlərə qayğı kimi qiymətləndirilməlidir.

Mədəniyyət və incəsənət xadimləri, yazıçılar, şairlər, sənətçilər, musiqiçilər, müğənni və aktyorlar bunu hiss edirlər. Olkə prezidenti tez-tez onların əməyinə diqqət, qayğı, hörmət göstərir, çəkdikləri zəhməti qiymətləndirir. Buraya fəxri adlardan, müxtəlif təltiflərdən tutmuş fərdi təqaüdəcən müxtəlif yönümlü dəyərləndirmələr daxildir. Elə götürək hər bir təntənəli tədbirdən sonra cənab prezidentin orada çıxış edən sənətçilərlə görüşünü. Bunları adi görüş adlandırmaq düzgün deyil. Bu görüşlər zamanı hörmətli prezidentimiz sənətçilərin ifalarını professional səviyyədə qiymətləndirir, onlara dəyərli tövsiyələr verir, problemləri ilə maraqlanır. Bu da sənətçilərdə ruh yüksəkliyi, yeni yaradıcılıq uğurlarına həvəs yaradır.

Prezidentimiz daim bütün sənətkarlara qarşı çox həssas münasibətilə seçilib. Azərbaycanda mədəniyyətin inkişafı prezidentimizin nəzarəti altındadır. Yenicə yola saldığımız 2002-ci ildə mədəniyyətlə bağlı bir sıra fərmanlar verilib, çoxsaylı tədbirlər həyata keçirilib. Bu qəbildən "Müslum Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası binasının bərpası və yenidən qurulması haqqında" sərəncamı, Fikrət Əmirovun, Niyazinin, Müslüm Maqomayevin yubileylərinin dövlət səviyyəsində qeyd edilməsini, Fidan və Xuraman Qasımova bacılarının yaradıcılığının 25 illiyinin keçirilməsini xatırlamaq istərdim. Böyük dramaturqumuz Hüseyn Cavidin anadan olmasının 120 illiyi də dövlət səviyyəsində qeyd edildi. Ölkə başçısı H.Cavidin ev muzeyinin açılışında iştirak etdi, Cavid yaradıcılığı haqqında qiymətli fıkirlər söylədi. Yola saldığımız ilin iyun ayında hörmətli prezidentimiz Bəhruz Kəngərlinin ev muzeyinin təntənəli açılışında da nitq söylədi, görkəmli rəssamın yaradıcılığını yüksək dəyərləndirdi.

– Bizim ağrılı problemimizin həll edilməmiş qalması – torpaqlarımızın uzun müddət düşmən tapdağı altında olması Azərbaycan vətəndaşlarını daim narahat edir. Bu, artıq beynəlxalq problemdir və düşmən həm təcavüzkarlıq, həm də etnik

separatizm, həm terrorçuluq, həm soyqırım siyasəti, həm də bir milyon azərbaycanlının hüquqlarını pozması ilə beynəlxalq normalara məhəl qoymadığını nümayiş etdirir. Ötən il məsələnin sülh danışıqları vasitəsilə çözülməsi istiqamətində bir sıra işlər görülmüşdür...

– Problemlərimizin ən əsası, əlbəttə ki, Qarabağ problemidir, torpaqlarımızın hələ də işğal altmda qalmasıdır. Bu problemin həll edilməmiş qalması Azərbaycanın inkişafını ləngidir, eyni zamanda regionda sülh və təhlükəsizlik üçün qorxu yaradır. Əminliklə demək olar ki, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə yönəlmiş xətt mövcud beynəlxalq reallıqlar baxımından tamamilə düzgün xətdir. Nə qədər ki, sülh danışıqlarının imkanları tükənməyib, onlar davam etdirilməlidir. İnanıram ki, hazırda bu istiqamətdə aparılan siyasət çox düzgün siyasətdir və o, yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Eyni zamanda atəşkəs və sulh danışıqları arxayınlıq yaratmamalı, milli ordumuzun döyüş qabiliyyəti daim gücləndirilməlidir.

*Müsahibəni apardı: Validə İsmayılova*
*"Azərbaycan" qəzeti, 14 fevral 2003-cü il*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜSTƏQİLLİYİMİZ ÜÇÜN TƏHLÜKƏ TÖRƏDƏN AMİLLƏRİ ARADAN QALDIRARAQ ONU DÖNMƏZ VƏ ƏBƏDİ ETMİŞDİR

*Gövhər Baxşəliyeva: «Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər, iqtisadi uğurlar Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxartdı»*

Məlum olduğu kimi, bu il Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsinin 20-ci ildönümü tamam olur. Prezident İlham Əliyevin Sərəncamına əsasən, bununla bağlı dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilməkdədir. «Yeni Azərbaycan» qəzeti olaraq, biz də müstəqilliyimizin ildönümü ilə əlaqədar bir sıra layihələr icra etməkdəyik. Bu istiqamətdə həyata keçirdiyimiz rubrikalarımızdan biri isə «Bu mənim mövqeyimdir» adlanır. Bu rubrikada Azərbaycanın görkəmli elm adamlarının, cəmiyyətdə nüfuzu olan ictimai, siyasi xadimlərin dövlətimizin müstəqillik tarixi, inkişaf yolu ilə bağlı fikirlərini dərc edir, bu şərəfli tarixi fərqli rakurslardan dəyərləndirməyə çalışırıq. Rubrikamızın növbəti qonağı isə millət vəkili, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyevadır.

***– Gövhər xanım, 20 il öncə dünyada böyük tarixi əhəmiyyət daşıyan bir hadisə baş verdi və SSRİ kimi böyük bir imperiya süquta uğradı. İmperiyanın süqutunu necə izah edirsiniz? Bu, tarixi zərurət idi, yoxsa, imperiyanın tərkibində yaşayan respublikaların bu prosesdə hansısa rolu oldu? Yəni, bu, tarixi hadisələrin nəticəsində baş vermiş olay idi?***

– Hesab edirəm ki, Sovet İttifaqının süqutu tarixi zərurət, qanunauyğun, obyektiv tarixi proseslərin nəticəsi idi. Gec-tez bu, baş verməli idi. Tarixdən məlumdur ki, böyük imperiyalar

həmişə idarəolunmaz hala gəlir. Yarandıqdan bir qədər sonra dağılır. Məsələn, Böyük İsgəndərin imperiyasından bu yana Ərəb xilafətini, Osmanlı imperiyasını və digər imperiyaları xatırlamaq olar. Doğrudur, sovet imperiyasına daxil olan 15 respublikadan əksəriyyəti müstəqillik arzusu ilə yaşayırdı. Lakin sovet hakimiyyətinin rəhbərliyindən narazı xalqların etirazlarının qarşısı zor gücünə alınır, müstəqil düşüncəli insanların səsləri boğulurdu. O vaxtkı şəraitdə bu istiqamətdə mübarizə aparmaq çox çətin idi. Lakin dövlətin bu cür idarə edilməsi çox uzun müddət davam edə bilməzdi. Digər imperiyalar kimi Sovet İttifaqının da dağılması qaçılmaz idi. Şükürlər olsun, 70 ildən artıq yaşadıqdan sonra SSRİ rəhbərliyində baş verən hadisələr ölkənin süqutunu sürətləndirdi ki, bunun da nəticəsində imperiyaya daxil olan respublikalar müstəqillik əldə etdilər.

***– Bəs necə oldu ki, Azərbaycan digər keçmiş sovet respublikalarından fərqli olaraq, bu prosesi daha ağır, çətin və daha çox itki ilə başa vurdu?***

– Bilirsiniz ki, o zaman Azərbaycana mərkəzin münasibəti birmənalı deyildi. Bir yandan sərvətləri ilə zənginliyi, digər tərəfdən insanların qəlbində müstəqillik arzusunun yaşaması və ən əsası da Sovet İttifaqını idarə edənlərin xalqımıza qarşı milli, dini baxımdan fərq qoyması ayrıseçkilik münasibətinin yaranmasını şərtləndirirdi. Tarixən də məlumdur ki, Azərbaycanın mühüm geostrateji mövqeyi və zəngin təbii sərvətləri daim yadelli işğalçıları cəlb edib. Ancaq xalqımız daim azadlıq uğrunda mübarizə aparıb. Sovet İttifaqı dağılanda da bir yandan SSRİ rəhbərliyinin Azərbaycan xalqının müstəqillik istəklərindən ehtiyatlanması, digər tərəfdən isə xalqımıza qarşı olan qərəzli münasibəti ölkəmizdə bu proseslərin ağır keçməsinə, qan tökülməsinə, böyük itkilərin verilməsinə səbəb oldu.

Bütün bunları həyata keçirmək üçünsə, ilk növbədə həmin proseslərin qarşısını ala biləcək, məhz öncəki illərdə Azərbaycan xalqına qarşı hər hansı təxribatların qarşısını cəsarətlə almış bir insan - Ulu öndər Heydər Əliyev Sovet rəhbərliyindən düşünül-

müş şəkildə uzaqlaşdırıldı. Məhz bundan sonra Azərbaycana qarşı istənilən təxribatları həyata keçirmək mümkün oldu.

SSRİ-nin dağılması nəticəsində iqtisadi böhran, ərazilərin itirilməsi, qaçqın, köçkün ordusunun yaranması Azərbaycanın inkişafına, iqtisadi-siyasi durumuna mənfi təsir göstərdi. Ölkəyə səriştəsiz insanların rəhbərlik etməsi həm iqtisadi, həm də siyasi böhran şəraitində müstəqilliyimizin, dövlətimizin mövcudluğunu belə sual altında qoymuşdu.

***– 1993-cü ilin iyunundan sonra Azərbaycanda ciddi dəyişikliklər baş verdi. İstər siyasi, istər iqtisadi, istərsə də sosial sferalarda böyük inqilabi dəyişikliklər yarandı. Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi nə anlam daşıyırdı və bu tarixi hadisə ölkəmizdə nələri dəyişdirdi?***

– Azərbaycan xalqı, ilk növbədə lider qazandı - uzun illər respublikamızı idarə etmiş, əməyi sayəsində özünü təsdiqləmiş, daim xalqın uğuruna çalışmış, xalqımızı çox çətin bir dövrdə ağır bəlalardan qurtaran, millətin gələcəyini, dövlətçiliyin təməlini quran, siyasi sabitliyi, əmin-amanlığı təmin edən, gələcək iqtisadi inkişafın əsasını qoyan bir lideri. Ulu öndər Heydər Əliyevin bu amallar uğrunda hələ sovetlər dönəmində respublikamıza rəhbərlik etdiyi vaxtlarda da böyük xidmətləri olmuşdu. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, Naxçıvanski adına hərbi liseyin yaradılması, ölkədə müstəqil sosial-iqtisadi infrastrukturun yaradılması və inkişafı, istehsal müəssisələrinin artırılması gələcək müstəqilliyin təməlini qoyurdu. Ulu öndər özü də deyirdi ki, dili, ordusu olan bir ölkə, iqtisadiyyatı güclü olan dövlət müstəqil sayılır.

Biz tariximizin bütün anlarını yadda saxlamalıyıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Faciəvi olub ona görə ki, zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğramış, ata-babalarımızın müstəqillik arzuları yadelli işğalçılar tərəfindən qan içində boğulmuşdur. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı

məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də ciddi təsiri olmuşdur. Daxili çəkişmələr və münaqişələr, regional və sinfi maraqların milli mənafelərdən üstün tutulması, ən başlıcası xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran Ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu XVIII əsrdə - bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda Azərbaycanın xanlıqlara parçalanması faktı da təsdiq edir, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi Ümummilli lider, böyük siyasi iradəyə və təcrübəyə malik şəxsiyyət - Heydər Əliyev şəxsiyyəti var idi. Xalqın mütləq əksəriyyətinin, o cümlədən, hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Bakıya gəlib Ali Sovetin Sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində möhtərəm Heydər Əliyevin

daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir. Biz o günlərin canlı şahidləri olsaq da, həmin dövrdə baş vermiş prosesləri yenidən mənalandırmaq, onların mahiyyətinə daha dərindən varmaq ehtiyacı duyuruq. Möhtərəm Heydər Əliyevin Ali Sovetin Sədri seçilərkən etdiyi çıxışın mətni xüsusi diqqət çəkir. Ötən bu illərdən həmin proqram xarakterli çıxışa nəzər saldıqda görürük ki, Ulu öndərin bütün sonrakı fəaliyyəti o tarixi çıxışdakı müddəaların addım-addım gerçəkləşdirilməsindən ibarətdir. Millət və dövlət qarşısında götürülmüş öhdəliklərə sədaqətin bundan böyük nümunəsini təsəvvür etmək çətindir. Ulu öndər müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq onu, öz təbirincə desək, dönməz və əbədi etmişdir. Həmin çıxışda müəyyən edilən digər iki istiqamət - demokratik islahatların həyata keçirilməsi və ərazi bütövlüyünün təmin olunması istiqamətində də ardıcıl işlər görülmüşdür.

Məşhur bir deyimə görə, dağın əzəmətini duymaq və müşahidə etmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir. Yeni əsrin zirvəsindən yaxın keçmişə - 1993-cü ildə baş vermiş proseslərə və həmin proseslərin mərkəzində dayanan Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətinə nəzər saldıqda o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik.

Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər, iqtisadi uğurlar Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxartdı. Məhz möhtərəm Prezident İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan iqtisadi inkişaf tempinə görə ən yüksək yeri tutdu, bütün dünyanı iqtisadi böhran bürüdüyü bir dövrdə həmin böhranı, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi.

***– Məlum olduğu kimi, 1993-cü ilə qədər Azərbaycanda bütün sahələrdə dərin böhran hökm sürürdü. O cümlədən,***

***ideoloji cəhətdən də bir boşluq yaranmışdı. Yeni düşüncə tərzinin yaranması və inkişafı üçün baza qıtlığı mövcud idi. Belə bir şəraitdə Ulu öndərin atdığı addımları necə xarakterizə edərdiniz? Milli-mənəvi dəyərlərin qorunması istiqamətində görülən işləri necə qiymətləndirirsiniz?***

– Həqiqətən də, həmin dövrdə Azərbaycan bütün sahələrdə dərin böhran yaşayırdı. Həm iqtisadi, həm siyasi, həm ideoloji cəhətdən ölkəmizin düşdüyü vəziyyət çox acınacaqlı idi və hətta deyərdim ki, müstəqilliyimizin, dövlətçiliyimizin itirilməsi həddində idi. İlk günlərdən Ulu öndər Heydər Əliyev dövlətin bütün sahələrdə siyasətinin prinsiplərini, xarakterini müəyyənləşdirdi və bu xətlə aparılan siyasət də Azərbaycanı böhrandan çıxardı.

Azərbaycanın dünya dövlətləri arasında layiqli, möhkəm yerini tutmasında Ulu öndərin müdrik xarici siyasəti mühüm rol oynadı. Mən bir şərqşünas kimi, ilk növbədə Heydər Əliyevin xarici siyasətindən danışmaq istərdim. Ulu öndər öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Ümummilli lider Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə, Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu. Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələri ilə bərabərhüquqlu münasibətlər qurulur, regionda yerləşən bütün dövlətlərlə mehriban qonşuluq əlaqələri saxlanılır, bu əlaqələr inkişaf etdirilərək möhkəmləndirilirdi və indiyədək də bu siyasət uğurla davam etdirilir. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri

nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

***– Elm xadimi kimi 20 illik müstəqillik dövründə Azərbaycan elminin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik. Eyni zamanda, Azərbaycan elminin dünyaya inteqrasiyası hansı səviyyədədir?***

– Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından və Elmlər Akademiyası üzvləri ilə, elmi ictimaiyyətlə tarixi görüşündən və bu görüş nəticəsində atdığı addımlardan sonra Elmlər Akademiyası sistemində mövcud olmuş dərin böhran, tənəzzül, hətta iflas proseslərinin qarşısı alındı və necə deyərlər, ölkənin digər sahələrində olduğu kimi, Elmlər Akademiyasında da sabitlik yarandı. Elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirildi. Ümummilli lider Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına «Milli Elmlər Akademiyası» statusu verildi. Bu tarixi Fərman ölkədə fundamental elmin nailiyyətlərini, Azərbaycan xalqının sosial, iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu, dövlətin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqlədi.

Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev isə elmdə islahatlar, elmin inkişaf strategiyası, Elmin İnkişafı Fondunun yaradılması ilə bağlı sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi istiqamətində mühüm addımlar atdı. Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə artırılıb. Xüsusən də, dövlət başçısının 2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyi ilə əlaqədar imzaladığı sərəncamlarla görkəmli alimlərimizə yüksək dövlət mükafatları, elmi adlar, Prezident təqaüdü və mənzillər verilməsini qeyd etmək istərdim. Elmin inkişafına yönəldilən xərclər təxminən 7 dəfə artıb. Azərbaycan Elminin İnkişaf Strategiyası təsdiq olunub, 2009-2015-ci illərdə Elmin inki-

şafı üzrə Milli Strategiyasının həyata keçirilməsi üçün Dövlət Proqramı qəbul edilib, Elmin İnkişaf Fondu yaradılıb və s. Bütün bunlar göstərir ki, AMEA-ya, Azərbaycan elminə diqqət ilbəil artırılır. Bu il Prezidentimizin AMEA-nın illik hesabat yığıncağındakı iştirakı da elmə dövlət tərəfindən yüksək diqqət və qayğının nümunəsidir. Dövlət başçısının həmin tədbirdə söylədiyi nitqdə Azərbaycan elminə yüksək qiymət verilir, görülən işlərin çox uğurlu və təqdirəlayiq olduğu bildirilir, Azərbaycan elminin gələcəyinə böyük inam bəslənilir.

Elmimizin dünyaya inteqrasiyası məsələsinə gəldikdə isə, bu proses gedir. Bu məsələ 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiyada öz əksini tapıb. Hazırda bu istiqamətdə böyük işlər gedir, mütəmadi beynəlxalq konfrans, simpozium, seminarlar keçirilir. Böyük uğurlar qazanılır. Beynəlxalq jurnallarda məqalələr dərc olunur.

Şərqşünaslıq İnstitutu bu sahədə fəallığı və məhsuldarlığı ilə seçilir. Müstəqillik illərində Şərqşünaslıq İnstitutu əməkdaşlarının nəşr olunmuş 245 kitabından 17-si, 2700 elmi məqaləsindən 365-i xarici ölkələrdə işıq üzü görüb. Keçirilmiş 28 konfransdan 15-i beynəlxalq miqyaslıdır və bu sırada xaricdə təşkil etdiyimiz birgə konfranslar da var. Bunlardan müxtəlif illərdə Bakıda Hollandiyanın Utrext Universiteti ilə birgə keçirdiyimiz «Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar» mövzusunda, YUNESKO ilə birgə təşkil etdiyimiz Mirzə Kazım bəyin 200 illiyinə həsr olunmuş beynəlxalq konfransları, «Heydər Əliyev və Şərq», «Yaxın və Orta Şərq: dünəni, bu günü və sabahı», «Şərq xalqlarının Bakı qurultayı-1920: tarix və reallıqlar» və s. mövzuda, həmçinin, Türkiyə Respublikasının 75 illiyinə, Osmanlı dövlətinin yaranmasının 700 illiyinə, böyük İran şairləri Hafiz Şirazi və Sədi Şiraziyə, İranda Məşrutə inqilabının 100 illiyinə, Şeyx Məhəmməd Xiyabani hərəkatının 90 illiyinə həsr olunmuş beynəlxalq konfransları qeyd edə bilərəm. Son zamanlar Rumıniyanın Babeş-Bolya Universiteti ilə sıx əlaqələr qurulub və bu Universitetin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu ilə birgə

ötən il Rumıniyanın Kluj-Napoka şəhərində «Şərq və Qərb arasında dialoq», bu il isə Bakıda «Müasir şərqşünaslığın aktual problemləri» mövzusunda beynəlxalq elmi konfransları uğurla keçirmişik. Bizim, həmçinin, təşkil etdiyimiz 51 seminardan 8-i, 34 simpoziumdan 11-i beynəlxalq səviyyəlidır.

Bu illər ərzində əməkdaşlarımızın xaricdə iştirak etdiyi tədbirlər sırasında 317 konfrans, 47 seminar, 121 simpozium var. Alimlərimiz indiyədək 14 qrant alıb.

İnstitutumuzun hazırda Türkiyə, Almaniya, Hollandiya, Rumıniya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası və s. ölkələrin universitet və elmi mərkəzləri, habelə Türk Tarix Qurumu ilə sıx elmi əlaqələri var. Onlarla ikitərəfli elmi əməkdaşlıq haqqında müqavilələr imzalanıb, şərqşünas alimlərin daha səmərəli elmi fəaliyyətlə məşğul olması təmin edilib. Həmçinin, institut YUNESKO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir.

*Müsahibəni apardı: Nardar Bayramlı,*
*«Yeni Azərbaycan» qəzeti, 7 oktyabr 2011-ci il*

## HAMIMIZ BİR GƏMİNİN SƏRNİŞİNLƏRİYİK

Bu gün dünyada gedən qloballaşma prosesi dərinləşdikcə mövqe və münasibətlərdəki fərqlər də artır. Bu prosesin xalqları və ölkələri bir-birinə yaxınlaşdırdığını, dünyanın bütün qütblərinə yeni müsbət dəyərlər sistemi gətirdiyini etiraf edənlərlə yanaşı, onun milli-mənəvi və əxlaqi keyfiyyətləri sıradan aparacağını iddia edərək müqavimət göstərənlərin də sırası kifayət qədər genişdir. Hətta bir çox tədqiqatçılar sivilizasiyaların dialoqunun məhz insanların minillərdən bəri formalaşmış dini etiqad və inanclarından keçdiyi üçün baş tutmayacağını əsaslandırmağa çalışırlar. Digər tərəf isə qloballaşmanın son nəticədə vahid bir xalq yaradacağı haqqında proqnozlar səsləndirir. Beləliklə, diskussiyada hər iki tərəf öz arqumentləri ilə çıxış edir. Biz məsələyə aydınlıq gətirmək üçün Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyevaya** müraciət etdik.

– ***Gövhər xanım, bu gün sivilizasiyalar arasında dialoqa cəhd həmişəkindən daha geniş miqyas alıb: sərhədlər aradan götürülür, xalqlar və ölkələr sürətlə bir-birinə qovuşur, insan haqları, demokratik dəyərlər vahid müstəvi üzərinə gətirilir. Bununla bərabər, sivilizasiyaları qarşı-qarşıya qoyub, minilliklərin xalqları ayırdığını, Şərqin Qərblə heç vaxt uyğunlaşmayacağını iddia edənlər də var. Bəzən hətta bu iddialar sivilizasiyalararası qarşıdurmalar səviyyəsinə yüksəldilir. Siz bir şərqşünas alim kimi necə düşünürsünüz: minilliklər Şərqi Qərbdən ayırmağa, yoxsa qovuşdurmağa əsas verir?***

– Bu bir faktdır ki, qloballaşma və inteqrasiya prosesi getdikcə daha böyük vüsət alır, dediyiniz kimi, xalqlar və ölkələr sürətlə bir-birinə yaxınlaşır, hətta lokal və regional problemlər belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxır. Böyük tarixi hadisələr və tarixi şəxsiyyətlərin yubileyləri milli mənsubiyyət prizmasından deyil, ümumbəşəri hadisə kimi qeyd

olunur. Məsələn, bu günlərdə 800 illik yubileyi YUNESKO səviyyəsində bayram edilən görkəmli mütəfəkkir və şair Mövlana Cəlaləddin Rumiyə təkcə Şərqin mənəvi xəzinəsi kimi deyil, ümumbəşəri dəyər kimi baxılır. Dünyanın əksər ölkələri ilə yanaşı, Azərbaycanda da bu dahi şəxsiyyətin yubileyi ilə bağlı geniş tədbirlər silsiləsi həyata keçirilir. Bizim institutun hazırladığı tədbirdə dünyanın bir çox ölkələrindən gəlmiş şərqşünaslar iştirak etdilər.

Demək istəyirəm ki, planetimiz getdikcə sərhədsizləşir. Təcridolunma, Şərqin, yaxud Qərbin özünü əlahiddə dünya kimi təsəvvür etməsi artıq mümkün deyil. Bütün bunlar isə Şərqlə Qərbi əbədi əks qütblər kimi təsəvvür edənlərin yanıldığını sübut edir. Əslində elə Şərqlə Qərb minillər boyu qarşılıqlı əlaqə və vəhdətdə yaşayıb. Bunu hətta ayrı-ayrı xalqların qədim dövrlərə aid nağıl və əfsanələrindəki oxşar süjetlər və obrazlar da təsdiqləyir. Hətta sonralar vəhşi tayfaların hücumları nəticəsində dağıdılan qədim dünyanın sivilizasiyası ilə Avropa İntibah mədəniyyəti arasında körpü rolunu və Şərq müsəlman mədəniyyəti oynayıb. Ümumiyyətlə, Şərq-Qərb mədəniyyətlərinin birliyi, vəhdəti hələ XII əsrdə böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin yaradıcılığında öz əksini tapıb. Bundan əlavə, o, təkcə öz yaradıcılığında iki sivilizasiyanı qovuşdurmayıb, həm də intibah dövrü Avropa ədəbiyyatına güclü təsir göstərib. Bunu Qərbin əksər söz və təfəkkür sahibləri etiraf edir.

Bir sözlə, məhz Şərq və Qərb sivilizasiyalarının qovuşması daim bəşəriyyətin tərəqqisinə xidmət edib. Zaman keçdikcə mədəniyyətlər arasında əlaqələr daha da dərinləşib. Orta əsrlərdə hind, Şərqi Asiya, Ön Asiya, Bizans, Qərbi Avropa mədəniyyətlərinin sintezi nəticəsində «Sərhəd mədəniyyəti» adlanan mədəniyyətlər yaranıb. Bunlardan biri də ecazkar ərəb-ispan mədəniyyətidir. Məhz bütün bunlardan çıxış edərək XIX əsrin 20-ci illərində dahi Höte ümumdünya ədəbiyyatı konsepsiyasını irəli sürüb.

– ***Sivilizasiyalararası dialoqun əsasları barədə ciddi arqumentlər səsləndirirsiniz. Lakin bugünkü qloballaşma və in-***

***teqrasiya proseslərinə fərqli prizmadan yanaşanlar da var. Bir çox tədqiqatçıların fikrincə, qloballaşma milli-etnik xüsusiyyətlərin aradan qalxmasına, dini etiqadın zəifləməsinə gətirib çıxara bilər ki, bu da mədəniyyətlərin qovuşması adı altında aparıcı dövlətlərin mədəni-siyasi üstünlüyü ilə nəticələnər... Ümumiyyətlə, bu məsələlər barədə hansı konsepsiyalar mövcuddur?***

– Təbii ki, məsələyə yanaşmada fikir müxtəlifliyi də var. Bu da inteqrasiya prosesində Qərb elementlərinin üstünlük təşkil etməsi və dini etiqad məsələləri ilə bağlıdır. Bəzi tədqiqatçılar birinci fakta əsaslanaraq iddia edirlər ki, mədəniyyətlərin qovuşması son nəticədə vahid dünya mədəniyyətinin və vahid etnosun yaranmasına gətirib çıxaracaq. Buna əks mövqe qoyanlar dini faktorun insanların şüurunda dərin kök saldığını önə çəkərək Şərqlə Qərb mədəniyyətləri arasında dialoqun heç vaxt baş tutmayacağını bildirirlər.

Məncə, hər iki mövqe qüsurludur, onların hər birində şişirtmə var. Əvvəla, birinci faktla bağlı deyim ki, hər bir mədəniyyət təmsil etdiyi millətin qan yaddaşına hopub. O, keçdiyi inkişaf yoluna görə başqa mədəniyyətlərdən fərqlənir, onu tam dəyişmək isə absurddur. Bunu tarixi təcrübə də təsdiqləyir. Zaman-zaman heç bir sivilizasiya özündə birləşdirdiyi millətlərin və xalqların etnik xüsusiyyətlərini tamamilə aradan qaldıra bilməyib. Məsələn, bir vaxtlar SSRİ adlı nəhəng imperiya öz ərazisində yaşayan millətlərdən vahid mədəniyyətə malik sovet xalqı yaratmaq istəyirdi. Amma sonda heç bir şeyə nail ola bilmədi. Baxmayaraq ki, bu məqsədlə ardıcıl dövlət proqramları hazırlanıb həyata keçirildi. İmperiya dağılan kimi milli mədəniyyətlərin forma və məzmunu bərpa olundu.

Bir qədər dərinə gedib digər faktlar da ortaya qoymaq olar. Götürək islamın yayılması dövrünü. Afrika qəbilələrinin islamlaşması heç də onların etnik xüsusiyyətlərinin tamamilə aradan qalxmasına gətirib çıxarmadı. Bundan sonra təşəkkül tapan yeni mədəniyyətdə ərəb-islam mədəniyyəti ilə yanaşı, ənənəvi Afrika mədəniyyətinin elementləri yaşadı. Yaxud başqa bir nümunə. «MakDonalds» şirkəti bu gün Azərbaycanda öz yeni filiallarını

yaradaraq nüfuz dairəsini nə qədər genişləndirsə də, ənənəvi «çayxana mədəniyyətini» silib aradan çıxara bilməyib.

Qaldı «dini barışmazlıq» iddiasına, bu da həqiqəti düzgün əks etdirmir. Doğrudur, hazırda dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt ekstremist islam qruplaşmaları tərəfindən törədilən terror hadisələrini bir çox «politoloqlar və ideoloqlar» islam-xristian qarşıdurması kimi qələmə verməyə çalışırlar. Amma bunlar yanlış cəhdlərdir. Bu hadisələrin arxasında hər şeydən əvvəl konkret iqtisadi-siyasi maraqların durduğu deyilsə, daha düzgün olar. Bəziləri İraqa qarşı aparılan müharibəni də bu prizmadan şərh etməyə çalışırlar. Elə isə, onda qoy həmin şəxslər NATO-nun xristian Yuqoslaviya əleyhinə apardığı əməliyyatları izah etsinlər.

– ***Gəlin onu da etiraf edək ki, din çox vaxt xalqların, millətlərin xarici təsirlərə müqavimət gücü kimi qələmə verilir... Daha doğrusu, belə bir pərdə altında, özünüzün də yuxarıda qeyd etdiyiniz kimi, müəyyən maraqlı qruplaşmalar ondan istifadə etməyə çalışırlar. Bütün bunların müqabilində dialoq üçün dinlərdə kəsişmə nöqtələri tapmaq mümkündürmü?***

– Əlbəttə mümkündür. Çünki əksər dinlərdə insan haqqında yüksək fikirlər səslənir, insan ləyaqəti uca tutulur. Sadəcə olaraq, onları dərindən öyrənmək və düzgün şərh etmək lazımdır. Bu halda onlar arasında istənilən qədər kəsişmə nöqtələri tapmaq olar.

Məsələn, götürək təkallahlıq dini təsəvvürlərini. Bu dinlərin əksəriyyəti öz başlanğıclarını İbrahim peyğəmbərdən götürür. Məncə, bu faktın özü dinlər arasında körpü sala bilər. Yeri gəlmişkən başqa bir məsələni də qeyd edim. Sivilizasiyalararası dialoq yolunda əsas maneə olan etnik separatizmi dinlər aradan qaldıra bilər. Çünki bütün dinlərdə dözümlülüyə çağırış var, insana məhəbbət var.

– ***Gövhər xanım, çox tez-tez belə fikirlər də səslənir ki, qloballaşma milli mənəvi-əxlaqi dəyərləri sıxışdırır, onların yerinə yabançı əxlaq, yabançı dəyərlər sistemi gətirir...***

– Təbii ki, bu deyilənlərdə də müəyyən həqiqət elementləri var. Buna görə də, fikrimcə, dialoqun hüdudu olmalıdır. Dialoq hansısa xalqın mədəniyyətinin, milli dəyərlərinin sıradan çıxmasına yox, onun daha da zənginləşməsinə şərait yaratmalıdır. Ümumiyyətlə, tolerantlığın əsas prinsipi elə hər bir cəmiyyətin və hər bir fərdin sərbəst surətdə bu və ya digər əqidəni, həyat tərzini seçmək hüququdur. Bu mənada qloballaşma kiminsə üstünlüyü, kiməsə təzyiq kimi başa düşülməməlidir. Dialoq ziddiyyətləri qabartmaq yolu ilə deyil, müştərək məqamların önə çəkilməsi ilə aparılmalıdır. O, zora və təzyiqə söykənə bilməz.

***– Bəs bu mənada Azərbaycanın təcrübəsi nə deyir? Axı Şərqlə Qərbin qovuşuğunda yerləşən ölkəmiz zaman-zaman müxtəlif sivilizasiyaların təsiri altında olub... Bəziləri bu təsirlərin xalqımızın milli-mənəvi dəyərlərinə mənfi, bəziləri isə müsbət təsir etdiyini bildirir...***

– Azərbaycan coğrafi baxımdan Şərqlə Qərbin qovuşuğundadır. Xalqımız əsrlər boyu hər iki sivilizasiyanın təsirini görüb. Min ildən artıq bir müddətdə müsəlman aləmində olduğumuz halda, sonradan çar Rusiyası torpaqlarımızı işğal edərək bizi yeni mühitdə yaşamağa məcbur edib. Beləliklə, xalqımız işğalın hər cür əzablarını görüb. Bununla bərabər, biz işğal altında olduğumuz zamanlarda yeni dəyərlər sistemi ilə tanış olmuşuq, ziyalılarımız rus dili vasitəsilə mütərəqqi rus və Avropa elmini və ictimai-siyasi fikrini mənimsəyib, maarifçilik ideyalarına yiyələniblər.

Nəticədə, Azərbaycanda hər iki sistemin dəyərlərini özündə birləşdirən gözəl maarifçi ziyalılar nəsli yetişib. Onlar da öz növbələrində xalqı maarifləndirməyə, onu qabaqcıl Avropa mədəniyyətinin nailiyyətləri ilə tanış etməyə çalışıblar. Bu insanların davamçıları isə bir qədər də irəli gedərək Qərbin ədəbi-fəlsəfi fikri, müxtəlif sivilizasiyaların problemləri barədə olduqca ciddi mülahizələr irəli sürüblər.

***– Gövhər xanım, iki sivilizasiyanın qovuşuğunda olmağımızın mənfi və müsbət cəhətlərini qeyd etdiniz... Orası da var ki, bizlər müstəqillik dövrünün başlanğıcında da bir çox ağrı-***

***lar yaşadıq, ölkə sosial-iqtisadi böhranla bərabər, ağır mədəni-mənəvi gərginlik illəri keçirdi...***

– Düz deyirsiniz, sovet rejiminin dağılmasından sonrakı dövr Azərbaycan xalqının tarixində ağır, böhranlı bir dövr oldu. Əslində, bu böhranı təkcə biz yox, keçmiş Sovetlər Birliyinə daxil olan bütün respublikalar yaşadı. Azərbaycana gəldikdə isə, ölkənin siyasi və sosial-iqtisadi müstəqilliyi ilə yanaşı, mədəni-mənəvi müstəqilliyi birdən-birə başlandığından, əhalinin yeni proseslərə uyğunlaşması ağrılı getdi. Çünki ölkə müvafiq hazırlıq işi aparmadan xarici aləmə açılmışdı. Sovetlər İttifaqının yürütdüyü siyasət nəticəsində mədəniyyətlərarası əlaqələr qırılmışdı, totalitar sovet rejimi dini əqidəni məhv etmək istiqamətində uzun illər ardıcıl iş aparmışdı. Təbii ki, bütün bunlardan sonra milli mədəniyyətlərin və islam dəyərlərinin bərpası asanlıqla başa gələ bilməzdi.

Digər tərəfdən, bu işə tələsik və qarmaqarışıq şəkildə başlanmışdı. Doğrudur, müsəlman Şərqi elə o zaman Azərbaycanı öz sıralarına – İslam Konfransı Təşkilatına üzv qəbul etsə də, 1992-ci ildə «Dini etiqad azadlığı haqqında» qanun qəbul olunsa da, bu sahədə ortaya çıxan problemlərin bir çoxu bu günədək tam həllini tapmayıb.

Bundan əlavə, xalqın Avropa mədəniyyətinə və tərəqqiyə qovuşmaq arzusunun da tam reallaşması asan iş deyil. Bu gün demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan haqları, aşkarlıq və s. ilə bağlı dəyərlər getdikcə cəmiyyətimiz üçün daha çox yaşam normasına çevrilir. Amma bayaq dediyim kimi, bu meyarların ümummilli dəyərlər sırasında öz yerini tam tutması üçün müəyyən zaman kəsiyi lazımdır.

***– Ümumiyyətlə, göstərdiyiniz problemlərin həllini necə təsəvvür edirsiniz?***

– Bilirsiniz, Azərbaycan cəmiyyəti müstəqillik qazanandan sonra özündən asılı olmayaraq fərqli mədəniyyətlərin arasına düşüb və onların hər birinin qarşılıqlı təsirini üzərində hiss edir. Əlbəttə, bu halda ziddiyyətlərin olması da təbiidir. Sadəcə, cəmiyyətimizdən və onun hər bir üzvündən sayıqlıq, düzgün seçim

etmək bacarığı tələb olunur. Sivilizasiyaların dialoqu o zaman uğurlu olar ki, cəmiyyət öz «mən»ini itirməsin. Bu mənada Azərbaycan bu gün hansısa ənənəvi, yaxud modern dəyərlər sistemindən imtina yolu ilə deyil, onların ən müsbət cəhətlərini özündə birləşdirmək yolu ilə getməlidir. Bu cür sintez təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün vacibdir. Əgər ölkəmiz bu yolu uğurla başa vursa, onda bütövlükdə region üçün nümunə rolu oynaya bilər.

– ***Bunun üçün ilk növbədə hansı işlər görülməlidir?***

– Demokratik dəyərlər mətbuat və təhsil sistemi vasitəsilə ictimai şüura yeridilməlidir. İnkişafa mane olan əxlaq stereotipləri sıxışdırılıb şüurlardan çıxarılmalıdır. Dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlər yeni səviyyəyə qaldırılmalıdır. İctimai təşkilatların dövlət idarəçiliyinə cəlb edilməsinə şərait yaradılmalı, Milli Məclisin fəaliyyəti vətəndaş cəmiyyətinin tələblərinə uyğunlaşdırılmalıdır. Fikir müxtəlifliyinə və sağlam diskussiyalara geniş meydan verilməlidir.

Etiraf edim ki, artıq bu istiqamətdə xeyli ciddi addımlar da atılıb. Ümumiyyətlə, Azərbaycan çağdaş nailiyyətləri mənimsəmək baxımından həmişə Şərqdə birinci olub. Şərqdə ilk demokratik respublika və ilk demokratik təsisatlar ötən əsrin əvvəllərində məhz bizdə yaranıb. Xalqımız daim dinc yanaşı yaşamaq ənənəsinə sadiq olub. Əhali kütləvi şəkildə dünyəvi təhsil alır. Avropa mədəniyyətinin nailiyyətləri Azərbaycanda başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çox yayılıb. Məhz bu təcrübə və amil modernləşmənin Azərbaycanda möhkəmlənməsinə əlverişli şərait yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən islahatlar milli mədəniyyətimizin möhkəm təməli üzərində qurulur. Çünki milli mədəni dəyərləri, milli kimliyimizi mənimsəmədən Avropa dəyərlərini qəbul edə və özümüzünküləşdirə bilmərik.

– ***Bəs bu məsələdə gənclərin rolunu necə görürsünüz?***

– Bu gün azərbaycanlı gənclərin böyük hissəsi müsəlman dünyası ölkələrində, Avropa və Amerikada təhsil alır. Zənnimcə, onların həmin ölkələrin mədəniyyətindən daha çox bəhrələnmək

imkanı var. Onlar vətənə dönəndə bu mədəniyyətlərin də nailiyyətlərini özləri ilə gətirəcək və bununla da mədəni sintezə güclü təsir göstərə biləcəklər.

***– Azərbaycan dövlətinin hazırkı siyasi kursu minilliyin çağırışı ilə üst-üstə düşürmü?***

– Bəli! Dövlətimizin siyasi kursu ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşib. O isə deyirdi ki, «yönümüz Şərqə olsa da, yolumuz Qərbədir». Bu gün həmin kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanıram ki, dövlət başçımızın yürütdüyü düzgün siyasət tezliklə Azərbaycanımızın hər iki sivilizasiyanın nailiyyətlərini özündə birləşdirən modern bir dövlət kimi dünya ölkələri sırasına qatılmasına imkan yaradacaq.

***– Gövhər xanım, Siz ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın hazırkı dünya düzənindəki yeri və siyasi perspektivləri ilə bağlı qısa, lakin dərin məzmunlu fikirlərini xatırlatdınız. Heydər Əliyev də həmin kursun reallaşmasında böyük demokratik ənənəyə və regionda xüsusi çəkiyə malik olan qardaş Türkiyənin roluna daim önəm verir, ölkələrimizin uğurlarının məhz sıx qarşılıqlı əməkdaşlıqdan keçdiyini bildirirdi. Həqiqətən bu da faktdır ki, qloballaşma ideyasının gerçəkləşməsi və sivilizasiyaların qovuşması üçün vacib olan Şərq-Qərb münasibətlərinin tənzimlənməsində Türkiyə əhəmiyyətli rola malikdir və region üçün nümunə ola biləcək dövlətdir. Bəlkə də qardaş ölkənin elə bu sürətli inkişafı, modern dünyanın bir parçası olması onun ayrı-ayrı «siyasi» və terrorçu qrupların hədəfinə çevrilməsinə səbəb olub. ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində qondarma erməni soyqırımı haqqında qərar layihəsinin təsdiq edilməsi günümüzün aktual mövzusudur...***

– Bilirsiniz ki, Azərbaycan bu məsələyə dərhal öz münasibətini bildirib və qərar layihəsinin təsdiq edilməməsi istiqamətində aktiv fəaliyyət göstərir. Məlumdur ki, bir sıra Avropa ölkələrinin parlamentləri, o cümlədən Fransa parlamenti qondarma erməni soyqırımını tanımışdır. İndi isə «növbə» ABŞ parlamentinə çatıb... Baş verənlər kifayət qədər ciddidir. Amma nə yaxşı

ki, bütün zamanlarda tarixi faktlara qarşı gedə bilməyən və öz vicdanının səsi ilə obyektiv elmi həqiqətləri ortaya qoyan alimlər olmuşdur. Onlardan biri də görkəmli fransız tarixçisi Jorj de Molevidir. O, uzun araşdırmaların nəticəsi olan «1915-ci il erməni faciəsi» kitabında yazır: «Qondarma erməni soyqırımı – heç bir real əsası olmayan, yalnız böhtana əsaslanan, yalan və həqiqi tarixin təhrifi üzərində qurulmuş erməni təbliğatının nəticəsidir. Şərəfsiz məqsədlər güdən bu təbliğata heç bir bəraət qazandırmaq olmaz. Erməni təbliğatının bu özbaşınalığı gələcəkdə çox ağır fəsadlar verə bilər. Bu təbliğatı durdurmaq üçün bütün sağlam düşüncəli insanların reaksiyası lazımdır». Çox düzgün və uzaqgörən deyilmiş sözlərdir. Xalqımızın başına gətirilmiş bəlalar bunu bir daha təsdiq edir.

Onu da qeyd etməliyik ki, müzakirəyə çıxarılan qərar layihəsi yalnız Türkiyəyə qarşı yönəlməyib. Burada bilavasitə Azərbaycanın da maraqları təhlükə altına alınır. Əgər qərar layihəsi qəbul olunsa, bu, təkcə Türkiyəyə deyil, bütövlükdə bölgə, o cümlədən Azərbaycan üçün ciddi problemlər yarada bilər. Ən azı Dağlıq Qarabağ üzərində Azərbaycanın suverenliyinin bərpa olunmasına öz mənfi təsirini göstərə bilər və ABŞ-ın Minsk qrupu həmsədrliyində tərəfsiz vasitəçi kimi təmsil olunmasını şübhə altına ala bilər.

Ümidverici hal odur ki, artıq ABŞ-ın tanınmış dövlət adamları, o cümlədən Prezident Buş bu kimi qərarın qəbul edilməsinin böyük səhv olacağını anlatmağa çalışırlar, Osmanlı arxivlərinin materiallarının ABŞ Konqresinin müzakirə mövzusu olmasını yolverilməz hesab edirlər. Qərar layihəsini dəstəkləməyən konqresmenlərin sayı durmadan artır. Bütün bunlar düşünməyə əsas verir ki, ABŞ Konqresində sağlam düşüncə yalançı təbliğata üstün gələcək və bu qərar layihəsi qəbul edilməyəcək.

***– PKK uzun illərdir Türkiyədə qanlı aksiyalar törətməkdədir. Xüsusilə də İraqın indiki hakimiyyətinin ölkəyə nəzarət edə bilməməsi bu terrorçu təşkilatın müasir hərbi texniki avadanlığa yiyələnməsinə və qardaş ölkə üçün təhlükəyə çevrilməsinə zəmin yaradıb. İndi Türkiyə ayağa qalxıb, terrorçu PKK-***

***nın bazalarını dağıtmaq üçün əməliyyatlar keçirmək istəyir. Lakin dünya məsələyə birmənalı yanaşmır... Siz uzun illər Şərqi öyrənən bir mütəxəssis kimi belə bir fərqli yanaşmanın səbəbini nədə görürsünüz?***

– Terrorizmə fərqli yanaşma ola bilməz. Terrorçu PKK ilə «Əl-qaidə», yaxud ASALA arasında fərq qoymaq yalnız məsələnin mahiyyətini düz anlamamaqdan, yaxud da hansısa qrupların siyasi maraqlarından doğa bilər. Əgər bu gün söhbət sivilizasiyaların dialoqundan, xalqların, ölkələrin bir-birinə yaxınlaşmasından gedirsə, deməli, separatizmə, ekstremizmə və terrorizmə qarşı mübarizə üsulları da eyni olmalıdır. Təsadüfi deyil ki, SSRİ dağılandan sonra hətta NATO kimi nəhəng blok da strategiyasının əsasının terrorizmə qarşı mübarizə təşkil etdiyini bəyan edib. Amerika İraqda, Əfqanıstanda bu məqsədlə hər gün hərbi əməliyyatlar aparmaqdadır. İsrail hökuməti terrorçu izi ilə Fələstin torpaqlarına ordu yeridir. Rusiya Çeçenistanda 10 ildən artıq bir müddətdə terrorizmə qarşı mübarizə apardığını bəyan edərək hərbi əməliyyatlar keçirib. Keçmiş Yuqoslaviyada fəaliyyət göstərmiş separatçı qruplaşmaların liderləri bu gün Beynəlxalq Haaqa Məhkəməsində törətdikləri cinayətlərə görə cavab verirlər. Bir sözlə, qloballaşmaqda olan dünyamızın müxtəlif bölgələrində beynəlxalq güclər bu qeyri-insani əməllərin qarşısını almaq üçün hər cür vasitələrdən istifadə edirlər. Türkiyənin baş naziri R.T.Ərdoğan Rumıniyadakı türk diasporu ilə görüşdə çox haqlı olaraq bildirdi ki, Amerika min kilometrlərlə məsafəni aşaraq gəlib İraqda terrorizmə qarşı hərbi əməliyyatlar keçirirsə, bizim də öz dövlətimizin və millətimizin təhlükəsizliyini qorumaq haqqımız var.

Türkiyənin rəsmi dairələrinin bildirdiyi kimi, PKK 30 mindən artıq türk vətəndaşını qətlə yetirib, minlərlə insanı şikəst edib və hər zaman Türkiyə üçün təhlükə olaraq qalmaqdadır. Bu mənada Türkiyənin PKK-nın hərbi bazalarının məhv edilməsi ilə bağlı tələbləri haqlıdır. Sadəcə, Qərbin bu məsələyə yanaşmasındakı fərq incə bir məqamla bağlıdır; belə ki, PKK-nın əsas düşərgələrinin yerləşdiyi İraqda hələ normal dövlət yoxdur.

Qərb, xüsusilə də ABŞ Türkiyənin İraqın şimal ərazilərinə müdaxilə etdiyi təqdirdə İraqdakı onsuz da ağır vəziyyətin daha da pisləşəcəyindən narahatdırlar. Türkiyənin Baş nazirinin ABŞ Prezidenti ilə son danışıqlarda məsələnin üçtərəfli həlli barədə razılıq əldə edilməsi də dünyanın terrorizmə birmənalı yanaşmasının sübutudur.

– ***«Bir millət, iki dövlət!» - Azərbaycanla Türkiyə arasındakı münasibətlər çox vaxt bu prizmadan çözülür. Türkiyənin PKK ilə üz-üzə dayandığı bir vaxtda Azərbaycan öz mövqeyini necə ortaya qoymalıdır?***

– Sözsüz ki, Azərbaycan həmişə Türkiyə ilə bir yerdə olub və olacaq. Ölkəmizin terrora münasibəti də, yuxarıda dediyim kimi, tam aydındır. Azərbaycan hərbçiləri bu gün koalisiya qüvvələri tərkibində İraqda, Əfqanıstanda antiterror əməliyyatlarında iştirak edirlər. Türkiyədəki vəziyyətlə bağlı isə Xarici İşlər Nazirliyi dərhal rəsmi bəyanatla çıxış edərək terror aktlarını pisləyib. Bu mənada Türkiyə qardaş Azərbaycanı hər an yanında görə bilər. Məncə, bu gün söhbət Azərbaycan-Türkiyə münasibətlərindən deyil, daha geniş miqyasda – ümumtürk dünyası həmrəyliyindən getməlidir. Bu gün Türkiyənin qarşılaşdığı problemlə bağlı dəstək təkcə Azərbaycandan deyil, digər türk respublikalarından da gəlməlidir. Ümumiyyətlə, yazımızın əvvəllərində qoyduğumuz problemin üzərinə qayıdaraq bildirirəm ki, qloballaşma və inteqrasiya proseslərini biz ilk növbədə öz içimizdə aparmalıyıq. Əgər Şərqlə Qərb, əgər fərli sivilizasiyalar vahid məcraya gəlirsə, eyni kök, eyni milli mənəvi dəyərlərə malik xalqlar niyə bir-birinə qovuşmamalıdır? Vaxtilə sovet rejimi bu xalqları bir-birindən ayırmaq üçün onlara müxtəlif adlar qoysa da, köklərini ayrı-ayrı millətlərin tarixlərində axtarmağa məcbur eləsə də, mənəvi, ruhi bağlılığı qıra bilməyib. Bu gün əsas məsələ həmin əlaqələri genişləndirmək və həmin bağları möhkəmləndirməkdir.

Fikrimcə, bunu reallaşdırmaq üçün vasitələr də çoxdur. Məsələn, bu məqsədlə türk respublikalarının müxtəlif forma və məzmunlu birlikləri yarana və yaxud elmi, ədəbi, mədəni sahə-

lərdə nailiyyətlərə görə ümumtürk respublikalarının vahid mükafatları, fəxri adları təsis edilə bilər. Ya da götürək terror problemini. Türk respublikalarının terrorizmə qarşı vahid mübarizə təşkilatını yaratmaq mümkün deyilmi? Əlbəttə mümkündür və onu da qeyd edim ki, dövlətlərimiz ayrı-ayrı olsa da, çox vaxt eyni mənşəli və eyni xətli problemlərlə üz-üzə qalırıq. PKK bu gün Türkiyəyə qarşı qanlı aksiyalar törədir, Azərbaycanı hədələyir, o, məhv olmadığı təqdirdə sabah həmin problemi Orta Asiya respublikalarına da keçirə bilər.

***– Gövhər xanım, problem təkcə PKK ilə bitmir, bir sıra arzuolunmaz dini təriqətlər də var ki, onlar da münbit şərait axtarırlar...***

– Azərbaycanda təbii ki, dini etiqad azadlığı var. İnsanlar dini inanclarında, etiqadlarında tam sərbəstdirlər. Lakin qeyd etdiyiniz kimi, din pərdəsi altında öz siyasi və iqtisadi maraqlarını həyata keçirmək istəyən, dünyanın hazırkı düzənini pozmağa çalışan, Şərqlə Qərbi üz-üzə qoymağa cəhd edən qruplar, dairələr də az deyil. Onlar ölkələrə təriqətlər kimi gəlir, şərait yaranan kimi qanunsuz fəaliyyətə başlayırlar. Məsələn, vəhabilik adı ilə fəaliyyət göstərən dini təriqətin nümayəndələrinin son vaxtlar Azərbaycanda sabitliyi pozmaq üçün qurduqları planlar da dediklərimizə sübut ola bilər. İngiltərə və ABŞ-ın Azərbaycandakı səfirlikləri onların hədəsi üzündən bir neçə gün məhdudlaşdırılmış iş rejimində çalışmalı oldu.

Digər sektalar da var, onların da məram və məqsədləri heç də üzdə görünən kimi deyil. Buna görə də, fikrimcə, təriqətçiliyə, xaricdən gələn radikal dini cərəyanlara nəzarət güclənməlidir. Din təkcə mollaların ixtiyarında qala bilməz. Hər bir dövlətin bu sahədə aydın siyasəti olmalıdır. Keçmiş müsəlman sovet respublikalarının çoxu bu gün bu problemlə qarşı-qarşıyadır. Məncə, onun qarşısını da birlikdə almalıyıq.

***– Gövhər xanım, yenə də söhbətimizin əvvəlinə qayıdıram: bütün bu sadalanan problemlər Sizdə qloballaşmaya və sivilizasiyaların dialoquna inamsızlıq yaratmır ki?***

– Qətiyyən. Kosmosdan Yer kürəsini seyr edən kosmonavt-

lar deyirlər ki, bizim planetimiz səma boşluğunda balaca və yaraşıqlı bir gəmiyə bənzəyir. Belə çıxır ki, biz hamımız bir gəminin sərnişinləriyik. Bu gəmini qorumaq və gələcək nəsillərə bütöv vermək üçün qarşıdurmalardan və konfliktlərdən yan keçməli, qütbləşməni aradan qaldırmalı, hər birimiz sivilizasiyaların dialoquna bacardığımız töhfəni verməliyik. Bu günlərdə 800 illiyini təntənəli surətdə qeyd etdiyimiz dahi Şərq mütəfəkkiri Mövlana Ruminin dediyi kimi: «Biz bu dünyaya ayırmağa yox, birləşdirməyə gəlmişik».

*Müsahibəni apardı: İxtiyar Hüseynli,*
*«Azərbaycan» qəzeti, 14 noyabr 2007-ci il.*

## «AZƏRBAYCAN MODELİ» ŞƏRQ ÖLKƏLƏRİNDƏ TƏBLİĞ OLUNMALIDIR

*Gövhər Baxşəliyeva: «çünki burada öyrənilәsi bir çox məqamlar var»*

Müsahibimiz millət vəkili, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyevadır**.

– ***Gövhər xanım, Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin «İctimai və humanitar elmlər: zaman kontekstində baxış» adlı yazısı ziyalılar, elmi ictimaiyyət nümayəndələri arasında ciddi rezonansa, geniş müzakirələrə səbəb olub. Bu baxımdan bilmək istərdik, bir elm adamı və millət vəkili olaraq, bu yazı və yazıda əksini tapan məsələlər barədə fikirləriniz nədən ibarətdir?***

– Bu yazını vaxtında yazılmış bir yazı hesab edirəm. Yazıda Azərbaycan elmi ilə bağlı bir sıra problemlər qabardılıb, Azərbaycan elminin son illər rastlaşdığı bütün problemlər, demək olar ki, öz əksini tapıb. Eyni zamanda, bu problemlərin həlli yolları da göstərilib. Yazıda ilk öncə qeyd olunur ki, ölkə prezidenti İlham Əliyev bu il noyabrın 2-də BDU-nun 90 illik yubiley mərasimində çıxışı zamanı ölkə iqtisadiyyatında keçid dövrünün artıq başa çatdığını bəyan edib. Bu, həqiqətən də belədir. İndi bilik dövrü başlayır. Yaşadığımız dövr, zaman bilik, yeni innovasiya texnologiyaları, elm dövrüdür. Ümumiyyətlə, dövlət başçımız dəfələrlə vurğulayıb ki, biz əldə etdiyimiz neft kapitalını insan kapitalına çevirməliyik. Neft kapitalını insan kapitalına çevirmək üçün isə Azərbaycan elmi, təhsili yüksək sürətlə inkişaf etməli, Azərbaycan insanı hərtərəfli, bilikli və savadlı olmalıdır. Elə sözügedən məqalədə də vurğulanır ki, təbii sərvətlərimiz var, çoxdur, amma bunlar bir gün tükənir və tükənə bilər. Biz elə sərvətlərə üstünlük verməliyik ki, onlar heç zaman tükənmir, əksinə, həmişə yeniləşir. Bu da heç şübhəsiz, insanın in-

tellekti, biliyidir və o bilik, o intellekt nəticəsində əldə olunan uğurlardır. Onu da qeyd edim ki, bu yazıda çox mətləblərə toxunulur. Mənim sözügedən məqalədə diqqətimi cəlb edən və üstündə dayandığım məqamlardan biri budur ki, əsl həqiqəti çatdırmaq məhz alimlərin üzərinə düşür, alimlərin üzərinə qoyulur.

***– Bu işdə alimlərin üzərinə hansı vəzifələr düşür. Söhbət hansı həqiqətlərdən gedir?***

– Burada söhbət cəmiyyətin inkişafı, bizim keçmişimiz, tariximiz, bu günümüz barədə həqiqətlərin çatdırılmasından, ortaya qoyulmasından gedir. Vaxt var idi sovetlər quruluşu dağılandan sonra bir neçə il biz inkarçılıq, nihilizm dövrü yaşadıq. Biz keçmişimizi sanki inkar edirdik. Amma bu, düzgün deyildi. Bizim keçmişdə də bir çox uğurlarımız, nailiyyətlərimiz olub. Onlara əsaslanmalıyıq, amma onların da tam konservasiyası mümkün deyil. Biz keçmiş ənənələrimizlə novatorluğu birləşdirməli və daim irəli baxmalıyıq. Mərhum ümummilli lider Heydər Əliyev öz dövründə - xüsusilə keçid dövründə bütün cəmiyyəti səfərbər edərək, onu düzgün yola istiqamətləndirə bildi və bunun sayəsində 90-cı illərin əvvəllərinin çətinliklərini artıq geridə qoymuşuq.

***– Sözügedən yazıda göstərilir ki, indi cəmiyyətimiz qarşısında, ilk növbədə elmi elita qarşısında mühüm vəzifələrin həlli məsələsi dayanır və əsas məqsəd ondan ibarətdir ki, yaxın illərdə təhsildə, elmdə, ümumən intellektual sahələrdə ciddi dönüş yaradılmalı, biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir...***

– Bu o deməkdir ki, bizim elmimiz ilk növbədə Azərbaycanın sosial-iqtisadi tələblərinə cavab verməlidir, Azərbaycanın sosial, iqtisadi, siyasi, mədəni problemlərinin həllinə yönəlməlidir. Azərbaycan elmi eyni zamanda tətbiqi xarakter daşımalıdır. Artıq o zamanlar keçib ki, alim öz kabinetində rahatca oturub, məsələn, klassik dövrün tədqiqi ilə məşğul olurdu. Klassik dövr də tədqiq olunmalıdır. Amma bununla bahəm indiki zamanda dünyada elm artıq daha çevikdir, daha mobildir və elm bu gün yaranan problemlərə cavab verməlidir, bu gün baş verən hadisə-

ləri də ehtiva etməli, işıqlandırmalıdır. Bu istiqamətdə elmimizin, elmi müəssisələrimizin çevikliyinə, mobilliyinə xüsusi diqqət yetirilməlidir. Bildiyiniz kimi, qloballaşan dünyada yaşayırıq, mədəniyyətlərin dialoqu baş verir, ölkələr bir növ sərhədsizləşir, get-gəl, xarici təsir çoxalır. Belə bir şəraitdə biz gərək çalışaq öz milli «mən»imizi saxlayaq. Çalışmalıyıq ki, milli varlığımızla bağlı dəyərlərə xələl gəlməsin. Tariximizi, mədəniyyətimizi, bizi birləşdirən mənəvi dəyərləri qoruyub saxlamaq indi hər birimizin ümdə vəzifəsi olmalıdır.

– ***Yazıda o da vurğulanır ki, dövlət başçısının sərəncamı ilə yaradılmış Prezident yanında Elmin İnkişafı Fondunun əsas məqsədi müxtəlif sahələrdə aparılan araşdırmaların səmərəliliyinin artırılmasını və dünya elmi məkanında Azərbaycan elminin layiqincə təmsil olunmasını təmin etməkdir. Sizcə, sözügedən Fond bu missiyanın öhdəsindən gələ biləcəkmi?***

– Qeyd edim ki, bu sərəncamdan daha öncə ölkə başçısı Azərbaycan elminin 2009-2015-ci illərdə inkişafının milli strategiyasını təsdiq edib. Eyni zamanda, bu strategiyanı həyata keçirmək üzrə Dövlət Proqramını da təsdiqləyib. Bununla da həmin strategiyanın prioritet istiqamətlərindən biri olaraq Azərbaycan elminin yaxın zamanlarda, yaxın illərdə dünya elmi məkanına inteqrasiya etməsi məsələsi önə çəkilib. Bildiyiniz kimi, sovet dövründə ölkəmiz dünya məkanından təcrid olunmuşdu, o cümlədən elmimiz də. O vaxt bir o qədər xaricə get-gəlimiz yox idi. Araşdırmalarımız rus elminə daha çox istiqamətlənirdi. Düzdür, biz kitablardan, ədəbiyyatlardan dünya elmi ilə tanış idik, amma bilavasitə qarşılıqlı münasibətimiz mövcud deyildi. İndi zaman dəyişib, biz daha qısa bir zamanda dünya elminə inteqrasiya etməliyik və bizim tədqiqatlarımız dünya elmi tədqiqatlarının səviyyəsinə qalxmalıdır. Burada bir haşiyə çıxmaq istərdim. Akademik Fuad Qasımzadənin yaxşı bir sözü var ki, Azərbaycan həmişə öz elminin iki sahəsinə görə dünyada tanınıb: bu, neft kimyası, bir də şərqşünaslıqdır. Biz, ümumiyyətlə, bu etirafları çox eşitmişik ki, Azərbaycan şərqşünaslıq elmi məhz dünya səviyyəsinə çıxmış bir elmdir. Bu gün bunu hamı, bütün tədqiqatçılar da təsdiq edir. Biz,

belə demək mümkünsə, öz təhsilimizi Rusiyanın Elmlər Akademiyasında və yaxud bu akademiyanın Sankt-Peterburq filialında almışıq. Rus şərqşünaslıq elmi tarixən çox güclü olub və bu elm sahəsi alman şərqşünaslıq elminin metodologiyası əsasında formalaşıb. Biz də Rusiya şərqşünaslıq elmi ənənələri üzərində təhsilimizi alaraq, bu gün Azərbaycanın güclü şərqşünaslıq elmi məktəbini yaratmağa nail ola bilmişik. Bəlkə də, bu, bir qədər qeyri-təvazökar səslənər, amma bunu qeyd etməmək mümkün deyil. Biz tez-tez Türkiyədə, İranda və Ərəb ölkələrində oluruq. Bizim şərqşünaslıq elmimiz onlarla müqayisəyə gəlinməyəcək dərəcədə güclüdür. Çünki biz məhz müasir təhlili üslublar, çağdaş metodologiya ilə araşdırmalarımızı aparırıq. Halbuki onlarda yeni metodologiya yoxdur. Bizdə isə müasir, deduktiv-induktiv, tarixi-müqayisəli metodlarla təhlillər aparılır. Bu təhlillər bizim alimlərin əsərlərinin yüksək səviyyəsini təmin edir. Özü də bunu mən demirəm, bunu İran, Türkiyə, ərəb alimləri deyirlər, etiraf edirlər. Bizim dünya şöhrətli alimlərimiz, Əbdülkərim Əlizadə, Həmid Araslı, Ziya Bünyadov, Aida İmanquliyeva, Rüstəm Əliyev kimi şərqşünaslarımız olub.

– ***Konkret olaraq, rəhbərlik etdiyiniz institut bu yazıdan irəli gələn məsələlərin həlli və ortaya qoyulan iradların aradan qaldırılması istiqamətində hansı addımları atmağı düşünürsünüz?***

– Bildirmək istəyirəm ki, bu yazıdan əvvəl – noyabr ayının 21-də Ramiz müəllimin ictimai və humanitar sahənin nümayəndələri ilə görüşündən dərhal sonra biz institutumuzda geniş yığıncaq keçirdik və kollektivimizin rəyi belə oldu ki, orada səsləndirilən iradlarla tam razıyıq. Eyni zamanda, biz planlarımıza da bir sıra əlavələr etməyi qərara aldıq. Biz hesab edirik ki, şərqşünas alimlər olaraq, «Prezident İlham Əliyevin Şərq siyasəti» adlı bir geniş elmi araşdırma, irihəcmli kitab hazırlamalıyıq. Qeyd edim ki, artıq bununla bağlı bölgü işi aparılıb, bu kitabın hazırlanmasına başlanılıb. İnşaallah, 2011-ci ildə həmin kitab hazır olacaq və onu müxtəlif Şərq dillərinə tərcümə edəcəyik. Biz şərqşünaslıq İnstitutunda mövcud olan məktəbləri qorumaq şərtilə tədqiqat,

araşdırma regionumuzu, arealımızı genişləndirik. Biz hesab edirik ki, müasir dövrdə təkcə ərəb ölkələrini, İranı, Türkiyəni araşdırmaqla kifayətlənməməliyik. Biz artıq Çini tədqiq etməyə başlamışıq, bu yöndə iki monoqrafiya çap olunub. Başlamışıq Yaponiyanı tədqiq etməyə, bununla yanaşı Mərkəzi Asiya və Uzaq Şərq ölkələri üzrə elmi qrup yaratmışıq. Biz yeni şöbə - Şərq-Qərb qarşılıqlı əlaqələrini və təsirlərini araşdıran şöbə yaratmışıq. Bu şöbədə ən müasir səviyyədə tədqiqatlar gedir. Biz başa düşürük ki, ictimaiyyət elmi institutlar haqqında geniş məlumatlar ala bilmirlər. Elmi əsərlər sırf elmi dildə yazılır və belə demək mümkünsə, mütəxəssislərə hesablanır. Buna görə institumuzda «Elmi araşdırmalar» jurnalı artıq neçə illərdir buraxılır.

***– Bəs adıçəkilən məqalədə xüsusilə önə çəkilən «Azərbaycan modeli» haqda nə deyərdiniz?***

- Azərbaycanın inkişaf modeli ən sürətli inkişaf modelidir və dünya tərəfindən də etiraf olunur ki, Azərbaycan iqtisadi inkişaf tempinə görə ən öndə gedən ölkədir. Bununla əlaqədar, xüsusən «Azərbaycan modeli»nin Şərq ölkələrinə nümunə olmasını nəzərə alaraq, adıçəkilən yığıncağımızda gələn ilin mart ayının 16-17-də Bakı şəhərində beynəlxalq konfransın keçirilməsinə qərar vermişik. «Müasir Şərq ölkələrinin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli» adı altında keçiriləcək beynəlxalq konfransda həm özümüzün, həm də tədbirə dəvət olunmuş xarici mütəxəssislərin iştirakı ilə bu məsələ ətrafında geniş müzakirələr aparılacaq. Onu da qeyd edim ki, Şərq ölkələrinin əksəriyyəti öz inkişaflarında geri qalırlar. Bir sıra problemlərlə üz-üzədirlər: yoxsulluq, səfalət, qeyri-stabillik, düzgün olmayan idarəçilik metodları və sair, və ilaxır. Həmin Şərq ölkələrində dövlət siyasəti heç də düzgün aparılmır. Ona görə biz hesab edirik ki, «Azərbaycan modeli» Şərqdə, Şərq ölkələrində təbliğ olunmalıdır və bu işə biz də öz töhfəmizi verməliyik. Çünki burada öyrənilesi bir çox məqamlar var.

***– Məlum yazıda elmi şuralar, o cümlədən namizədlik, doktorluq dissertasiyalarının yazılmasındakı, müdafiə olunmasındakı qüsurlarla, nöqsanlarla əlaqədar qabardılan məqamlar haqqında nə deyə bilərsiniz?***

– Bu məsələ əslində institutların özlərindən asılıdır. Bəlkə də başqa institutlarda elmi şuraların işi aşağı səviyyədədir, ancaq bizim institutla bağlı indiyəcən eşitməmişik ki, zəif işlər keçir. Bu, hər bir institutun müəyyənləşdirdiyi qaydadan və insanların, alimlərin özlərinə olan münasibətlərindən, tələblərindən asılıdır. Ümumən burada düz qeyd olunur ki, sovet dövrü ilə müqayisədə müdafiəyə buraxılan işlərin səviyyəsi aşağı düşüb. Bununla belə, bu, heç də o demək deyil ki, hamısının səviyyəsi aşağıdır. Amma aşağı səviyyəli işlər də çoxdur. Müdafiələrdə bəzən əvvəlki tələbkarlıqlar mövcud olmur. Yazıda o da göstərilir ki, elm, elmi işlərin müdafiələri bir biznesə çevrilib və bunun qarşısı alınmalıdır. Şəxsən mən də belə düşünürəm.

*Müsahibəni apardı: Alim,*
*«Olaylar» qəzeti, 17 dekabr 2009-cu il*

## GÖVHƏR BAXŞƏLİYEVA: "VAHİD MİLLİ İDEYA ƏTRAFINDA SIX BİRLƏŞMƏLİYİK"

"İnkişaf etmiş dövlətlərlə, beynəlxalq təşkilatlarla qurulan faydalı əməkdaşlıq, icra olunan layihələr, dövlət proqramları ölkədə həyata keçirilən modernləşmə siyasətinin təzahü rü dür. Azərbaycan nəinki regionda, həmçinin MDB və Şərqi Avropa məkanında siyasi və iqtisadi cəhətdən inkişaf edən öncül dövlətə çevrilib".

Bunu mətbuata açıqlamasında millət vəkili, professor Gövhər Baxşəliyeva dilə gətirib. Onun dediyinə görə, bu gün Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkə kimi tanınır.

Millət vəkili eyni zamanda düşünür ki, ölkə başçısının sərəncamı ilə verilən məlum İnkişaf Konsepsiyasının da əsas hədəfi ölkənin bütün istiqamətlərdə modernləşməsi olmalıdır:" Azərbaycan elə bir ölkəyə çevrilməlidir ki, burada hər bir insan rahat yaşasın, işləsin, övladlarını böyütsün, arzularına çatsın, özünü bir şəxs kimi tam realizə edə bilsin. Ölkədə elə bir siyasi sistem və insan hüquqları, sosial təminat, iqtisadi inkişaf modeli yaradılmalıdır ki, onlar birlikdə vahid, daim inkişaf edən və eyni zamanda, sabit, sağlam dövlət idarəetmə mexanizminə zəmanət versinlər. Elə bir idarəetmə mexanizminə ki, daim ədalətin keşiyində dursun və hər bir vətəndaşın ləyaqətini müdafiə, dövlətcəmiyyət münasibətlərində həqiqəti və qarşılıqlı etibarı təmin etsin. Odur ki, qarşıya qoyulan hədəflərə nail olmaq üçün də bütün xalqımız vahid milli ideya ətrafında sıx birləşməlidir. Tarixi şəraitin özü, xalqımızın yaxın keçmişdə üzləşdiyi ciddi problemlər və məruz qaldığı çətin sınaqlar bu ideyanı bizə diktə edir. Ərazi bütövlüyümüzün bərpası və ona aparan milli birlik və həmrəyliyin möhkəmləndirilməsidir".

*"525-ci qəzet", 11.08.2012*

## ZƏRİFƏ XANIM ƏLİYEVANIN TİMSALINDA İDEAL QADIN VƏ ƏSL AZƏRBAYCAN XANIMI OBRAZI CANLANIR

*Milli Məclisin deputatı. AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva www.yap.orq.az saytına müsahibə verib:*

– Gövhər xanım, aprelin 28-də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü tamam olur. Bu münasibətlə müxtəlif tədbirlər keçirilir. Zərifə xanım Əliyeva mehriban ana, gözəl, sadə insan, eyni zamanda, görkəmli alim kimi xatırlanır...

– Zərifə xanım Əliyevanın timsalında öncə ideal qadın və əsl Azərbaycan xanımı obrazı canlanır. Hesab edirəm ki, Zərifə Əliyevanın bu obrazı, siması, keçdiyi həyat yolu bizim gənc xanımlarımızın həyatının formalaşması baxımından parlaq nümunədir. Buna görə də, onun şəxsiyyəti, həyatı, keçdiyi yol daha geniş təbliğ olunmalıdır ki, bugünkü xanımlarımız nümunə götürsünlər. Həqiqətən də, Zərifə xanım davranışı, həyat tərzi, insanlarla rəftarı, övladlarına verdiyi tərbiyə, həkim kimi xəstələrə münasibəti baxımından insanlığın parlaq siması kimi dəyərləndirilməlidir.

Zərifə Əliyeva Azərbaycan tibb elminin inkişafına böyük töhfələr verən akademiklərimizdən olub. Bu gün onun yetişdirdiyi kadrlar da insanlara sağlamlıq bəxş edir. Bütün bunlarla yanaşı, Zərifə xanım qayğıkeş ana, fədakar və sədaqətli həyat yoldaşı kimi də qadınlar üçün nümunədir. Heydər Əliyev kimi böyük şəxsiyyətin həyat yoldaşı olmaq elə də asan məsələ deyildi. Məsəl var, hər bir güclü kişinin arxasında güclü qadın dayanır. Zərifə xanım da ailədə Ümummilli liderimiz Heydər Əliyevin güclü dayağı olub. Eyni zamanda, onların arasında böyük, saf məhəbbət yaşanıb. Bu barədə Ulu öndərimiz Özünün xatirələrində də danışırdı ki, heç bir çətinlik Zərifə Əliyeva ilə olan məhəbbətinə mane ola bilməyib. Biz Ümummilli liderimiz Heydər Əli-

yevin necə polad iradəli şəxs olduğunu yaxşı bilirik. Amma o, təkcə Zərifə xanımın məzarı önündə kövrəlmişdi. Əlbəttə ki, bu, Zərifə xanımın Heydər Əliyevin həyatındakı rolundan irəli gəlir.

Ümumiyyətlə, Zərifə Əliyevanı və ailəsini şəxsən tanıyan hər bir kəs onun haqqında xoş, müsbət fikirlər bildirirlər. Bununla əlaqədar bəzi xatirələrimi bölüşmək istəyirəm. 1970-ci illərdə Azərbaycanın rabitə naziri olan Hüseyn Rəsulbəyov (H.Rəsulbəyov həm də general idi) atamla dost idi. H.Rəsulbəyovun qızı Zərifə xanımın qardaşı Cəmil Əliyevin həyat yoldaşıdır. Bu qohumluq əlaqələrinə görə onların ailəvi gediş-gəlişi var idi. Mən H.Rəsulbəyovdan da Zərifə Əliyevanın respublikanın birinci şəxsinin həyat yoldaşı olmasına baxmayaraq, necə sadə insan olduğunu eşitmişdim. O danışırdı ki, Zərifə xanım işdən evə gələndə özü mətbəxə keçər, yeməklər bişirər, ailənin süfrəsini şəxsən hazırlayardı. Qeyd edirdi ki, Zərifə xanım çox mədəni, ziyalı, qayğıkeş və sadə insandır. Eyni zamanda, bu cür yüksək alicənablıq Zərifə xanımın qardaşları Tamerlan və Cəmil Əliyevlərdə də var. Çünki bu insanlar yüksək mədəni mühitdə böyüyüb və yaşayıblar.

– Bir ana kimi Zərifə xanım Əliyevada olan xüsusiyyətlər haqqında nə deyərdiniz?

– Zərifə Əliyeva bir ana kimi gözəl insan idi. O, ailədə iki övlad böyüdüb, onlara yüksək tərbiyə verib, Vətənə layiqli övladlar kimi yetişdirib. Bu gün ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev Zərifə xanımın övladıdır, ailədə ondan ana tərbiyəsi alıb.

Eyni zamanda, bu ailənin digər övladı olan Sevil xanımla mən tələbə yoldaşı olmuşam, onunla beş il bir qrupda ali təhsil almışıq. Bu illər ərzində mən Sevil xanımda elə xüsusiyyətlər müşahidə etdim ki, bunların hamısı ailədən, ananın verdiyi tərbiyədən irəli gəlirdi. İlk növbədə, onda dərin millilik var idi. Zərifə Əliyeva qızını da əsl azərbaycanlı xanımı kimi böyütmüşdü. Oxuduğumuz qrupda Sevil xanım özünün milliliyi, sadəliyi, davranışı, milli adət-ənənələrimizə diqqət və hörməti ilə hamıdan fərqlənirdi. Mən başa düşürdüm ki, bunların hamısı ailədən

gələn məsələlərdir. Sevil xanım insanlara, o cümlədən, ətrafına, tələbə yoldaşlarına qarşı diqqətcil və qayğıkeş idi. Məsələn, bir hadisəni danışım. Bizim qrupda bir qız oxuyurdu, uşaq ikən anasını itirmişdi. Təhsil aldığı vaxt isə atası da dünyasını dəyişdi. Ailədə iki bacı idilər, kiçik bacısı hələ orta məktəbdə oxuyurdu. Kimsəsiz qız idi, onlara sahib çıxan qohum-əqrabası da yox idi ki, atasının dəfnini təşkil etsin. Qrup üzvləri yığışaraq köməkləşdik, onun atasının dəfnini və başqa məsələləri həll et- dik. Bu hadisədən bir neçə gün sonra Sevil xanım həmin qıza yaxınlaşaraq nə köməyə ehtiyacı olsa, ona yardım etməyə hazır olduğunu dedi. Əlbəttə ki, bunu hər kəs etməzdi. Amma Sevil xanımın ailədə aldığı tərbiyənin nəticəsi idi ki, ehtiyacı olan insana öz təşəbbüsü ilə kömək etdi. Bir sözlə, Sevil Əliyeva obyektiv, təvazökar və çalışqan insan idi. Bütün bunlar isə ailədə ana və atanın verdiyi tərbiyədən, öyüd-nəsihətdən irəli gəlirdi.

– Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafındakı böyük xidmətləri var. Onun elmi fəaliyyəti cəmiyyətimizə hansı töhfələr verib?

– Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri olduqca böyükdür. Alim, pedaqoq, qayğıkeş, bilikli həkim, həmçinin, gözəl insan olan Zərifə xanım milli səhiyyəmizin inkişafında mükəmməl biliyə və bacarığa malik oftalmoloqların və ümumiyyətlə, tibb işçilərinin hazırlanmasında böyük əmək sərf edib. Onun əziz xatirəsi respublikamızda və Azərbaycanın sərhədlərindən çox-çox uzaqlarda, səhiyyə, elm sahəsində çalışan hər bir insanın qəlbində yaşamaqdadır. Zərifə xanım Əliyevanın çox müsbət aurası var idi. Səhiyyə tariximizdə müstəsna yeri olan Zərifə xanımın oftalmologiya sahəsində geniş elmi axtarışları və tədqiqatları olub. O, tibb elmində, təcrübi səhiyyədə son dərəcə əhəmiyyətli əsərlər yazıb.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının

vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil edib. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilib.

Qeyd etdiyim kimi, Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən, "Terapevtik oftalmotogiya", İridodiaqnostikanın əsasları" kimi elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.Xüsusi vurğulamaq lazımdır ki, Zərifə xanım Əliyeva yüksək ixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Ümumiyyətlə, elm sahəsində göstərdiyi xidmətlərin nəticəsi idi ki, 1981-ci ildə Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görüldü. Eyni zamanda, Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın olub.

Zərifə xanımın elmi tədqiqatları yüksək səviyyədə olmaqla bərabər, onların sosial əhəmiyyəti də olduqca böyük idi. Onun bu sahədə xidmətləri, fəaliyyəti qiymətləndirildi və o Azərbaycan Elmlər Akademiyasının akademiki seçildi. Xüsusi vurğulamaq istəyirəm ki, bu gün də Zərifə xanım Əliyevanın tədqiqatlarından tibb elmində geniş istifadə olunur.

*www.yeniazerbaycan.com*
*26.04.2014, № 072 (4231)*

## ÖTƏN İLLƏR MÜTLƏQ BİR HƏQİQƏTİ DƏ ORTAYA QOYDU: PREZİDENTİMİZİN SİYASİ İRADƏSİ İSTƏNİLƏN TƏZYİQİ VƏ MANEƏNİ DƏF ETMƏYƏ QADİRDİR

Ölkəmiz çox möhtəşəm beynəlxalq tədbir ərəfəsindədir. Heç də asan başa gəlməyən hazırlıq işləri artıq uğurla tamamlanmaqdadır. Prezidentimizin və onun mütəşəkkil komandasının qısa bir zaman kəsiyində hansı böyük işlər gördüyünün hamımız fərqindəyik. Belə bir məqamda sağlam məntiq iş görənə kömək etməyi tələb edir, ətrafında sıx birləşərək, yardım əlimizi uzatmağı tələb edir. Çünki gözlənilən tədbirin - I Avropa oyunlarının uğurla başa çatması hamımız üçün lazımdır, Azərbaycanın qüdrətli və modern bir dövlət kimi imicinin dünya miqyasında yüksəldilməsi, xalqımızın sülhpərvər, sivil, tolerant, multikultural obrazının dünyada tanıdılması üçün zəruridir, yeni tərəfdaş və dost qazanmaq üçün gərəklidir. Çox təəssüf ki, belə bir məqamda sapı özümüzdən olan elə baltalar tapılır ki, beynəlxalq antiazərbaycançı qüvvələrə dəstək verir. Nədir məqsədi bu antiazərbaycançı qüvvələrin? Haradan qaynaqlanır? Kimdir onları bu mənfur əməllərə sövq edənlər? Bu suallara Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda özü ətraflı aydınlıq gətirdi: “Azərbaycanın mövqeyi bir çox məsələlərlə bağlı çox böyük önəm daşıyır. Təkcə enerji siyasəti deyil, ümumiyyətlə, geosiyasi məsələlər, təhlükəsizlik məsələləri, iqtisadi əməkdaşlıq və sabitlik. Çünki baxın, indi dünyanın hər bir yerində qarşıdurma, müharibə, ziddiyyət, böhran, çevrilişlər və digər xoşagəlməz hallar müşahidə edilir. Bir il deyil, iki il deyil, artıq 10 ilə yaxındır ki, hər tərəf yanır. Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır və təbii ki, bu dünya birliyi tərəfindən yüksək qiymətləndirilir.” Belə olan halda, erməni və ermənipərəst qüvvələrin yetişdirdiyi antiazərbaycançı

dairələr fəallaşır. Ölkəmizin inkişafı və artan nüfuzu onları narahat edir.

Odur ki, Azərbaycanın uğurlu inkişafını qəbul etməyən, işimizə kölgə salmaq, ləkələmək istəyən dairələr öz səylərini davam etdirirlər. Ancaq nə Azərbaycanda, nə də ölkəmizdən kənarda onların səyləri heç bir nəticə vermir və verə bilməz. Ötən illər mütləq bir həqiqəti də ortaya qoydu: Prezidentimizin siyasi iradəsi istənilən təzyiqi və maneəni dəf etməyə qadirdir. Onun dediyi kimi, "sabitlik, inkişaf, xalqla iqtidar arasındakı birlik bir daha onu göstərir ki, bizə qarşı aparılan kampaniyalar, yaxud da ki, burada hansısa iğtişaş yaratmaq cəhdlərinin heç bir təsiri yoxdur, ola da bilməz. Azərbaycan inamla inkişaf edir."

Azərbaycan nadir ölkələrdəndir ki, tam müstəqil siyasət yürüdür, heç kimdən və heç bir ölkədən asılı deyil. Bu isə böyük dövlətləri qane etmir və onları qıcıqlandırır. Odur ki, belə ölkələr Azərbaycana təzyiq etmək və onun rəhbərliyini dünya ictimaiyyətinin gözündən salmaq fürsətini əldən vermirlər. Prezidentimizin sözləri ilə desək, "bu səylər davam edəcək. Çünki uğurlarımızı həzm edə bilməyən dairələr, əlbəttə ki, bizdən əl çəkməyəcəklər. Biz isə onlara ən yaxşı cavabı öz işlərimizlə veririk və onların nə sözlərinə, nə məqalələrinə, nə bəyanatlarına heç bir əhəmiyyət vermirik və verməyəcəyik."

Azərbaycana qarşı yönəlmiş kampaniyalar beynəlxalq tədbirlər ərəfəsində xüsusilə eybəcər forma alır. Amma Azərbaycan xalqı kimin kim olduğunu gözəl bilir, öz Prezidenti və onun milli mənafeyə söykənən siyasətinin arxasında möhkəm durur və istənilən təzyiqə və şər-böhtan kampaniyasına cavab verməyə qadirdir.

*www.gün.az 22.04.2015.*

## YAP-IN 25 İLLİK FƏALİYYƏTİ MAHİYYƏTCƏ BİR ƏSRLİK NAİLİYYƏT TARİXİDİR

***Bitərəf deputatlar hakim partiyanı alternativsiz siyasi təşkilat kimi qəbul edirlər***

Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran siyasi qüvvənin – Yeni Azərbaycan Partiyasının yaranmasının 25-ci ildönümüdür. Təkcə Azərbaycanın ictimai-siyasi həyatında deyil, bütövlükdə regionda və dünyada aparıcı nüfuza malik olan partiya təntənəli şəkildə yubileyini qeyd edir.

Bu münasibətlə partiyaya ünvanlanan təbriklərdə Milli Məclisin bitərəf deputatlarının fikirləri də çox maraqlıdır. Parlamentdə heç bir partiyanı təmsil etməyən müstəqil deputatlar hesab edirlər ki, daim yeniləşən, cəmiyyətin problemlərini özünün gündəlik proqramında əks etdirən və onun həlli yollarını axtaran Yeni Azərbaycan Partiyası böyük təşkilatdır.

Gövhər BAXŞƏLİYEVA,
*Akademik, AMEA-nın Şərqşünaslıq*
*İnstitutunun direktoru,*
*Milli Məclisin deputatı*

- Xalqımızın ümummilli lideri Heydər Əliyevin çox mürəkkəb ictimai-siyasi, tarixi və hərbi şəraitdə yaratdığı Yeni Azərbaycan Partiyasının 25 illik yubileyidir. Bu münasibətlə ilk növbədə partiyanın rəhbəri, cənab Prezident İlham Əliyevi və bütün YAP üzvlərini təbrik edirəm. Onlara vətən, millət, xalq naminə gördükləri çoxşaxəli işlərdə tükənməz enerji və uğurlar arzulayıram.

Bu gün Azərbaycan regionun və dünyanın ən sabit, sürətlə inkişaf edən, balanslaşdırılmış daxili və xarici siyasət yeridən ölkəsidir. Ancaq tariximizin bütün anlarını yaddan çıxarmamalı-

yıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi, şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Ona görə ki, zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğramış, atababalarımızın müstəqillik arzuları yadelli işğalçılar tərəfindən qan içində boğulmuşdur. Bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də ciddi təsiri olmuşdur. Daxili çəkişmələr və münaqişələr, regional maraqların milli mənafelərdən üstün tutulması, ən başlıcası, xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir.

1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi toqquşmaların, silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətinə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki illərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi ümummilli lider, böyük siyasi iradəyə və təcrübəyə malik Heydər Əliyev şəxsiyyəti var idi! Xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Bakıya gəlib Ali Sovetin sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş cəhdləri pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində Heydər Əliyevin daxili sabitliyi

təmin etmək, xarici təzyiqlərin qarşısını almaq, beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir.

Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründən əldə olunan nailiyyətlər, iqtisadi uğurlar Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxardı. Məhz cənab İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan inkişaf tempinə görə ən yüksək yeri tutdu. Dünyanı iqtisadi böhran bürüdüyü bir vaxtda həmin təsiri, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi.

YAP iqtidarı 25 ilə yaxındır ki, Azərbaycanı idarə edir. Tarixi baxımdan 25 il çox qısa bir zamandır. Amma bu zaman ərzində Azərbaycanda əsrlərə bərabər işlər görülüb. Müstəqil, hüquqi dövlət qurulub, vətəndaş cəmiyyəti formalaşdırılıb. Ordu quruculuğu işində böyük sürətli işlər həyata keçirilib və bu proses davam etməkdədir. Həyatın hər sahəsində - istər iqtisadi, istər sosial, istərsə də mədəniyyət və digər sahələrdə köklü islahatlar aparılıb. İqtisadiyyatımız dinamik inkişaf edir, böyük sosial-iqtisadi layihələr həyata keçirilir.

Bir sözlə, YAP sədri, Prezident İlham Əliyevin uzaqgörən, praqmatik siyasəti, liderlik qabiliyyəti ilə Azərbaycan tarixinin ən böyük dirçəliş dövrünü yaşayır.

*www.azerbaijan-news.az 14.11. 2017*

## AZƏRBAYCAN NAMİNƏ

Bu gün Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezident təyin olunmasının bir ili tamam olur. Bütün fəaliyyəti boyu ölkənin və xalqın maraqlarını üstün tutan, xeyirxahlığı, mərhəməti, insanlara sevgini həyat normalarına çevirən Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində də Azərbaycana layiqincə xidmət edərək üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəlir. Çoxşaxəli fəaliyyəti ilə həm beynəlxalq miqyasda, həm də ölkə daxilində cəmiyyətin bütün təbəqələrinin rəğbətini qazanan Mehriban xanım Əliyeva ona həvalə olunan bütün işlərə son dərəcə məsuliyyətlə yanaşaraq əsl vətəndaşlıq nümunəsi ortaya qoyub.

Milli Məclisin deputatları da hesab edirlər ki, bu gün ölkəmizi dünyada çox yüksək səviyyədə təbliğ edən Birinci vitse-prezident bundan sonra da öz fəaliyyəti ilə Azərbaycan dövlətinin xarici və daxili siyasətinə layiqli töhfələr verəcək.

## Qədim ənənənin müasir daşıyıcısı

Gövhər BAXŞƏLİYEVA,
*Milli Məclisin deputatı, akademik*

– Azərbaycan qadını tarixən öz mərdliyi, mətanəti, yüksək mənəviyyatı və bacarığı ilə fərqlənmiş, kişilərlə çiyin-çiyinə çalışmış, lazım gələndə onlara arxa durmuş, birgə döyüşə girmiş, istər əmək, diplomatiya, yaradıcılıq, istərsə də hərb meydanlarında misilsiz qəhrəmanlıqlar göstərmişdir. Bu gün biz böyük fəxarətlə Sara xatunu, İnanc xatunu, Taclı xatunu, Məshəti Gəncəvini, Xanqızı Natəvanı, İzzət Orucovanı, Sevil Qazıyevanı, Zərifə xanım Əliyevanı və onlarla görkəmli azərbaycanlı qadınlarını yad edirik, onların əziz xatirələrini minnətdarlıqla anırıq. Belədə

mütləq bir həqiqət ortaya çıxır: el üçün yanan məşəl heç vaxt sönmür, vətən üçün çırpınan ürək daim döyünür. Bu estafet, bu ənənə yeni nəsillərə ötürülür. Mehriban xanım Əliyeva əsrlər öncə yaradılmış və zəmanəmizə qədər yaşadılan o möhtəşəm ənənənin müasir daşıyıcısıdır. Onun çoxşaxəli fəaliyyətində bu ənənə daha da inkişaf etmiş, rövnəqlənmiş, zənginləşmiş və müasir dünyanın inkişaf tempinə uyğun olaraq yüksək dinamika kəsb etmişdir.

Mehriban xanımın ictimai və siyasi fəaliyyətini nəzərdən keçirəndə, bu zərif və nəcib xanımı xarakterizə edən bir çox xüsusiyyətlər üzə çıxır: humanizm, tükənməz enerji, dərin intellekt, yüksək mədəniyyət, əzmkarlıq, soy-kökünə bağlılıq, insanlara, ilk növbədə uşaqlara sevgi və mərhəmət, ədalət, hadisələrə pozitiv yanaşma, ölkədə və dünyada baş verən prosesləri düzgün təhlil etmə qabiliyyəti, təmkin və s. Amma düşünürəm ki, Mehriban xanımın xarakterinin ən ümdə və aparıcı xüsusiyyəti vətənpərvərlikdir, vətənə, torpağa, millətə sonsuz məhəbbətdir. Bu qırmızı xətlə onun bütün fəaliyyətindən keçir. Ulu öndər Heydər Əliyevin: “Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir”, - unudulmaz sözləri Mehriban xanımın da həyat amalına çevrilmişdir.

Mehriban xanım Əliyeva aktiv ictimai fəaliyyətə 1995-ci ildə hal-hazırda rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayıb. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan “Azərbaycan-İrs” jurnalını təsis edib. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və həmin vəzifədə özünü bacarıqlı təşkilatçı kimi göstərib. Bunun nəticəsi olaraq ölkə gimnastları neçə-neçə uğura imza atıblar.

Mehriban Əliyeva Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılmış Heydər Əliyev Fondunun prezidenti kimi də çox uğurlu fəaliyyət göstərmişdir.

2004-cü ilin mayında - Heydər Əliyevin doğum günündə təsis edilmiş fond milli-mənəvi dəyərlərin qorunması və Azər-

baycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı səmərəli işlər aparır, sosial problemlərin həllinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləyir, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət edir, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərir.

Mehriban Əliyevanın Təşkilat Komitəsinə sədrliyi ilə "Bakı-2015" I Avropa Oyunları çox yüksək səviyyədə keçirildi və əsl idman bayramına çevrildi. Eyni sözləri ölkəmizdə İslamiadanın böyük uğurla keçirilməsi haqqında da demək olar.

Yeni Azərbaycan Partiyasının sədr müavini və deputat kimi də Mehriban Əliyevanın fəaliyyəti zəngin olmuşdur. Mehriban Əliyeva Milli Məclisin deputatı kimi ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etmişdir.

Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmişdir. Adətən, hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Mehriban xanımın diqqətindən kənarda isə heç bir sahə qalmır; o, bütün bilik və bacarığını müxtəlif təşəbbüslərin reallaşmasına sərf edir.

Artıq bir ildir ki, Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsində çalışır. Bu vəzifədə də o bütün varlığı ilə millətə fədakar və layiqli xidmət göstərir. Onun çoxşaxəli əzmkar fəaliyyətinin əsasını humanizm, mərhəmət və insanpərvərlik təşkil edir.

Həmişə olduğu kimi, ötən bir ildə Mehriban xanımın yorulmaq bilməyən fəaliyyəti bir məqsədə, bir amala xidmət edib: insanlara kömək etmək, problemləri həll etmək, Azərbaycanın hərtərəfli inkişafına nail olmaq, xalqımızı dünyada möhtəşəm, unikal multikultural mədəniyyətə malik qədim tolerant xalq kimi təbliğ etmək.

Təkcə son ildə Mehriban xanımın iştirak etdiyi tədbirləri nəzərdən keçirsək, onun titanik fəaliyyətinin bir daha şahidi olarıq.

Bu əlamətdar gündə Mehriban xanım Əliyevaya çoxşaxəli, məsuliyyətli və şərəfli işində möhkəm cansağlığı, tükənməz enerji və vətənin çiçəklənməsi naminə yeni-yeni uğurlar arzulayıram.

*www.azerbaijan-news.az 21.02. 2018*

# MİLLƏT VƏKİLİ: BEYNƏLXALQ QURUMLAR AZƏRBAYCAN PREZİDENTİNİN SÖZLƏRİNDƏN NƏTİCƏ ÇIXARMALIDIRLAR

Beynəlxalq qurumlar Azərbaycan Prezidentinin sözlərindən nəticə çıxarmalıdırlar. Bunu AMEA Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, akademik Gövhər Baxşəliyeva deyib.

G.Baxşəliyeva qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik ənənələrimizin möhkəmlənməsi və zənginləşməsi baxımından müstəsna əhəmiyyət daşıyır: "Təsadüfi deyil ki, bugünkü müstəqil Azərbaycan AXC-nin varisi hesab olunur. Azərbaycanın bir sıra dövlət atributları məhz Cümhuriyyət dövründə təsis edilib. Qürurverici haldır ki, 100 il bundan əvvəl nəinki müsəlman aləmində, hətta bütün dünyada demokratik dəyərlərə sadiqlik nümayiş etdirən, o cümlədən qadınlara seçib-seçilmək hüququ verən dövlətlərdən biri məhz Azərbaycan Xalq Cümhuriyyəti olub. Bu kimi amilləri nəzərə alan Prezident İlham Əliyev sentyabrın 21-də Milli Məclisdə Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasdakı nitqində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını tarixi hadisə kimi səciyyələndirib".

Millət vəkili bildirib ki, Azərbaycan parlamentinin yaranmasının 100 illiyinə həsr edilmiş təntənəli iclasın keçirilməsi önəmli hadisədir: "Təbii ki, Azərbaycanın siyasi, iqtisadi, hərbi sahələrdə həyata keçirdiyi islahatlar, əldə etdiyi uğurlar dostları sevindirir, düşməni isə narahat edir. Bu təntənəli iclas Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı keçirilən tədbirlərin davamıdır. Belə tədbirlər Azərbaycan dövlətinin keçdiyi şərəfli tarixin göstəricisidir. Təntənəli və xüsusi iclasda 50-yə yaxın ölkənin və beynəlxalq qurumun rəsmilərinin, deputatlarının iştirakı, səsləndirilən fikirlər Azərbaycanın dünyada böyük nüfuza sahib olduğunu bir daha təsdiqləyir."

O əlavə edib ki, şərq-müsəlman aləminin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyət göstərdiyi qısa müddət ərzində mühüm sənədlər qəbul etdi. Bu sənədlər, qanunvericilik aktları o zaman üçün ən demokratik prinsipləri özündə ehtiva edirdi: "Hazırda da müasir Azərbaycan parlamenti demokratik ənənələri davam etdirir. Ölkəmiz 1991-ci il 18 oktyabrda dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edərək ikinci dəfə müstəqilliyini bərpa etdi. Daha sonra Milli Məclis müstəqilliyimizin möhkəmləndirilməsində, yeni qanunvericiliyin hazırlanması və qəbul edilməsində müstəsna rol oynadı və bu gün də bu missiyanı yerinə yetirməkdədir".

Bu prosesin daha çox Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişindən sonra başladığını deyən akademik bildirib ki, Milli Məclis bu dövrdən etibarən beynəlxalq standartlara, müasir demokratik prinsiplərə uyğun qanunlar qəbul edib: "Bütövlükdə parlament ölkəmizin bütün sahələrini əhatə edən mükəmməl qanunlar qəbul edib ki, bu da dinamik inkişaf prosesində hüquqi baza rolunu oynayır. Eyni zamanda, parlament ölkəmizdəki islahatlar prosesinin, o cümlədən parlament diplomatiyasının uğurla həyata keçirilməsinə də öz töhfələrini verib və verməkdə davam edir. Bunu 100 illik yubiley tədbirində cənab Prezident İlham Əliyev özü də bəyan etdi. Dövlətimizin başçısı qeyd etdi ki, parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır".

Ümumiyyətlə, Milli Məclisin fəaliyyətində beynəlxalq əlaqələrin də mühüm rol oynadığını deyən millət vəkili qeyd edib ki, bu gün ölkə parlamenti geniş beynəlxalq əlaqələrə malikdir: "Milli Məclis ayrı-ayrı dövlətlərin parlamentləri ilə yüksək münasibətlərə malikdir. 80-dən artıq ölkə ilə Milli Məclisin parlamentlərarası dostluq qrupları mövcuddur. Eyni zamanda, parlamentimiz beynəlxalq təşkilatlar - AŞ PA, ATƏT PA, NATO PA, MDB PA, İƏT Pİ və digər qurumlar çərçivəsində uğurla fəaliyyət göstərir. Bütövlükdə bu fəaliyyətlər də Azərbaycanın

beynəlxalq müstəvidə nüfuzunun artmasına özünün əhəmiyyətli töhfələrini verir”.

Deputat yubiley tədbirində ölkə prezidentinin çıxışında Ermənistan- Azərbaycan münaqişəsinə də geniş yer ayrıldığını vurğulayıb: “Dövlət başçısı bir daha Azərbaycanın qətiyyətli mövqeyini ifadə etdi və bildirdi ki, Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Yəni qeyd olundu ki, heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Dövlət başçısı qeyd etdi ki, Ermənistan xülyalarla yaşamamalıdır. “Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır”, - deyən cənab Prezident beynəlxalq hüququn bizim tərəfimizdə olduğunu deyərək qəbul olunmuş sənədləri xatırlatdı. Dövlət başçısının qeyd etdiyi kimi, Ermənistan öz gələcəyini düşünürsə, işğalçılıq siyasətinə son qoymalıdır. Çünki Ermənistanın başqa yolu yoxdur. Bir sözlə, Azərbaycan Prezidenti parlamentin 100 illiyi münasibətilə keçirilən iclasda ciddi mesajlar verdi”.

G.Baxşəliyeva bununla yanaşı, dövlət başçısının çıxışında dünyada mövcud olan və hələ də ölkəmizə qarşı davam etdirilən ikili standartlarla bağlı sərt mövqeyinin ifadə olunduğunu xatırladıb: “İkili standartlar olmasaydı və davam etməsəydi, Ermənistanın təcavüzkarlığına və işğalına çoxdan son qoyulardı. “Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir? Bunun arxasında hansı səbəblər var?” - deyən ölkə Prezidenti qətiyyətli şəkildə bildirdi ki, bu, çox ciddi araşdırılmalıdır. Artıq nəticə çıxarmaq həmin beynəlxalq qurumların özlərinə qalıb. Onlar gərək bundan ciddi nəticə çıxarsınlar və Azərbaycana qarşı mövqelərini dəyişsinlər. Bu, bizdən daha çox, onların xeyrinə olardı”.

*www.moderator.az 25.10.2018*

## GÖVHƏR BAXŞƏLİYEVA: PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİNDƏ VƏTƏNDAŞLARIN RİFAHININ DAHA DA YAXŞILAŞDIRILMASI PRİORİTET İSTİQAMƏTDİR

Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının məbləğinin 130 manatdan 180 manata artırılması barədə sərəncamı ilə həyata keçirdiyi siyasətdə vətəndaşların rifahının yüksəldilməsinin prioritet istiqamət olduğunu bir daha göstərdi.

Bunu millət vəkili, AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva deyib.

G.Baxşəliyeva bildirib ki, dövlətimizin başçısı vətəndaşların sosial rifahının yüksəldilməsini hər zaman diqqətdə saxlayır: "Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə Prezident İlham Əliyev əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq işlər görür. Elə təkcə son günlərdə Azərbaycan Prezidenti əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına hesablanmış bir neçə sərəncam imzalayıb. Pensiyaların artırılması, şəhid ailələrinə müavinətlərin verilməsi, Sosial Tədqiqatlar Mərkəzinin yaradılması, minimum əməkhaqqının artırılması ilə bağlı sərəncamlar bunun bariz nümunəsidir".

Deputat vurğulayıb ki, Prezidentin sərəncamı ilə minimum aylıq əməkhaqqının yaşayış minimumuna çatdırılması Azərbaycan tarixində bir ilkdir:

"Dünyanın bir çox ölkələrində, eləcə də Azərbaycanda həmişə yaşayış minimumu ilə minimum əməkhaqqı arasında fərqlər olub, lakin cənab Prezident ölkəmizdə bu fərqi aradan qaldırdı. Bu fərqin aradan qaldırılması xeyli sayda insanın sosial rifahının yaxşılaşmasına xidmət edəcək. Belə ki, ümumilikdə dövlət və özəl sektor üzrə maaş artımı 600 mindən çox işçini əhatə edəcək. Həmin şəxslər yalnız dövlət büdcəsindən maliyyələşən təşkilatlarda deyil, eləcə də özəl sektorda çalışanlardır".

Akademik qeyd edib ki, bu gün ölkə Prezidenti tərəfindən atılan bu addım gələcək perspektivə hədəflənib: “Minimum əməkhaqqının artırılması işçilərin yalnız bu gün üçün maaş formasında gəlirlərinin çoxalması deyil, onların gələcək sosial təminatlarına da müsbət təsir edəcək. Axı artan əməkhaqlarından sosial sığorta və işsizlikdən sığorta haqları üzrə ödəmələr də çoxalır və belə olan halda işçinin fərdi hesabındakı pensiya daha çox artır”.

G.Baxşəliyevə əlavə edib ki, istər bu, istərsə də digər sərəncam və qərarların hamısı bir məqsəd daşıyır – Azərbaycan vətəndaşının rifahının yüksəldilməsi, Azərbaycanın mövqeyinin daha da gücləndirilməsi.

Qeyd edək ki, minimum əməkhaqqının artımı birbaşa olaraq 600 minədək insanı əhatə edəcək. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əmək haqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əmək haqqında isə 25 faiz artım özünü göstərəcək. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək.

*www.yap.org.az 13.02.2019*

## DEPUTAT: PREZİDENT İLHAM ƏLIYEVİN APARDIĞI STRUKTUR İSLAHATLARI İDARƏETMƏDƏ SƏMƏRƏLİLİYİN VƏ ÇEVİKLİYİN DAHA DA ARTIRILMASINA XİDMƏT EDİR

Prezident İlham Əliyevin apardığı struktur islahatları idarəetmədə səmərəliliyin və çevikliyin daha da artırılmasına xidmət edir. Bunu Trend-ə Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva deyib.

G.Baxşəliyeva bildirib ki, Azərbaycanın dinamik və hərtərəfli inkişafı struktur islahatlarının həyata keçirilməsini zəruri edir: "Bu gün ölkəmiz dinamik və hərtərəfli inkişaf edir və bu baxımdan idarəetmənin müasir tələblərə uyğunlaşdırılması, eyni zamanda, səmərəliliyin və çevikliyin təmin edilməsi məqsədilə mütəmadi olaraq struktur islahatlarının aparılması mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə struktur islahatları əvvəlki illərdə də aparılıb və bu günə qədər həyata keçirilən dərin hüquqi və institusional islahatlar öz bəhrəsini verməkdədir. Hazırkı islahatlar da əldə edilən nailiyyətlərin davamlılığını təmin etmək və müasir dünyanın çağırışlarına cavab vermək məqsədi daşıyır".

Deputat əlavə edib ki, məhz səmərəli dövlət idarəetmə aparatı cənab Prezidentin tapşırıqlarına uyğun olaraq məhdud resurslardan istifadə etməklə maksimum nəticə əldə edə bilər: "Struktur islahatları institusional və tənzimləyici çərçivəni iqtisadiyyatın tarazlı inkişafına xidmətə yönəldir".

G.Baxşəliyeva vurğulayıb ki, struktur islahatları nəticə etibarilə məhsuldarlığın artırılması, ölkəyə daha çox investisiya cəlbi deməkdir: "Əlbəttə ki, struktur islahatları ölkəmizdə biznes mühitinin daha da yaxşılaşmasına, dövlət xidmətlərinin daha əlçatan və keyfiyyətli olmasına xidmət edəcək. Belə olan halda isə Azərbaycan yeni investisiyalar üçün daha cəlbedici olacaq. Bütün bunlar isə nəticə etibarilə iqtisadi inkişafa, yeni iş yerlərinin

açılmasına, insanlarımızın rifah halının yaxşılaşmasına xidmət edəcək".

Qeyd edək ki, yanvarın 14-də Prezident İlham Əliyevin müvafiq fərmanları ilə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti yaradılıb, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi ləğv edilib.

Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi əsasında, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu, habelə Tarif (qiymət) Şurasının Katibliyi isə ləğv edilərək onların fəaliyyəti ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil ediləcək.

Həmçinin Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılır.

*www.trend.az 16.01. 2019*

## DEPUTAT: "PREZİDENT İLHAM ƏLİYEV ŞƏHİD AİLƏLƏRİNƏ ÖZ DOĞMASI KİMİ YANAŞDI"

Azərbaycanda şəhid ailələri daim dövlət başçısının yüksək diqqət və qayğısı ilə əhatə olunub, onların sosial müdafiəsi ildən-ilə yaxşılaşır.

Day.Az xəbər verir ki, bunu Trend-ə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı akademik Gövhər Baxşəliyeva deyib.

Deputat bildirib ki, ötən gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələri ilə görüşü, onlara göstərilən səmimi münasibət şəhid ailələrinə diqqətin və hörmətin bariz nümunəsi idi:

"Görüş zamanı Prezident İlham Əliyev şəhid valideynlərinə yüksək diqqət göstərdi, hər şəhid atasına, anasına öz doğması kimi yanaşdı. Bu, bir daha şəhidlərimizin və onların ailələrinin nə qədər dəyərli və hörmətə layiq olduğunun nümayişi idi".

G.Baxşəliyeva vurğulayıb ki, şəhid ailələrinə diqqət və qayğı daim dövlət başçısının fərman və sərəncamlarında da özünü göstərir:

"Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Ötən dövrdə bu kateqoriyalardan olan vətəndaşlara 6654 mənzil, o cümlədən, 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil verilib. 2019-cu ildə isə həmin vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur".

Deputat əlavə edib ki, Prezidentin mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan 28 yanvar 2019-cu il tarixli fərmanı isə birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsini daha da genişləndirdi:

“Dövlət başçısının növbəti humanist təşəbbüsü ilə əlavə olaraq 2264 şəhid hərbi qulluqçu və 461 şəhid polisimizin vərəsələrinə də birdəfəlik ödəmə veriləcək. Yeni fərmanla birdəfəlik ödəmələr artıq 12 268 şəhidin vərəsələrini əhatə edir və ödəniləcək vəsaitin həcmi 135 milyon manata çatır”.

*www.day.az 29 .01.2019*

# DEPUTAT: PREZİDENT İLHAM ƏLİYEVİN DAVOS FORUMUNDA İŞTİRAKI YENİ ƏMƏKDAŞLIQ İMKANLARININ YARANMASINA, YENİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNƏ XİDMƏT EDIR

Azərbaycan artıq Dünya İqtisadi Forumunun ən etibarlı iştirakçılarından birinə çevrilib və Prezident İlham Əliyevin ənənəvi olaraq forumda iştirakı ölkəmiz üçün önəmli hadisədir.

Bunu Trend-ə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva deyib.

Millət vəkili bildirib ki, dövlət başçısının Davos Forumunda iştirakı ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması ilə yanaşı, yeni əməkdaşlıq imkanlarının yaranmasına, iqtisadiyyatımızın inkişafına, yeni investisiyaların cəlb edilməsinə xidmət edir.

G.Baxşəliyeva qeyd edib ki, Prezident İlham Əliyev hər il forum çərçivəsində həm müxtəlif ölkələrin, həm də iri şirkətlərin rəhbərləri ilə vacib görüşlər keçirir:

"Bu baxımdan builki forum da istisna olmadı. Cənab Prezidentin Davos görüşləri hər il uğurla keçir, iqtisadi əməkdaşlıq məsələləri müzakirə olunur. Budəfəki forum çərçivəsində dövlətimizin başçısı Gürcüstanın baş naziri, Dünya Bankının baş icraçı direktoru, "SAP SE" şirkətinin baş icraçı direktoru, "CISCO" şirkətinin icraçı vitse-prezidenti, BP qrupunun baş icraçı direktoru, "Total" şirkətinin baş icraçı direktoru, "Visa" şirkətinin prezidenti və digər aparıcı şirkətlərin rəhbərləri ilə mühüm görüşlər keçirdi. Əlbəttə, iri şirkət rəhbərləri ilə görüşlər ölkəmiz üçün yeni imkanlar açır, eyni zamanda, həm onların Azərbaycana investisiya qoyması, həm də Azərbaycanın əhəmiyyətli layihələrə qoşulması və digər mühüm məsələlər barədə müzakirələr aparmağa imkan verir".

Deputat əlavə edib ki, hər il forumu işıqlandıran nüfuzlu beynəlxalq informasiya vasitələrinin də Azərbaycana marağı artır, onlar ölkəmiz haqqında daha geniş məlumat almağa çalışırlar.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 21-dən İsveçrəyə işgüzar səfəri çərçivəsində Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende, "Visa" şirkətinin prezidenti Rayan Maklnerni, BP qrupunun baş icraçı direktoru Robert Dadli, "CISCO" şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott, "SAP SE" şirkətinin baş icraçı direktoru Bill Makdermot, Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva, Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov, Fransanın "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyanne və digər nüfuzlu şirkətlərin rəhbər heyəti ilə görüşlər keçirib.

Azərbaycan Prezidenti Rusiyanın "Rossiya 1" və Çinin "CGTN" televiziya kanallarına müsahibə də verib.

Yanvarın 22-də isə dövlət başçısı Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada iştirak edib.

*www.trend.az 23.01. 2019*

## MİLLƏT VƏKİLİ: ƏFV SƏRƏNCAMI AZƏRBAYCAN PREZİDENTİNİN MƏRHƏMƏT VƏ HUMANİZM PRİNSİPLƏRİNƏ SÖYKƏNƏN SİYASƏTİNİN, İSLAHATLARIN TƏRKİB HİSSƏSİDİR

Prezident İlham Əliyev cəmiyyət tərəfindən səbirsizliklə gözlənilən əfv sərəncamını imzalamaqla yüzlərlə ailəyə, minlərlə insana hədsiz sevinc bağışladı. Bunu Trend-ə açıqlamasında millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva deyib.

G.Baxşəliyeva bildirib ki, həyatın keşməkeşli yollarında nə vaxtsa büdrəmiş, aldanmış, səhv etmiş, qanunu pozmuş, cinayət törətmiş şəxslər ali mərhəmət və humanizm prinsipləri rəhbər tutularaq əfv edildilər: "Qədim yunan filosofu Sokrat "İnsanlıq nədir" sualına "Əfv etməyi bacarmaqdır" cavabını verib. Bu mənada Prezident İlham Əliyevin əziz bayramımız Novruz öncəsi atdığı addım xalqımızın əsrlərlə formalaşmış mədəni ənənələrinə söykənən mənəvi böyüklüyün bariz nümunəsidir, yüksək humanizm aktıdır. Bunu təqdir etmək, yüksək dəyərləndirmək siyasi mənsubiyyətindən və sosial statusundan asılı olmayaraq hər bir vətəndaşın borcudur. Çox istərdim ki, məhz bu əfv sərəncamı cəmiyyətimizdə sülh, birlik, həmrəylik və barış ab-havasını gücləndirsin, hər hansı narazılıqlar, qarşıdurmalar, qərəz, şər, böhtan geridə qalsın, xalqımızın bütün kəsimi siyasi baxışlarından asılı olmayaraq vahid ideya - azərbaycançılıq ətrafinda sıx birləşsin".

Millət vəkili vurğulayıb ki, milli mənafelər və dövlətçilik maraqları hər şeydən üstün tutulmalıdır: "Bu, çağdaş Azərbaycanımız ucun həyati əhəmiyyət daşıyan məsələdir. Milli birlik və ictimai-siyasi sabitlik hər vəchlə qorunmalıdır. Yol vermək olmaz ki, hər hansı narazılıqlar və ya şəxsi ambisiyalar cəmiyyətimizi parçalasın, bundan da xalqımızı və ölkəmizi gözü götürməyən qüvvələr istifadə etsin, hər hansı məsələdə bizə təz-

yiq etsin, mövqeyimizi beynəlxalq aləmdə zəiflətsin. Vahid xalq olaraq hamımızın qarşısında olduqca ağır problem dayanır - ərazi bütövlüyümüzün bərpası, müstəqilliyimizin qorunub yaşadılması, ölkəmizin hərtərəfli inkişafi. Fərd olaraq bir-birimizə düşmən kəsilmək, sosial şəbəkələrdə olmazın təhqir və böhtan yağdırmaq, beynəlxalq təşkilatlara donoslar yazmaq nəyə və kimə lazımdır?"

Akademik əlavə edib ki, bu qarşıdurma yalnız düşmən dəyirmanına su tökür, bizi bir xalq və ölkə olaraq zəifədir:

"Hesab edirəm ki, bu gün tarixi şəraitin özü, xalqımızın üzləşdiyi ciddi sınaqlar "nə etməli?" sualının cavabını bizə diqtə edir. Bu cavab isə Azərbaycanın müstəqilliyini möhkəmlətməkdən, işğal olunmuş torpaqlarımızı geri qaytarmaqdan, sosial-iqtisadi inkişafı surətləndirərək Azərbaycanı sivil dünyanın ayrılmaz hissəsinə çevirməkdən ibarətdir. Əgər biz ümummilli mənafeni ən ümdə vəzifəmiz hesab ediriksə, siyasi ehtirasların cəmiyyəti parçalamasına imkan verməməliyik. Odur ki, vahid xalq olaraq Prezident İlham Əliyevin ətrafinda sıx birləşərək irəliyə doğru getməliyik".

G.Baxşəliyeva qeyd edib ki, dövlətimizin başçısı bu əfv sərəncamı ilə hər bir vətəndaşımızın prezidenti olduğunu, ölkəmizin insan hüquq və azadlıqları prinsiplərinə sadiqliyini və bu sahədə işlərin müxtəlif islahatlar vasitəsilə daim təkmilləşdiyini bir daha sübut etdi: "Əlbəttə, bu, ölkə başçımız cənab İlham Əliyevin mərhəmət və humanizm prinsiplərinə söykənən siyasətinin, aparılan islahatların tərkib hissəsidir. Bildiyiniz kimi, demək olar, hər Novruz bayramı ərəfəsində cənab İlham Əliyev tərəfindən bu addım atılır. Siyasi baxışından, əqidəsindən, dünyagörüşündən asılı olmayaraq, törətdiyi cinayət əməli və ya hüquqpozma əməlindən peşman olmuş, səhvini etiraf etmiş və ya səhhəti, ailə vəziyyəti ilə əlaqədar olaraq, bir qrup insan cənab prezidentimizin humanizm və mərhəmətindən irəli gələn əfv sərəncamı ilə cəza çəkməkdən azad olunur. Azad olunanlar buna görə Prezident İlham Əliyevə, eyni zamanda, bu işdə yüksək sə-

viyyədə səylərini, zəhmətini əsirgəməyən Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıq bildirirlər".

Deputat bildirib ki, bu gün dünyada ölkəmizi istəməyən və onların dəyirmanına su tökən öz içimizdən olan bəzi qüvvələr bütün bu kimi addımlara kölgə salmaq istəyirlər: "Lakin ölkəmiz, dövlətçiliyimizi qorumaq naminə xalqımız həmişə dövlətinin və prezidentinin yanında olduğunu sübut edib".

Qeyd edək ki, martın 16-da Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzalayıb.

Əfv sərəncamı ümumilikdə 431 nəfərə şamil olunub. Onlardan azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 399 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Əfv sərəncamı, o cümlədən, 14 xarici vətəndaşa şamil olunub.

*www.trend.az 19.03.2019*

# DEPUTAT: PREZİDENT "VALDAY"DA BEYNƏLXALQ İCTİMAİYYƏT QARŞISINDA ERMƏNİ YALANINI İFŞA ETDİ

Prezident İlham Əliyevin oktyabrın 3-də Rusiyanın Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Dağlıq Qarabağla bağlı çıxışı həm Ermənistana, həm də onun havadarlarına çox ciddi bir mesaj idi.

Bunu Trend-ə açıqlamasında millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva deyib.

G.Baxşəliyeva bildirib ki, Prezident bu çıxışında Dağlıq Qarabağla bağlı qəti mövqeyini, Azərbaycanın bir qarış belə torpağını güzəştə getməyəcəyini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı:

"Cənab Prezident beynəlxalq ictimaiyyət qarşısında erməni yalanını ifşa etdi və Ermənistan baş nazirinin sərsəm bəyanatlarına çox tutarlı cavab verdi, onun yalanını üzə çıxardı. Prezident İlham Əliyev öz çıxışında Ermənistan baş nazirinin bir sıra populist, avanturist bəyanatlarına diqqəti cəlb etdi və vurğuladı ki, Paşinyanın Dağlıq Qarabağla bağlı mövqeyi tamamilə yalandır. Dağlıq Qarabağ heç bir zaman Ermənistanın tərkibində olmayıb, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bizim qədim və hüquqi ərazimizdir. Cənab Prezident "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" sözlərini deməklə bir daha qətiyyətli və sərt mövqeyini ortaya qoydu".

*www.trend.az 5.10.2019*

## ПРОВОДИМЫЕ ПРЕЗИДЕНТОМ ИЛЬХАМОМ АЛИЕВЫМ СТРУКТУРНЫЕ РЕФОРМЫ СЛУЖАТ РОСТУ ЭФФЕКТИВНОСТИ И ГИБКОСТИ УПРАВЛЕНИЯ

Структурные реформы, проводимые Президентом Азербайджана Ильхамом Алиевым, служат еще большему росту эффективности и гибкости управления.

Об этом в среду сказала Trend депутат Милли Меджлиса (парламента), директор Института Востоковедения Национальной Академии Наук Азербайджана академик Говхар Бахшалиева, передает Day.Az.

По ее словам, динамичное и всестороннее развитие Азербайджана требует проведения структурных реформ.

"Сегодня наша страна динамично и всесторонне развивается, и в связи с этим имеет важное значение проведение структурных реформ в целях адаптации управления современным требованиям, а также обеспечения эффективности и мобильности. Структурные реформы в стране проводились и в прежние годы, и проведенные до этого времени глубокие правовые и институциональные реформы приносят свои плоды", - отметила Бахшалиева.

Депутат добавила, что именно эффективный аппарат государственного управления, в соответствие с поручениями Президента Азербайджана, сможет достичь максимального результата при использовании ограниченных ресурсов.

Бахшалиева отметила, что структурные реформы означают повышение производительности, привлечение в страну еще больших инвестиций.

"Конечно, структурные реформы послужат еще большему улучшению бизнес-среды в нашей стране, оказанию более доступных и качественных государственных услуг. В таком случае Азербайджан станет более привлекательным для новых инвестиций. Все это в итоге послужит экономи-

ческому развитию, открытию новых рабочих мест, улучшению благосостояния людей", - отметила академик.

Напомним, что Президент Азербайджана Ильхам Алиев в понедельник подписал указ о дополнительных мерах по совершенствованию государственного управления.

Согласно указу, деятельность Фонда развития науки при Президенте Азербайджана и Бакинского международного центра мультикультурализма будет реорганизована на основе принципа самофинансирования.

В соответствии с указом, ликвидируются Государственное агентство по альтернативным и возобновляемым источникам энергии, Фонд знаний при Президенте Азербайджана и Центр стратегических исследований при Президенте Азербайджана.

Также с целью реорганизации их деятельности на общественных началах ликвидируются Секретариат межведомственной комиссии по охране государственной тайны при Президенте Азербайджана, Рабочая группа Государственной комиссии Азербайджана по борьбе с наркоманией и незаконным оборотом наркотических средств, Рабочая группа Государственной комиссии по делам военнопленных, заложников и без вести пропавших граждан Азербайджана, Секретариат Тарифного совета Азербайджана.

*www.news.day.az 16.01. 2019*

## УЛУЧШЕНИЕ БЛАГОСОСТОЯНИЯ ГРАЖДАН – ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ ПОЛИТИКИ ПРЕЗИДЕНТА ИЛЬХАМА АЛИЕВА – ДЕПУТАТ

Распоряжением об увеличении минимальной ежемесячной зарплаты со 130 до 180 манатов Президент Ильхам Алиев вновь продемонстрировал, что улучшение благосостояния народа является приоритетным направлением проводимой им политики.

Об этом Trend заявила депутат, директор Института Востоковедения имени З.Буньятова НАНА, академик Говхар Бахшалиева, передает Day.Az.

Бахшалиева сказала, что глава государства всегда держит в центре внимания вопрос улучшения благосостояния граждан страны.

“С развитием экономики Азербайджана Президент Ильхам Алиев предпринимает соответствующие шаги для еще большего улучшения социального положения населения. Только за последние дни Президент Азербайджана подписал несколько распоряжений, рассчитанных на дальнейшее улучшение социального положения населения. Повышение пенсий, выдача пособий семьям шехидов, учреждение Центра социальных исследований, увеличение минимальной зарплаты являются наглядным примером этому”, - отметила депутат.

Депутат подчеркнула, что доведение распоряжением Президента минимальной ежемесячной зарплаты до уровня прожиточного минимума происходит впервые. “Во многих странах мира, в том числе в Азербайджане, всегда существовала разница между минимальной зарплатой и прожиточным минимумом. Устранение этой разницы послужит улучшению социального благосостояния большого числа граждан. Так, в целом, повышение зарплат затронет более 600

тысяч работников государственного и частного секторов", - сказала Бахшалиева.

Академик отметила, что этот шаг Президента страны направлен и на улучшение соцобеспечения в будущем. "Увеличение минимальной зарплаты повлияет не только на прирост доходов населения в виде зарплаты сегодня, но также позитивно скажется на их социальном обеспечении в будущем. Ведь с повышением зарплат повышаются и выплаты по страхованию и страхованию от безработицы. В таком случае увеличится пенсионный капитал и на личном счете работника", - подчеркнула академик.

Бахшалиева добавила, что это и другие распоряжения и решения преследуют одну цель - улучшение благосостояния граждан Азербайджана, укрепление позиций страны.

Отметим, что Президент Азербайджана Ильхам Алиев восьмого февраля подписал распоряжение об увеличении минимальной ежемесячной заработной платы и внесении изменений в распоряжение "Об увеличении минимальной заработной платы" от 25 декабря 2017 года.

Согласно распоряжению, с первого марта 2019 года размер минимальной ежемесячной заработной платы будет составлять 180 манатов.

Для повышения минимальной зарплаты из госбюджета в год будут выделяться 400 миллионов манатов, за десять месяцев 2019 года (март-декабрь) будут выделены 335 миллионов манатов.

*www.news.day.az 13.02.2019*

# FOTOLAR


















AZƏRBAYCAN
RESPUBLİKASININ
PREZİDENTİNDƏN




















HEYDAR
ALIYEV
TURCIA


HEYDƏR
ƏLİRZA OĞLU
ƏLİYEV


Heydər Əliyev
100




ƏLİYEVA
ZƏRİFƏ
1923-1985





## MÜNDƏRİCAT


Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 3
Müəllifdən ....... 7

**HEYDƏR ƏLİYEVİN İŞTİRAK ETDİYİ İCLASLARDA ÇIXIŞLAR** ....... 11
"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə yekun iclasında Gövhər Baxşəliyevanın çıxışı ....... 12
Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında Gövhər Baxşəliyevanın çıxışı ....... 14

**MƏQALƏLƏR** ....... 17
Heydər Əliyev Azərbaycan Respublikasi Ali Sovetinin sədri kimi ....... 18
İslam ölkələrini Azərbaycanin strateji tərəfdaşına çevirən lider ....... 40
Azərbaycan Respublikasinin Şərq ölkələri ilə münasibətləri müasir mərhələdə ....... 53
Heydər Əliyev və Azərbaycan elmi ....... 82
Azərbaycanda elmi tərəqqinin əsas təminatçisi Prezident İlham Əliyevdir ....... 88
Azərbaycan zirvəsi ....... 99
Heydər Əliyev və İslam Əməkdaşlıq Təşkilatı ....... 113

Dövlət qadın siyasəti İlham Əliyev tərəfindən
uğurla davam etdirilir ........................................................ 122
Milli mənafeni təmin edən, xalqın cari və strateji
maraqlarına xidmət edən siyasi xətt dönmədən
davam etdirilməlidir ........................................................ 131
“Bir millət, iki dövlət” prizmasından
Azərbaycan-Türkiyə münasibətləri ................................... 139
“Prezidentimizin siyasi iradəsi istənilən təzyiqi
dəf etməyə qadirdir ........................................................ 151
Müstəqil Azərbaycanın Şərq siyasəti ................................ 154
Birlik və inkişaf naminə sülhməramlı missiya .................... 162
Azərbaycan - Şərqin parlayan ulduzu ................................ 171
Tarixin ən qüdrətli Azərbaycanı ........................................ 184
Fövqəladə missiya, yaxud tarixin ən böyük
azərbaycanlısı ................................................................ 193
Zəmanəmizin dahi azərbaycanlısı ...................................... 201
Azərbaycan Respublikasının Şərq siyasəti .......................... 209
Почему я буду голосовать за Ильхама Алиева ................ 238
Создатель независимого государства .............................. 243

**MÜSAHİBƏLƏR** ........................................................... 247
Milləti şəxsiyyətinə görə sayırlar ........................................ 248
Vətənin taleyi heç kimin siyasi ambisiyasının qurbanına
çevrilməməlidir ................................................................ 253
Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu
kimi daxil olub ................................................................. 260
Güclü iqtidar – qüdrətli Azərbaycan deməkdir .................... 267
Azərbaycan Prezidentinin elmə, təhsilə qayğısı bu
sahənin adamlarında ruh yüksəkliyi yaradıb ....................... 276
Azərbaycan dövlətinin əsas məqsədi vətəndaşların
təhlükəsizliyinə təminat vermək və
rifah halını yüksəltməkdir ................................................. 281

Ulu Öndər Heydər Əliyev müstəqilliyimiz üçün
təhlükə törədən amilləri aradan qaldıraraq onu dönməz
və əbədi etmişdir ........ 288
Hamımız bir gəminin sərnişinləriyik ........ 297
“Azərbaycan modeli” Şərq ölkələrində təbliğ olunmalıdır.... 310
Gövhər Baxşəliyeva: “Vahid milli ideya ətrafinda
sıx birləşməliyik ........ 316
Zərifə xanım Əliyevanın timsalında ideal qadın və
əsl Azərbaycan xanımı obrazı canlanır ........ 317
Ötən illər mütləq bir həqiqəti də ortaya qoydu:
Prezidentimizin siyasi iradəsi istənilən təzyiqi və
maneəni dəf etməyə qadirdir ........ 321
YAP-ın 25 illik fəaliyyəti mahiyyətcə bir əsrlik
nailiyyət tarixidir ........ 323
Azərbaycan naminə ........ 326
Millət vəkili: Beynəlxalq qurumlar Azərbaycan
Prezidentinin sözlərindən nəticə çıxarmalıdırlar ........ 330
Gövhər Baxşəliyeva: Prezident İlham Əliyevin siyasətində
vətəndaşların rifahının daha da yaxşılaşdırılması
prioritet istiqamətdir ........ 333
Deputat: Prezident İlham Əliyevin apardığı struktur
islahatları idarəetmədə səmərəliliyin və çevikliyin
daha da artırılmasına xidmət edir ........ 325
Deputat: “Prezident İlham Əliyev şəhid ailələrinə öz
doğması kimi yanaşdı” ........ 337
Deputat: Prezident İlham Əliyevin Davos Forumunda
iştirakı yeni əməkdaşlıq imkanlarının yaranmasına,
yeni investisiyaların cəlb edilməsinə xidmət edir ........ 339
Millət vəkili: Əfv sərəncamı Azərbaycan Prezidentinin
mərhəmət və humanizm prinsiplərinə söykənən siyasətinin,
islahatların tərkib hissəsidir ........ 341
Deputat: Prezident “Valday”da beynəlxalq ictimaiyyət

qarşısında erməni yalanını ifşa etdi ........................................344
Проводимые президентом Ильхамом Алиевым
структурные реформы служат росту эффективности
и гибкости управления ........................................................345
Улучшение благосостояния граждан - приоритетное
направление политики президента
Ильхама Алиева – депутат..................................................347
**FOTOLAR**...............................................................................349

GÖVHƏR BAXŞƏLİYEVA

# UNUDULMAZ LİDER

Kompüter tərtibçisi: *Səbinə İmanova*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^{1}/_{16}$
Həcmi 23 ç.v.
Sifariş: 4
Tirajı:200
Qiyməti müqavilə
əsasında

Kitab Red N Line MMC
tərəfindən hazır diapozitivlərdən
istifadə olunmaqla çap edilmişdir.